İRADƏ ƏLİYEVA

# AZƏRBAYCANDA EKOLOGİYA SAHƏSININ TƏLƏBATÇILARININ BİBLİOQRAFİK TƏMİNATI: MÜASİR VƏZİYYƏTİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

Monoqrafiya

*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi şurasının 24 fevral 2016-cı il 1 № -li iclasının qərarı ilə çap olunur*

BAKI
2016

İnv. № - 26822 -
PREZİDENT KİTABXANASI

Ə 65
KBT 78.5
20.1

*Elmi məsləhətçi:* *Aybəniz İbrahim qızı Əliyeva-Kəngərli*
*filologiya elmləri doktoru*

*Elmi redaktor:* *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Nadir İslam oğlu İsmayılov*

*Rəyçilər :* *Xuraman Telman qızı Ağayeva*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Knyaz İlyas oğlu Aslan*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Əliyeva İ.Z. Azərbaycanda ekologiya sahəsinin tələbatçılarının biblioqrafik təminatı: müasir vəziyyəti və təkmilləşdirilməsi yolları: monoqrafiya. - Bakı, 2016.-322 s.**

Bu elmi monoqrafiyada Azərbaycanda ik dəfə olaraq ekologiya elmi və ətraf mühitin mühafizəsi üzrə informasiya tələbatının formalaşması və xüsisiyyətlərindən, bu sahə üzrə sənəd kütləsinin və axının yaranmasından və tərkibindən, bu sahə üzrə Azərbaycan kitabxanalarının biblioqrafik fəaliyyətindən, yaratdıqları ənənəvi və elektron biblioqrafik vasitələr sistemindən, bu sahədə biblioqrafik xidmətdən, bəhs edilən istiqamətdə mövcud nöqsanlardan və onların aradan qaldırılması yollarından bəhs edilir. Kitabda bəhs edilən məsələlərə dair çox mikqdarda rəqəm materiallarından, hesabatlardan və digər faktoloji materiallardan istifadə eedilmiş, onların ətraflı təhlili verilmişdir. Kitab ətraf mühitin mühafizəsi sahəsində çalışan, ekoloji mövzuda tədqiqat aparan mütəxəssislər, kitabxanaçılar, biblioqtaflar, əlaqədar ixtisaslar üzrə təhsil alan tələblər və ümumiyyətlə kitabın həsr edildiyi problemlərlə maraqlanan bütün oxucular üçün nəzərdə tutlmuşdur.

**©Əliyeva İ.Z., 2016.**



AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR
İNSTİTUTU ELMİ ŞURASININ 24 FEVRAL 2016-CI
İL TARİXLİ 1 №-Lİ İCLASININ PROTOKOLUNDAN

ÇIXARIŞ

İŞTİRAK ETDİLƏR: Elmi şuranın 21 üzvü

MÜZAKİRƏ EDİLDİ: AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun dissertantı Əliyeva İradə Zülfəli qızının "Azərbaycanda ekologiya sahəsinin tələbatçılarının biblioqrafik təminatı: müasir vəziyyəti və təkmilləşdirilməsi yolları" mövzusunda monoqrafiyasının nəşrə təqdim olunması

QƏRARA ALINDI: 1. Elmi məsləhətçi fil.ü.e.d. Aybəniz Əliyeva-Kəngərlinin, elmi redaktor ped.ü.f.d. dos. Nadir İsmayılovun, rəyçilər ped.ü.f.d., dos. Xuraman Ağayeva, ped.ü.f.d., dos. Knyaz İlyas oğlunun rəylərini nəzərə alıb Əliyeva İradə Zülfəli qızının "Azərbaycanda ekologiya sahəsinin tələbatçılarının biblioqrafik təminatı müasir vəziyyəti və təkmilləşdirilməsi yolları" monoqrafiyası çapa tövsiyə olunsun

SƏDR: İ.KƏRİMLİ

ELMİ KATİB: Ə.NƏCƏFOV

## MÜNDƏRİCAT

**Giriş..........................................................................4**
**I Fəsil. Ətraf mühitin mühafizəsi və ekologiya elmi üzrə informasiya tələbatının formalaşması...........................11**
1.1. Ətraf mühitin mühafizəsi və ekologiya elminin inkişafı sənəd-informasiya tələbatının formalaşmasına təsir edən əsas amili kimi.......................................................................... 11
1.2 . Ətraf mühitin mühafizəsi və ekologiya üzrə informasiya tələbatının xüsusiyyətləri.......................................................... 41

**II Fəsil. Ekologiya elmi üzrə sənəd kütləsi və axınının vəziyyəti........................................................................... 99**
2.1. Sahə üzrə sənəd kütləsinin xüsusiyyətləri. ........................99
2.2. Sahə üzrə sənəd axının yaranması və inkişaf xüsusiyyətləri ..........................................................................................165

**III Fəsil. Ətraf mühitin mühafizəsi və ekologiya elmi və üzrə biblioqrafik informasiya təminatı sisteminin vəziyyəti və inkişaf perspektivləri...........................................................200**
3.1.Ekologiya və ətraf mühitin mühafizəsi üzrə ənənəvi biblioqrafik informasiya
.təminatı ..........................................................................200
3.2. Azərbaycan kitabxanalarında sahə üzrə     üzrə elektron biblioqrafik informasiya təminatının vəziyyəti.248
3.3. Azərbaycanda ekologiya və ətraf mühitin mühafizəsi üzrə ilkin sənəd və biblioqrafik informasiya təminatının inkişaf perspektivləri. .......................................................................274
**Nəticə...........................................................................283**
**İstifadə edilmiş ədəbiyyatın biblioqrafik siyahısı .............295**

## GİRİŞ

İnsan cəmiyyətinin meydana gəlib inkişaf etməsinin ilk dövrlərindən başlayaraq insanın ətraf təbiətə olan təsiri aramsız olaraq artmışdır və bu proses son zamanlar daha da artan sürətlə davam etməkdədir. Dünyada yaşayan insanların miqdarının yüz minlərlə ölçüldüyü dövrlərdə şüurlu insanın ətraf mühitə göstərdiyi təsir çox cüzi idi və təbiətdə əsaslı dəyişiklərə səbəb olmurdu. Lakin insan populyasıyanın sayının milyonlara çatması ilə insanın təbiətə göstərdiyi təsir çox geniş miqyas aldı, təbiətdə destruktiv geriyədönməz dəyişikliklərə səbəb oldu. Məsələn, alimlərin fərziyyəsinə görə, bir zamanlar Afrikanın şimalinda meşə və çəmənliklər çox geniş yayılmışdı, zəngin heyvan və bitkilər aləminə malik idi. Lakin burada insan populyasıyası artdıqca, əkin sahələri üçün bitki örtüyü məhv edildi, kövrək təbii tarazlıq pozuldu. Nəticədə səhralaşma prosesi vüsət aldı, burada yaşayan heyvanların nəsli kəsildi. Qədim Misir dövləti yaranan zaman artıq Şimali Afrikanın əksər hissəsini ucsuz-bucaqsız və bəhrəsiz, insanın və digər canlıların yaşaması üçün əlverişsiz Böyük Səhra əhatə edirdi. Buna bənzər proseslər dünyanın digər coğrafi ərazilərində də baş verdi. Alimlərin fərziyyəsinə görə, son Buzlaşma dövrünün axırına qədər Avrasiyanın şimalında geniş yayılmış mamontların, qütb kərgədanlarının, bir sıra maral növlərinin və digər heyvanların nəslinin kəsilməsi ibtidai insanların onları həddən artıq ovlaması nəticəsində baş vermişdir.

Azərbaycanın canlı aləminə gəldikdə isə burada cəmi min-min beş yüz il əvvəl, demək olar ki, hər yerdə dağ yamacları sıx meşələr ilə örtülmüşdü, Kür, Araz və digər



çaylarının ətrafında geniş zolaq şəklində tuğay meşələri, geniş çəmənliklər yayılmışdı. Xəzər dənizində, çaylarda, göllərdə zəngin balıq ehtiyatları, quş sürüləri var idi. Lakin tədricən əhalinin sayının artması, heyvan, quş və balıq populyasiyalarının həcminin dəfələrlə azalmasına, təbiətə olan təsirin güclənməsi nəticəsində meşələrin qırılması və sahəsinin dəfələrlə azalmasına, zəngin bitki örtüyündən məhrum olmuş, eroziyaya uğramış ərazilərin və səhraların yaranmasına, bir çox növlərin sayının azalmasını və ya nəslinin kəsilməsinə səbəb oldu. Məsələn, vaxtı ilə Azərbaycan ərazisində geniş yayılmış şirin (Şirvan əyalətinin adı qədim dövrlərdə burada həmin heyvan növünün geniş yayılmasına əyani bir sübutdur) son nümayəndəsi 1937-ci ildə Talış meşələrində öldürülmüşdür. Vaxtı ilə ölkəmizin çaykənarı tuğay meşələrində, qamışlıqlarda geniş yayılmış Turan pələnglərinin də aqibəti oxşar oldu. XX əsrin 70-ci illərinə qədər nadir də olsa rast gəlinən bu heyvana artıq rast gəlinmir. Təəssüf ki, ölkəmizin ərazisində nəsli kəsilmiş belə heyvan, quş və bitki növlərinin siyahısı xeyli uzundur. Bir çox növlər isə nəsli kəsilmək ərəfəsindədir. Azərbaycanın canlı aləminə dəyən ziyan, bir çox növlərin nəslinin kəsilməsi, digərlərinin belə təhlükə qarşısında olması respublikanın "Qırmızı kitabı"nın 1989 və 2013-cü il nəşrlərində öz əksini tapmışdır [14.543 s].

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin respublikaya rəhbərliyinin həm sovet dövründə, həm də müstəqillik illərində ölkəmizdə ətraf mühitin mühafizəsi məsələsinə, ekoloji problemlərə böyük diqqət yetirilirdi. Bu diqqət Azərbaycan dünya siyasi-iqtisadi sisteminə inteqrasiya olmasından sonra daha da artmışdır. Məhz onun rəhbərliyi ilə müstəqil Azərbaycanda ətraf mühitin mühafizəsi üzrə dövlət

idarəetmə sisteminin əsas prinsipləri formalaşmışdır. O öz fəaliyyətində, nitq və çıxışlarında bu məsələyə xüsusi əhəmiyyət verirdi. Məsələn, Heydər Əliyev birinci dəfə 2000-ci ilin fevralın 29-da, ikinci dəfə isə 2001-ci il mayın 28-də Azərbaycana səfər edən Avropa Parlamentinin nümayəndə heyətinin üzvlərini qəbul edərək onlarla digər məsələlərlə yanaşı ekoloji problemləri də müzakirə etmişdir. İkinci görüşü zamanı o, fransalı deputat Mari-Ann Esler Bequinin Cənubi Qafqaz regionunun ekologiyası, ətraf mühitin çirklənməsi ilə əlaqədar birgə proqramlar barədə sualına cavab olaraq Azərbaycanının Kür və Araz kimi əsas transsərhəd sahələrinin, Xəzər dənizinin ekoloji çirklənməsi probleminin həll edilməsinin zəruriyyətini qeyd etmişdir [136,s.79].

Ümummilli lideri Heydər Əliyevin Azərbaycanın ətraf mühitinin mühafizəsi məsələsinə, ekoloji problemlərə olan diqqət və qayğısını layiqli sələfi Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir. Onun hakimiyyəti illərində ölkəmizdə ətraf mühitinin mühafizəsi məsələsinə, ekoloji problemlərə olan diqqət daha da yüksəlmiş , bir çox layihələr uğurla həyata keçirilmiş, tərkibində ətraf təbii mühitin mühafizəsi sahəsində proqram əhəmiyyətli bir sıra sənədlər qəbul edilmişdir. Bunlar "Azərbaycan Respublikasinda ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair milli proqram" [2,s.2-4] sırf ətraf mühit məsələrinə həsr edilmiş "Azərbaycan Respublikasinda meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram" [10,s.4] və "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair milli strategiya və fəaliyyət planı" kimi sənədlərdir [8,s.2-4].

Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi və ekologiya problemləri dövlət siyasətinin əsas



istiqamətlərindən biridir. Bu sahədə dövlət və qeyri hökumət təşkilatları geniş fəaliyyət göstərir, ekologiya üzrə yüksək ixtisaslı kadr hazrlıpı sistemi yaranmış, ekologiya elmi-tədqiqat mərkəzləri formalaşmışdır. Bu da sahə üzrə sənəd formasında informasiya və onun vacib şərti olan biblioqrafik təminat sistemini yaratmaq zərurətini meydana çıxarmışdır. Bu zərurət ətraf mühitin qorunması probleme ictimai diqqətin yaranması, bu mövzuya həsr edilmiş ilk əsərlərin yazılması və onların mütaliəsi prosesinin başlaması, yəni bu istiqamətdə sənəd-kommunikasiya siteminin meydana çıxması isə formalaşmışdır. Ötən dövr ərzində Azərbaycanda ətraf mühitin mühafizəsi və ekologiya üzrə ilkin sənəd kütləsi və axını yaranmış və dinamik şəkildə sürətlə inkişaf etməkdədir. Sənəd kütləsi və axınına elektron resursların da daxil edilməsi bir tərəfdən onun həcminin artmasına, digər tərəfdən bu mənbələrin axtarışının mürəkəbləşməsinə gətirib çıxarmışdır. Sənəd - kommunikasiyaları sistemində ikinci səviyyə olmaq etibarı ilə sahə üzrə biblioqrafik ehtiyatın rolu daha da artmış, onun sisteminin yaranması, inkişafı və müasir vəziyyətinin öyrənilməsini biblioqrafiyaşünaslıq elmi qarşısında mühüm vəzifə kimi qoymuşdur. Məhz bu səbəblər diqqətinizə təqdim edilən monoqrafiyanın meydana gəlməsini şərtləndirmişdir.

Monoqrafiyanın **"Ekologiya elmi üzrə informasiya tələbatın;n formalaşması"** adlı birinci fəslində sənəd-kommunikasiyalar sisteminin müxtəlif seqmentlərində informasiya tələbatının yaranmısı və təzahürü araşdırılmış, bu tələbatın və onu daşıyan tələbatçıların ətraflı təhlili verilmişdir. Bu zaman müəllif tərəfindən ekologiya sahəsinin mütəxəssislərinin informasiya tələbatının öyrənilməsi üzrə aparılmış anket sorğusu nəticəsində toplanmış zəngin faktik

materialın təhlili verilmişdir. Aşkara çıxarılmışdır ki, bu sahənin mütəxəssisləri öz sənəd-informasiya tələbatını ödəmək üçün ən müxtəlif mənbələrdən, o cümlədən biblioqrafik mənbələrdən istifadə edir, kitabxanalara gedir, internetdən istifadə edirlər.

Monoqrafiyanın **"Ekologiya elmi üzrə sənəd kütləsi və axınının vəziyyəti"** adlı ikinci fəslində Azrbaycanda ətraf mühitin mühafizəsi üzrə fəaliyyət və ekologiya elmi üzrə son 25 ildə yaranan sənəd axını, bir sıra kitabxanaların fonduna daxil olan sənəd axını, kitabxanalarda formalaşmış sənəd kütləsi nəzərdən keçirilmişdir. Bu zaman əsas diqqət sahə üzrə başlıca sənəd fondlarına (Ekologiya və Təbii Sərvətlər Nazirliyindəki Arxiv fondunun kitabxanası və Orxus Proqramı üzrə yaradılmış İnformasiya fondunda), respublika əhəmiyyətli əsas iri elmi kitabxanaların fondları tədqiq obyekti olmuşdur. Təhlil zamanı ümumi sənəd axını və kütləsinin tərkibində bəhs edilən sahəyə dair sənədlərin xüsusi çəkisi müəyyən edilmişdir.

Monoqrafiyanın **"Ekologiya elmi və ətraf mühitin mühafizəsi üzrə biblioqrafik informasiya təminatı sisteminin vəziyyəti və inkişaf perspektivləri"** adlı üçüncü fəslində isə bəhs edilən sahənin sənəd-informasiya təminatında biblioqrafik informasiyanın əhəmiyyətinə diqqət yetirilir. Burada Azərbaycanın dövlət-üçot qeyd biblioqrafik mənbələrində, kitabxanaların tərtib etdiyi ümumi və ixtisaslaşdırılmış biblioqrafik mənbələrdə, kataloq-kartoteka sistemində, elektron biblioqrafik mənbələrdə bəhs edilən sahəyə dair biblioqrafik informasiyanın əks olunması təhlil edilmişdir. Aşkara çıxarılmışdır ki, respublikanın kitabxanaları tərəfindən sırf bəhs etdiyimiz sahəyə dair bir retrospektiv və bir cari vəsait hazırlanmışdır. Bundan əlavə, bu mövzuya iki metodik vəsait



də həsr edilmişdir ki, onlarda da müəyyən miqdarda biblioqrafik informasiya verilmişdir.

Bu fəsildə həm də son illər respublikanın kitabxanalarında yaradılan elektron kataloqlarda bəhs edilən sahəyə dair sənədlərin get-gedə daha artıq miqyasda əks olunması öz əksini tapmışdır.

Üçüncü fəslin sonunda həm də respublikda bəhs edilən sahənin həm ilkin sənəd, həm də biblioqrafik təminatında mövcud nöqsanlar, çatışmamazlıqlar öz əksini tapmış, həmin işin təkmilləşdirilməsi barədə təkliflər verilmişdir.

Monoqrafiyanın sondunda tədqiqatla bağlı bir sıra təkliflər verilmişdir.

Tədiqatın gedişində böyük miqdarda rəqəm materiallarından istifadə edilmiş, statistik təhlillər aparılmışdır ki, bu da mətnə əlavə edilmiş 36 cədvəldə öz əksini tapmışdır.

Tədqiqat aparılan zaman istifadə edilmiş anket blankının nümunəsi monoqrafiyaya əlavə edilmişdir.

Tədqiqatın aparılması zamanı həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda nəşr edilmiş ədəbiyyatdan, on layn mənbələrdən geniş istifadə edilmişdir və bunlar hamısı istifadə edilmiş ədəbiyyatın biblioqrafik siyahısında öz əksini tapmışdır.

Monoqrafiya ətraf mühitin mühafizəsi sahəsində çalışan, ekoloji mövzuda tədqiqat aparan mütəxəssislər, kitabxanaçılar, biblioqraflar, əlaqədar ixtisaslar üzrə təhsil alan tələblər və ümumiyyətlə kitabın həsr edildiyi problemlərlə maraqlanan bütün oxucular üçün nəzərdə tutlmuşdur.

Monoqrafiyada toxunulan məslələr barədə əlavələri, rəy və təklifləri olan oxuculardan xahiş edilir ki, öz fikirlərini müəllifə göndərsinlər.

Ünvan: Bakı şəhəri, AZ 1122, A.M. Şərifzadə küç. 196, Azərbaycan Respublika Elmi-Tibb Kitabxanası. İ.Z. Əliyevaya.
Telefon: 99412 434 43 62.
E poçt: irada40@rambler.ru



# I FƏSİL

# ƏTYAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ EKOLOGİYA ELMİ ÜZRƏ İNFORMASİYA TƏLƏBATININ FORMALAŞMASI

## 1.1. Ətraf mühitin mühafizəsi və ekologiya elminin inkişafı üzrə sənəd-informasiya tələbatının formalaşmasına təsir edən əsas amili kimi

İctimai fəaliyyətin istənilən sahəsinin yaranması və inkişafı bu sahə üzrə sənəd-kommunikasiyalar sisteminin və onun ayrılmaz hissəsi olan biblioqrafik informasiya kommunikasiyalar sisteminin yaranmasına və inkişafına səbəb olur. Təbii ki, ictimai fəaliyyətin hər bir sahəsi konkret və fərqli zərurətdən meydana gəlir. Bu səbəbdən də həmin sahə üzrə sənəd-kommunikasiyalar sistemi və onun ayrılmaz hissəsi olan biblioqrafik informasiya təminatı sistemi də fərqli xüsusiyyətlərə malik olur. Bu deyilənlər sözün tam mənasında ətraf mühitin mühafizəsi və ekologiya üzrə sənəd-kommunikasiyalar sistemınə və onun ayrılmaz hissəsi olan biblioqrafik informasiya təminatına da aid edilə bilər. Bu fərqli cəhətləri daha yaxşı anlamaq üçün ətraf mühitin mühafizəsi və ekologiyanın mahiyyətinə, ictimai fəaliyyət və elm sahəsi kimi onların vəzifələrinə diqqət yetirmək zəruridir.

Ətraf mühitin mühafizəsi və ekologiya məsələlərinin bizim tədqiqat üçün əhəmiyyət kəsb edən məsələlərini bir qədər ətraflı nəzərdən keçirməzdən əvvəl ən əsas anlayışlarla tanış olmaq zəruridir.

Müasir elmdə ətraf mühit termininə belə bir tərif verilir: **Ətraf mühit**-orqanizmlərin böyümə şəraiti, maddələr mübadiləsi və energetikası, onların ətraf aləmlə birliyidir. **"Ekologiya"** terminini isə ilk dəfə 1866-cı ildə alman təbiətşünası Ernst Henrix Hekkel təklif edilmişdir. Alim bu termini təbiətdə ayrı-ayrı orqanizmlər toplularının öz aralarında və abiotil mühitlə qarşılıqlı təsiri zamanı meydana gələn özünütənzimləmə proseslərinin məcmusunun səciyyələndirilməsi üçün istifadə etmişdi. Belə bir nəzəriyyə bioloji hadisələrin, təkcə ayrı-ayrı orqanizmlərin deyil, həm eyni növlü orqanizmlər toplusunun (biosenozun, hətta qlobal system kimi biosferin) məqsədyönlü fəaliyyətinin öyrənilməsində sistemli yanaşmaya meydan açırdı. Belə bir yanaşmanın insan və təbiət, ətraf mühit məsələlərinin öyrənilməsi üçün də müstəsna əhəmiyyəti vardır [153,s.11.].

İnsanın əmək alətləri yaradaraq təbiətə təsir etməyə başladığı andan etibarən insanın transformasiyaya məruz qoyduğu mühitlə hələ belə bir təsirə məruz qalmamış mühit arasında fərq, sərhəd yarandı və insanlar ətraf mühiti məhz bu baxımdan öyrənməyə başladılar. Bu öyrənmənin elmi əsaslarla həyata keçirilməsi nəticəsində yeni elm sahəsi olan ekologiya meydana gəldi. Başqa sözlə, ətraf mühitlə bağlı, xüsusən də onun qorunması üzrə fəaliyyətin nəzəri bazasını ekologiya elmi təşkil edir.

Hal-hazırda ekologiya elminin bir sıra tərifləri mövcuddur. Onlardan biri də aşağıdakı kimidir: **Ekologiya**-canlı orqanizmlər arasında və onların olduğu mühitlə qarşılıqlı əlaqəsi haqqında sintetik bioloji təlim və ya elmdir. Ekologiyanın əsas predmeti daxilində enerji və üzvi maddələrin transformasiya prosesi gedən və bir-birilə qarşılıqlı əlaqədə olan



canlı orqanizmlərin məcmusunu öyrənməkdir. Ekologiyanın əsas vəzifəsi ekosistemdə enerji və materiyanın qarşılıqlı təsirini öyrənməkdir. Müasir ekologiyanın diqqət mərkəzində ekosistemin konsepsiyası- ekoloji paradiqmanın konstruksiyasının əsası durur. Ayrı-ayrı fərdlər, populyasiyalar, növlər, qruplaşmalar və onların ətraf mühitlə qarşılıqlı əlaqəsi və ekoloji tədqiqat obyektləri hesab olunur, lakin müstəqil bir elm kimi ekologiya üçün spesifik deyildir, belə ki, onlarla digər bioloji elmlər (botanika, zoologiya, sistematika, genetika, biocoğrafiya və b.) məşğul olur [136,s.79].

Ekologiya elminin intensiv inkişafı XX əsrin əvvəlinə təsadüf edir. Çünki təbiətin vəziyyəti bu əsrin 30-cu illərinə qədər ciddi təşviş doğurmurdu. Lakin Birinci Dünya müharibəsindən sonra təbiətə, ətraf mühitə qarşı mənfi münasibət ilbəil gücləndiyindən ekologiya elmi tamamilə yeni, inkişafı zəruri sayılan elm sahəsinə çevrildi. Hazırda elmi-texniki tərəqqinin sürətlə inkişafı ilə əlaqədar və ətraf mühitin mühafizəsi məsələlərinin həlli müasir tətbiqi ekologiyaya olan maraq dairəsi özünün ənənəvi sərhədindən çıxarmışdır. Bununla əlaqədar olaraq ekologiya elminin xüsusi sahələri meydana gələrək sürətlə inkişaf etməkdədir. Bunlar qlobal ekologiya, insan ekologiyası, sosial ekologiya, mühəndis ekologiyası, kənd təsərrüfatı ekologiyası, memarlıq ekologiyası, mədəniyyət ekologiyası, sozologiya, coğrafi ekologiya , geokimyəvi ekologiya, rekreasiya ekologiyası, nəqliyyat ekologiyası, və bir çox başqa istiqamətlərdır. Bu göstərilən sahələr ümumi ekologiyanın müstəqil bölməsi sayılır, yaxud nəzəri və tətbiqi ekologiyaya bölünür.

Ekologiya elminin inkişafı və diferensiasiyası nəticəsində onun daxilində bir sıra yarımmüstəqil bölmələr meydana gəlmişdir. [15;53].

Göründüyü kimi, ekologiyanın müstəqil bir elm sahəsi kimi meydana çıxması ictimai zərurətdən meydana gəlir. Məlum olduğu kimi, Yer üzərində həyat təqribən 4 milyard il əmələ gəlmişdir. O zamandan bəri canlı məxluqlar təkamül edərək daim inkişaf etmişdir və insan da bu təkamül nəticəsində yaranmışdır. Beləliklə, insan bioloji növ olmaqla canlı təbiətin təkamülünün məhsuludur və onun mövcudluğunu canlı təbiətdən ayrı təsəvvür etmək qeyri-mümkündür. Bu təbiətin qanunudur ki, hər bir bioloji növ öz mövcudluğu üçün canlı və cansız təbiətin resurslarından istifadə edir. bir sıra hallarda onu tükədir. Bioloji növ cansız təbiətin resurslarından olan sudan, havadan, günəş enerjisindən, yerin tərkibində olan maddə və minerallardan istifadə edir. Əgər növ heyvanlar aləminə aiddirsə, qida kimi və digər ehtiyaclarını ödəmək üçün digər canlılrdan istifadə edir. Bundan əlavə, hər bioloji növ və fərd üçün fiziki məkan (Yer səthində, su hövzəsində müəyyən yer) tələb olunur. Hər bir bioloji növ daim yaşamaq uğrunda mübarizə aparır, ətraf mühitin, canlı və cansız mühitin təsiri ilə bioloji seçməyə, təkamülə uğrayır. Bu amillərin təsiri ilə ya bioloji növün nəsli kəsilərək məhv olur, ya da təkamülə uğrayaraq yeni növün başlanğıcını qoyur. Bütün bu qanunlar, bioloji mexanizm bütün canlılar kimi insanlara da aiddir. Məhz bu qanunların çərçivəsində paleogenetiklərin qənaətinə görə 200 min il bundan əvvəl Primatlar sinfinin Homo cinsinə aid olan Homo sapiens ( Şüurlu insan) növü meydana gəlmişdir [115,s.34]. Bu növ öz zəkasının yaratdığı imkanlardan istifadə edərək Yer üzərində canlı həyatın meydana gəlməsi tarixindən



bəri ilk dəfə olaraq təbiətin yuxarıda qeyd edilən təbii seçmə çərçivəsindən kənara çıxdı. İnsanın zəkası ona əmək alətləri yaratmağa imkan verdi. Bu isə ona ətraf təbiətə, canlı və cansız aləmə təsir etmək üçün digər canlılarda olmayan imkanlar yaratdı, onun fəaliyyətinin səmərəsini dəfələrlə yüksəltdi. Əgər heç bir silahı, aləti olmayan, yalın əlli ibtidai insan dəstəsi bir həftəyə bir ov heyvanı əldə edə bilirdisə, primitiv də olsa silahlanmış dəstə həmin müddətdə bir neçə heyvan ovlamaq imkanı qazandı. İnsanlar iynə və tikişin ixtirası nəticəsində heyvan dərisindən özlərinə paltar tikərək özlərini istidən və soyuqdan daha səmərəli şəkildə qorumaq imkanı əldə etdi, əmək alətlərindən istifadə etməklə özünə koma və çadır qurmaqla təbii daldanacaq olmayan yerlərdə özünü yağmurdan, soyuqdan, yırtıcılardan daha effektiv şəkildə qorumağa başladı, Odun əldə edilmə üsulunun ixtira edilməsi isə insana istənilən zaman ocaq yandıraraq qidanı bioloji baxımdan daha sərfəli formaya salmağa-bişirməyə, özünü soyuqdan, yırtıcılardan daha effektiv tərzdə qorumağa imkan yaratdı. Heyvandarlığın və əkinçilik metodlarının, xüsusən suvarılan əkinçilik üsullarının ixtira edilməsi isə onu ov ardınca qaçmaq, yabanı bitkiləri toplamaq zərurətindən xilas etdi. Bütün bunlar başqa bioloji növlərdən fərqli olaraq Homo sapiensin yaşamaq imkanlarını dəfələrlə genişləndirdi, onun təbii resurslardam asılılığını xeyli azaltdı və ilk sivilizasiya yarandı.

Bəşəriyyətin meydana gəlib inkişaf etməsinin ilk dövrlərindən başlayaraq insanın ətraf təbiətə olan təsiri aramsız olaraq artırdı. Dünyada yaşayan insanların miqdarının yüz minlərlə ölçüldüyü dövrlərdə şüurlu insanın ətraf mühitə göstərdiyi təsir çox cüzi idi və təbiətdə əsaslı dəyişiklərə səbəb olmurdu. Lakin insan populyasıyanın sayının milyonlara

çatması ilə insanın təbiətə göstərdiyi təsir çox geniş miqyas aldı, təbiətdə destruktiv geriyə dönməz dəyişikliklərə səbəb oldu. Məsələn, alimlərin fərziyyəsinə görə, bir zamanlar Afrikanın şimalinda meşə və çəmənliklər çox geniş yayılmışdı, zəngin heyvan və bitkilər aləminə malik idi. Lakin burada insan populyasıyası artdıqca, antropogen təsir nəticəsində bitki örtüyü məhv edildi, kövrək təbii tarazlıq pozuldu. Nəticədə səhralaşma prosesi vüsət aldı, burada yaşayan heyvanların nəsli kəsildi.

Beləliklə, dünyanın əksər ərazilərində (Arktika və Antarktikadan başqa) əhalinin sayının çoxalması, təbiətə, canlılar aləminə insanın mənfi təsirinin miqyasının fəlakət səviyyəsinə çatması, insan təsirinə məruz qalmamış ərazilərin sərhədllərininn ildən-ilə kiçilməsi bütün dünyada, xüsusən də sənaye baxımdan inkişaf etmiş və əhali sıxlığının xüsusən də yüksək olduğu ölkələrdə milyon illər ərzində formalaşmış təbii mühitin çox güclü neqativ təsirə məruz qalmasına gətirib çıxardı. Artıq XIX əsrin başlanğıcında dünyada elə ərazilər meydana gəldi ki, burada həm hava, həm torpaq, həm də su mənbələri çox yüksək dərəcədə çirklənməyə məruz qalmışdı. Belə bir vəziyyət ictimaiyyətin haqlı narahat-lığına səbəb oldu və bütünlükdə insan fəaliyyətinin tənqidi yönümdən yenidən nəzərdən keçirilməsi barədə ictimai fikir formalaşmağa başladı, canlı təbiətin qorunması, insanın ətraf mühitə yetirdiyi zərərin aradan qaldırılması problemi elmi araşdırmaların mövzusuna çevrildi. Paralel şəkildə bütün canlı təbiətdə canlı orqa-nizmlərin biri-digərinə qarşılıqlı təsiri, birgə yaşamasının şərtləri məsələsinə diqqət artdı. Belə bir yanaşma insan-təbii mühit məsələlərinin öyrənilməsi üçün də böyük əhəmiyyəti vardıq. Axı dərindən diqqət yetirilsə, Homo sapiens özü də



müstəqil bioloji növ kimi canlı təbiətin məhsuludur. Qeyd edək ki, bu mövzuda təhlillərin, elmi araşdırmaların nəticəsi olaraq məqalələr. kitablar meydana gəlmişdir ki, bu da həmin sahə üzrə sənəd-kommunikasiyalar sisteminin formalaşması demək idi.

Yuxarıda qeyd etdiyimiz kimi, ətraf təbii mühitin bioloji topluluqlarının öz aralarında və cansız təbiətlə qarşılıqlı təsiri və öz növbəsində onların insanla qarşılıqlı təsiri insanları hələ lap qədim zamanlarda düşündürürdü. Bu sahədə ilk elmi fikirlər hələ qədim Yunan alimləri Aristotel və Ereziyalı Teofrast, qədim Roma alimi Böyük Plinius tərəfindən söylənilmişdi. Aristotel ona məlum olan bir çox heyvan növlərinin xüsusiyyətlərini təhlil etmişdi. Onun şagirdi olan Teofrast isə bitiklərin xüsusiyyətlərini, onların cansız təbiətin amillərindən asılı olması məsələlərinə diqqət yetirmişdir [150,348 c.]

Ətraf təbii mühit barədə elmi səciyyəli ilk əsərlərin məhz Aristotelə məxsus olmasını nəzərə alsaq bu sahənin sənəd-kommunikasiyalar sisteminin yaranması tarixinin bu əsərlərin yaranması tarixi ilə başlandığını söyləmək mümkündür.

Sonrakı tarixi dövrdə indi bizim ekologiya elminə aid etdiyimiz problematika üzrə Ernst Hekkelə qədər tədqiqat aparmış alimlərdən A. Reomyuru, L. Tramleni, A. Middendorfu, K. Linneyi, P. Pallası, L. Lamarkın, K. Rulyenin, K. Myobiusun, Ç. Darvinin əməyi qeyd edilməlidir.

Bu istiqamətdə tədqiqatların yeni keyfiyyət qazanmasında və intensivləşmə-sində yuxarıda adını qeyd etdiyimiz alman təbiətşünası "ekologiya" terminini təklif edilmiş Ernst Henrix Hekkelin xüsusi xidməti olmuşdur. Ernst

Inv. № -26822-
PREZIDENT KITABXANASI

Hekkeldən sonra onun göstərdiyi yeni istiqamətli tədqiqatlar əsasən Avropa və Amerika alimləri tərəfindən davam etdirildi, təkmilləşdirildi və istifadə edilməyə başladı. Bu yeni ideya, tənqidi yanaşma XIX əsrin sonu və XX əsrin ilk rübündən başlayaraq daha da intensivləşdi. Bu dövrün tədqiqatçılarından Q. F. Morozovu, Ç. Adamsı, Ç. Eltonu, R. Qessanı, V. İ. Vernadskini, Q. A. Viktorovu, C. Rinneli, R. Makartutu, D. Hatçinsonu qeyd etmək lazımdır [53,s.8-13].

XX əsrin ikinci yarısı bütün dünyada iqtisadiyyatın, ilk növbədə sənayenin sürətli yüksəlişi, insanların ətraf təbiətə daha intensiv nüfuz etməsi, təbiətə göstəri-lən neqativ təsirin miqyasının dəfələrlə artması ilə səciyyəvidir. Təbii ki, belə bir vəziyyət bu problematikaya elmi diqqətin daha da artmasına səbəb oldu, bu sahədə geniş tədqiqatlar aparıldı, elmi əsərlər nəşr edildi, bu sahə üzrə sənəd-kommuni-kasiyalar sistemi daha sürətlə inkişaf etdi. Həmin dövrün görkəmli tədqiqatçıla-rından C. Anderseni, R. Rifleksi, M. Biqonu, A. Şveytseri, C. Harperi, N. Borlandı, T. Milleri, B. Nebeli, İ. Gerasimovu, Q. Qorşkovu və başqalarının adlarını qeyd etmə mümkündür [53,s.10-12].

Ətraf mühitlə bağlı problemlərin get-gedə kəskinləşməsi, bu sahədə elmi tədqiqatların intensivləşməsi XX əsrin ən xarakterik fenomenlərindən biridir. Bu fenomen cəmiyyətin ətraf mühitin mühafizəsi, ekologiya mövzusuna daha artıq diqqət yetirməsinə , bu sahəyə dair informasiyaya olan tələbatın daha da artmasına, alim və tədqiqatçlıların bu məsələyə olan diqqətinin daha da artmasına səbəb olur [114,s.44-57].

Lakin biz bilirik ki, insanların informasiya tələbatında aparıcı mövqeyə malik olan struktur sənəd-kommunikasiyaları sistemidir. Həmin sistemin uğurlu fəaliyyət göstərməsinin əsas şərtlərindən biri onu tənzimləyən, sənədlə tələbatçı arasında



uyğunluq yaradan biblioqrafik informasiyanın olmasıdır. Həmin informasiya tələbatçılara bu sahədə ixtisaslaşmış müəssisələr, ilk növbədə kitabxanalar, elmi informasiya orqanları vasitəsi ilə çatdırılır.

Ekoloji istiqamətli sənəd-kommunikasiyalar sistemində fəaliyyət göstərən təsisatlarin əsas vəzifəsi bu sahə üzrə informasiya tələbatının ödənilməsidir. Buna görə də həmin təsisatlar tərəfindən tələbatçıların informasiya tələbatı hərtərəfli təhlil edilir və bunun əsasinda təsisatın fəaliyyəti təşkil edilir. Ekoloji məzmunlu sənəd informasiya tələbatının təzahür formasına gəldikdə isə həmin tələbat bu sahə üzrə informasiya ehtiyacı olan tələbatçılar vasitəsi ilə təzahür edir.

Məlumdur ki, hər bir peşə fəaliyyəti informasiya tələbatı doğurur. Hər bir kəsin məzmun və istiqamətə görə müxtəlif informasiya tələbatlari ola bilər. Ən geniş istifadə edilən təhlil üsulu informasiya tələbatçılarının miqdar xarakteristikasina görə öyrənilməsi və təsnifatdır. Bu baxımdan təsnifat zamanı tələbatçıların üç səviyyəsi fərqləndirilir ki, bunlar da ictimai, kollektiv və fərdi tələbatçılardır.

Ekologiya üzrə ictimai informasiya tələbatı deyərkən bütün cəmiyyətə xas olan informasiya tələbatı nəzərdə tutulur. Bu səviyyəyə misal olaraq bütün cəmiyyətin, məsələn, hər hansı bir ölkənin sakinlərinin informasiya tələbatları göstərilə bilər.

Əhatə dairəsinə görə növbəti səviyyə kollektiv informasiya tələbatı təbiəti mühafizə və ekologiya sahəsində fəaliyyət göstərən ayrı-ayrı peşə, tədris və s. maraqlar üzrə birləşən kollektivləri əhatə edir. Əgər təbiəti mühafizə və ekologiya sahəsində ictimai informasiya tələbatı bütünlükdə respublikanı əhatə edirsə, kollektiv tələbat ekologiya və təbiəti mühafizəyə aid olan tədris və tədqiqat fəaliyyəti ilə məşğul olan

işçiləri, ayrı-ayrı ictimai və peşə təşkilatlarının üzvlərini əhatə edir. İnformasiya tələbatı çox mürəkkəb struktura malikdir. Çünki həmin tələbatı formalaşdıran kontingent özü də mürəkkəb tərkibə malikdir. Məsələn, Azərbaycanın Şirvan zonasının əhalisinin ekologiya barəsində sənəd informasiya tələbatı ayrıca götürülərkən tarixi baxımdan onun tərkib hissəsi olan Abşeron sakinlərinin informasiya tələbatları fərqli cəhətlərə malikdir.

Kollektiv tələbatdan bəhs edərkən nəzərə almaq lazımdır ki, bu konkret insanların tələbatından təcrid olunmuş şəkildə mövcud deyildir. Kollektiv informasiya tələbatı ayrı-ayrı fərdlərin informasiya tələbatlarının sadəcə məcmusundan ibarət deyil. Konkret insanda ona hansi informasiyanın lazım olması barəsində təsəvvürlər onda informasiyanı əldə etmək istiqamətində motivasiya yaradır. Həmin informasiyanı əldə etmək istiqamətində fəaliyyət şəxsiyyətin fəallığının aparıcı göstəricilərindən biridir. Şəxsiyyətin həmin istiqamətdə fəaliyyəti müasir biblioqrafiyaşünaslıqda informasiya tələbatı fəaliyyəti kimi qəbul edilir

Tələbatçının informasiya tələbatı obyektiv və subyektiv olması da əhəmiyyətli məsələlərdən biridir. Bunlar arasında müəyyən fərq vardır. Belə bir fərqi müəyyənləşdirmək üçün insanın həmin informasiya barəsində təsəvvürlərini təhlil etmək və bunun əsasında konkret informasiyanın bu şəxsə nə qədər zəruri olduğunu müəyyənləşdirmək tələb olunur. Belə bir təhlil aparmaq bir sıra hallarda xeyli vaxt və zəhmət tələb edir. Bu xüsusilə geniş və mürəkkəb informasiya tələbatına malik olan alim və yüksək ixtisaslı mütəxəssislərə daha çox aiddir. Yuxarıda qeyd edilənlər sübut edir ki, informasiya tələbatı informasiya fəaliyyətini stimullaşdıran amildir. İnsanın lazımi



informasiya əldə etmək sahəsində fəaliyyəti şəxsiyyətin fəallığının aparici göstəricilərindən biridir. Bunu şəxsiyyətin həmin istiqamətdə fəaliyyətini informasiya tələbatı fəaliyyəti də adlandırmaq olar.XX əsrin əvvəllərindən sənayenin inkişaf etdiyi ölkələrdə insanlarin yaşadığı mühit o qədər pisləşmişdi ki, tədricən ictimai şüurda ətraf mühitin mühafizə edilməsi zərurəti barədə ideyalar yayılmağa başladı. Bu istiqamətə ictimai diqqətin artması öz növbəsində həmin sahə üzrə informasiyaya tələbatın yaranmasına şərait yaratdı.

Ekologiya və təbiəti mühafizə üzrə informasiya təminati bir sıra digər sahəvi fərqlərə də malikdir. Həmin fərqlər bu sahənin özünün xüsusiyyətlərundən və bu sahə üzrə informasiyaya olan ictimai tələbatdakı fərqlərdən irəli gəlir.

Ətraf mühitin mühafizəsinin ildən-ilə daha yüksək aktuallıq kəsb etməsi bəhs edilən sahə üzrə tələbatın da intensivləşməsinə səbəb olur. Ekologiya və ətraf mühit üzrə tələbatın özü də mürəkkəb daxili struktura malikdir. Bu struktur həmin geniş tələbatçı qrupunun mürəkkəb tərkibi nəticəsində formalaşır.

Müasir dövrdə respublikamızda ekologiya və təbiəti mühafizə sahəsində informasiya tələbatının ictimai fəaliyyətlə bağlılığına görə tələbatçıların aşağıdakı qruplarını fərqləndirmək mümkündür:

1.Həmin sahə üzrə qanunvericilik fəaliyyəti ilə məşğul olan tələbatçılar.

Belə tələbatçılara misal olaraq Milli Məclisin müvafiq komissiyasının üzvü olan millət vəkillərini, bu sahənin qanunvericiliyi üzrə ekspertləri və məsləhətçiləri aid etmək olar.

2. Bu sahə üzrə müxtəlif icra orqanlarında çalışan dövlət qulluqçuları və digər rəsmi işçilər.

Respublikamızda bu qrupa daxil olan ən çox sayda mütəxəssislər Ekologiya və Təbii Ehtiyatlar nazirliyinin mərkəzi aparatının və ona daxil olan qurumlarının (ekoloji müfəttişliklər, milli parkların, qoruq və yasaqlıqların və s.) işçiləridir.

3. Ayri-ayri dövlət və biznes müfəssəllərində ekologiya və ətraf mühitin mühafizəsi ilə məşğul olan mütəxəssislər.

4. Müxtəlif elmi-tədqiqat müəssisələrində, elmi mərkəzlərdə, institutlarında, laboratoriyalarda bu sahə üzrə çalışan mütəxəssislər.

Respublikamızın ən böyük elmi tədqiqat qurumu olan Milli Elmlər Akademiyasında bir çox institut və qurumlarda, məsələn, Coğrafiya, Botanika, Zoologiya və s. institutlarda ekoloji istiqamətli tədqiqatlar aparılır.

5. Tərkibində ekologiya üzrə fənlər tədris edilən ali məktəb kafedralarının əməkdaşları. Bütün dünyada olduğu kimi, Azərbaycanda da ali məktəblər təkcə təhsil müəssisəsi deyil, həm də elmi-tədqiqat müəssisəsidir. Respublikamızın bir sıra ali məktəblərində ekologiya üzrə tədqiqatlar aparılır. 2011-ci ildə BDU-da Ekologiya fakültəsi yaradılmışdır ki, burada ekologiya üzrə mütəxəssislər hazırlanması ilə yanaşı, buradakı kafedralarda bu istiqamətlərdə elmi-tədqiqat fəaliyyəti də yerinə yetirilir. BDU-da və respublikamızın bir çox digər ali məktəblərində ekologiya istiqamətli kafedralar, onların nəzdində tədris və elmi-tədqiqat laboratoriyaları fəaliyyət göstərir. Burada çalışan professor-müəllim heyəti, mühəndis və elmi işçilər ekologiyanın müxtəlif problemləri üzrə tədqiqatlar aparırlar.



6. Ekologiya və ətraf mühit üzrə ixtisaslaşan ali məktəb tələbələri, eləcə də ekoloji silsiləyə aid fənləri öyrənən digər ixtisaslar üzrə hazirliq alan bakalavr və magistr pilləli tələbələr.

7. Ekologiya və ətraf mühit problemlərlə məşğul olan ictimai qurumların, qeyri-hökumət təşkilatların üzvləri. Hal-hazırda respublikamızda ətraf mühitin mühafizəsi problemləri ilə məşğul olan onlarla qeyri-hökumət təşkilatları fəaliyyət göstərir və onların sayı get-gedə artmaqdadır. Həmin təşkilatların fəaliyyətində yüzlərlə vətəndaş yaxından iştirak edir.

8. Ekologiya və ətraf mühitin problemləri ilə maraqlanan geniş əhali kütləsi. Son illər ekoloji problemlərin kəskinləşməsi bu məsələyə olan ictimai diqqətin artmasına səbəb olmuşdur ki, bu da öz növbəsində əhali arasında bu sahədə informasiya tələbatının güclənməsinə səbəb olmuşdur.

Haqqında bəhs edilən tələbatçı qruplarının hər biri fərqli informasiya tələbatına malikdir. Məsələn, ali qanunvericilik orqanında çalışan millət vəkilləri və ekspertlər bu sahədə mövcud olan beynəlxalq normativ sənədlərlə, ayrı-ayrı ölkələrin qanunvericiliyini əks etdirən mənbələrlə daha çox maraqlanırlar. Onların informasiya tələbatları konkret olaraq bu istiqamətə yönəlsə də, bir sira hallarda onlar bu elm sahəsi üzrə elmi əsərlərə, jurnal məqalələrinə müraciət edirlər. Onların informasiya tələbatı maraqlandıqları mövzu üzrə mümkün qədər tam məlumat əldə etmək ehtiyaci ilə fərqlənir. Bu zaman axtarılan sənədlər dil əlamətinə görə seçilir. Nazirliyin mütəxəssisləri qəbul edilmiş qanunlara əsaslanaraq ölkədə ətraf mühitin qorunması və digər əlaqədar sahələr üzrə dövlət idarəetmə fəaliyyətini həyata keçirir. Burada ölkəmizdə ətraf mühit və təbii sərvətlərlə bağlı bütün problemlər diqqətlə

öyrənilir. Burada mövcud olan ayrı-ayrı bölmələr atmosferin su mənbələrinin qorunması məsələləri ilə məşğul olurlar. Onlar respublikada fəaliyyət göstərən sənaye, tikinti müəssisələrinin ətraf mühitə necə təsir etdiyini öyrənir. Həmin fəaliyyət istiqamətləri bu mütəxəssislər informasiya tələbatına təsir edir. Onlar qanunlarla yanaşı, digər normativ və hüquqi sənədlərlə, soraq ədəbiyyatı ilə maraqlanırlar. Onların informasiya tələbatları təqdim edilən informasiyanın operativ verilməsini tələb edirlər. Bundan başqa, bir sıra hallarda bu mütəxəssislər təbiət elmləri, texnika, kənd təsərrüfatı üzrə də informasiyaya ehtiyac duyurlar .

Hal-hazırda dünyanın demək olar ki, bütün ölkələrində, həm də regional və beynəlxalq səviyyədə təbiətin qorunması üzrə tədbirlər görülür, böyük proqramlar həyata keçirilir. Paralel şəkildə həmin səviyyələrdə lokal və geniş miqyaslı ekoloji tədqiqatlar aparılır. Qeyd etmək lazımdır ki, ətraf mühitin qorunamasının, ekoloji tədqiqatların bəşəriyyətin gələcəyi üçün müstəsna əhəmiyyəti nəinki beynəlxalq siyasi, milli, dövlət səviyyəsində qəbul olunur, bu işə daha geniş şəkildə biznes strukturları, ayrı-ayrı şirkətlər, korporasiyalar cəlb olunur və get-gedə onlar bu sahəyə daha böyük vəsaitlər sərf edirlər. Bu sahəyə qeyri-hökumət təşkilatları da böyük diqqət göstərir, praktik tədbirlər həyata keçirir, bu sahədə milli, regional və

beynəlxalq səviyyədə daha geniş fəaliyyət göstərirlər. Təbii ki, bütün bu səviyyədə praktik fəaliyyət, elmi tədqiqatlar o zaman uğurla həyata keçirilə bilər ki, bu sahə üzrə sənəd-kommunikasiyalar sistemi onun ən əhəmiyyətli tərkib hissələrindən biri kimi kitabxanalar formalaşsın, fəaliyyət göstərin və bu sahənin tələbatçılarını həm ilkin sənədlərlə, həm



də biblioqrafik informasiya ilə təmin etsin. Bu müasir kitabxana-biblioqrafik fəaliyyətin vacib vəzifələrindən biridir.

Bu barədə Azərbaycan Respublikası da istisna təşkil etmir. Onu da xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan elmi fikrində təbiətdəki bioloji növlərin öz aralarında, cansız təbiətlə və insanla qarşılıqlı münasibətin müxtəlif məqamları barədə müxtəlif fikirlər hələ ölkəmiz ərazisində yaranmış ən qədim yazılı dini kitab olan Avestada insan və təbiət arasında harmoniyanın bəşəriyyətin xoşbəxtliyi üçün necə zəruri olması vurğulanırdı. Azərbaycanın İslam dünyasının bir hissəsinə çevrilməsindən sonra da ölkəmizin görkəmli mütəfəkkirləri insan və təbiət mövzusuna böyük diqqət yetirirdilər. İnsan və təbiət arasında münasibətlərin fəlsəfi təhlilinə böyük Azərbaycan şair və mütəfəkkiri Nizami Gəncəvinin "Xəmsə"sində rast gəlmək mümkündür. Sonrakı dövrlərdə bu mövzu digər Azərbaycan mütəfəkkirlərindən Əbdur Rəşid Bakuvinin (XV əsr), Hacı Zeynalabdin Şirvaninin (XVIII əsr), Abbasqulu Ağa Bakıxanovun (XIX) əsərlərində əks olunmuşdu. XX əsrin əvvəllərində isə bu istiqamətli tədqiqatlar Azərbaycanda yaşamış və tədqiqatlar aparmış Q.Abix, N.Qubkin, V. Dokuçayev, G. Boqdanoviç, R.Reynqard kimi alimlər tərəfindən aparılırdı [53,608 s.].

Azərbaycanda ekologiya elmi üzrə geniş-miqyaslı, intensiv tədqiqatların başlanması dünyanın qabaqcıl ölkələrinə nisbətən bir qədər gec- XX əsrin başlanğıcına təsadüf edir. Bu sahədə İ. Fiqurnovskinin və başqa alimlərin tədqiqatları .daha sonra Ə. Şıxlinski, S. Kopelyoviç tərəfindən davam etdirildi.

Azərbaycanda ekoloji tədqiqatların inkişafının müasir mərhələsində Q. Gülün, Ə. Mədətzadənin, S. Rüstəmovun, B. Antonovun, H.B. Əliyevin, H. Ə. Əliyevin, B. Budaqovun, Ə.

Əyyubovun, Ə Hacızadənin, N. Kərimovun, R. Piriyevin, A. Nadirovun, Ş. Göyçaylının, Q. Həsənovun və başqa alimlərimizin böyük töhfələri vardır [53,608 s.].

Şimali Azərbaycanın təbii sərvətlərinin xüsusilə intensiv istismarı xüsusilə də ölkənin Rusiya İmperiyasının tərkibinə birləşdirilməsindən sonra, XIX əsrin ikinci yarısından sonra daha da intensivləşdi. Bu zaman iqtisadi inkişaf çox zaman ətraf mühitə dəhşətli dərəcədə mənfi təsirlə müşayiət edilirdi. Məsələn, Abşeronda neft sərvətinin sistemsiz, texnoloji cəhətdən qüsurlu üsullarla istismarı, sənayenin təbiətə ziyan verməklə inkişafı torpağın, havanın, dənizin, yeraltı suların dəhşətli dərəcədə çirklənməsinə gətirib çıxarmışdı. Bakının və Abşeronun ətraf mühitinin dəhşətli dərəcədə çirklənməsinin şahidi olmuş görkəmli rus-sovet yazıçısı Maksim Qorki özünün "Sovetlər İttifaqı boyu" oçerklər kitabının başlanğıcında Azərbaycana həsr edilmiş hissədə 1892 və 1897- ci illərdə burada gördüyü mənzərəni "məşhum cəhənnəminin dahiyanə səviyyədə çəkilmiş tablosu" adlandırmış, burada torpağın, havanın dəhşətli dərəcədə çirklənməsindən, fəhlələrin, onların ailələrinin neft- mazut gölməçələri, mazutlu palçıq içərisində acınacaqlı şəraitdə işləyib yaşadığını göstərmişdir[103,368 s.]. Təbii ki, vəhşi kapitalizm şəraitində ətraf mühitin qorunması, bu sahədə tədqiqatlar aparılması praktik olaraq qeyri-mümkün idi.

Ətraf mühitin mühafizəsi məsələsinə diqqət yaranması, ictimai fikirdə ekoloji istiqamətin bərqərar olması istiqamətində müsbət dəyişikliklər ancaq XX əsrin ikinci rübündən başlayaraq, ikinci respublika-sovet dövründə mümkün oldu. Bu dövr Azərbaycanda həm də elmi tədqiqatlar sahəsində keyfiyyətcə yeni bir mərhələnin başlanması ilə səciyyəvidir.



Həmin dövrdə ölkədə sənayenin bir çox sahələrinin inkişafı elə bir səviyyəyə çatdı ki, ətraf mühitə göstərilən zərərli təsirin azaldılması artıq dövlət səviyyəli bir işə çevrildi.

Qeyd etdiyimiz kimi, son 22 il ərzində ölkəmizdə ətraf mühitlə bu və ya digər dərəcədə bağlı olan 91 adda qanun və onlarla digər qanunvericilik, normativ sənədi qəbul edilmişdir [87,s.225-228].

Əlbəttə ki, belə əhəmiyyətli nailiyyətlərin qazanılmasında ölkəmizin tarixinin ən mürəkkəb dövründə ölkəyə rəhbərlik etmiş ümummilli lider Heydər Əliyevin və onun ideyalarının layiqli davamçısı prezident İlham Əliyevin müstəsna xidmətləri vardır. Son illər ərzində Azərbaycanın bütün istiqamətlərdə, xüsusən iqtisad sahəsində mislsiz inkişaf barədə qürur dolu sözlər Presidentlik vəzifəsinə seçilməklə əlaqədar nitqində İlham Əliyevin nitqində də öz əksini tapmışdır: "Son dörd il ərzində Azərbaycan dünya miqyasında iqtisadi artım sürətinə görə birinci ölkədir. Son dörd il ərzində iqtisadi artım, yəni ümumi daxili məhsulun artımı baxımından bizdən yuxarı ölkə olmamışdır. Bu, böyük nailiyyətdir. Bütövlükdə, beş il ərzində Azərbaycan iqtisadiyyatı, Azərbaycanda ümumi daxili məhsul 2,7 dəfə artmışdır. Mən deyə bilərəm ki, dünya miqyasında bu, görünməmiş bir nəticədir" [13,s.1-3].

Prezident İlham Əliyevin ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində ən böyük xidməti beynəlxalq neft şirkətlərinin iştirakı ilə həyata keçirilən layihə-lərin reallaşması zamanı Azərbaycan təbiətinə zərər dəyməsinin qarşısını ala bilən ciddi ekoloji siyasətin ardıcıl şəkildə davam etdirilməsi oldu. Bundan əlavə, Prezident İlham Əliyev ölkədə ətraf mühitə minimum dərəcədə təsir göstərən, enerjiyə qənaət edən

texnologiyaların tətbiq edilməsi, hər hansı təbii yanacağın yandırılmasını istisna etməklə günəşdən, küləkdən elektrik enerjisi istehsal etmək, üzvi tullantılardan bioqaz istehsal edilməsi və bir sıra digər bu kimi layihələrin əsas təşəbbüskarı olmuşdur. O, gələcəkdə Azərbaycanın enerjiyə qənaət edən, qabaqcıl ekoloji texnologiyalardan geniş istifadə edən ölkələrdən birinə çeviril-məsinin dövlət prioritetli məsələlərdən biri olmasını vurğulamışdır. Bu diqqət və qayğı onun bir çox çıxışlarından əsas xətt kimi keçir. Məsələn, Azərbaycan Prezidenti İlham Əliyev 2006-cı ilin iyul ayının 3-də ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması məsələlərinə həsr olunmuş respublika müşavirədəki nitqində qeyd etmişdi ki, "Azərbaycanın uğurlu iqtisadi inkişafı artıq gerçəklikdir, faktdır və gələcəkdə bizə böyük imkanlar gətirəcəkdir. Ancaq insanların sağlamlığı, ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su - bütün bunlara biz çox böyük diqqət göstərməliyik. Ona görə bu məsələlər bu gün geniş müzakirə olunmalıdır. Müşavirə nəticəsində müvafiq sərəncam da hazırlanmalıdır və mən onu imzalayacağam. Ondan sonra geniş proqram da tərtib olunmalıdır" [4,s.1-3].

Sonrakı illərdə də Prezident İlham Əliyev ölkəmizdə ətraf mühitin müha-fizəsi, ekoloji problemlərlə yaxından maraqlanmaqda, diqqət göstərməkdə davam etmişdir.

Prezident İlham Əliyev xüsusən də ölkədə "Ekologiya ili" elan olunmuş 2010-cu ildə həyata keçirilən tədbirlərə böyük diqqət yetirirdi. "Ekologiya ili"-nin başlanmasından bir qədər sonra, 2010-cu il fevralın 18-də Prezidentin tapşırığı əsaında sırf ekeoloji məsələlərə həsr edilmiş geniş tədbir- Azərbaycan Prezidenti İlham Əliyevin yanında ekoloji problemlərə həsr edilmiş müşavirə təşkil edildi. Müşavirədə Prezident İlham



Əliyev giriş və yekun sözü söyləmiş, respublikanın ekologiya və səhiyyə nazirliklərinin rəhbərlərinin, Bakı və Sumqayıt şəhərlərinin icra başçılarının, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidentinin hesabatları dinlənmişdir.

Prezidenti İlham Əliyev müşavirədəki yekun nitqində qeyd etmişdir ki, "Mən şübhə etmirəm ki, görülən və görüləcək tədbirlər nəticəsində yaxın zam-anlarda Bakı və Abşeron yarımadasında və ölkəmizin digər yerlərində ekoloji vəziyyət böyük dərəcədə yaxşılaşdırılacaq. Azərbaycan vətəndaşları təmiz ekoloji şəraitdə yaşayacaqlar. Mən artıq bu gün burada səslənən fikirlər və məruzələr əsasında konkret təkliflər gözləyirəm ki, biz onları tezliklə reallaşdıraq" " [5,s.2-4].

Bütün bunlar sübut edir ki, müasir dövrdə Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi sahəsinə, ekologiya elmi ən yüksək səviyyədə dövlət qayğısı mövcuddur və ölkədə bu sahədə işlərin inkişafı plana uyğun və ardıcıl şəkildə davam etdirilir.

Müasir dövrdə belə bir fikir aksiom kimi qəbul edilir ki, hərtərəfli inkişaf etmiş ölkənin milli prioritet səviyyəli vəzifələrindən biri ölkənin təbiətini mümkün qədər yüksək səviyyədə qorunaq, ölkənin təbii mühitində yaşayan bioloji növlərin nəslinin kəsilməsinin qarşısının alınması, cəmiyyət və təbiətin qarşılığlı təsirində ahəngdarlığa nail olmaqdır.

XX əsrin səksəninci illərində Azərbaycan SSR-də meşəçilik, su ehtiyatları, balıqçılıq, atmosfer havasının tərkibi (vəziyyəti), radiasiya çirklənməsi, torpaq-lardan səmərəli və s. əlaqədar sahə və məsələlərlə məşul olan ali dövlət qurumları var idi. Bu sahədə dövlət idarəetmə sistemi zamanın tələblərinə uyğun olaraq daim təkmilləşdirilirdi. Məsələn, 1980-ci il fevralın 1-də digər müttəfiq respublikalarla demək olar ki, eyni

zamanda Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Azərbaycan SSR Dövlət Təbiəti Mühafizə Komitəsi yaradıldı və ona geniş səlahiyyətlər verildi" [3,s.1].

Azərbaycanın tam dövlət müstəqilliyinin bərpa edilməsindən sonra ətraf mühitlə əlaqədar müstəqil dövlət idarəetmə sisteminin yaradılması sahəsində birinci addım tam dövlət müstəqilliyimizin ilk günlərində, 5 avqust 1991-ci il tarixində AR Prezidentinin fərmanı əsasında SSRİ Geologiya Nazirliyi "Azərbaycangeologiya" Azərbaycan Geoloji Kəşfiyyat İşləri İstehsal Birliyinin Azərbaycan Respublikası Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsinə çevrilməsi haqqında fərman oldu" [65, s.1]. Ölkədə müstəqil hidrometeorologiya, o cümlədən təbii mühitin çirklənməsinə nəzarət sisteminin yaradılması istqamətdə isə ilk addım 21 yanvar 1992-ci ildə yenə də Prezident fərmanı ilə Azərbaycan Respublika Hidrometeorologiya İdarəsi, Zaqafqaziya Regional Elmi-Tədqiqat Hidrometeorologiya İnstitutunun Bakı şöbəsi və SSRİ Dövlət Hidrometeorologiya Komitəsinin hidrometeoroloji proseslərə fəal təsir göstərilməsi üzrə hərbiləşdirilmiş xidmət bazasında Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Azərbaycan Respublikası Dövlət Hidrometeorologiya Komitəsinin yara-dılması oldu [12, s.1]. Həmin ilin 7 sentyabr tarixində isə yenə Prezident fərmanı ilə Azərbaycan Respublikası Dövlət Təbiəti Mühafizə Komitəsi Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinə çevrildi [6.s.2]. Ən nəhayət 23 may 2001-cil tarixidə Azərbaycan Respublikası Heydər Əliyevin fərmanı ilə yuxarıda qeyd edilən dövlət qurumları əsasında geologiya, ətraf mühitə nəzarət və onun qorunması, hidrometreologiya işi yeni yaradılmış



Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə həvalə edildi [7,s.2].

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması ölkəmizdə həmin sahənin dövlət tərəfindən tənzimlənməsi işinin daha mükəmməl səviyyəyə yüksəl-dilməsinə imkan verdi. Nazirliyin 2001-ci ilin 18 sentyabr tarixində qəbul edilmiş Əsasnaməsində digər məsələlər kimi onun vəzifələri də müyyənləşdirilmişdi. [11,s.143-156]. Göründüyü kimi, Nazirlik çox geniş vəzifələrə malik idi və ölkədə təbii sərvətlər, ətraf təbii mühitlə-hava, su, yeraltı sərvətlər, bitki və heyvanlar aləmi ilə bağlı demək olar ki, bütün məsələləri əhatə edir, bütün işləri mərkəzləşdirməyə imkan verir, bu sahənin dövlət tərəfindən idarə edilməsi üçün inzibati imkanlar yaradır.

Bizim üçün maraq kəsb edən əsas məsələ Nazirliyin sənəd-informasiya təminatı, bu sahə üzrə sənəd-kommunikasiyalar sisteminin inkişaf etdirilməsi üzrə funksiyalardıdır. Əsasnamədə bu məsələlərə dair aşağıdakı vəzifələr nəzərdə tutulmuşdur:

"Nazirliyin funksiyaları" bölməsində:

- 10.8.Ətraf mühit üzrə informasiya fondunu, o cümlədən Dövlət Geoloji İnformasiya Fondunu genişləndirir, geoloji və digər materialların mühafizəsini və məqsədyönlü istifadəsini təmin edir;
- 10.70.Əhalini, müəssisə və təşkilatları mövcud və gözlənilən meteoroloji, aqrometeoroloji və hidrometeoroloji, iqlimin dəyişməsi, ətraf mühitin çirklənmə səviyyəsi (atmosfer havasının, torpağın, səth sularının və Xəzər dənizinin radioaktiv və kimyəvi çirklənməsi), təhlükəli və hidrometeoroloji hadisələrin meydana çıxması, ölkə ərazisində fövqəladə

halların meydana çıxmasına yol açan ətraf mühitin ekstremal şəkildə çirklənməsi ilə əlaqədar olan məlumatlarla təmin edir.

Nazirliyin hüquqları bölməsində:

- 11.30.Qanunvericiliklə müəyyən edilmiş dövrü mətbuat orqanları təsis etmək, ekologiya və təbii sərvətlərə, onların mühafizəsinə və istifadəsinə dair jurnallar, toplular, xüsusi informasiya bülletenləri və digər nəşrləri buraxmaq; [11,s.143-156].

Qeyd edək ki, ölkəmizdə ətraf mühit, insan-təbiət münasibətlərinin, təbiətin qorunmasının bir sıra istiqamətləri ölkənin bəzi digər dövlət qurumları tərəfindən həyata keçirilir. Bunlar Kənd Təsərrüfatı Nazirliyi (bitki mühafizəsi, fitosanitar nəzarət və s. məsələlər), Səhiyyə Nazirliyi (təbiətlə əlaqədar tibbi-sanitar nəzarət və digər tədbirlər), Fövqəladə Hallar Nazirliyi (yanğınların və digər fəlakətlərin, o cümlədən, təbiətə ziyan vura biləcək texnogen fəlakətlərin aradan qaldırılması) kimi ali dövlət qurumlarıdır.

Haqqında bəhs etdiyimiz sahə üzrə dövlət idarəçiliyinin həyata keçirilməsi bu sahədə qanunvericilik, normativ-hüquqi bazasının yaradılmasıdır. Məlumdur ki, respublikamızda bu iş Azərbaycan Respublikasının qanunları, Prezident fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları və digər normativ sənədlərlə tənzimlənir.

Azərbaycanda ətraf təbii mühit və ekologiya ilə bağlı sənəd-kommunika-siyalar sisteminin formalaşmasında qanunların və digər ali dövlət sənədlərinin rolu müstəsna səviyyədədir. Bu sənədlər öz əhəmiyyətinə görə həmin sahə üzrə sənəd kütləsi və axınının tərkibində də müstəsna mövqeyə malikdir. Bu səbəbdən də təd-qiqat işinin növbəti fəslində Azərbaycanda ətraf təbii mühit və ekologiya sənəd kütləsi və



axınının tərkibində qanunların və digər ali dövlət sənədlərinin rolu və əhəmiyyəti məsələsi ətraflı olaraq nəzərdən keçiriləcəkdir.

Azərbaycanda ekologiya sahəsində elm tədqiqatların təşkili məsələsi də bizim tədqiqatımız üçün əhəmiyyət kəsb edən məsələlərdən biridir. Belə ki, ekologiya üzrə sənəd-kommunikasiyalar sisteminin və biblioqrafik informasiyanın yaranmasında elmi-tədqiqat fəaliyyətinin böyük rolu vardır. Məhz belə tədqiqatlar nəticəsində bu sahə üzrə yeni faktlar, məlumatlar əldə edilir, bu məlumatlar nəzəri baxımdan təhlil edilərək ümumiləşdirilir, elmi qanunauyğunluqlar aşkara çıxarılır. Bütün bu tədqiqatların nəticəsi elmi ictimaiyyətə və sənəd-kommunikasiyalar sisteminin digər seqmentlərinə məhz nəşr edilən sənədlər (kitablar, məqalələr, tezislər) və nəşr edilməyən sənədlər (elmi hesabatlar, preprintlər) vasitəsi ilə çatdırılır, bu vasitə ilə cəmiyyətin sənəd-informasiya tələbatı ödənilir. Şübhəsiz ki, bu sistemin yaranıb fəaliyyət göstərməsində biblioqrafik informasiyanın da böyük əhəmiyyəti vardır.

Azərbaycanda ekologiya üzrə elmi-tədqiqat fəaliyyəti **sahəvi-inzibati bölgü** əsasında təşkil edilmişdir. Bu bölgüyə əsasən aşağıdakı tərkib hissələrini fərqləndirmək mümkündür:

1. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tərkibindəki bu sahə üzrə elmi tədqiqatlarla məşğul olan qurum və struktur vahidləri;
2. Səhiyyə və Kənd Təsərrüfatı nazirliklərinin nəzdində ekoloji istiqamətli
tədqiqatlarla məşğul olan qurum və struktur vahidləri;
3. Azərbaycanın dövlət və özəl ali məktəblərinin fəaliyyət göstərən ekoloji istiqamətli kafedralar (fakültələr);

4. Ekoloji istiqamətli qeyri-dövlət təşkilatlarında və özəl tədqiqat müəssisə-lərinin nəzdində ekoloji istiqamətli tədqiqatlarla məşğul olan qurum və struktur vahidləri;
5. İstehsalat (biznes) müəssisələrinin nəzdində ekoloji istiqamətli tədqiqatlarla məşğul olan qurum və struktur vahidləri və s.

Göründüyü kimi, respublikamızda ekoloji tədqiqatlar aparan qurumlar **sahəvi-inzibati bölgü** baxımından xeyli rəngarəngdir. Onların hər biri bu sahə üzrə sənəd kommunikasiyaları üzrə əsas iki vəzifə yetirirlər. Yəni, onlar sahə üzrə sənəd şəklində formalaşan informasiyanı həm generasiya edir (yaradır), həm də istifadə (istehlak) edirlər.

Nəzərə alsaq ki, bir fəaliyyət sahəsi kimi elmi-tədqiqat fəaliyyəti nəinki Azərbaycanda, eləcə də dünya miqyasında sənədli informasiyanı həm ən çox yaradan, həm də ən çox istifadə edən sahədir və bütünlükdə bu sahə üzrə sənəd-kommunikasiyalar sisteminin tərkibində elmin nə səbəbdən aparıcı mövqeyə malik olduğunu anlamaq mümkündür. Bizim tədqiqatlar üçün respublikamızda bu sahə üzrə sənəd-informasiya tələbatının vəziyyəti daha artıq əhəmiyyət kəsb edir. Həmin səbəbdən həmin məsələ bu fəslin ikinci paraqrafında nisbətən ətraflı nəzərdən keçiriləcəkdir.

Hal-hazırda Azərbaycan Milli Elmlər Akademiyasının strukturunda ayrı-ayrı elmlər kompleksləri üzrə 6 elmi bölmə (Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsi, Kimya Elmləri Bölməsi, Yer Haqqında Elmlər Bölməsi, Biologiya Elmləri Bölməsi, Humanitar və İctimai Elmlər Bölməsi, Aqrar Elmlər Bölməsi) və onların tərkibində 37 elmi-tədqiqat institutu və digər elmi müəssisə mövcuddur [170]. Bu elmi-tədqiqat müəssisələrindən 12 müəssisə ekoloji istiqamətli tədqiqatlar həyata keçirilir.



Milli Elmlər Akademiyasının bölmələrində təbiət elmləri üzrə istiqamətlənmiş aşağıdakı elmi-tədqiqat institutlarında ekoloji tədqiqatlar həyata keçirilir:

1. Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsi
   Radiasiya Problemləri İnstitutu
2. Kimya Elmləri Bölməsi
   2.1.Akad.Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
   2.2.Akad. M.F.Nağıyev adına Kimya Problemləri İnstitutu
   2.3.Mineral Xammalın Kompleks Emalı Üzrə Xüsusi Konstruktor-Texnologiya Bürosu
3. Yer Haqqında Elmlər Bölməsi
   3.1.Geologiya İnstitutu
   3.2.Akad. H.Əliyev adına Coğrafiya İnstitutu
4. Biologiya Elmləri Bölməsi
   4.1.Botanika İnstitutu
   4.2.Zoologiya İnstitutu
   4.3.A.İ.Qarayev adına Fiziologiya İnstitutu
   4.4.Mikrobiologiya İnstitutu
   4.5.Mərkəzi Nəbatat bağı
   4.6.Mərdəkan Dendrarisi [170].

Onlar bizim üçün başlıca olaraq bu səbəbdən əhəmiyyət kəsb edirlər ki, bu qurumlar ekologiya üzrə sənəd-kommunikasiyalar sisteminin formalaşmasında yaxından iştirak edirlər.

Azərbaycanda ekoloji tədqiqatların sahəvi-inzibati bölgüsünün təşkilati strukturunda əhəmiyyətli mövqeyə malik növbəti tərkib hissəsi ölkəmizin ali təhsil sistemidir. Belə ki, respublikanın bir çox ali məktəblərində ekoloji profilli kafedralar, elmi-tədqiqat laboratoriyaları fəaliyyət göstərir. Son

zamanlar ölkəmizdə ətraf mühitin mühafizəsi və ekoloji-elmi tədqiqatlar aparılması üçün bakalavr və magistr səviyyəli kadrlar hazırlanır. 2011-ci ildə isə respublikamızda 36 dövlət və 15 özəl ali məktəb fəaliyyət göstərir. Bu məktəblərdə müvafiq olaraq 116930 (dövlət) və 19430 (özəl) nəfər tələbə təhsil alır. Onların təlim-tərbiyəsi ilə 12800 (dövlət) və 2090 (özəl) nəfər professor, dosent və müəllim məşğul olur [60;169]. Bu ali məktəblərin demək olar ki, hamısında təbiət elmləri üzrə kafedralar mövcuddur və bu istiqamətli fənlər tədris edilir. 2012/1013-cü tədris ilində isə respublikamızda 43 ali məktəb fəaliyyət göstərir. Bu ali məktəblərdən 13-də ekoloji profilli kadrlar-ekoloqlar və ekoloq-mühəndislər hazırlanır. [55,s.4-18]. Bu faktlar aşağıdakı cədvəldə öz əksini tapmışdır:

**Cədvəl 1.**

**2012/1013-cü tədris ilində Azərbaycanın ali məktəblərində ekologiya üzrə ixtisas hazırlığı.**

| Sıra N | Ali məktəbin adı | İxtisas adı |
|---|---|---|
| 1. | Azərbaycan Dövlət Aqrar Universiteti | Ekologiya Ekoloji mühəndislik |
| 2. | Azərbaycan Dövlət İqtisad Universiteti | Ekologiya |
| 3. | Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti | Ekoloji mühəndislik |
| 4. | Azərbaycan Dövlət Pedaqoji Universiteti | Ekologiya |
| 5. | Azərbaycan Dövlət Texniki Universiteti | Ekoloji mühəndislik |
| 6. | Bakı Dövlət Universiteti | Ekologiya |
| 7. | Gəncə Dövlət Universiteti | Ekologiya |
| 8. | Gəncə Texnologiya Universiteti | Ekoloji mühəndislik |
| 9. | Lənkəran Dövlət Universiteti | Ekologiya |
| 10. | Milli Aviasiya Akademiyası | Ekoloji mühəndislik |
| 11. | Mingəçevir Politexnik Universiteti | Ekoloji mühəndislik |
| 12. | "Odlar yurdu" Universiteti | Ekoloji mühəndislik |
| 13. | Sumqayıt Dövlət Universiteti | Ekoloji mühəndislik |

**(Mənbə: 2012/2013-cü tədris ili üçün Azərbaycanın ali məktəblərindəki ixtisasların siyahısı // "Abituriyent" jurnalı//2012.-N.2.-S.4-18.)**

Beləliklə, 2012/2013-cü tədris ilində Azərbaycanın 13 ali məktəbində ekoloji istiqamətli ixtisas üzrə tələbə qəbulu olunmuşdur. Bunlardan 5 ali məktəbdə ekologiya, 8 ali məktəbdə isə "ekoloji mühəndislik" ixtisasları üzrə kadr hazırlığı aparılır.

Bu faktlar belə bir fikir yürütməyə əsas verir ki, bu ali məktəblərdə ekoloji fənləri tədris edən professor-müəllim heyəti həm tədris, həm də paralel olaraq elmi fəaliyyətlə məşğul olurlar və deməli, onlar ekoloji məzmunlu sənəd-informasiya tələbatçılardır. Bundan başqa, həmin məktəblərdə tələbələr ekoloji məzmunlu sənəd-informasiya tələbatçılardır. Onu da nəzərə almaq lazımdır ki, həmin təhsil müəssisələrində çalışan təhsil işçiləri həm də ekoloji məzmunlu sənəd-informasiya məhsulunun yaradıçısıdırlar. Beləliklə, adı çəkilən ali

məktəblərin professor-müəllim (eləcə də, aspirantura, magistratura səviyyəsində tədqiqat aparan şəxslər) bu sahə üzrə həm də elmi fəaliyyətdə sənəd-kommunikasiya proseslərinin iştirakçılarıdırlar.

Azərbaycanda ekoloji tədqiqatların sahəvi-inzibati bölgüsünün təşkilati strukturunda növbəti tərkib hissəsi bu sahə üzrə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarıdır üzvləridir. Hələ 2012-ci ildə Azərbaycanda mövcud olan QHT-lərin sayı 3600-ı keçmişdi [155]. Özü də, Azərbaycanda ictimai birliklər haqqında mövcud qanunvericilik bu qurumların mütləq Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilməsini tələb etmir. Bu səbəbdən də bir çox təşkilatlar belə qeydiyyatdan keçmədən fəaliyyət göstərir. Aparılan araşdırma nəticəsində aşkara çıxarılmışdır ki, 2015-ci ildə həmin rəqəm artaraq 4 mindən çox olmuşdur ki, bunlardan da təqribən 3 mini Ədliyyə Nazirliyindən qeydiyyatdan keçmişdir. Bu təşkilartlardan təqribən 120 təşkilat sırf ətraf mühitlə,ekologiya bağlı QHT-dir. Bundan başqa, bir sıra digər QHT-lər də mütəmadi olaraq ekoloji istiqamətli layihələrlə məşğul olurlar.

Ekoloji yönümlü QHT-lər öz qarşısında əsasən maarifçilik, təbiətin qorunması ilə əlaqədar praktik vəzifələr qoyur. Bununla yanaşı, onların arasında müəyyən ekoloji araşdırma aparan təşkilatlar da vardır. Beləliklə, respublikamızda ekoloji istiqamətli elmi sənəd-informasiya kommunikasiyalar sistemində, sənəd dövriyyəsində qeyri- hökumət təşkilatlarının da mühüm xüsusi çəkisi vardır. Bu təşkilatlar bəhs etdiyimiz istiqamətdə kollektiv sənəd- informasiya tələbatçılarının, orada çalışan mütəxəssis və könüllülər isə fərdi sənəd-informasiya tələbatçılarının böyük bir kontingentini təşkil edirlər. Bu səbəbdən də onların ekoloji məzmunlu sənədlərlə, biblioqrafik



informasiya ilə təmin edilməsi çox mühüm məsələdir. Lakin çox təəssüf ki, indiyə kimi bu təşkilatların sənədlərlə, biblioqrafik informasiya ilə təmin edilməsi məsələsi üzrə heç bir layihə həyata, böyük tədbir keçirilməmişdir. Bu təşkilatların fəaliyyəti sahə üzrə sənəd- informasiya tələbatının artmasına səbəb olurlar. Onlardan bəziləri öz ofislərində bu sahə üzrə kiçik də olsa sənəd fondu formalşdırırlar.

Azərbaycanda ekoloji istiqamətli tədqiqatlar bir sıra biznes qurumları, istehsalat müəssisələri və qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilir. Bunlara ən parlaq misal ARDNŞ-ın Ekologiya İdarəsidir. Bu idarə neft çıxarma və neft emalı nəticəsində çirklənmiş ərazilərin rekultivasiyası ilə yanaşı, ətraf mühitin mühafizəsinin bir çox problemlərinə dair tədqiqatlar aparır. Tədqiq etdiyimiz sahə üzrə fəaliyyət göstərən kommersiya əsaslı müəssisələrə ACEP müstəqil özəl ekoloji şirkətini, "AzEkoLab" şirkətini və s. özəl qurumları nümunə gətirməkmümkündür [162; 163].

Ölkəmizdə ətraf təbii mühitin mühafizəsi problemləri, ekologiya elmi istiqamətində fəaliyyət göstərən müəssisələr bu sahə üzrə həm informasiya tələbat-çıları, həm də informasiya istehsalçılarıdır. Bu səbəbdən ekologiya üzrə fəaliyyət göstərən təsisatların təşkilati, inzibati aidiyyatı üzrə tərkibi daha ətraflı bu fəslin növbəti paraqrafında nəzərdən keçiriləcəkdir.

Deyilənləri yekunlaşdıraraq belə bir fikrə gəlmək mümkündür ki, Azərbay-canda ətraf mühitin mühafizəsi kifayət qədər geniş inkişaf etmiş bir ictimai fəlaiy-yət sahəsidir. Bu səbəbdən də həmin sahə üzrə geniş ictimai informasiya tələbatı formalaşmışdır. Həmin sahənin dövlət səviyyəli idarə edilməsini Prezidentin idarəsi altında Prezident

Adminstrasiyası, digər icra orqanı olan Nazirlər Kabineti və ixtisaslaşdırılmış idarəetmə-icra orqanı Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir. Nazirlik kifayət qədər geniş struktura, mütəxəssis heyətinə malikdir. Bu sahədə milli qanunvericilik Milli Məclis tərəfindən hazırlanır.

Ölkədə ətraf mühitin qorunması sahəsində praktik fəaliyyətə gəldikdə isə, bu işlə qeyd etdiyimiz Nazirlik, eləcə də müəyyən istiqamətlərdə Kənd Təsərrüfatı və Səhiyyə nazirlikləri ilə yanaşı bir çox sənaye müəssisələri, şirkətlər, qeyri-hökumət təşkilatları məşğul olurlar. Ekologiya elminə gəldikdə isə, ölkəmizdə həmin sahə üzrə tədqiqatlar əsasən Milli Elmlər Akademiyasının institutları və ölkənin ali məktəbləri məşğul olurlar.

Ölkədə ekoloji təhsil sistemi də geniş inkişaf etmişdir. 2012-2013-cü illərdə ölkənin 13 ali məktəbində ekoloji istiqamətdə kadr hazırlığı həyata keçirilir. Sahə üzrə intensiv sənəd-informasiya tələbatına malik olan digər sektor QHT sektorudur ki, bu sahə üzrə sənəd-informasiya və biblioqrafik təminat böyük əhəmiyyətə malikdir. Bütün bu sahələrdə mövcud olan kontingent seqmentləri ölkənin bu sahə üzrə ictimai (onun tərkibində isə kollektiv və fərdi) sənəd-informasiya tələbatını əmələ gətirir. Həmin tələbatçılar bu sahədə informasiyanı yaradan və tələbatçılara çatdıran vasitələrlə birlikdə sahənin sənəd-kommunikasiyalar sisteminin təşkil edir. Bildiyimiz kimi, bu sistemin vacib komponentlərindən biri də bu sahə üzrə biblioqrafik vasitələr sistemidir. Sahə üzrə sənəd-kommunikasiyalar sisteminin xüsusiyyətlərinin öyrənilməsi üçün bu sahədə formalaşmış informasiya tələbatının xüsusiyyətləri ilə yaxından tanış olmaq zəruridir.



## 1.2. Ətraf mühitin mühafizəsi və ekologiya üzrə informasiya tələbatının xüsusiyyətləri

Sənəd-kommunikasiyalar sistemində fəaliyyət göstərən təsisatların bir sıra vəzifələri vardır. Lakin həmin vəzifələr sırasında əsas yeri informasiya tələbatının ödənilməsi tutur. Kitabxana tələbatçılarının informasiya tələbatının kitabxana-biblioqrafik fəaliyyət üçün əhəmiyyəti məsələləri Azərbaycan tədqiqatçıları prof. A.A. Xələfovun, prof. Z.H. Əliyevin, dos. Ə.M.Rüstəmovun, dos. N.İ.İsmayılovun bir sıra kitab və məqalələrində nəzərdən keçirilmişdir.

Məsələn, prof. A.A. Xələfov özünün 2002-ci ildə dərc edilmiş məqaləsində informasiyalaşdırlmış cəmiyyətdə informasiyanın rolu və informasiya tələbatlarının kitabxana fəaliyyəti üçün əhəmiyyəti məsələlərini nəzərdən keçirmişdir [42]. Alimin yenə həmin ildə dərc edilmiş digər bir məqaləsində kitabxana fondlarının formalaşdırılması zamanı oxucuların informasiya tələbatının nəzərə alınması məsələlərinə diqqət yetirlmişdir [43]. Professorun 2006-cı ildə nəşr edilmiş "XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin inkişaf istiqamətləri: mülahizələr, təkliflər və proqramlar" kitabında da informasiya tələbatı məsələsinə xüsusi diqqət yetirilmişdir O, öz kitabının "Kitabxana və cəmiyyət" bölməsində qeyd edir ki, "informasiyalaşdırma cəmiyyət üzvlərinin, dövlət idarəçilik və yerli özünüidarə orqanlarının, cəmiyyətin bütün sosial strukturlarının, ictimai təşkilatların, informasiya ehtiyatlarını formalaşdırmaq və ondan istifadə etmək əsasında informasiya tələbatını ödəmək üçün optimal şərait yaradan, həmçinin bu sahədə vətəndaşların hüquqlarının həyata keçirilməsini təşkil

edən sosial-iqtisadi prosesdir [39]. Cəmiyyətin, ayrı-ayrı sosial qurumların, təşkilatların və eləcədə vətəndaşların informasiya tələbatlarının öyrənilməsi və kitabxanaların fəaliyyətində həmin tələbatların nəzərə alınmasının vacibliyi məsələləri prof. A.A. Xələfovun bir sıra digər sanballı elmi əsrlərində də ətraflı nəzərdən keçirilmişdir [40;41;44].

Görkəmli alim, biblioqrafiyaşünas Z.H.Əliyevin tədqiqatlarında da informasiya tələbatlarının öyrənilməsi və ödənilməsi məsələlərinə diqqət yetirilmişdir. Alim bu məsələləri xüsusən də 1985-ci ildə nəşr edilmiş "Müasir dövrdə Azərbaycanda elmi-tədqiqat işçilərinin və mütəxəssislərin biblioqrafik təminatının əsas istiqamətləri" adlı məqaləsində yaxından nəzərdən keçirmişdir. Alim özünün 1985-ci ildə dərc edilmiş "Müasir dövrdə Azərbaycanda elmi-tədqiqat işçilərinin və mütəxəssislərin biblioqrafik təminatının əsas istiqamətləri" adlı məqaləsində elmi-tədqiqat işçilərinin və mütəxəssislərin informasiya tələbatının həmin işçilərə biblioqrafik xidmət üçün necə əhəmiyyət kəsb etməsini göstərmişdir. Təbii ki, bu sözlər həm də ətraf mühitin mühafizəsi üzrə fəaliyyətə və ekologiya elminə də aid edilə bilər [22]. Alim özünün "Biblioqrafik informasiya və onun elmi mahiyyəti" adı digər bir məqaləsində informasiya tələbatının biblioqrafik tələbatla üzvi əlaqədə olduğunun vurğulamış və ikincinin birinci əsasında yarandığını göstərmişdir [21]. Məsələnin bu cür qoyuluşu alimin "Biblioqrafik informasiya sənəd informasiya tələbatının ödənilməsində mühüm vasitədir" adlı məqaləsində də aşkar şəkildə nəzərə çarpır ki, bu fikirlər bizim tədqiqatımızın predmeti olan sahələrə də tam mənada aid edilə bilər [20].

Bütünlükdə cəmiyyətin, onun ayrı-ayrı seqmentlərinin, müxtəlif tələbatçı qruplarının ilkin informasiya və biblioqrafik



informasiya tələbatları digər bir tanınmış biblioqrafiyaşünasın-dos. N. N. İsmayılovun elmi yaradıcılığında, əsərlərində də aşkar şəkildə nəzərə çarpır. Alimin yaradıcılığında tibb və səhiyyə sahəsinə xüsusi diqqət yetirilsə də, onun fikirləri bizim tədqiqatımızın predmetin olan sahəyə də şamil edilə bilər. Məsələ bu cür yanaşmanın timsalı kimi alimin 1986-cı ildə dərc edilmiş "Azərbaycan SSR-də tibb işçilərinin peşə tələbatının öyrənilməsi əsasında təbabət üzrə məhəlli sənəd axınının təhlili " adlı məqalələri misal gətirilə bilər [53;54]. Dos. N. N. İsmayılovun 2003-cü ildə rus dilində nəşr edilmiş "Библиотечно-библиографические и информационные ресурсы Азербайджанской Республики: Состояние и пути совершенствования" adı monoqrafiyasında da cəmiyyətin, ayrı-ayrı elm sahələrinin informasiya tələbatı və önun ödənilməsi üzrə kitabxanaların vəzifələri məsələsini toxunulmuşdur [116].

Ətraf mühitin mühafizəsi üzrə fəaliyyətin və ekologiya elminin informasiya, o cümlədən sənəd və biblioqrafik informasiya tələbatı, onun öyrənilməsi və ödənilməsi məsələləri uzaq xarici ölkələrin və MDB-nin elmi ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu ölkələrdə, xüsusən də Rusiya Federasiyasında elmi ictimaiyyət cəmiyyətin, ayrı-ayrı mütəxəssislərin informasiya tələbatı, bu tələbatın öyrənilməsində tətbiq edilən metodlar, ətraf mühitin mühafizəsi və ekologiya sahəsinin informasiya təminatının, o cümlədən kitabxana-biblioqrafik təminatı üçün informasiya tələbatlarının öyrənilməsi məsələsinə böyük diqqət yetirir. Bu məsələlər rus alimləri M.A. Briksmanın, A.V. Sokolovun, O.P. Korşunovun,

D. Y. Koqotkovun, E. K. Bespalovanın, eləcə də V. Baraxnin, A. Fedotovun, V. Stupkinin, E. Kotovun, A. Tselıxın, Q, Sorokinanın, M. Polişukun, Y. Dreşerin, İ. Salnikovun, İ. Kamenitskayanın, M. Zaqidullinanın, N. Mazovun, V. Qureyevin, İ. Burovanın, İ. Sanikovun, T. Yerşovanın, Y. Koçukovanın, O. Pavlovanın və bir çox digər tədqiqatçıların, Azərbaycanda isə Z.H. Əliyevin, N.İ. İsmayılovun, Ə.M.Məmmədovun əsərlərində ətraflı nəzərdən keçirilmişdir. Məsələn, görkəmli biblioqrafiyaşünas prof. Z.Ə. Əliyev qeyd edir ki, "biblioqrafiya sənədləri xüsusi bir hadisə kimi deyil, müəyyən ictimai tələbata nə dərəcədə uyğun gəlməsi nöqteyi-nəzərdən öyrənir və bu tələbatın biblioqrafik təminatının optimal yollarının və vasitələrinin nəzəri-metodiki şərhini verir" [23].

Tədqiqatçı Y. N. Dreşer mütəxəssislərin informasiya tələbatının monitorinqinə həsr edilmiş xeyli maraqlı məqaləsində bu tələbatin əhəmiyyətindən, bu monitorinqin yerinə yetirilməsi xüsusiyyətlərindən bəhs edir. Bu məqalədə müəllifin informasiya tələbatının öyrənilməsi tarixinə dair gətirdiyi faktlar da xeyli maraq doğurur. Belə ki, bu sahədə il tədqiqatlar 1940-cı illərin sonunda ABŞ-da başlamışdı. Bu əsasən biblioqrafik informasiyanın riyazi-statistik emalı vasitəsi ilə həyata keçirilirdi ki, bu da sonralar "bibliometriya" adını aldı. Belə tədqiqatlar vasitəsi ilə əldə edilən nəticələr müxtəlif tələbatçı qruplarının müxtəlif sənəd növ və qruplarına yönələn informasiya sorğuları barədə məlumat almağa kömək etdi. Lakin bu tədqiqatlar epizodik xarakter daşıyır, informasiya tələbatının az aspektini əhatə etdirdir. 1960-cı illərədə belə tədqiqatlar daha geniş vüsət aldı. Bu zaman müşahidə və anket tədqiqatları metodları tətbiq edilməyə, tələbatçıların



diferensiasiyasının müxtəlif əlamətlərə görə tədqiqinə başlandı. Müəllif daha sonra avtomatlaşdırılmış informasiya-axtarış sistemlərinin meydana çıxmasının informasiya tələbatına təsirindən bəhs edərək haqlı olaraq göstərir ki, bu yeni şərait ənənəvi texnologiyalarla müqayisədə informasiya tələbatının öyrənilməsinin əhəmiyyətini daha da artır. Bu səbəbdən müasir kitabxanaçılıq praktikasında informasiya tələbatının ödənilməsi məsələsinə daha artıq diqqət yetirilməli, müasir metodlarla yanaşı, ənənəvi metodların imkanlarından istifadə edilməlidir [107,s.155-163].

Digər tədqiqatçı, Rusiyanın Penza Dövlət Texnologiya Universitetinin əməkdaşı İ. Salnikov insanın informasiya tələbatının haradan meydana gəlməsini araşdırır. Onun fikrincə hər bir fərd öz həyatı boyunca informasiya tələbatçısı qismində çıxış edir. Bu tələbatın əsas hərəkətverici qüvvəsi isə insanın evristik qabiliyyətidir. İnsanın evristik qabiliyyəti onun zəkasının ən parlaq ifadəsidir. Tədqiqatçı bu qabiliyyətin tərkibində üç vacib aspekti qeyd edir və bunlara aşağıdakıları aid edir:

1.Ətraf aləmin faktları, hadisələri haqqında informasiyanın qeyd edilməsi; 2.Müşahidə edilən hadisənin modelinin formalaşdırılması;

3.Insanın öz evristik qabiliyyətindən istifadə etməklə qurulmuş modelin təhlili və qanunauyğunluqların aşkara çıxarılması. Tədqiqatçının fikrincə, kitabxanaların öz funksiyalarını yerinə yetirilməsi üçün informasiya tələbatının bu xüsusiyyətlərinə diqqət yetirilməli və informasiya tələbatının öyrənilməsi zamanı bu məsələlər nəzərə alınmalıdır [141,s.11-15].

Y. Koçukova və O. Pavlova informasiya tələbatına həsr edilmiş məqalələrində Rusiya Elmlər Akademiyasının Təbiət Elmləri Kitabxanasının tarixinə nəzər salaraq qeyd edir ki, 1973-cü ildə yaradılmış Kitabxana indi Akademiyanın təbiətşünaslıq profilli müəssisələrinə xidmət edən 130 elmi kitabxanadan ibarət şəbəkəyə başçılıq edir. Belə bir məsuliyyət Kitabxana mütəxəssislərindən tələbatçıların informasiya ehtiyaclarına böyük diqqətlə yanaşmağı, onu öyrənməyi tələb edir. Kitabxanada daim xidmət göstərilən elmi müəssisələrin alim və mütəxəssislərin informasiya ehtiyaclarının öyrənilməsi istiqamətində tədbirlər keçirilir. Bu zaman ən müxtəlif metodlar tətbiq edilir. Bu araşdırmalar nəticəsində aşkara çıxarılmışdır ki, alimlər öz sənəd-informasiya tələbatlarının ödənilməsi üçün ən əhəmiyyətli mənbəni elmi jurnalları, onlardan sonra elmi monoqrafiyaları, üçüncü yerdə elmi konfrans və tədbirlərin çap edilmiş materialları, dördüncü yerdə isə məqalələr məcmuələri durur. Həmin tədqiqatların nəticələri əsasında qeyri-dövri ədəbiyyatın tematik-tipoloji komplektləşdirilməsi planları tərtib edilir ki, bunun əsasında alınan ədəbiyyat tələbatçıların sənəd-informasiya ehtiyaclarını daha dolğun şəkildə ödəməyə imkan verir [126,s.80-84].

N. Mazovun və V. Qureyevin müəllifi olduğu digər məqalədə isə alimlərin informasiya tələbatının öyrənilməsində bibliometrik təhlildən istifadə edilməsindən bəhs edilir və belə təhlilin fondun komplektləşdirmə prosesinin səmərəliyinin yüksəldilməsi üçün əhəmiyyəti qeyd edilir. Müəlliflər qeyd edir ki, bu gün bibliometrik üsul mütəxəssislərin informasiya tələbatının öyrənilməsi üçün ən mütərəqqi metodlardan biri hesab edilir və son illər bu metoda verilən dəyər daim artmaqda davam edir. Bibliometrik informasiyanın beynəlxalq miqyasda



tanınmış ən mötəbər mənbələri Tomson şirkətinin WoS və Elsevier şirkətinin Scopus onlayn bibliometrik verilənlər bazalarıdır. Bibliometrik təhlil əvvəldən müəyyən edilmiş alqoritmlər əsasında xüsusi proqram təminatları ilə həyata keçirilir. Bu zaman müxtəlif ilkin verilənlərdən istifadə edilir. Belə verilənlər qismində jurnalın impakt faktoru, Eygenfaktor, nəşrə olan tələbat (bu faktor jurnal verilişi müraciətlərin miqdarı, yox cavabları və ya isnad verilməsi əsasında hesablanır),Hirş indeksi, Journal Citation Reports, Scopus, SciMago kimi nüfuzlu verilənlər bazaları vasitəsi ilə təqdim edilən f-indeks, ali attestasiya komissiyasının siyahıları və s çıxış edə bilər.

Bibliometrik təhlil zamanı riyazi metodlardan və statistik analiz metodlarından istifadə edilir. Bu metodun yüksək effektivliyi onun populyarlığına səbəb olur ki, bunun nəticəsində ona həsr edilən tədqiqatların miqdarı ildən-ilə artmaqdadır. Bu metod elmi ictimaiyyətə elmin, texnikanın ayrı-ayrı sahələrinin əhəmiyyətinin yüksəlməsi, alimlərin, elmi qrupların, elmi təşkilatların reytinqləri haqqında məlumat verir [132,s.57-66].

Digər bir tədqiqatçı M. Polişukun sosioloji tədqiqatlara əsasən yazılmış kitabxana istifadəçilərinin informasiya tələbatı mövzusunda olan məqaləsi də xeyli maraq doğurur. Bu sosioloji tədqiqat Rusiya Federasiyasının Udmurtiya Respublikasının paytaxtı İjevsk şəhərində yerləşən İ.D. Pastuxov adına filial kitabxananın oxucuları arasında aparılmışdır. Tədqiqatda əsas məqsəd tələbatçıların qanunla təsbit edilmiş informasiyaya azad əlyetərlik hüququnun necə reallaşmasını araşdırmaq olmuşdur. Tədqiqatın məqsədlərinə çatmaq üçün qarşıya bir sıra vəzifələr qoyulmuşdur: tələbatçıların aldıqları informasiyanın hansı

məqsəd üçün tətbiq edilməsinin müəyyən edilməsi, tələbatçıların kitabxanada daha hansı məlumat və xidmətlərin almalarını arzu etmələrini dəqiqləşdirmək. [139,s.54-60]. Bu mövzuda adları 41-43-cü səhifələrdə sadalanan alimlər və bundan başqa digər müəlliflər(V. B. Baraxnin, İ. V. Burova, İ.A. Valdman, L. İ. Qaptarvanova, S. Q. Kosaretski, A. M. Fedotov, T. V. Yerşova, M.V. Zaqidullina, İ. V. Kaminetskaya, E. M. Kotov, A. N. Tselıx, Y.V. Koçukova, Mazov N.A., O.V. Pavlova,V. N. Qureyev, O.A. Oqanova, Q. İ. Sorokina, M. A. Polişuk, İ. İ. Salnikov, A. V. Sokolov, V.V. Stupkin, M.V. Xompodoeva T. A. Mertsalova və başqaları) tədqiqatlar aparılmışdır ki, onların tədqiqatlarının nəticələri barədə məqalələr ədəbiyyat siyahısında əks edilmişdir.

Rusiya Federasiyasından olan tədqiqatçı - V.V.Stupkin isə öz məqaləsində informasiya tələbatının öyrənilməsinin kitabxana-biblioqrafik xidmət üçün əhəmiyyətini vurğulamaqla yanaşı, informasiya tələbatının öyrənilməsinin özünün çox mürəkkəb bir proses olduğunu qeyd edir. O, həmin çətinliklərə aşağıdakıları aid edir.

1.İnformasiya tələbatı psixososial və psixoloji fenomen olub nəinki ölçülməyə, hətta əks olunmağa çox çətinliklə məruz qalır. Çox zaman respondentlər-tələbatçılar özləri öz tələbatlarını şərh etməkdə çətinlik çəkirlər və ya dəqiq şəkildə təsvir edə bilmirlər;

2. İnformasiya tələbatı çox aspektlilik və dəyişkənlik ilə xarakterizə olunur. Xüsusilə elmi innovasiya layihə və proqramları ilə məşğul olan tələbatçı-mütəxəssislərin maraqları çox geniş, tələb etdikləri informasiyanın həcmi isə çox böyük olması;



3. İnformasiya tələbatı barədə səhih informasiya almaq bu tələbatın proqnostik xarakteri olması səbəbindən xeyli çətindir. Çox zaman tələbatçı özü ona məhz hansı informasiya lazım olması barədə tam təsəvvürə malik olmur;

4.İnformasiya tələbatının təqdi8m edilməsi zamanı bu tələbat barəsində informasiyanın kodlaşdırılması və indeksikasiya edilməsində və tələbatçı tərəfindən onun informasiya ehtiyaclarının ifadə edilmsəində çətinliklər axtarışın dəqiqliyini xeyli azaldır;

5. İnformasiyanın həcminin fasiləsiz olaraq artması və müasir informasiya-kommunikasiya texnologiyalarının tələbatçıya qeyri məhdud informasiya ehtiyatlarına əlyetərlik yaratması tələbatçının bu izafilik içərisində çaşıb qalmasına səbəb olmuşdur.

Tədqiqatçının fikrincə, informasiya tələbatının dərindən öyrənilməsi xüsusilə elmi-tədqiqat fəaliyyətinin kitabxana-biblioqrafik təminatı üçün çox əhəmiyyətlidir [146,s.143-147].

Kitabxanalarda və digər sənəd-kommunikasiya müəssisələrində sənəd-informasiya tələbatının xüsusiyyətləri, onun öyrənilməsi məsələsi bütün elm və fəaliyyət sahələri kimi bizim tədqiq etdiyimiz sahə üçün də böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən də həmin problem bir çox tədqiqatçıların diqqətini cəlb etmişdir. Məsələn, Rusiya Müdafiə Nazirliyi Dövlət Elmi-Tədqiqat Hərbi Tibb İnstitutunun əməkdaşı V. Yevdokimov "Ekologiya çeloveka" jurnalının 2005-ci il 11-ci nömrəsində ekologiya sahəsində elmi tədqiqatların informasiya təminatı məsələsinə həsr edilmiş məqalə dərc etdirmişdir. Tədqiqatçı qeyd edir ki, ekologiya üzrə çalışan mütəxəssis əvvəlcə qarşıda duran əsas məqsəd və vəzifələri müəyyən etməli və bu məqsədlərə yetmək üçün hansı informasiya

mənbələrindən istifadə edəcəyini müəyyənləşdirməlidir. Məqalədə müasir sənəd kommunikasiyalar sisteminin tərkibində ekologiya, xüsusilə insan ekologiyası mövzusunda sənəd-informasiya tələbatını ödəyəcək cari və ardı davam edən biblioqrafik mənbələr haqqında məlumat verilir. Belə mənbələr sırasında ilk növbədə Rusiya Kitab Palatasının salnamələrin, referativ jurnalların adı çəkilir. Həmin referativ jurnallar sırasında VİNİTİ-nin nəşr etdiyi 6 addа aylıq nəşrin, Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının buraxdığı bir adda rüblük referativ jurnalın adı çəkilir [110,s.53-57]. Bu mövzuya yaxın yanaşma bir sıra digər tədqiqatçıların əsəsrlərində də müşahidə olunur [131,s.231-233; 173].

Ətraf mühitin mühafizəsi və ekologiya sahəsinin informasiya tələbatı, bu tələbatın ödənilməsi xüsusiyyətləri istiqamətində Q.K. Bondarik, Y.N. Yerusalimskaya, L.A. Yarq, Q.V.Vıpxanova, N.V. Şaronova, M.M. Kozulya, Y.V. Svyatkin, Y.M. Arskin, İ.İ. Potapov, Y.V. Kartseva və başqa tədqiqatçılar araşdırma aparmış, maraqlı məqalələr dərc etdirmişlər. Rusiya Federasiyasında bu mövzuda dissertasiya işləri də müdafiə edilmişdir. Bunlara misal olaraq N.A. Yeqorovanın, S. L. Djenyukun, D. Mohammedin, V.B. Gennadnikin dissertasiyalarını misal göstərmək olar [101; 105; 106;111].

Sənəd-kommunikasiyalar sistemini müxtəlif aspektlərdən təhlil edən elm sahələrində informasiya tələbatı məsələlərinə xüsusi diqqət yetirilir. Belə tədqiqatlar kitabxanaşünaslıqda və onun xüsusi bir elmi istiqaməti kimi oxucuşünaslıqda, biblioqrafiyaşünaslıqda, informasiya nəzəriyyəsində xüsusi ilə geniş miqyasda aparılmışdır [124;128;138].



İnformasiya tələbatı məsələsi təhlil edilərkən ilk növbədə informasiya tələbatının genezisinə, onun insan tələbatları sistemində mövqeyinə nəzər salmaq lazımdır. Bildiyimiz kimi, həm fərdin, həm ictimai qrupun və eləcə də bütün bəşəriyyətin həyat prosesində bir sıra tələbatlar meydana çıxır. Bunlardan bir qrupu insanın bilavasitə bioloji xislətindən irəli gəlir (qidaya, suya, qışda istiliyə, yayda sərinə və s. tələbat). Digərləri isə sırf maddi tələbat deyildir və ya maddi tələbatlarla dolayısı ilə bağlıdır. Bunlara sosial yardıma, həmrəyliyə, cəmiyyətlə inteqrasiya olunmağa, rəğbətə və s. olan tələbatdır. İnformasiya tələbatı da ikinci qrupa aid edilir.

İnsanın lazımi informasiya əldə etmək sahəsində fəaliyyəti şəxsiyyətin fəallığının aparıcı göstəricilərdən biridir. Şəxsiyyətin həmin istiqamətdə fəaliyyətini **informasiya tələbatı fəaliyyəti** də adlandırmaq olar [92]. Müşahidələr göstərir ki, insanın peşə fəaliyyəti nə qədər inkişaf edər və mürəkkəbləşərsə, onun informasiya tələbatı da bundan asılı olaraq inkişaf edərək mürəkkəbləşər. Belə xüsusiyyətlər ekologiya və ətraf mühitin mühafizəsi sahəsində xüsusilə nəzərə çarpır. Məsələn, Azərbaycanda insanların ətraf mühitin mühafizəsi üzrə fəaliyyətə cəlb olunması nisbətən gec, müasir zamanlarda meydana çıxmışdır.

Ümumilikdə informasiya tələbatının və xüsusən də onun vacib tərkib hissəsi olan sənəd- informasiya tələbatının əhəmiyyətli əlamətlərdən biri bu tələbatın obyektiv və ya subyektiv olmasıdır. Tələbatçının informasiya tələbatının obyektiv və subyektiv olmasının arasındakı fərqi müqayisə yolu ilə müəyyən etmək olar. Belə bir fərqi müəyyənləşdirmək üçün insanın həmin informasiya barəsində təsəvvürlərini təhlil etmək və bunun əsasında konkret informasiyanın bu şəxsə nə

qədər zəruri olduğunu müəyyənləşdirmək tələb olunur. Belə bir təhlil aparmaq bir sira hallarda xeyli vaxt və zəhmət tələb edir. Bu xüsusilə ekologiya üzrə geniş və mürəkkəb informasiya tələbatına malik olan alim və yüksək ixtisaslı mütəxəssislərə daha çox aiddir. Belə bir təhsillə məşğul olan şəxslərin informasiya tələbatı öyrənilməsi üçün də əhəmiyyəti böyükdür. Bütün yuxarıda qeyd edilənlər sübut edir ki, informasiya tələbatı informasiya fəaliyyətini stimullaşdıran amildir.

Bəs sənədli informasiyaya tələbat hansı alqoritmlə, hansı ardıcıllıqla yaranır? Məlumdur ki, istər ayrıca bir fərd istərsə də, ayrı-ayrı ictimai qruplar hansı rasional fəaliyyət sahəsi (istehsal), tədris (təhsil), idarəetmə, elmi və texniki yaradıcılıq və s. ilə məşğul olursa-olsun, mütləq informasiyaya ehtiyac hiss edəcəkdir. Sənədli informasiyaya ehtiyac qaçılmaz olaraq, insanların arzusundan asılı olmayaraq meydana çıxan ictimai fenomendir.

Əlbəttə, insan və ya qrup bu informasiyanı əvvəlcə yuxarıda qeyd etdiyimiz tarixən ilkin yolla, ən sadə üsulla-şifahi ünsiyyət vasitəsi ilə almağa cəhd edəcəkdir və bu barədə insanlara sorğu ilə müraciət edərək lazımi informasiyanı əldə etməyə çalışacaqdır. Təbii ki, bir sıra hallarda bu, müsbət nəticə verəcək və lazımi informasiyanı şifahi yolla əldə etmək mümkün olacaqdır. Lakin bir çox halda xüsusən geniş həcmli, dəqiq, ən yeni, mötəbər informasiyaya ehtiyac olduqda belə bir müraciət bir nəticə vermir. Belə bir vəziyyətdə lazımi informasiyanı sənədlərdən əldə etmək ideyası ortaya çıxır. Bu zaman meydana çıxan tələbat ümumilikdə informasiya tələbatının bir növüdür və bu mahiyyətcə sənəd-informasiya tələbatıdır. Belə bir vəziyyətdə fərd və ya qrup sənəd-informasiya tələbatının daşıyıcısı qismində çıxış edir.



İnformasiya tələbatı sənəd-kommunikasiyalar sistemində fəal bir ünsür kimi özünü göstərir, yəni həmin tələbat sənəd-kommunikasiyalar sisteminə daxil olan təsisatların fəaliyyətinə təsir edir,onları həmin tələbatı mümkün qədər tam və dolğun ödənilməsinə vadar edir. Sənəd- informasiya tələbatı dərk edilən və dərk edilməyən formalarda ola bilər. Sənəd informasiya tələbatının dərk edilən və dərk edilməyən olduğunu bilirik. Birinci şəkildə subyekt ona lazım olan informasiyanın sənədlərdə tapınacağını dərk edir, bilir, o informasiyanın hansısa sənədlərdə əks olunduğunu anlayır və bir çox halda həmin sənədlərin tapılması üçün fəaliyyətə başlayır. Onun atacağı növbəti addım həmin sənədi taparaq oradan lazımi informasiyanı əldə etmək olur. İkinci halda o, özünə lazım olan informasiyanın yazılı formada, sənədlərdə əks olunduğunu ağlına belə gətirmir, sənədlərdə əks oluna biləcəyini təsəvvür etmir və təbii ki, belə bir sənədi də axtarmır. Əksər hallarda həmin insanlar qeyri-rəsmi informasiya kanalları vasitəsilə belə informasiyanın sənədlərdə də tapıla biləcəyi barədə məlumat əldə edir və bu istiqamətdə addımlar atır. Bundan sonra onun sadə informasiya tələbatı sənəd informasiya tələbatına çevrilir. Bu səbəbdən, sənəd-kommunikasiyalar sisteminin müxtəlif təsisatlarında çalışan mütəxəssislər subyektin dərk edilməyən sənəd-informasiya tələbatının mövcudluğunu da nəzərə almalı və bu şəxslərlə ünsiyyət qurmaqla onların öz informasiya tələbatlarını sənədlə ödəmələrinin mümkün olma-sını anlatmalıdırlar.

Sənəd-kommunikasiyalar sistemində informasiya tələbatının ödənilməsinin formal və qeyri-formal deyilən kanalları var. Qeyri-formal dedikdə insanların öz aralarında informasiyanın vəzifə borcuna və ya rəsmi münasibətlərə görə

deyil, qeyri-rəsmi yolla mübadiləsi nəzərdə tutulur. Belə mübadilə tanışlar, bir təhsil müəssisəsində oxuyan şəxslər, həmkarlar arasında daha çox baş verir. Bundan fərqli olaraq formal informasiya kanallarında ilkin və ya sənəd formasında olan informasiya vəzifəsi bilavasitə həmin informasiyanın cəmiyyətə çatdırmaqdan ibarət olan qurumlar tərəfindən verilir.

Beləliklə,bizim fikrimizcə, insanların ilkin tələbatlarından sənəd-informasiya tələbatlarının meydana gəlməsini aşağıdakı sxem şəklində təsvir etmək mümkündür:

**Sxem 1. İnsanların ilkin tələbatlarından sənəd-informasiya tələbatlarının meydana gəlməsi alqoritmi.**






Ekoloji məzmunlu sənəd-informasiya tələbatı bu sahə üzrə informasiyaya ehtiyacı olan tələbatçılar vasitəsi ilə təzahür edir. Bu sahənin tələbatçıların tərkibi də digər elm sahələrindən xeyli fərqlənir. Burada fərqli cəhət təkcə burada çalışan mütəxəssislərin peşə aidiyyəti deyil, həm də müəyyən elm sahələri üzrə çalışan tələbatçılar qrupunun tərkibindəki xüsusiyyətlərdir.

Ekologiya və ətraf mühitin mühafizəsi sahəsində informasiya təminatının əhəmiyyətini bu sahənin mütəxəssisləri də təsdiqləyir və buna xüsusi diqqət yetirirlər [47.s.371-379].

Ekologiya üzrə informasiya tələbatı bir çox digər elmlərlə müqayisədə (təbiət elmləri, texnika, ictimai elmlər və s.) daha sonraki dövrlərdə meydana gəlmişdir.Təkcə Azərbaycanda deyil, digər ölkələrdə də sənaye inqilabi, iqtisadiy-yatin sürətli inkişafi ətraf mühitə çox güclü təsir göstərmişdi. Bu təsir XİX əsrin sonu daha da artmışdı. Lakin kapitalizmin inkişafının ilkin dövrlərində cəmiyyət ətraf mühitin mühafizə edilmesinin zərurətinə bu o qədər də fikir verilmirdi. Bu zaman ilk növbədə xərclənmiş sərmayə muqabilində daha çox gəlir götürmək motivi ustunluk təşkil edirdi. Əvvəlki paraqraflarda qeyd etdiyimiz kimi, insanlar təbiətdə yaşayan müxtəlif bioloji növlərin öz aralarında və canlı təbiətlə və eləcə də, insanın bu sistemdə yeri və bu iki tərkib hissəsi ilə münasibətləri barədə lap qədim zamandan düşünərək bunun qanunauyğunluqlarını anlamağa cəht edirdilər. XX əsrin əvvəllərindən artıq dünya təbiətində insanın təsiri ilə çox qabarıq şəkildə nəzərəçarpan dəyişiklik əmələ gəlməyə başladı. Məsələn, XIX əsrin sonu- XX əsrin əvvəllərində Bakını görən səyyahlar burada sənayenin təsirində cəhənnəm mənzərəsinin meydana gəldiyini qeyd edirdilər. Sənayenin inkişaf etdiyi

ölkələrdə ətraf mühitin vəziyyəti o qədər kəskin pisləşdi ki, tədricən ictimai şüurda təbiətın qorunması, ətraf mühitin mühafizə edilməsi üzrə təcili tədbirlərin görülməsi barədə çağırışlar səsləndi və müasir anlamda ekologiya elminin bünövrəsi qoyuldu. Bütün bu ictimai tələbat, ictimai fəallıq və niyyət həmin sahə üzrə sənəd kommu-nikasiya sistemlərinin inkişafına meydan açdı.

Ekologiya və ətraf mühitin mühafizəsi üzrə informasiya təminatı bir sıra sahəvi fərqlərə malikdir. Həmin fərqlər bu sahənin özünün xüsusiyyətlərundən və bu sahədə olan informasiyaya ictimai tələbatdakı fərqlərdən irəli gəlir. Ətraf mühitin mühafizəsinin ildən-ilə daha yüksək aktuallıq kəsb etməsi bəhs edilən tələbatın da intensivləşməsinə səbəb olur.

Müasir sahəvi biblioqrafik istiqamətlərdə informasiya tələbatının strukturunun təhlilinə xüsusi diqqət yetirilir [92,s.34;94;107, s.175-176; 108,s.5-14;10 ].

Ekologiya və ətraf mühit üzrə tələbatın özu də mürəkkəb daxili struktura malikdir. Bu struktur həmin geniş tələbatçı qrupunun mürəkkəb tərkibi nəticəsində formalaşır. Ekologiya üzrə ilkin sənəd və biblioqrafik informasiya tələbatçılarının onların ictimai fəaliyyətin hansı sahəsində çalışmaları, təhsil, peşə, yaş, vəzifə və s. əlamətlərinə görə bölgüsünə **tələbatçıların diferensiasiyası** deyilir.

Bu sahənin informasiya tələbatının daşıyıcısı olmaq etibarilə tələbatçılarının öyrənilməsinin başlıca mərhələsi bu tələbatçıların təsnifatıdır.

İndi isə informasiya tələbatçılarının müxtəlif əlamətlərinə görə təsnifləşdiril-məsi məsələsini bir qədər ətraflı nəzərdən keçirək.



Ətraf mühitin mühafizəsi, ekologiya sahəsində informasiyanın tələbatçıların əmək fəaliyyəti ilə əlaqədar olub-olmadığına görə tələbat iki qrupa- professional və qeyri-professional tələbata ayrılır. Əgər informasiya tələbatı insanların öz istehsalat, elmi, tədris fəaliyyəti ilə əlaqədar meydana çıxırsa, bu tələbat professional tələbat, insanların ekologiya üzrə fərdi maraqları, şəxsi idraki ehtiyacları əsasında yaranırsa qeyri-professional tələbatdır.

Prof. Z.H. Əliyev informasiya tələbatçılarının təsnifləşdirilməsindən bəhs edərkən onları informasiyanı hansı fəaliyyət növü üzrə istifadə etmələri amilini əsas gətirir və göstərir ki, "bir qayda olaraq informasiyaistifadəçilərinin sənəd tələbatlarının məqsədləri belə ümumiləşdirilirdi: elmi- tədqiqat, iqtisadi, təsərrüfat, təhsil, mənəvi-əxlaqitərbiyə məqsədi və başqa məqsədlər" [23,s.55-66].

Bizim fikrimizcə, ekologiya və təbiəti mühafizə sahəsində professional informasiya tələbatçılarını informasiya tələbatının ictimai fəaliyyətlə bağlılığına görə aşağıdakı 6 qrupa bölmək mümkündür:

1.Həmin sahə üzrə qanunvericilik fəaliyyəti ilə (Azərbaycanda bu işlə Milli Məclis məşğul olur) məşğul olan millət vəkilləri və ekspertlər:

2. Bu sahə üzrə müxtəlif icra orqanlarında, ilk növbədə nazirliklərdə çalışan dövlət qulluqçuları;

3. Müxtəlif elmi-tədqiqat instutlarında, labarotoriyalarda bu sahə üzrə elmi-tədqiqat aparan mutəxəsislər;

4. Ekologiya üzrə fənnlər tədris edilən ali məktəb kafedralarının, orta ixtisas məktəblərinin professor-müəllim heyeti, buradakı laboratoriyalarda çalışan elmi işçilər;

5. Ekologiya və ətraf mühit üzrə ixtisaslaşan ali məktəb tələbələri, eləcə də digər ixtisaslar üzrə hazırlıq alan, lakin qeyri-ixtisas fənni kimi ekoloji fənnləri öyrənən tələbələr, aspirantlar, dissertantlar

6. Ayrı-ayrı istehsalat müəssisələrdə ekologiya və ətraf mühitin mühafizəsi ilə məşğul olan mutəxəsislər.

Ekologiya və təbiəti mühafizə sahəsində qeyri-professional informasiya tələbatçılarınan informasiya tələbatı isə onların ictimai fəaliyyətlə bağlı olmur. Bunlar ekologiya və ətraf mühitin problemləri ilə şəxsi maraqlarına, idraki ehtiyaclarına görə maraqlanan insanlardan ibarətdir.

Öyrəndiyimiz sahə üzrə tələbatçıların ən geniş istifadə edilən təhlil usulu informasiya təlabatcılarının miqdar xarakteristikasina görə öyrənlməsi və təsnifatdır. Ekologiya üzrə informasiya tələbatçılarının təsnifləşdirilrməsinin digər əlaməti **tələbatçıların kəmiyyət əlamətinə görə təsnifatıdır**. Bu baxımdan təsnifat zamanı tələbatçıların üç səviyyəsi fərqləndirilir ki, bunlar da ictimai, kollektiv və fərdi tələbatçılardır [27,s.465].

Ekologiya üzrə informasiya tələbatçılarının təsnifləşdirilrməsinin digər əlaməti tələbatçıların kəmiyyət əlamətinə görə təsnifatıdır. Nəzərə almaq lazımdır ki, kəmiyyət əlamətinə görə informasiya tələbatı həm ictimai, həm qrup (kollektiv), və nəhayət, fərdi ola bilər.

Kəmiyyət əlaməti ən geniş ifadə edən ictimai tələbatdan bəhs edərkən misal üçün hər hansı bir ölkənin və ya onun böyük bir regionunun sakinlərinin informasiya tələbatları nəzərdə tutula bilər. Bir sıra hallarda cəmiyyətin əsasını təşkil edən sinif və zümrənin informasiya tələbatı da ictimai informasiya tələbatı kimi qəbul edilir. Ekologiya üzrə ictimai informasiya



tələbatının nümunəsi kimi respublikamızda bu sahə üzrə informasiyaya ehtiyacı olan bütün cəmiyyətin informasiya tələbatı misal gətirilə bilər [27,s.33-35].

Kəmiyyət əlamətinin əhatə dairəsinə görə növbəti səviyyəsi kollektiv informasiya tələbatıdır. Bu səviyyədə tələbat ətraf mühitin mühafizəsi və ekologiya sahəsində fəaliyyət göstərən ayrı-ayrı iş yeri (çalışdığı müəssisə), peşə, tədris və s. maraqlar üzrə birləşən kollektivləri əhatə edir. Əgər ətraf mühitin mühafizəsi və ekologiya sahəsində ictimai informasiya tələbatı bütünlükdə respublikanı, onun ayrı-ayrı coğrafi regionlarını əhatə edirsə, kollektiv tələbat ekologiya və ətraf mühitin mühafizəsi üzrə fəaliyyət göstərən dövlət idarəetmə qurumlarını, tədris, tədqiqat, istehsalat müəssisələrinin işçilərini, ayrı-ayrı ictimai və peşə təşkilatlarının üzvlərini, eyni peşə sahiblərini əhatə edir.

Hər hansı ölkədə ekologiya üzrə kollektiv informasiya tələbatının miqyası, inkişaf səviyyəsi həmin ölkədə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində ictimai fəaliyyətin inkişaf səviyyəsini göstərən indikatordur. Yəni, belə kollektiv tələbatçıların sayı nə qədər çoxdursa, bu kollektivlərin tərkibi nə qədər zəngindirsə, ölkədə ekologiya və ətraf mühitin mühafizəsi sahəsi bir o qədər inkişaf etmişdir. Məsələn 30 il bundan əvvəl respublikamızda əsas funksiyası ekologiya və ətraf mühitin mühafizəsi olan müəssisə və qurumların sayı çox cüzi idisə, ölkəmiz tam dövlət müstəqilliyini bərpa etdikdən sonra tədricən bu sahəyə göstərilən ictimai diqqət durmadan artmağa başladı, əsas funksiyası ətraf mühitin mühafizəsi olan ayrıca nazirlik təsis olundu, ali məktəblərdə bu istiqamətdə kadr hazırlığına başlandı, ayrı-ayrı müəssisələrdə funksiyası ətraf mühitin mühafizəsi olan şöbə və bölmələr yaradıldı. Yuxarıda

qeyd edildiyi kimi, Azərbaycanda ekologiya üzrə **kollektiv** informasiya tələbatının nümunəsi olaraq Azərbaycan Respublikasının Prezident Administrasiyasının, Nazirlər Kabinetinin ekoloji məsələlərlə məşğul olan struktur vahidlərinin əməkdaşlar, Azərbaycan Respublikası Milli Məclisinin müvafiq komissiyasının üzvləri və ekspertləri, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bütün kollektivi, Kənd Təsərrüfatı və Səhiyyə nazirliklərinin funksiyası ekologiya ilə bağlı olan bölmələrinin kollektivləri, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Ekologiya İdarəsi, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin, respublikanın karbohidrogen yataqlarının işlənməsi ilə məşğul olan xarici şirkətlərin nəzdindəki müvafiq idarələrinin, bu sahə üzrə fəaliyyət göstərən ayrı-ayrı şirkətlərin əməkdaşları, qeyri-hökumət təşkilatlarının kollektivləri, ölkəmizin müxtəlif ali məktəblərində fəaliyyət göstərən ekoloji profilli kafedraların, elmi-tədqiqat laboratoriyalarının hər birinin ayrıca götürülmüş kollektivi misal gətirilə bilər.

Kəmiyyət əlamətinin əhatə dairəsinə görə növbəti səviyyəsi fərdi informasiya tələbatıdır. Fərdi informasiya tələbatı deyərkən ekologiya və ətraf mühitin mühafizəsi üzrə informasiyaya ehtiyacı olan ayrı-ayrı fərdlərə xas olan tələbat nəzərdə tutulur. İnformasiya tələbatının bu səviyyəsinə aid olan tələbatçıların miqdarının xeyli böyük olması bu tələbatın həm öyrənilməsində, həm də ödənilməsində xeyli çətinliklər yaradır. Ən başlıcası onu qeyd etmək lazımdır ki, ekologiya və ətraf mühitin mühafizəsi üzrə fərdi tələbatçıları şərti olaraq iki qrupa bölünə bilər. Bunlardan birincisi elə fərdi tələbatçılardır ki, onlar hər hansı formal qrupun tərkibinə daxildir. Yuxarıda qeyd etdiyimiz kollektiv tələbatçı qruplarına daxil olan hər bir



mütəxəssis fərdi tələbatçı kimi qəbul edilə bilər. Onu da nəzərə almaq lazımdır ki, kollektiv və fərdi tələbatçı qrupları arasında dialektik bağlılıq vardır. Yəni, necə ki, hər bir kollektiv ayrı-ayrı fərdlərdən təşkil edilmişdir, eləcə də, müəyyən əlamətlər əsasında birləşdirilmiş fərdlərin məcmusu kollektiv tələbatı əmələ gətirir.

Kollektiv informasiya tələbatı çox mürəkkəb struktura malikdir. Çünki çox halda həmin tələbatlı formalaşdıran kontingent özü də mürəkkəb tərkibə malikdir. Məsələn, Azərbaycanın Gəncə zonasının əhalisinin ekologiya barəsində sənəd informasiya tələbatı ayrıca götürülərkən Abşeron sakinlərinin informasiya tələbatlari fərqlənir. Kollektiv tələbatdan bəhs edərkən nəzərə almaq lazımdir ki, konkret insanların tələbatından təcrid olunmuş şəkildə mövcud deyil. Kollektiv informasiya tələbatı ayrı-ayrı fərdlərin informasiya tələbatlarının sadəcə məcmusundən ibarət deyil. Konkret insanda ona hansı informasiyanın lazım olması barəsində təsəvvürlər ondan bu an mövcud olan informasiya əsasında əldə etmək fəaliyyəti şəxsiyyətin fəallığının aparıcı göstəricilərindən biridir.

Ekologiya üzrə informasiya tələbatçılarının təsnifləşdirilrməsinin ikinci əaməti tələbatçıların ictimai fəaliyyətin hansı sahəsində çalışması əlamətidir. İctimai inkişafın XXI əsrin ilk rübünə müvafiq olan mərhələsində həmin fəaliyyət sahələrinə misal olaraq ictimai idarəetmə (dövlət və bələdiyyə idarəetməsi), elmi-tədqiqat, tədris, təhsil, istehsalat, şəxsi idraki fəaliyyət sahələri aid edilə bilər. Hər bir fəaliyyət sahəsi informasiya tələbatı doğurur. Hər bir kəsin məzmun və sahəvi istiqamətə görə müxtəlif informasiya tələbatları ola bilər.

Öyrəndiyimiz sahə üzrə informasiya tələbatçılarının təsnifləşdirilrməsinin tələbatçıların ictimai fəaliyyətin hansı sahəsində çalışması əlaməti tələbatın təsnifləşdirilməsinin yuxarıda bəhs etdiyimiz prinsipləri ilə çarpaz şəkildə təzahür edə bilər. Belə ki, tələbatçıların ictimai fəaliyyətin hansı sahəsində çalışması əlaməti ilə kəmiyyət əlaməti çarpaz şəkildə nəzərdən keçirildikdə hər bir fəaliyyət sahəsi üzrə ictimai, kollektiv və fərdi tələbatçıları qrupları fərqləndirilə bilər.

İctimai fəaliyyət əlaməti əsas götürülməklə tələbatçıların ilk qrupu ictimai idarəetmə (dövlət və bələdiyyə idarəetməsi) fəaliyyəti ilə məşğul olan tələbatçılardır. Bu mütəxəssislər sosial piramidanın ən yüksək pilləsində duran şəxslərdir. Onlar ictimai həyatın müxtəlif sahələrini idarə etməklə ictimai fəaliyyətin daha səmərəli, məqsədəyönlü olmasına imkan yaradırlar.

XVIII sonundan başlayaraq sonrakı dövrdə ictimai fəaliyyətin əsas istiqa-mətlərinin ictimai idarə edilməsi üçün ən geniş yayılmış forması nazirlər kabinet-ləri, nazirliklər və oxşar səviyyəli səlahiyyətlərə malik dövlət qurumlarıdır. Dün- yanın əksər ölkələrində ictimai fəaliyyətin müxtəlif istiqamətlərini tənzimləyən maliyyə, maarif, səhiyyə, iqtisadiyyat, müdafiə və s. üzrə nazirliklər fəaliyyət göstərir. Təbii ki, cəmiyyət tərəfindən tənzimlənməsi zəruri olan sahələrdən biri də ətraf mühitin mühafizəsi məsələsidir. Bu səbəbdən də, dünyanın bir çox ölkələrində ictimai fəaliyyətin bu istiqamətinin idarə edilməsi üçün ali dövlət qurumları yaradılmışdır. Məsələn, Belarus Respublikasında ətraf mühitin qorunması ilə məşğul olan ilk dövlət qurumu 1960-cı ildə yaradılmış Belarusiya SSR Ətraf Mühitin Mühafizəsi üzrə Dövlət Komitəsi olmuşdur. Sonrakı illərdə bu işlə bir sıra digər



məsul dövlət orqanları məşğul olmuşlar. Belarus tam dövlət müstəqillik qazanıldıqdan sonru 1994-cü ildə respublikada Təbii Ehtiyatlar və Ətraf Mühitin Mühafizəsi Nazirliyi yaradılmışdır [166].

Ukraynada da bu sahə üzrə dövlət idarəetmə strukturlarının inkişafı yuxarıdakına bənzər inkişaf yolu keçmişdir. Bu respublikada ətraf mühitin qorunması ilə məşğul olan ilk dövlət qurumu 1946-cı ildə yaradılmışdır. Sonrakı illərdə bu işlə bir sıra digər məsul dövlət orqanları məşğul olmuşlar. Belarus tam dövlət müstəqillik qazanıldıqdan sonra 2010-cü ildə respublikada Ətraf Təbii Mühitin Mühafizəsi Nazirliyi yaradılmışdır [165].

MDB məkanının ən böyük ölkəsi olan Rusiya Federasiyasında da bəhs etdiyimiz sahə ilə ayrıca nazirlik- Təbii Ehtiyatlar və Ekologiya Nazirliyi məşğul olur. Bu nazirlik özündən əvvəl bu işlərlə məşğul olan dövlət qurumunun yerində 2008-ci ildə yaradılmışdır və adından irəli gələn məsələlər üzrə ali dövlət idarəetməsini həyata kecirir. [ 167].

Respublikamıza gəldikdə isə, burada ətraf mühitin mühafizəsi və ekologiya üzrə ali dövlət idarəetmə qurumlarının yaradılması təcrübəsi hələ sovet dövrünə təsadüf edir. O zaman Azərbaycanda Azərbaycan SSR Hidrometreologiya İdarəsii, Geologiya İdarəsi, Meşəçilik Komitəsi mövcud idi. Həmin ali dövlət qurumunun işində ətraf mühitin mühafizəsi məsələsi xüsusilə vacib yer tuturdu. Bu ali dövlət qurumlarının hər biri öz profillərinə uyğun ətraf mühitin mühafizəsi məsələlərinə də diqqət yetirirdi.

Yuxarıda qeyd etdiyimiz kimi, respublikamız özünün tam dövlət müstəqilliyini bərpa etdikdən sonra bir müddət sovet dövründə formalaşmış idarəçilik saxlandı, sadəcə Dövlət

hidrometeorologiya İdarəsi müstəqil Komitəyə çevrilərəkAzərbaycan Respublikasının Nazirlər Kabineti yanında tam respublika tabeliyinə keçdi [12,s.1]. Həmin ilin 7 sentyabr tarixində isə Azərbaycan Respublikası Dövlət Təbiəti Mühafizə Komitəsi Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinə çevrildi [6,s.2]. 23 may 2001-cil tarixdə isə Azərbaycan Respublikası Heydər Əliyevin fərmanı ilə geologiya, ətraf mühitə nəzarət və onun qorunması, hidrometreologiya işi yeni yaradılmış Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə həvalə edildi [7,s.2].

Nazirliyin strukturuna gəldikdə isə bu onun vəzifələrinə uyğun olaraq tərtib edilərək Prezident H. Əliyev tərəfindən təsdiq edilmişdir. Nazirlik təbii ki, mərkəzi aparatdan və onun yerlərdəki bölmə və idarələrindən ibarətdir. Bizim üçün ilk növbədə mərkəzi aparat maraq kəsb etdiyindən biz onun tərkibinə nəzər yetirəcəyik. Struktura uyğun olaraq, Nazirliyin mərkəzi aparatında ümumilikdə 26 funksional vahidlər vardır və strukturun tərkibində 9 şöbə, 6 departament, 5 mərkəz, iki idarə, bir xidmət, bir fond, bir Məhdud Məsuliyyətli Cəmiyyət, bir Açıq tipli Səhmdar Cəmiyyəti mövcuddur. Bunlardan bir sıra struktur vahidi ümumilikdə inzibati idarəetmə funksiyası daşıyır ümumi şöbə, hüquq, maliyyə-təsərrüfat şöbələri və s. Bir çox struktur vahidi isə sırf ətraf mühit və ekologiya istiqamətli işləri yerinə yetirir. Bunlar aşağıdakılardır:

-Ekologiya və təbiəti mühafizəsi siyasəti şöbəsi;
- İnvestisiya, innovasiya və ekoloji layihələrlə iş şöbəsi;
- Kadrlarla iş və elm şöbəsi;
- Ekoloji təbliğat şöbəsi;
- Ətraf mühitin mühafizəsi departamenti;



- Bioloji müxtəlifliyin qorunması və xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı departamenti;
- Meşələrin inkişafı departamenti;
- Su hövzələrində bioloji resursların artırılması və mühafizəsi departamenti;
-Milli hidrometeorologiya departamenti;
-Ətraf mühit üzrə milli monitorinq departamenti;
- Kompleks hidrometreologiya və ekoloji təbliğat elmi mərkəzi;
-Fövqəladə hallar üzrə tədbirlər mərkəzi;
-Ekoloji elmi-texniki informasiya və metodologiya mərkəzi;
-Xəzər kompleks ekoloji monitorinq idarəsi;
-Ətraf mühit və təbii sərvətlər üzrə dövlət informasiya-arxiv fondu;
-"Təhlükəli tullantılar" MMC;
"Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu" açıq səhmdar cəmiyyəti;

Beləliklə, aparılan təhlil göstərir ki, Nazirliyin mərkəzi aparatının strukturunda bilavasitə təbiəti mühafizə və ekologiya məsələləri ilə məşğul olan cəmi 16 struktur vahidi- 4 şöbə, 6 departament, 3 mərkəz, bir fond, bir açıq tipli səhmdar cəmiyyəti və bir məhdud məsuliyyətli cəmiyyət fəaliyyət göstərir. Əlbəttə, bu strukturda digər struktur vahidləri də bu və ya digər dərəcədə təbiəti mühafizə və ekologiya məsələləri ilə məşğul olurlar. Bunlara misal olaraq "Metrologiya və standartlaşdırma mərkəzi", ; "Dövlət ekspertiza idarəsi"; 2"Layihələndirmə mərkəzi" kimi struktur vahidlərini göstərmək mümkündür [157].

Mərkəzi aparatdan başqa nazirliyin tərkibində bir sıra ərazi idarələri, müfət-tişliklər, meşəçiliklər, yerlərdə qoruqları, yasaqlıqları idarə edən qurumlar və s. vardır. Lakin sənəd-informasiya tələbatının intensivliyi, əhatəsi baxımdan ən mürəkkəb tələbat təbii ki, mərkəzi aparatın struktur vahidlərinə məxsusdur.

Göründüyü kimi, Nazirlikdə mütəxəssislərin, əməkdaşların sənəd-informasiya təminatının təşkili üçün məsuliyyət daşıyan struktur vahidləri mövcuddur. Onların fəaliyyəti barədə tədqiqatın növbəti fəslində ətraflı məlumat veriləcəkdir.

Müasir dövrdə dövlət qurumlarının səmərəli fəaliyyət göstərməsinin əsas şərtlərindən biri olan informasiya təminatının düzgün qurulması üçün mütləq burada informasiya tələbatı öyrənilməlidir. Bu baxımdan Nazirliyin mərkəzi aparatının sənəd-informasiya tələbatı tədqiqatımız üçün maraq doğurur. Yuxarıda göründüyü kimi, Nazirliyin mərkəzi aparatının strukturunda 26 struktur vahidi vardır və onların hər biri ayrıca kollektiv tələbatçı qismində öyrənilə bilər. Təhlillər göstərir ki, onlardan bir hissəsi qurunun fəaliyyətini təşkil edən sırf inzibati (inzibati, hüquq, protokol, maliyyə və s.), digərləri isə texniki (nəqliyyat) funksiyalarını yerinə yetirir. Belə olan təqdirdə bu struktur vahidlərinin sırf həmin fəaliyyət sahəsində informasiyaya ehtiyacı olacaqdır. Maliyyəçini, mühasibi bu sahədə qanunvericilik, qaydalar, nəqliyyatçını isə nəqliyyat vasitələrinə dair texniki məlumatlar maraqlandıracaqdır. Beləliklə, yuxarıda qeyd etdiyimiz 26 struktur vahidi və onun tərkibindəki sırf ekoloji profilli 14 struktur vahidi hər biri ayrıca kollektiv tələbatçı kimi nəzərdən keçirilə bilər. Onların hər biri sənəd-informasiya tələbatının xüsusiyyəti, tərkibi



baxımdan fərqlərə malikdir. Bu fərq həmin vahidlərin fəaliyyət istiqaməti, funksiyası baxımından az və ya çox ola bilər.

Məlumdur ki, hər bir kollektiv fərdlərin məcmusudur. Bu baxımdan əgər Nazirliyin struktur vahidləri kollektiv tələbatçıları təşkil edirsə, kollektivlərdə çalışan tələbatçılar fərdi tələbatçı kimi nəzərdən keçirilə bilə. Əgər nəzərə alsaq ki, hal-hazırda Nazirliyin mərkəzi aparatında çox sayda mütəxəssis çalışır. ki, bu şəxslər fərdi tələbatçı kimi öyrənilməlidir. İdarəetmə fəaliyyətində bir qayda olaraq struktur vahidləri bir vəzifəni və ya biri-digərinə yaxın bir neçə vəzifənin həll edilməsi üçün yaradılır. Həmin struktur vahidlərində çalışan mütəxəssislərin fərdi informasiya tələbatının strukturunun xeyli yaxın olması şübhəsizdir.

Nazirliyin kollektivinin sənəd-informasiya tələbatı ən müxtəlif əlamətlərinə görə təhlil edilə bilər. Bunlara mövzu, sənədin növü, tipi, dil əlaməti və başqaları aid edilə bilər.

Mövzu əlamətinə gəldikdə Nazirliyin struktur vahidlərinin informasiya tələbatının mövzu istiqaməti başlıca olaraq struktur vahidinin fəaliyyət istiqaməti ilə müəyyən edilir. Məsələn, "Meşələrin inkişafı"departamentinin kollektiv informasiya tələbatının əsas mövzusu meşə biosenozunu əmələ gətirən canlılar, əsasən bitki növləri haqqında, botanikaya, bitki fiziologiyasına dair məlumatı əks etdirən sənədlərdir. "Su hövzələrində bioloji resursların artırılması və mühafizəsi" departamentinin əməkdaşlarını isə təbii ki, daha çox biologiyanın ixtiologiya bölməsinə dair sənədlər maraqlandıracaqdır. Belə mövzu müvafiqliyini digər şöbələr və mövzular arasında aşkar etmək mümkündür.

Nazirliyin sənəd-informasiya tələbatının məqsəd təyinatına görə hansı növ sənədlər-nəşrlər vasitəsi ilə ödənməsi

də maraq doğuran məsələlərdən biridir. Məlumdur ki, müasir sənəd-informasiya tələbatının ödənilməsində redaksiya-nəşriyyat prosessizdən keçərək çoxaldılmış, çıxış məlumatlarına malik sənəd olan nəşrlərin, xüsusən də çap nəşrlərinin xüsusi rolu vardır. Ancaq çap nəşrləri özü də geniş növ müxtəlifliyi vardır. Bunlardan ən geniş yayılmış növləri rəsmi, elmi, elmi-kütləvi, istehsalat-praktiki, normativ, tədris, soraq, kütləvi və s. növləri vardır. Nazirlikdə bu nəşr növlərindən ən çox istifadə edilənləri rəsmi, elmi, elmi-kütləvi, istehsalat-praktiki, normativ və soraq nəşrləridir. Əlbəttə, müxtəlif struktur vahidlərində bu nəşr növlərinin əhəmiyyət ardıcıllığında müəyyən fərqlər mövcuddur. Məsələn, "Kadrlarla iş və elm "şöbəsində daha çox rəsmi , elmi, "Ekoloji təbliğat" şöbəsində elmi və elmi-kütləvi nəşrlərə daha artıq ehtiyac vardır. "Təhlükəli tullantılar" MMC-nin kollektivi isə daha çox elmi, istehsalat-praktiki və normativ nəşrlərə müraciət edir.

Nazirliyin struktur vahidlərinin sənəd-informasiya tələbatının yönəldiyi sənədlərin elm sahəsinə aid olması əlaməti də maraq doğuran məsələlərdən biridir. Bu əlamət də ən çox struktur vahidinin fəaliyyət profili ilə müəyyən edilir. Bu struktur vahidlərində ən çox ekoloji və bioloji elmlər, geologiya, coğrafiya, kimya, üzrə sənədlərə (nəşrlərə) ehtiyac olur. İstifadə dərəcəsinə görə növbəti yerdə iqtisad, hüquq, texniki elmlər üzrə sənədlər durur. Məsələn, "İnvestisiya, innovasiya və ekoloji layihələrlə iş" şöbəsinin sənəd-informasiya tələbatının mövzu tərkibində əsas yerlərdə ekologiya, iqtisad elmləri üzrə sənədlər əsas yerdə durur.

Nazirliyin sənəd-informasiya tələbatının nəşrləri hansı dövriliyə malik olması məsələsi də maraq doğuran məsələlərindəndir. Hal-hazırda Nazirliyin sənəd-informasiya



tələbatının tərkibində ilk yeri qeyri-dövri nəşrlər tutur. Həqiqətən də, həmin tələbatın ödənilməsi üçün kitablardan, nisbətən az miqdarda isə dövri və ardı davam edən nəşrlərdən istifadə edilir.

Nazirliyin mütəxəssislərinin informasiya tələbatının dil əhatəsi məsələsi də maraq doğuran məsələdir. Nazirlik mütəxəssislərinin istifadə etdikləri sənədlərin əksər hissəsi Azərbaycan dilindədir. İstifadə miqyasına görə sonrakı yerdə rus və ingilis dilində olan sənədlər tutur. Xarici dildəki sənədlərin əksər hissəsi xaricdə nəşr olunan ekoloji istiqamətli dövri və ardı davam edən sənədlərdir.

Fərdi tələbatçıların informasiya tələbatının formalaşmasına, inkişaf etməsinə müxtəlif amillər təsir edir. Bu amillərə tələbatçının elmi dərəcəsi, təhsil səviyyəsi, vəzifəsi, xidməti borcları və s. aid edilə bilər.

Nazirlikdə çalışan mütəxəssis kontingenti öz elmi dərəcəsinə görə aşağıdakı dərəcələrə bölünür:

1. Elmlər doktoru;
2. Elmlər namizədi;
3. Fəlsəfə doktoru;
4. Magistr;

Tələbatçıların təhsil səviyyəsi də informasiya tələbatına güclü təsir edən əsas amillərdən biridir. Bu əlamətinə görə mütəxəssislər aşağıdakı qruplara ayrıla bilər:

1.Ali təhsilli mütəxəssislər;

2. Natamam ali təhsilli mütəxəssislər;

3. Orta ixtisas təhsilli mütəxəssislər.

Nazirliyin mərkəzi aparatında çalışan informasiya tələbatçılarının təsnifləş-dirilməsinin digər bir əlaməti onların yerinə yetirdikləri vəzifə, inzibati idarəetmə sistemində tutduğu

dərəcədir. Bu alamətə görə Nazirlik əməkdaşlarına aşağıdakı kimi bölgü mövcuddur:

1.Nazir;
2.Nazir müavinləri-2 nəfər;
3.Şöbə müdiri-9 nəfər;
3. Departament müdiri -6 nəfər;
4.İdarə müdiri-2 nəfər;
5.Mərkəz müdiri -5 nəfər;
6. Xidmət müdiri-1nəfər;
7. Fond müdiri-1 müdiri;
8. Məhdud Məsuliyyətli Cəmiyyətin müdiri- 1 nəfər;
9, Açıq tipli Səhmdar Cəmiyyətin müdiri – 1 nəfər .

Yuxarida qeyd edilən 29 nəfərdən ibarət rəhbər heyətdən əlavə Nazirliyin mərkəzi aparatında bir sıra departament və şöbələrin müdirləri də çalışırlar. Müşahidələr sübut edir ki, mütəxəssis inzibati iyerarxiyanın nə qədər yüksək mərtəbəsindədirsə. onun sənəd-informasiya tələbatı bir o qədər intensiv olur [157].

Nazirlikdə çalışan mütəxəssislərin sənəd-informasiya tələbatının belə geniş və hərtərəfli olması onun qarşısında duran vəzifələrdən irəli gəlir. Bu tələbat dolayı yolla həm də burada fəaliyyət göstərən "Ekoloji elmi-texniki informasiya və metodologiya" mərkəzinin , "Ətraf mühit və təbii sərvətlər üzrə dövlət informasiya-arxiv fondu"nun, bundan başqa, Nazirliyin işçilərinin istifadəsi üçün yaradılmış Elmi kitabxananın tərkibinə də təsir edir.

Göründüyü kimi, Nazirlik çox geniş vəzifələrə və mükəmməl inzibati struktura malikdir. Bu vəzifələrin əksər hissəsi birbaşa ətraf mühitin, təbiətin qorunması ilə əlaqədardır. Məhz buna görə də, Nazirliyin strukturuna daxil olan bir çox



bölmələr də sırf ətraf mühitin mühafizəsi məsələlərinə xidmət edir.

Nazirliyin müvafiq strukturlarından aldığımız məlumatlar sübut edir ki, Nazirliyin özünün kollektivi bir kollektiv tələbatçı kimi, eləcə də burada çalışan ayrı-ayrı mütəxəssislər geniş mövzu əhatəli və xeyli intensiv informasiya tələbatlarına malikdir ki, bunun da əsas səbəbi onların yerinə yetirdikləri funksiyaların mürəkkəbliyi ilə izah oluna bilər.

Biz öyrəndiyimiz sahədə informasiya tələbatının xüsusiyyətlərini, onalrın tərkibini, tələbatçıların ilkin sənədlə və biblioqrafiilk inforamsiya ilə təmin olunmasını, tələbətçıların kitabxanalardan istifadə etməsi vəziyyətini təhlil etmək üçün anket tədqiqatı aparmışıq. Tədqiqat zamanı Nazirliyin əməkdaşlarına da müraciət edilmişdir. (Ankart sorğusunun blankı kitabın sonundakı əlavədə verilmişdir). Tədqiqat çərçivəsində anket sorğusunun blanklarının bir qismi Nazirliyin bir sıra əməkdaşlarına paylanmışdır. Həm Nazirliyin əməkdaşlarının, həm də digər tələbatçıların anket sorğusunun nəticələri barədə faktik material aşağıdakı cədvəllərə öz əksini tapmışdır.

**Cədvəl 2.**
**Ətraf mühitin mühafizəsi və ekologiya elmi üzrə tələbatçıların öyrənilməsi məqsədi ilə keçirilmiş anket sorğusunun nəticələri.**

| | Sual | "Bəli" cavabı | "Xeyr" cavabı |
|---|---|---|---|
| 1. | Respondentin kitabxanaya üzv olmaq barəsində sual- | 61 | 6 |

| | | | |
|---|---|---|---|
| | Respondentin hansı kitabxanadan istifadə etməsi | | |
| 1.1 | M.F. Axundov adına MK | 27 | |
| 1.2 | Resp. Elmi-texniki Kitabxana | 2 | |
| 1.3 | AMEA Mərkəzi Elmi Kitabxanası | 33 | |
| 1.4 | AMEA Botanika İns. Kitabxanası | 4 | |
| 1.5 | AMEA Kimya Problem. Ins. Kitabxanası | 3 | |
| 1.6 | AMEA Zoologiya Ins. Kitabxanası | 4 | |
| 1.7 | AMEA Coğrafiya Ins. Kitabxanası | 9 | |
| 1.8 | AMEA Geologiya İns. Kitabxanası | 1 | |
| 1.9 | AMEA Mikrobiologiya İns. Kitabxanası | 2 | |



| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1.10 | BDU Elmi Kitabxana | 5 | | | | | |
| 1.11 | Orhus Mərkəzinin Kitabxanası | 1 | | | | | |
| 1.12 | Sabir ad. Kütləvi Kitabxana | 1 | | | | | |
| 1.13 | Bakı ş.Nizami rayonu MKS | 1 | | | | | |
| 2. | Respondentin biblioqrafik xidmətdən istifadə istifadə etməsi barədə sual | 58 | | | | 9 | |
| 4. | Respondentin göstərilən biblioqrafik xidmətdən razı qalması barədə sual | 51 | | | | 16 | |
| 5. | Respondentin ən çox hansı dildə sənədlərdən istifadə etməsi barədə sual | Azərb. | Rus | İng | Alm | Türk | Ukray |
| | | 57 | 66 | 31 | 1 | 22 | 0 |
| 6 | Respondentin hansı ixtisas üzrə sənədlərdən istifadə etməsi barədə sual | Neft-kimya<br>Neft emalı<br>Botanika<br>Biologiya<br>Mikrobiologiya<br>Genetika<br>Paleontologiya | | | | 7<br>2<br>3<br>17<br>3<br>3<br>1 | |

| | | | |
|---|---|---|---|
| | | Mineralogiya | 1 |
| | | Kimya | 23 |
| | | Analitik kimya | 1 |
| | | Ekoloji kimya | 2 |
| | | Radiasiya kimyası | 2 |
| | | Üzvi sistez | 1 |
| | | Fizika | 5 |
| | | Texnologiya | 9 |
| | | Energetika | 2 |
| | | İnşaat | 1 |
| | | Ekologiya | 39 |
| | | Ətraf mühitin | 3 |
| | | mühafizəsi | 4 |
| | | Zoologiya | 1 |
| | | entomologiya | 12 |
| | | Cografiya | 2 |
| | | Hidroegologiya | 1 |
| | | Botanikaparazitologiya | 2 |
| | | | 3 |
| | | Meşə təsərrüfatı | 1 |
| | | Torpaqşünaslıq | 1 |
| | | Su təsərrüfatı | 1 |
| | | Ekotəhlükəsizlik | 3 |
| | | Davamlı injişaf | 1 |
| | | Riyaziyyat | 1 |
| | | Mikromorfologioya | 1 |
| | | Aerokosmik zondlama | |
| | | Tibb | |
| 7. | Respondentin digər hansı ixtisas üzrə sənədlərdən istifadə etməsi barədə sual | Geologiya | 4 |
| | | Mineralogiya | 2 |
| | | Neft-kimya | 0 |
| | | Neft emalı | 0 |
| | | Botanika | 1 |
| | | Biologiya | 3 |



| | | | |
|---|---|---|---|
| | | Mikrobiologiya | 1 |
| | | zoologiya | 1 |
| | | Fiziologiya | 0 |
| | | Genetika | 2 |
| | | Kimya | 3 |
| | | Analitik kimya | 1 |
| | | Biokimya | 1 |
| | | Üzvi sintez | 7 |
| | | Texnologiya | 3 |
| | | Ekologiya | 9 |
| | | Ekoloji təhsil və | 1 |
| | | tərbiyə | 1 |
| | | Torpaqşünaslıq | 1 |
| | | Yer quruluşu kadastr | 1 |
| | | Mühitşünaslıq | 1 |
| | | Coğrafiya | - |
| | | Fiziki coğrafiya | - |
| | | Təbii ehtiyatlar. | - |
| | | istifadəsi | 1 |
| | | Riyaziyyat | 1 |
| | | Statistika | 1 |
| | | Qlobal iqlim | 2 |
| | | dəyişikliyi | 3 |
| | | Atom energetikası | 1 |
| | | Standartlaşdırma | 1 |
| | | Psixologiya | 1 |
| | | Fəlsəfə | |
| | | Tibb | |
| | | Tarix | |
| 8. | Respondentin onu maraqlandıran sualla ən çox hara müraciət | 1.Kitabxanaya | 55 |
| | | 2.Elmi-rexmiki inf. | 17 |
| | | 4.Həmnkarlara | 13 |
| | | 5. internet | 34 |
| | | 6.Digər ünvamlara | 8 |

| | | | |
|---|---|---|---|
| | etməsi barədə sual | | |
| 9. | Respondentin oxuduğu kitab və məqalələrdəki ədəbiyyat siyahılarından sonrakı axtarışlar üçün istifadə etməsi barədə sual | Bəli | Xeyr |
| | | 66 | 0 |
| 11. | Respondentin ədəbiyyat axtarışı üçüm həmkarlarının tövsiyələrində n faydalanması barədə sual | 60 | 8 |
| 10. | Respondentin istifadə etdiyi kitabxanada (elmi-informasiya bölməsində) biblioqraflara (informatorlar la) sorğu ildə müraciət etmələri barədə sual | 44 | 21 |



| | | | | | |
|---|---|---|---|---|---|
| 12. | Əgər müraciət edilirsə, onların verdiyi arayışlar (cavablar) respondenti qane etməsi barədə sual | 32 | | 17 | |
| 13. | Respondentin ədəbiyyat axtarışı üçün biblioqrafik vasitələrə, o cümlədən göstəricilərə və biblioqrafik siyahılara müraciət etmələri barədə sual | 47 | | 13 | |
| 14. | Bu müraciətin intensivliyi barədə sual | Hər gün | Hər həftə | Ayda bir dəfə | Digər dövrilük |
| | | 5 | 13 | 9 | 9 |
| 15. | Respondentə kitabxanadan və ya informasiya bölməsindən yeni ədəbiyyat bülletenləri və ya | 15 | | 48 | |

| | | | |
|---|---|---|---|
| | informasiya bülletenləri göndərmələri barədə sual | | |
| 16. | Həmin yeni ədəbiyyat bülletenləri və ya informasiya bülletenlərinin müsbət və ya mənfi xüsusiyyətləri barədə sual | Cavab yoxdur | |
| 17. | Respondentin ən çox hansı elm və fəaliyyət sahələrinə dair sənədlərdən istifadə etməsi barədə sual | Təbiət elmləri | 3 |
| | | Kimya | 4 |
| | | Analitik kimya | 1 |
| | | Neft kimyası | 2 |
| | | Radiasiya kimyası | 1 |
| | | Ekoloji kimya | 1 |
| | | Qida kimyası | 1 |
| | | Fiziki kimya | 2 |
| | | fizika | 6 |
| | | biologiya | 8 |
| | | hidrobiologiya | 1 |
| | | mikrobiologiya | 3 |
| | | fiziologiya | 1 |
| | | botanika | 1 |
| | | genetika | 1 |
| | | coğrafiya | 8 |
| | | coğrafi inf. sist-lər | 1 |
| | | torpaqşünaslıq | 2 |
| | | kadastr və yer qur | 1 |
| | | zoologiya | 2 |



| | | | |
|---|---|---|---|
| | | ekologiya | 23 |
| | | ətraf mühit qor | 2 |
| | | ekoloji təhsil, tərbiya | 1 |
| | | coğrafi ekologiya | 2 |
| | | landşaft ekologiyası | 1 |
| | | geoekologiya | 1 |
| | | ekoloji hüquq | 1 |
| | | riyaziyyat | 1 |
| | | texnika | 5 |
| | | neft | 1 |
| | | energetika | 2 |
| | | atom energetikası | 1 |
| | | təbii fəlakətlər | 1 |
| | | meliorasiya | 1 |
| | | əmtəəşünaslıq | 2 |
| | | tibb | 2 |
| | | inşaat işi | 2 |
| | | bərpa olunana enerji | 1 |
| | | fəlsəfə | 1 |
| | | məntiq | 1 |
| | | Ədəbiyyat | 1 |
| 18. | Respondentin ardıcıl şəkildə dövri çıxan informasiya nəşrlərinə və dövri biblioqrafik nəşrlərə müraciət etməsi barədə sual | Bəli | Xeyr |
| | | 52 | 11 |
| 19. | Əgər belə müraciət | Referativ jurnal | 5 |

| | | | |
|---|---|---|---|
| | edilirsə, hansılara? | | |
| 20. | Respondentin kitabxananın kataloq və kartoteka sisteminə müraciət etməsi barədə sual | Bəli | Xeyr |
| | | 54 | 13 |
| 21. | Əgər belə müraciət edilirsə, daha çox hansılara müraciət etməsi barədə sual | əlifba kataloqu<br>sistemli kataloqu<br>predmet kataloqu<br>elektron kataloq | 38<br>22<br>14<br>26 |
| 22. | Respondentin onu maraqlandaran sahəyə dair biblioqrafik göstəricilərdən müntəzəm istifadə etməsi barədə sual | Bəli | Xeyr |
| | | 34 | 30 |
| 23. | Əgər istifadə edilirsə, hansılardan? | Cavab yoxdur | |
| 24. | Respondenti informasiya ehtiyaclarını ödəmək üçün internetdən | Bəli | Xeyr |
| | | 65 | 1 |



| | | | |
|---|---|---|---|
| | istifadə etməsi barədə sual | | |
| 25. | Əgər internetə müraciət edilirsə, oradan lazımi biblioqrafik informasiyanın axtarılmasında istifadə barədə sual | Bəli | Xeyr |
| | | 61 | 4 |
| 26. | Respondetin daha çox hansı saytlara müraciət etməsi barədə sual | Google<br>Yandex<br>Yahoo<br>yandex<br>Wikipedia<br>Eco.gov.az<br>Chimiya.ru<br>Nigma<br>Rambler<br>Zin.ru<br>Biolib.cz<br>Faunaeur<br>Bio2<br>macroİD.ru<br>cografiyabilim.vordpress.com<br>guzvenag.ucoz.ru<br>science.az<br>leseco<br>preslib.az<br>ecosystem.ru<br>biodiversity.az<br>referat.ru | 20<br>2<br>2<br>1<br>4<br>9<br>1<br>1<br>2<br>1<br>1<br>1<br>1<br>1<br>1<br>1<br>1<br>1<br>2<br>1<br>1<br>1 |

| | | | |
|---|---|---|---|
| | | eco-inter.com<br>kazen.zu<br>inbi.ras.ru<br>academic.ru<br>jmicrobiol.com<br>infoCENN<br>RecCaucas<br>İAEA | 2<br>1<br>2<br>1<br>1<br>2<br>1<br>1<br>1 |

**Cədvəl 3.**
**Anket sorğusu ilə əhatə edilmiş respondentlər haqqında anket məlumatları.**

| 1. | Təhsil | | |
|---|---|---|---|
| | Ali | Natamam ali | Orta ixtisas |
| | 68 | 0 | 0 |
| 2. | **İxtisas** | | |
| 2.1 | Texnoloq | | 1 |
| 2.2 | Kimya | | 10 |
| 2.2.1 | Kimya texnologiyası | | 3 |
| 2.2.2 | Fiziki kimya | | 2 |
| 2.3. | Sosiologiya | | 1 |
| 2.4 | Biologiya | | 12 |
| 2.4.1 | Zoologiya | | 1 |
| 2.4.2 | Entimologiya | | 1 |



| | | |
|---|---|---|
| 2.4.3 | Helmintologiya | 1 |
| 2.4.4 | Mikrobiologiya | 3 |
| 2.5. | Avtomatika | 1 |
| 2.6. | Fizika | 4 |
| 2.7. | Coğrafiya | 10 |
| 2.7.1 | Coğrafi ekologiya | 1 |
| 2.7.2 | Coğrafiya landşaftşünaslıq | 1 |
| 2.8. | Aqronomiya | 1 |
| 2.9. | Ekologiya | 11 |
| 2.9.1 | Ekoloji mühəndislik | 2 |
| 2.10. | Meşə təsərrüfatı | 1 |
| 2.11. | Hidroloq | 1 |
| 2.12. | Energetika | 3 |
| 2.13. | Riyaziyyat | 3 |
| 2.14. | Memarlıq və inşaat | 2 |
| 2.15. | Hüquqşünaslıq | - |
| **3.** | **Elmi dərəcə** | - |
| 3.1. | Fəlsəfə doktoru (PhD) | 35 |
| 3.2. | Elmlər doktoru | 8 |
| 3.3. | Magistr | 1 |
| **4.** | **İş yeri** | |
| 4.1 | Ekologiya və Təbii Ehtiyatlar Nazirliyi | 6 |
| 4.2. | AMEA Radiasiya Problemləri institutu | 10 |
| 4.3. | AMEA Kimya Problemləri institutu | 4 |
| 4.4. | AMEA Zoologiya institutu | 7 |
| 4.5. | AMEA Fizika institutu | 1 |
| 4.7. | AMEA Coğrafiya institutu | 9 |
| 4.8. | AMEA Botanika institutu | 1 |
| 4.9. | SMEA Nəbatat bağı | 1 |
| 4.10. | AMEA Mikrobiologiya institutu | 3 |
| 4.11. | AMEA Torpaqşünaslıq İnstitutu | 1 |

| | | |
|---|---|---|
| 4.12. | AMEA Kibernetika İnstitutu-Ekoloji Proseslərin Modelləşdirilməsi | 1 |
| 4.13. | BDU | 1 |
| 4.14. | BDU Ekologiya və torpaqşünaslıq fak | 4 |
| 4.15. | BDU Ekologiya və torpaqşünaslıq fak coğrafi ekolog kaf. | 2 |
| 4.16. | Azərbaycan Texniki Universiteti | 3 |
| 4.17 | Azərbaycan Texniki Unv. Sənaye ekologiyası kafedrası | 3 |
| 4.18. | Azərbaycan Memarlıq və İnşaat Universiteti | 1 |
| 4.18. | Təhsil Naz. Respublika Ekoloji Tərbiyə | 4 |
| 4.20. | Ekoloji hüquq mərkəzi EKOLEKS | 2 |
| 5. | **Vəzifə** | |
| 5.1. | Məsləhətçi | 1 |
| 5.2. | Direktor | 2 |
| 5.3. | Direktor müavini | 1 |
| 5.4. | Qrup rəhbəri | 1 |
| 5.5. | Sektor müdiri | 2 |
| 5.6. | Şöbə müdiri | 3 |
| 5.7. | Laboratoriya müdiri | 7 |
| 5.8. | Baş elmi işçi | 2 |
| 5.9. | Aparıcı elmi işçi | 7 |
| 5.10. | Böyük elmi işçi | 5 |
| 5.11. | Elmi işçi | 4 |
| 5.12. | Kiçik elmi işçi | 5 |
| 5.13. | Laborant | 1 |
| 5.14. | Dekan müavini | 1 |
| 5.15. | Kafedra müdiri | 3 |
| 6. | **Elmi-pedaqoji dərəcə** | |
| 6.1. | Professor | 1 |
| 6.2. | Dosent | 7 |
| 6.3. | Assistent | 2 |
| 7. | **Tədqiq etdiyi sahə** | |
| 7.1. | Kimya | 7 |
| 7.2. | Coğrafiya | 5 |
| 7.3. | Geomorfologiya | 3 |



| | | | | | |
|---|---|---|---|---|---|
| 7.4. | Geologiya | | | | 1 |
| 7.5. | Biologiya | | | | 3 |
| 7.6. | Fiziologiya | | | | 1 |
| 7.7. | Zoologiya | | | | 1 |
| 7.8. | Morfologiya | | | | 1 |
| 7.9. | Paleontologiya | | | | 1 |
| 7.10. | Entomologiya | | | | 4 |
| 7.11. | Mikrobiologiya | | | | 3 |
| 7.12. | Genetika | | | | 1 |
| 7.13. | Ekologiya | | | | 14 |
| 7.14. | Ekoloji menecment | | | | 1 |
| 7.15. | Enerji ekologiya | | | | 1 |
| 7.16. | Ekoloji coğrafiya | | | | 1 |
| 7.17. | Ətraf mühit və onun mühafizəsi | | | | 4 |
| 7.18. | Iqlim dəyişikliyi | | | | 1 |
| 7.19. | Ekoloji təhsil | | | | 3 |
| 7.20. | Geoekologiya | | | | 1 |
| 7.21 | Meşə ekologiyası | | | | 1 |
| 7.22. | Torpaq ekologiyası | | | | 1 |
| 7.23. | Torpaqşünaslıq | | | | 2 |
| 7.24. | Aqroekologiya | | | | 1 |
| 7.25. | Xəzər dənizinin ekologiyası | | | | 1 |
| 7.26. | Tullantı suların təmizlənməsi | | | | 1 |
| 8. | **Respondentlərin yaşa görə bölgüsü** | | | | |
| | **Yaş** | **Miqdar** | | **Yaş** | **Miqdar** |
| | 21 | 2 | | 48 | 4 |
| | 25 | 2 | | 50 | 2 |
| | 31 | 2 | | 56 | 2 |
| | 33 | 3 | | 65 | 3 |
| | 44 | 4 | | 67 | 2 |
| | 45 | 2 | | 69 | 2 |
| | 47 | 3 | | | |
| 8. | **Digər məlumat- bu bəndə heç kəs cavab verməyib** | | | | |
| 9. | **Bitirdiyi təhsil müəssisəsi** | | | | |
| 9.1. | Neft Akademiyası | | | | 1 |
| 9.2. | BDU | | | | 4 |

Anket sorğusuna verilən cavabların təhlili nəticəsində xeyli maraqlı nəticələr əldə edilmişdir. Belə ki, paylanmış 330 sorğu blankından cəmi 70-i geri qaytarılmışdır.

Qeyd edək ki, respondentlər anketin bir qisminə cavab vermədikləri üçün bir sıra bəndlərdəki rəqəmlər və toplanmış cəmlər üst-üstə düşmür. Məsələn, 1-ci sualda- respondentin kitabxanaya üzv olmaq barəsində sualda respondentin hansı kitabxanadan istifadə etməsi soruşulmuşdu. Bu suala 67 nəfər respondent cavab vermişdir. Onlardan əksər hissəsi-61 nəfər (92%) "bəli", 6 nəfər(8%) "xeyr" cavabı vermişdir. [Bax:Cədvəl 2].

Sonrakı (1.1-1.13) sualda respondentlərdən ölkənin hansı kitabxanlarından istifadə edilməlsi soruşulmuşdur. Burada 13 kitabxana üzrə cəmi 83 müsbət cavab verilmişdir. Bunlardan 33 nəfər (39,7%)AMEA Mərkəzi Elmi Kitabxanasını, Respublika Elmi-texniki Kitabxanasını, 27 nədər (32%) M.F. Axundov adına MK-nı, 9 nəfər (10%) AMEA Coğrafiya Institutunun Kitabxanasını, 5 nəfər (6%) BDU-nun Elmi Kitabxanasının, 4 nəfər (4,8%) AMEA Kimya Problemləri Institutunun Kitabxanasının, 4 nəfər (4,8%) AMEA Zoologiya Institut Kitabxanasının adını çəkmişlər. Qalan kitabxanalara müraciət edilmələrinin sayı 1-3 arasında dəyişir ki, bu da çox cüzi faiz təşkil edir.

2-çi sualda respondentlərə biblioqrafik xidmətdən istifadə edib-etməməsi barədə sual verilir. Suala verilmiş 67 cavabdan 58-i (86,5%) belə xidmətdən istifadə etməsini, 3 nəfər (13,5) isə istifadə etmədiyini göstərmişdir.



4-cü sualda respendtlərdən onlara göstərilən biblioqrafik xidmətdən razı olub-olmamaları soruşulmuşdur. Bu suala verilmiş 67 cavabdan 51-i (76,1%) müsbət, 16 cavab (23,9%) isə mənfi olmuşdur.

5-ci sualda respondentlərdən ən çox hansı dildə sənədlərdən istifadə etməsi barədə sual soruşulmuşdur. Respentlərdən 66 nəfəri rus, 57 nəfəri Azərbaycan, 31 nəfəri ingilis, 22 nəfəri türk və 1 nəfəri alman dilini bildiyini göstərmişdir.

6-cı sualda respondentlərdən hansı ixtisas üzrə sənədlərdən istifadə etməsi soruşulmuşdur. Respondentlər burada ekologiyanı, təbiət elmlərini, texnikanın müxtəlif sahələrini cəmi 32 sahəni- və tibb elmini (cəmi 1 nəfər) göstərmişlər. Respondentlərin ən çoxu (39 nəfər) ekologiyanın adını çəkmişdir. Sonrakı yerləri kimya (23 nəfər), bilogiya (17 nəfər), coğrafiya (12 nəfər), texnologiya (9 nəfər), neft-kimya (7 nəfər) və fizika (5 nəfər) tutur. Digər elmlərlə maraqlandığını bildirənlərin hər birinin sayı əksər halda 1 nəfər, bir neçə elm sahəsində 2-3 arasında dəyişir.

7-ci sualda isə respondentlərdən əsas maraqlandıqları elm və ya texnika sahəsindən başqa daha hansı ixtisas üzrə sənədlərdən istifadə etməsi soruşulmuşdur. Burada 32 elm və fəaliyyət sahəsi sadalanmışdır. Burad ən yüksək göstərici ekologiyaya aiddir (9 nəfər). Növbəti yerləri üzvi sintez (7 nəfər), geologiya (4 nəfər), kimya, bilologiya, texnologiya və

psixologiya (hər biri üzrə 3 nəfər). Digər elm və ixtisasların hər biri üzrə maraqlanan respondentlərin sayı 1-2 nəfəri keçmir.

8-ci sualda respondentlərdən öz informasiya tələbatlarının ödənilməsi üçün sənəd-kommunikasiya sisteminin hansı təsisatlarına müraciət etmələri soruşulur. Burada 117 haldan 55-də (47%) respondentlər kitabxanaya, 34 halda (29%) internetə , 17 halda ((10%) elmi-texniki informasiya orqanına, 13 halda (7,6%) həmkarlara və 8 halda (6,8%) digər ünvanlara müraciət edirlər.

9-ci sualda respondentlərdən oxuduğu kitab və məqalələrdəki ədəbiyyat siyahılarından sonrakı axtarışlar üçün istifadə etməsi sual edilir. Bu suala cavab vermiş 66 nəfərdən hamısı (100%) müsbət cavab vermişdir.

10-cu sualda respondentlərdən istifadə etdiikləri kitabxanada (elmi-informasiya bölməsində) biblioqraflara (informatorlarla) sorğu ilə müraciət edib-etməmələri sual edilir. Burada həmin suala 44 nəfər (67,69%) müsbət, 21 nəfər(32,31 %) mənfi cavab vermişdir.

11-ci sualda respondentlərə ədəbiyyat axtarışı üçün həmkarlarının tövsiyələrindən faydalanması barədə sual verilir. Burada həmin suala 60 nəfər (88,3%) müsbət, 8 nəfər (11,7%) mənfi cavab vermişdir.

12-ci sualda respondentlərə sual verilir ki. əgər onlar biblioqraflara (informatorlarla) sorğu ildə müraciət edirlərsə, onların verdiyi arayışlar (cavablar) respondentləri qane edirmi? Bu suala cavab verən 49 nəfərdən 32 nəfər (65,3%) həmin suala müsbət, 17(34,7%) nəfər isə mənfi cavab vermişdir.

13-cü sualda respondentlərdən soruşulur ki, onlar ədəbiyyat axtarışı üçün biblioqrafik vasitələrə, o cümlədən göstəricilərə və biblioqrafik siyahılara müraciət edirlərmi. Bu



suala cavab vermiş 60 respondentdən 47 nəfər (78,3%) həmin suala müsbət, 13(21,7%) nəfər isə mənfi cavab vermişdir.

14-cü sualda respondentlərdən soruşulur ki, onlar ədəbiyyat axtarışı üçün biblioqrafik vasitələrə, o cümlədən göstəricilərə və biblioqrafik siyahılara hansı intensivliyklə müraciət edirlər. Bu suala cavab vermiş 36 respondentdən 5 nəfər (13, 88%) hər gün, 13 nəfər (36,12%) hər həftə, 9 nəfər (25%) ayda bir dəfə, 9 nəfər (25%) isə digər dövriliklə müraciət etdiklərini yazmışlar.

15-cü sualda respondentlərdən soruşulur ki, onlara kitabxanadan və ya informasiya bölməsindən yeni ədəbiyyat bülletenləri və ya informasiya bülletenləri göndərilirmi? Bu suala cavab vermiş 63 respondentdən 15 nəfər (23.8%) həmin suala müsbət, 48 (76.2.7%) nəfər isə mənfi cavab vermişdir.

16-cı sualda respondentlərdən soruşulur ki, həmin yeni ədəbiyyat bülletenləri və ya informasiya bülletenlərinin müsbət və ya mənfi xüsusiyyətlərini qeyd edə bilərlər? Heç bir respondent bu suala cavab verə bilməmişdir.

17-cü sualda respondentlərdən soruşulur ki, onlar ən çox hansı elm və fəaliyyət sahələrinə dair sənədlərdən istifadə edirlər? Bu suala cavab olaraq respondentlər ətraf mühitin mühafizəsi və ekologiyanın 7 sahəsinə, təbiət, texniki. dəqiq, humanitar elmlərə və tibbə aid ümumilikdə 41 elm və fəaliyyət sahəsinin adını çəkirlər. Respondentlərdən 23 nəfəri ekologiya elminin özünü, 2 nəfəri ətraf mühitin qorunmasını, 2 nəfəri coğrafi ekologiyanı, hərəsində 1 nəfər olmaqla ekoloji tərbiyəni. landşaft ekologiyasını, geoekologiyanı və ekoloji hüququ qeyd etmişlər. Digər elmlərdən biologiya və coğrafiyanı (hər birində 8 nəfər), fizikanı (6 nəfər) və texnikanı(5 nəfər) qeyd etmək

olar. Qalan elmlərin hər biri üzrə sənədlərlə maraqlanan respondentlərin sayı 1-2 nəfər ətrafındadır.

18-ci sualda respondentlərdən onların ardıcıl şəkildə dövri çıxan informasiya nəşrlərinə və dövri biblioqrafik nəşrlərə müraciət etmələri soruşulur.

Bu suala cavab vermiş 63 respondentdən 52 nəfər (82,5%) həmin suala müsbət, 11 (17,5.7%) nəfər isə mənfi cavab vermişdir.

18-ci sualın məntiqi davamı olan 19-cu sualda respondentlərdən onların ardıcıl şəkildə dövri çıxan informasiya nəşrlərin və dövri biblioqrafik nəşrlərin hansı növünə müraciət etmələri soruşulur. Cəmi 5 respondent referativ jurnallara müraciət etdiklərini yazmışdır.

20-ci sualda respondentlərdən onların kitabxananın kataloq və kartoteka sisteminə müraciət edib-etməmələri barədə sual verilir. Bu suala cavab vermiş 67 respondentdən 54 nəfər (80.6%) həmin suala müsbət, 13 (19.4%) nəfər isə mənfi cavab vermişdir.

20-ci sualın məntiqi davamı olan 21-ci sualda respondentlərdən kitabxananın kataloq və kartoteka sisteminə müraciət etdikləri halda, daha çox hansı biblioqrafik vasitələrə müraciət etmələri soruşulur. Bu suala verilmiş 100 cavabdan 38-də (38%) tələbatçıların əlifba kataloquna, 22-də (22%) sistemli kataloqa, 14-də (14%) predmet karaloquna, 26-da (26%) elektron kataloqa müraciət etdikləri göstərilir.

22-ci sualda respondentlərdən onları maraqlandaran sahəyə dair biblioqrafik göstəricilərdən müntəzəm istifadə edib-etməmələri barədə sual verilir. Bu suala cavab vermiş 64 respondentdən 34 nəfər (53,1%) həmin suala müsbət, 30 (46,9%) nəfər isə mənfi cavab vermişdir.



22-ci sualın məntiqi davamı olan 23-cü sualda respondentlərdən həmin biblioqrafik göstəricilərdən hansılarından istifadə edilməsi soruşulur. Təəssüf ki, heç bir respondent bu suala cavab verməmişdir.

24-cü sualda respondentlərdən informasiya ehtiyaclarını ödəmək üçün internetdən istifadə etməsi soruşulur. Cavab vermiş 66 respondentdən 65-i (98,5%) bu suala müsbət, cəmi 1 nəfər (1,5%) isə mənfi cavab vermişdir.

25-ci sualda respondentlərdən internetə müraciət etdikləri halda oradan lazımi biblioqrafik informasiyanın axtarılmasında istifadə edib-etmələri soruşulur.

Bu suala cavab vermiş 65 respondentdən 61 nəfər (93,8%) həmin suala müsbət, 4 (6.2%) isə mənfi cavab vermişdir.

26-cı sualın məntiqi davamı olan 27-cü sualda respondentlərdən daha çox hansı saytlara müraciət etmələri soruşulur . Burada respondentlər 30 müxtəlif internet saytının adını çəkirlər. Bunların içərisində ən çox adı çəkilən sayt kimi Google göstərilir. Halbu ki, o sayt yox internet brauzer-axtarış maşınıdır. Müraciətin çoxluğuna görə növbəti yerdə Ekologiya Nazirliyinin rəsmi saytı (9 dəfə), Vikipediyanın (4 dəfə), referat.ru saytının (2 dəfə), Prezident Kitabxanasının saytının (2 dəfə) adı çəkilir.

Aparılmış anket sorğusunun blankının sonunda respondentlərin özləri haqqında şəxsi məlumatları yazması üçün bölmə vardır. Burada əksər bəndlər doldurulmasa da, respondentlərin əksəriyyəti öz ixtisasları, elmi dərəcələri, iş yerləri və s. barədə məlumat vermişlər.

Ən çox mütəxəssis -12 nəfər- biologiya üzrədir. Sonrakı yerdə ekoloqlar-11 nəfər, coğrafiyaçılar -10 nəfər, kimyaçılar-

10 nəfər və fiziklərdir-4 nəfər. Qalan ixtisasçıların sayı 1-3 nəfər arasında dövr edir.

Elmi dərəcə baxımdan respondentlərdən 8 nəfəri özlərinin elmlər doktoru, 35 nəfəri fəlsəfə doktoru və 1 nəfər magistr olduğunu göstərmişdir.

İş yerlərinə gəldikdə isə iş yerini göstərmiş 64 respondent içərisində bölgü aşağıdakı kimi olmuşdur. Respendentlərin içərisində AMEA-nın müxtəlif institutlarının işçiləri (AMEA-nın 10 institutunun cəmi 38 nəfər əməkdaşı, onlardan 10 nəfəri Radiasiya Problemləri İnstitutunun, 9 nəfəri Coğrafiya İnstitutunun, 7 nəfər isə Zoologiya İnstitutunun əməkdaşları), BDU-nun əməkdaşları (cəmi 7 nəfər, onlardan 6 nəfər Ekologiya və torpaqşünaslıq fakültəsinin əməkdaşları), digər ali təhsil müəssisələrinin əməkdaşları üstünlük təşkil edir. Respondentlərdən cəmi 6 nəfəri Ekologiya və Təbii Ehtiyatlar Nazirliyinin əməkdaşları olmuşlar.

Respondentlərin vəzifələrinə gəldikdə isə respondentlər anket sorğusunda 15 müxtəlif vəzifə göstərilmişdir. Bunların içərisində ilk yerləri aparıcı elmi işçi (7 nəfər), laboratoriya müdiri (7 nəfər), böyük elmi işçi (5 nəfər), kiçik elmi işçi (5 nəfər) tutr. Digər vəzifələrin təmsilçilərinin sayı 1-3 nəfər arasında dəyişir.

Respondentlərin elmi-pedaqoji dərəcəsinə gəldikdə isə belə dərəcə 10 nəfər respondentdə olmuşdur. Bunlardan 7 nəfəri dosent, 2 nəfəri assistent və 1 nəfəri professor olmuşdur.

Anket sorğusunda iştirak edən respondentlərin yaş bölgüsü də maraq doğurur. Onların yaşı 21-dən 69-a qədər dəyişir. Bunlardan ən çoxu 44 və 48 yaşında olan respondentlərdir (hər birndən 4 nəfər). Qalan hər bir yaş üzrə respondentlərin sayı 2 və ya 3 nəfərdir.



Beləliklə, bu anket sorğusu öyrəndiyimiz sahə üzrə informasiya tələbatçıları barədə çox dəyərli məlumat mənbəyi olmuşdur. Təəssüf ki, cavab verilən anketlərin sayı bizim planlaşdırdığımız qədər çox olmamaışdır. Bir çox mütəxəssislər anket blankı alsalar da onlara cavab yazmamaış və geri qaytarmamışlar. Yəni, paylanan 330-dən çox anket blankından üçdə biri cavablanaraq geri qaytarılmışdır. Lakın buna baxmayaraq həmin anket sorğusu respublikda ətraf mühitin mühafizəsi və ekologiya elmi üzrə bu növlü ilk tədqiqat kimi çox əhəmiyyətlidir.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanda ətraf mühitin mühafizəsi və ekologiya elmi sahəsində informasiya tələbatçılarının-mütəxəsislərin həm miqdarı, həm də konsertrasiyası baxımından ilk yerdə Ekologiya və Təbii Ehtiyatlar Nazirliyi tutur. Nazirliyin mərkəzi aparatının 16 struktur vahidi ətraf mühitin qorunması, ekologiya məsələləri ilə xüsusən yaxından məşğul olur.

Nazirlikdə sırf informasiya, o cümlədən, sənədli informasiya təminatı ilə məşğul olan struktur tərkibi isə aşağıdakı kimidir:

1. Ekoloji elmi-texniki informasiya və metodologiya mərkəzi
2. Ətraf mühit və təbii sərvətlər üzrə dövlət informasiya-arxiv fondu.
3. Elmi kitabxana
4. Orxus informasiya mərkəzi.

Tədqiqatımızın məqsədinə uyğun olaraq 2012-ci ilin sentyabr ayında Nazirlik əməkdaşlarının sənəd-informasiya və biblioqrafik tələbatının xüsusiyyətlərini araşdırmaq məqsədi ilə xüsusi anket sorğusu keçirilmişdir. Sorğuda Nazirliyin mərkəzi

aparatının 6 əməkdaşı iştirak etmişdir. İştikrakçılar anket sorğusunun əksər suallarına cavab vermişlər və bu cavabların nəticəsi yuxarıdakı təhlildə öz əksini tapmışdır.

Ölkəmizdə ekologiya elmi üzrə çalışan intensiv informasiya tələbatı daha çox olan digər böyük professional tələbatçı kontingenti Milli Elmlər Akademiyasında çalışan alim və mütəxəssislərdir.

Akademiya sistemidə elmi tədqiqat insititutlarında çalışan informasiya tələbatçılar vəzifələrinə görə 10 qrupa bölünür:

1.İnsititut direktoru;
2.Direktorun müavinləri;
3.Elmi katib;
4.Bölmə müdirləri;
5.laboratoriya müdirləri;
6. Aparıcı elmi işçi;
6.baş elmi işçi;
7.elmi işçi;
8.kiçik elmi işçi;
9.Lborant;
10.Müxtəlif peşə dərəcəli mühəndislər.

Layihə işi ilə məşğul olan institutlarda isə yuxarıdakı vəzifələrlə yanaşı konstruktorlar kimi çoxsaylı peşə qrupu təmsil olunur. Layihə institutlarında daha çox konkret tapşırıqlarla layihələr yerinə yetirilir. Yuxarıda göstərilən inzibati vəzifə səviyyələri informasiya tələbatına təsir edir. Bir qayda olaraq bu iyerarxi-yada yüksək pillədə olan şəxslər daha intensiv informasiya tələbatına malik olurlar. Adları çəkilən informasiya tələbatçılarının tələbat baxımından fərqi onların mövzu və sahə istiqamətlərində özünü göstərir.



Ekologiya üzrə hər bir dar istiqamətli elmi və ya praktik sahə istiqaməti öz professional tələbatçılarına malikdir. Bir qayda olaraq ən intensiv informasiya tələbatı elmi tədqiqatla məşğul olan mütəxəssislərdə nəzərə çarpır. İstehsalatla məşğul olan müəssisələrdə çalışan mütəxəssislərin informasiya tələbatları nisbətən az intensiv olur. İnformasiya tələbatına mütəxəssisin yerinə yetirdiyi tapşırığın hansı mərhələdə olması güclü təsir göstərir. Əgər elmi-tədqiqat fəaliyyətini 3 mərhələdə (hazırlıq,əsas ,yekun) ibarət olduğunu nəzərə alsaq müşahidə edə bilərik ki, ən dərin və ətraflı tələbat tədqiqatın hazırlıq mərhələsi zamanı yaranır. Sonrakı mərhələdə bu intensivlik bir qədər azalar. Yekun mərhələsində isə informasiyaya olan ehtiyac daha da azalır.

İnformasiya tələbatının əhəmiyyətini vurğulamaqla yanaşı onu da qeyd etmək lazımdır ki , bu tələbatın düzgün, tam yerinə yetirilməsinin əsas şərtlərindən biri sənəd informasiya xidməti göstərən müəssisənin bu tələbat barədə dolğun təsəvvürə malik olmalıdır. Sənəd-kommunikasiya sisteminin bütün təsisatlarında tələbatçıların informasiya tələbatı mütləq öyrənilməlidir.

Tədqiqatımız çərçivəsində aparılan anket sorğusu zamanı Azərbaycan MEA-nın ekoloji istiqamətli tədqiqat aparan bir sıra institutlarının əməkdaşlarının da sənəd-informasiya və biblioqrafik tələbatının xüsusiyyətlər öyrənilmişdir. Yuxarıda qeyd edildiyi kimi, sorğuda Azərbaycan MEA-nın Coğrafiya, Botanika və Zoologiya institutlarının mütəxəssisləri (cəmi 38 nəfər) iştirak etmişdir.

Azərbaycanda ağır sənaye, dağ-mədən, yüngül sənayenin bütün sahələri üzrə müəssisələr, aqrar-sənaye kompleksi müəssisələri fəaliyyət göstərir. Onların bir çoxu ətraf mühitə tüstü, qaz, çirkab sular, bərk tullantılar şəklində

maddələr tullayırlar. Ətraf mühitə təsirin idarə edilməsi məqsədilə həmin müəssisələrin əksəriyyətində ətraf mühitin mühafizəsi bölməsi və ya bu işlə məşğul olan ayrıca mütəxəssislər çalışırlar. Bir çox hallarda həmin mütəxəssislər paralel şəkildə elmi-tədqiqat işlərilə də məşğul olurlar. Bu mütəxəssislərə daha çox yaxın zaman ərzində meydana çıxmış sənədlər lazım olur.

İnformasiya tələbatının formalaşmasında həm də insanların peşəsi ,təhsili, maraq dairəsi çox mühüm əhəmiyyət kəsb edir. Buna görə də informasiya tələbatından bəhs edərkən həmin əlamətlər nəzərə alınmaqla müxtəlif təsnifat qrupları formalaşdırmaq mümkündür.

Birinci fəsldə haqqında bəhs edilən araşdırmaların nəticələri barədə yekun olaraq aşağıdakıları söyləmək mümükndür. Ətraf mühit- orqanizmlərin böyümə şəraiti, maddələr mübadiləsi və energetikası, onların ətraf aləmlə birliyidir.Ətraf mühitin canlı orqanizmlərin yaşadığı fəzada, məkanda yerinə görə bir sıra əsas növləri vardır. İnsanın ətraf mühitdən düzgün istifadə etməsi, özünün və planetin digər sakinlərinin həyatına qorunması üçün ekologiya elminin böyük əhəmiyyəti vardır. Ekologiya - canlı orqanizmlər arasında və onların olduğumühitlə qarşılıqlı əlaqəsi haqqında sintetik bioloji təlim və ya elmdir. Ekologiyanın əsas predmeti daxilində enerji və üzvi maddələrin transformasiya prosesigedən və bir-biri ilə qarşılıqlı əlaqədə olan canlı orqanizmlərin məcmusunu öyrənməkdir. Beləliklə, ekologiyanın əsas vəzifəsi ekosistemdə enerji və materiyanın qarşılıqlı təsirini öyrənməkdir. Bu elmin diferensasiyası nəticəsində onun ümumi ekologiya, akvatik ekologiya, bitki ekologiyası, təkamül ekologiyası, insan ekologiyası və bir çox digər sahələri yaranmışdır.



Həm sovet dövründə, həm də müstəqillik illərində ölkədə ətraf mühitin qorunması istiqamətdə işə, bu sahə üzrə ekoloji tədqiqatlara diqqət yetirilmişdir. Həm ümummilli lider H.Əliyevin, həm də hazırkı prezident İ. Əliyevin dövründə Azərbaycan dövləti bu məsələyə qayğısını əsirgəməmiş, bu sahə üzrə qanunvericilik sistemi yaradılmış. Prezidentin fərman və sərəncamları verilmiş, bu sahə üzrə dövlət proqramları qəbul edilmiş, "ekologiya ili" keçirilmiş, idarəetmə və nəzarət sistemi təkmilləşdirilmişdir.

Azərbaycanda həm də ekoloji tədqiqatlara, bu sahədə ali təhsilli kadrların hazırlanmasına da böyük diqqət verilir, yeni-yeni ixtisaslar yaradılır, fakültələr və kafedralar açılır. Ətraf mühitin qorunması üzrə dövlət idarəetməsi, praktiki fəaliyyət, ekologiya elminin və təhsilinin funksiya göstərməsi üçün informasiya tələbatının öyrənilməsi vacibdir. Ekoloji istiqamətli sənəd-kommunikasiyalar sistemində fəaliyyət göstərən təsisatların, ilk növbədə kitabxanaların əsas vəzifəsi bu sahə üzrə informasiya tələbatının ödənilməsidir və bu sahədə həm Azərbaycanda, həm də xaricdə ciddi tədqiqatlar aparılmışdır və tərəfimizdən bu barəd fikrlərin, elmi dərclərin icmalı verilmişdir. Tədqiqat çəçivəsində tərəfimizdən bəhs edilən sahənin aparıcı müəssisələrinin kontingentinin peşə, vəzifə və digər parametrləri öyrənilmiş və ilk dəfə olataq bu sahə üzrə anket sorğusu keçirilmiş, 330 mütəxəssisinə xüsusi tərtib edilmiş anket sorğusu paylanmışdır. Paylanmış 330 sorğu blankından cəmi 70-i geri qaytarılmışdır. Onlardan 7 blank düzgün cavablandırılmadığına, sualların əksərinə cavab verilmədiyinə görə etibarsız sayılaraq ləğv edilmişdir. Cavablandırılmış blanklar tərəfimizdən tədqiq edilərək ümimiləşdirilmiş və bu nəticələr öz əksini xüsusi cədvəl və

diaqramlarda tapmışdır. Ən başlıcası, məlum olmuşdur ki, tələbatçıların əksəriyyəti-80%-dən çoxu informasiya axtarışı üçün kitabxanalara (ilk növbədə elmi) gedir, biblioqrafik vasitələrdən-göstəricilərdən, kataloq və kartoteka sistemindən istifadə edir. Tələbatçılar təkcə ekeologiyanın ayrı-sahələri, həm də təbiət elmlərinə dair informasiya tələbatlarının intensivliyi ilə seçilir. Məlum olmuşdur ki, respondentlər ənənəvi mənbələrlə yanaşı, həm də onlayn informasiya resurslarına tez-tez müraciət edirlər. Əldə edilmiş nəticələr sahənin informasiya tələbatçılarının sənəd-informasiya və biblioqrafik təminatının təkmilləşdirilməsi üçün böyük əhəmiyyətə malikdir.



# II FƏSİL
# EKOLOGİYA ELMİ ÜZRƏ SƏHƏD KÜTLƏSİ VƏ AXININ MÜASİR VƏZİYYƏTİ

## 2.1.Sahə üzrə sənəd kütləsinin xüsusiyyətləri

Ekologiya üzrə sənəd-kommunikasiya sisteminin əsas elementlərindən biri sənəddir. Məhz onun vasitəsi ilə bu sistemin tərkib hissəsində təzahür edən tələbat ödənilir və ictimai fəaliyyətin hər hansı sahəsi üçün zəruri olan informasiya əldə edilir.

Sənəd kütləsi hər hansı əlamətinə görə- bizim tədqiqatın mövzusundan çıxış etsək, ekologiya elminə aid olması əlamətinə görə-ümumiləşmiş, zamanı baxımından dəyişməyən sənədlər çoxluğudur. Bir sıra mənbələrdə sənəd kütləsini sənəd axınından fərqləndirən əsas fərq kimi sənəd kütləsini xarakterizə edən miqdar əlamətinin zamana görə dəyişilməz olduğu xüsusi vurğulanır [93,s.27-28]. Sənəd kütləsini xarakterizə edən miqdar əlaməti nəşr vahidi, dərc vahidi və ya saxlama vahidi ilə ölçülür. Onu xüsusi qeyd etmək lazımdır ki, sənəd kütləsinin zamana görə dəyişilməz vəziyyətdə öyrənilməsi elmi tədqiqat üçün zəruri olan şərti mücərrədləşmədir.

Sənəd kütləsi zaman məhdudiyyətindən başqa, sənədin növü, məzmunu, dili, kütlənin mövcud olduğu ərazi, nəşriyyat və s. kimi əlamətlərlə də təsnif oluna bilər. Ətraf təbii mühitin mühafizəsi və ekologiya elmi üzrə sənəd kütləsinin nümunəsi kimi müəyyən kitabxananın, elmi-texniki informasiya orqanının və s. sənəd fondu götürülə bilər. Daha sonra kütlə digər əlamətlərinə görə təhlil edilə bilər.

Məlumdur ki, cəmiyyətin sənəd-informasiya tələbatının ödənilməsi vəzifəsini yerinə yetirilməsi üzrə ictimai funksiyasını yerinə yetirən kitabxanalar bu vəzifələrin həyata keçirilməsi üçün ölkənin sənəd kütləsinin məcmusu olan sənəd fondları yaradır, bu kütlənin-fondun tərkibini açan biblioqrafik vasitələr sistemini formalaşdırırlar. Bu səbəbdən də ilk növbədə Azərbaycan kitabxanalarında formalaşmış sənəd kütləsinə diqqət yetirək.

Ölkəmizdə dövlət səviyyəsində kitabxanaların sənəd kütləsinin-fondunun formalaşması vəzifəsinə yüksək əhəmiyyət verilir və bu səbəbdən onların inkişafına xüsusi diqqət göstərilir. Bu qayğının bariz nümunəsi son illərdə ölkəmizdə qəbul edilmiş bir sıra rəhbər sənədləri göstərmək mümkündür. Bunlardan ən başlıcası 2008-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə qəbul olunmuş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"dır. Həmin vacib dövlət sənədində respublikamızın kitabxanalarının işinin müasir səviyyəsi qiymətləndirilir və onun perspektiv inkişafının, kitabxanalar tərəfindən cəmiyyətin sənəd-informasiya təminatının yaxşılaşdırılması yolunda göstərilərək tədbirlər müəyyənləşdirilir [9,s.7-30].

Dövlət Proqramında qarşıya qoyulan vəzifələrdən çıxış edərək 2009-cu ilin sentyabr ayının 1-dən 10-a qədər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən Respublika ərazisindəki kitabxanalarda monitorinq keçirilmişdir. Həmin tədqiqatda inzibati aidiyyətindin, harada yerləşməsindən, böyüklüyündən asılı olmayaraq respublikada mövcud olan kitabxanaların vəziyyəti, fəaliyyəti hərtərəfli şəkildə öyrənilmişdir.



Həmin statistik monitorinqin keçirilməsindən sonra, onun nəticələrini özündə əks etdirən xüsusi statistik bülleten nəşr edilmişdir [56,88 s]. Bu bülletenin bizim mövzu üçün maraq kəsb edən cəhəti onun tərkibində kitabxanalarla əlaqədar bir çox digər məlumatlar kimi, respublika kitabxanalarında formalaşmış sənəd kütləsi-fondu barədə də maraqlı məlumat verilir.

Bu statistik tədqiqatın nəticələri Azərbaycanda ətraf mühitin mühafizəsi və ekologiya sahəsinin kitabxana-biblioqrafik təminatı məsələsinin öyrənilməsi üçün də xeyli əhəmiyyətlidir. Bu bülletendəki rəqəmləri tədqiq etməklə maraqlı ümumiləşdirmə aparmaq mümkündür.

Həmin monitorinqin nəticələrinə görə respublikamızda hansı nazirliyə, baş idarəyə aid olmasından asılı olmayaraq 8.507 kitabxana mövcud olmuşdur. Bu kitabxanalarının fondunda cəmi 110.994.331 nüsxə sənəd olmuşdur ki, bu da ictimai istifadə üçün yaradılmış sənəd kütləsinin əksər hissəsini təşkil edir. Həmin monitorinqdəki rəqəmlərə əsasın ölkə kitabxanalarının sənəd fondunun inzibati aidiyyətinə görə bölgüsü aşağıdakı cədvəldə öz əksini tapmışdır [Cədvəl üçün isifadə edilmiş mənbə: 56,s.7-8].

**Cədvəl 4**

**Azərbaycan kitabxanalarının ayrı-ayrı növləri üzrə fondun miqdarı.**

| N | Kitabxanaların növləri | Fondun ümumi miqdarı (nüsxə) |
|---|---|---|
| 1. | Ümumtəhsil müəssisələrinin kitabxanaları | 38.481.902 |
| 2. | Mədəniyyət və Turizm Nazirliyinin | 35.528.523 |

| | | |
|---|---|---|
| | kitabxanaları | |
| 3. | Elmi kitabxanalar, elmi-tədqiqat müəssisələrindəki kitabxanalar | 23.719.951 |
| 4. | Ali təhsil müəssisələrinin kitabxanaları | 10.059.769 |
| 5. | Orta ixtisas təhsil müəssisələrinin kitabxanaları | 885.967 |
| 6. | İlk peşə- ixtisas təhsil müəssisələrinin kitabxanaları | 557.048 |
| 7. | Səhiyyə müəssisələrinin kitabxanaları | 334.626 |
| 8. | Musiqi məktəblərinin kitabxanaları | 193.671 |
| 9. | Digər kitabxanalar | 1.222.884 |
| | **Cəmi** | **110.994.331** |

Cədvəldən aydın olur ki, toplanmış sənəd kütləsinin-fondun həcminə görə birinci yerdə ümumtəhsil məktəblərinin kitabxanaları, ikinci yeri kütləvi, onun ardınca ali məktəb və peşə təhsili məktəbi kitabxanaları tutur. Heç şübhəsiz ki, bu kitabxanaların, xüsusən də elmi və ali məktəb kitabxanalarının fondunda ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə də zəngin sənəd kütləsi formalaşmışdır. Əlbəttə ki, bütün bu fondların tərkibinin təhlil edilərək onlarda öyrəndiyimiz sahə üzrə sənədlərin necə təmsil olunmasını, onun ümumi kütlə daxilində xüsusi çəkisini təhlil etmək bizim tədqiqatımızı daha dərin və dolğun edə bilərdi. Lakin belə bir təhlilin aparılması bizim imkanlarımız xaricindədir. Bu səbəbdən də, respublikamızın müxtəlif tiplərə mənsub bir sıra aparıcı kitabxanalarının fondunun-sənəd kütləsinin həm ümumi xarakteristikasının verilməsi və həm də onun tərkibində ətraf



təbii mühitin mühafizəsi və ekologiya üzrə sənəd kütləsinin tərkibi barədə təhlilin aparılması də optimal həll kimi qəbul edilə bilər.Onu da qeyd edək ki, indiyə qədər idarə tabeçiliyindən asılı olmayaraq eyni zamanda respublikanın bütün kitabxanalarında formalaşmış fond-sənəd kütləsi haqqında məlumatı əks etdirən yeganə mənbə məhz bu monitorinqin nəticələridir.

Bu paraqrafın bölmələrinin tərkibində biz ilk növbədə respublikamızda ekologiya və ətraf mühitin mühafizəsi sahəsində ixtisaslaşmış kitabxanalarının, daha sonra isə bir sıra aparıcı universal və xüsusi elmi kitabxanaların fondunu, orada formalaşmış sənəd kütləsi təhlil ediləcəkdir. Bunun üçün biz ilk növbədə ölkədə ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə ixtisalaşmış kitabxanaya və xüsusi informasiya mərkəzinə malik olan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət İnformasiya-Arxiv Fondunun Elmi-Texniki Kitabxanasına, həmin Nazirlıyin nəzdində fəaliyyət göstərən beynəlxalq Orhus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzinin sənəd fonduna aid faktlara, respubllikanın yeganə kütləvi universal elmi ktabxanası olan M.F. Axundov adına Milli Kitabxananın, respublikanın əsas elmi təşkilatı olan Milli Elmlər Akadamiyasına məxsus Mərkəzi Elmi Kitabxananın, AMEA Akademik H.Əliyev adına Coğrafiya İnstitutunun Elmi Kitabxansının, Azərbaycan Respublika Elmi Tibb Kitabxanasının, Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının, Prezident Kitabxanasınımn, Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının fəaliyyətinin bir sıra aspektlərinə və sənəd fondlarına dair məlumatlara müraciət edək. Bu zaman qeyd edək ki, bu təhlil üçün istifadə edilən faktik material bəhs edilən kitabxanalarda aparılan müşahidələr,

kitabxana statistika materialları, hesabatlar əsasında toplanmışdır.

Azərbaycanda xüsusi olaraq məzmun əlamətinə görə ətraf təbii mühitin mühafizəsi və ekologiya elmi üzrə ixtisaslaşdırılmış şəkildə yaradılmış sənəd kütləsinin yeganə nümunəsi kimi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İnformasiya-Arxiv Fondunun Elmi-texniki kitabxananın göstərmək mümkündür. Qeyd edək ki, Azərbaycanda ətraf mühitə nəzarət üzrə dövlət orqanı hələ Azərbaycan SSR dövründə var idi. O zaman ölkədə bu işlə məşğul olan xüsusi Komitə mövcud idi ki, bu da indiki nazirliyin xələflərindən biri olmuşdur. Bundan əlavə, 2002-ci ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılan zaman omum tərkbinə daxil edilmiş qurumlardan biri Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi olmuşdur [171]. Uzun illər ərzində bu sonuncu Komitənin nəzdində elmi kitabxana fəaliyyət göstərmişdir və bu Komitənin statusu, adı dəyişsə də, kitabxana fəaliyyətini davam etdirmişdir. Bu səbəbdən hal-hazırda Ekologiya və Təbii Sərvətlər Nazirliyində fəaliyyət göstərn Dövlət İnformasiya-Arxiv Fondunun Elmi-Texniki Kitabxanası məhz yuxarıda qeyd etdiyimiz həmin kitabxananın varisi sayla bilər.

Kitabxananın formalaşması tarixi barədə bir qədər detallı şəkildə aşağıdakıları söyləmək mümkündür. Azərbaycan Geologiya İdarəsi 1938 -ci ilin yanvar ayının 1-də Azərbaycan Geologiya Bürosunun bazasında yaranmışdır.1941 -ci ildə Moskva şəhərindən Azərbaycanın yeraltı sərvətlərinin görkəmli tədqiqatçısı, geoloq, akademik İ.M.Qubkinin şəxsi kitabxanasından kitablar gətirmişdir və 1941-ci ildə Geologiya İdarəsinin Elmi-texniki kitabxanası yaradılmışdır. Sonralar



Azərbaycan Geologiya idarəsinin adı dəyişilərək Azərbaycan Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi adlandırılmışdır. 23 may 2001-ci ildə Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinin və Azərbaycan Respublikası Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsinin bazasında Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradıldı və burada Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsinin Kitabxanası öz fəaliyyətini davam etdirir. Çox müsbət haldır ki, Nazirliyinin internet saytının tərkibində Elmi-Texniki Kitabxananın ayrıca səhifəsi vardır ki, burada kitabxananın vəzifələri, fondun tərkibi haqqında məlumatlar da verilir[164].

2012-ci ilin hesabatına əsasən, Kitabxananın fondunda 12.765 adda 24.074 nüsxə sənəd olmuşdur ki, bundan da 12.251 adda 16.729 nüsxə kitab, 46 adda, 4691 nüsxə dövri nəşrlər olmuşdur. Bundan başqa, kitabxananın fondunda 269 adda 2002 nüsxə xəritə, 199 adda 652 nüsxə xüsusi nəşrlər olmuşdur.

Buradakı kitablardan ətraf mühit, ekologiya üzrə olanlar rus dilində 242 adda və Azərbaycan dilində 60 addadır. Beləliklə, ad baxımından fonddakı kitabların 2,4 %-i bəhs etdiyimiz sahəyə aid edilə bilər.

Bundan əlavə, fondda olan dissertasiya avtoreferatları da ayrıca şöbədə toplanır.

Kitabxanada ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə dövri və ardı davam edən sənəd kütləsi -nəşrlər fondu da formalaşmlşdlr. Bu fondun tərkibinə gəldikdə isə, burada həm Azərbaycanda, həm MDB ölkələrində, həm də uzaq xaricdə nəşr edilən jurnallar toplanmışdır.

Təbii ki, bizim üçün bu fondun tərkibində bizi maraqlandıran sahəyə dair nəşrlərin necə təmsil olunması maraq doğurur. Kitab fondunun yuxarıda qeyd edilən "Ekologiya" şöbəsində toplanmış kitabların tərkibinə diqqət yetirək.

Ekologiya üzrə kitabların mövzu təhlili isə göstərir ki, onlar ekologiyanın ən müxtəlif istiqamətini əhatə edir və müxtəlif ədəbiyyat tiplərinə (elmi, tədris, istehsalat, soraq) aiddir.

Tələbatçıların sənəd-informasiya təminatında kitabxananın dövri nəşrlər fondu xeyli əhəmiyyətə malikdir. Məsələn. kitabxanada bu jurnalların arasında "Azərbaycan Milli EA Xəbərləri (Yer elmiləri) və "Hidrometeorologiya və ətraf mühitin monitorinqi" kimi sırf bizim tədqiq etdiyimiz sahəyə dair jurnallar da vardır.

Kitabxananın fondunda toplanmış dövri nəşrlərdən aşağıdakıları misal göstərmək olar. "Elm və həyat","Azərbaycan Milli EA Xəbərləri (Yer haqqında elmlər)", "Hidrometerologiya və ətraf mühitin monitorinqi","Вокруг света","Экология и жизнь"," Разведка и охрана недр", "Геология:Реферативний журнал ", "Экология" [68].

Elmi-Texniki Kitabxananın fondundakı kitabların içərisində 9 adda elektron kitab da vardır. Bunların hamısı rus dilindədir. Onların tipinə gəldikdə isə əksər hissəsi elmi kitablardır. Kitabların mövzusuna gəldikdə isə onlardan hamısı Nazirliyin profilinə uyğun olub geologiyaya aiddir. Maraqlıdır ki, həmin kitabların mətni internet vasitəsi ilə, Elmi kitabxananın səifəsindən əlyetətdir. Kitabxananın 200 nəfərdən artıq oxucusu vardır [164]. Beləliklə, Azərbaycanda ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə ali dövlət idarəetmə



orqanı olan Ekologiya və Təbii Sərvətlər Nazirliyində yaradılmış Elmi-texniki kitabxananın fondunda formalaşmış sənəd kütləsi mövzu baxımdan xeyli zəngin olsa da burad sırf bəhs etdiyimiz sahə üzrə kitabların xüsusi çəkisi gözlənilən qədər də yüksək deyildir və 2,4% təşkil edir.

Yuxarıda qeyd etdiyimiz kimi, Nazirlikdə sənəd-informasiya xidməti ilə məşğul olan və fəaliyyətinin istqaməti ilə əslində kitabxana olan digər bir struktur vahidi də vardır. Bu 2002-ci ildə Nazirlikdə ətraf mühitin mühafizəsi məsələlərinə dair Avropa Şurasının Orhus proqramı çərçivəsində yaradılmış Orhus İctimai Ekoloji İnformasiya Mərkəzidir. Bu Mərkəzin yaradılmasında əsas məqsəd ətraf mühitin qorunaması üzrə Azərbaycanın da qoşulduğu müahidələrə uyğun olraq respublika vətəndaşlarının ilk növbədə faktoqrafik ekoloji informasiyanı sərbəst əldə etmələrinə imkan yaratmaqdan ibarətdir. Burada faktoqrafik ekoloji informasiya deyərkən misal üçün, respublika ərazisində, eləcə də onun bu və ya digər regionunda, yaşayış məntəqəsində ətraf mühitin bu və ya digər maddə ilə nə dərəcədə çirklənməsi, təbii mühitin mxtəlif parametrlərinin nə səviyyədə olması barədə rəqəm (hətta bu rəqəm O olsa da) formasında informasiya nəzərdə tutulur. Avropa Birliyinin qanunlarına əsasən hər bir vətəndaşın ölkədə, onun regionunda ümumilikdə ətraf mühit barəsində, eləcə də ətraf mühitin nə dərəcədə çirklənməsi barədə məlumatları müvafiq dövlət və yerli idarəetmə qurumlarından soruşaraq öyrənməyə, bilməyə hüququ vardır. Avropa ölkələrinin hər birində əhalinin bu sahədə informasiya ilə təmin edilməsi üçün anoloji mərkəzlər vardır. Belə mərkəzlərdə özündə ekoloji faktoqrafik informasiyanı əks etdirən lokal və on layn verilənlər bazaları vardır. Bundan əlavə, həmin mərkəzlərdə ekoloji

xarakterli digər informasiya, müxtəlif sənədlər, o cümlədən rəsmi, normativ sənədlər, standartlar, təlimatlar də toplanır. Bakıda açılmış mərkəz də analoji funksiyaları yerinə yetirir. Mərkəz bir sıra inzibati-təşkilatı səbəblərdən 2008-2011-ci illərdə fəaliyyət göstərməmişdir. Mərkəzin ayrıca internet səhifəsi vardır [164].

Mərkəzdə toplanmış fond Nazirliyin kitabxanasından sonra respublikada ekoloji profilli (ixtisaslaşmış) sənəd kütləsi kimi nəzərdən keçirilə bilər.

2014-cü ilin hesabatına əsasən İnformasiya Mərkəzinin ümumi fondu 1000 nüsxə olmuşdur [83,s.2]. Fondun tərkibində Azərbaycan dilində -200 nüsxə, rus dilində -470 nüsxə, ingilis dilində -330 nüsxə kitab olmuşdur. Bundan başqa, Mərkəzin fondunda respublikamızda və digər ölkələrdə dərc edilən müxtəlif dövri nəşrlər, buklet və broşuralar da toplanmışdır. Fondda həm də 70 nüsxə videokasset var.

Yuxarıda qeyd etdiyimiz kimi, Kitabxananın fondu barədə ən son statistik məlumatlar 2014-cü ilə aiddir. Həmin ildə isə fondun tərkibində olan kitabların nüsxə üzrə miqdarı 1000, ad üzrə miqdarı 489 olmuşdur. Bu nüsxələrdən 300 nüsxəsi dərsliklər, 200 nüsxəsi Azərbaycan, 470 nüsxəsi rus, 330 nüsxəsi ingilis dilində olan kitablardır. Fondda həm də 70 nüsxə videokasset var.

Fondun tərkibində bizim tədqiq etdiyimiz sahə üzrə kitabların nüsxə üzrə miqdarı 314, ad üzrə miqdarı 227-dir ki, bu da faiz baxımdan müvafiq olaraq 31,4% və 46% təşkil edir.

Mərkəzin fondu əsasən hədiyyələrlə formalaşır. Məsələn ARDNŞ 2011-ci ildən etibarən Mərkəzə ətraf mühitlə bağlı məlumat layihə toplusunu göndərir. Bir sıra qeyri-



hökumət təşkilatları tərəfindən tərtib edilən ekologiyaya aid bülletenlər də Mərkəzə təqdim edilir.

2014-cü ildə Mərkəzin 365 oxucusu qeydiyyatdadır. Oxucularin əksər hissəsi ekoloqlar, elmi tədqiqat institutlarının əməkdaşları və universitetlərin ekoloji fakültələrinin tələbələridir.

Qeyd edildiyi kimi, İnformasiya Mərkəzinin fondunda xeyli miqdarda müxtəlif kitablar toplanmışdır. Binaların içərisində Azərbaycan dilində olan kitablarla yanaşı böyük miqdarda xarici kitablar da vardır. Bu kitablar içərisində bir xeylisi ekologiyaya aiddir. İngilis dilində olan 30 adda kitabdan əksər hissəsi beynəlxalq təşkilatlar tərəfindən nəşr edilmiş kitablardır.

Kitabxananın fondunda AMEA- nın institutlarının bu sahə üzrə nəşrləri, Ekologiya və Təbii Nazirlər Nazirliyinin hazırlayıb nəşr etdirdiyi çap məhsulatı, eləcə də respublikanın qeyri-hökumət təşkilatlarının nəşr etdirdikləri elmi və elmi-kütləvi nəşrlər, informasiya xarakterli nəşrlər də vardır.

Qeyri-hökumət təşkilatların nəşrlərinə aşağıdakıları nümunə gətirmək olar:

1.Müasir ekologiya Azərbaycan -Türkiyə nəşri /Beynəlxalq Ekoenerji Akademiyası.-B.:"Oka ofset"Poliqrafiya şirkəti, 2006.-412 s.

2.Davamlı inkişaf uğrunda/Norveçin inkişafı və əlaqələr üzrə agentliyinin Azərbaycan diyarşünaslıq cəmiyyəti, REC.CAUCASUS.

3."Davamlı Şəhərlər" keçid iqtisadiyyatlı ölkələrin şəhərləri üçün yerli çağırış- 21 üzrə təlimat (Ermənisatan ,Azərbaycan, Gürcüstan timsalında).- İrəvan- Bakı-Tbilisi: "R.N. Novruzov-94" nəşriyyatı, 2003. -170 s.

4. Azərbaycan torpaqşünaslar cəmiyyəti. Əsərlər toplusu.-Bakı: Elm nəşriyyatı 2010. - 218 s.

Göründüyü kimi, Mərkəzdə toplanmış sənəd kütləsi miqdar baxımdan böyük olmamasına baxmyaraq öz dəyərinə, ixtisaslaşmış ekoloji mövzu istiqamətinə görə xeyli əhəmiyyət kəsb edir.

Son olaraq qeyd etmək zəruridir ki, Orhus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzi yaradılandan sırf ətraf mühit, ekelogiya istiqamətli sənəd-informasiya təmanıtı məqsədi ilə yaradılmış yeganə informasiya müəssisəsidir və onuun öz vəzifələrini yerinə yetirməsi üçün orada konpakt, lakin Mərkəzin fəaliyyəti üçün çox əhəmiyyətli sənəd fondu formalaşmışdır.

Beləliklə, Orhus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzinin sənəd fondunun tərkibində bizim tədqiq etdiyimiz sahə üzrə kitabların ad üzrə miqdarı 227, nüsxə üzrə miqdarı 314-dir. Bu fond bizim tədqiq etdiyimiz kitabxananın ümumi fondunda ətraf mühit və ekologiya üzrə kitabların xüsusi çəkisinin ən yüksək göstəricilərinə malikdir ki, bu da faiz baxımdan müvafiq olaraq 46% və 31,4% təşkil edir.

Respublikanın tərkibində ətraf təbii mühitin mühafizəsi və ekologiya elmi üzrə əhəmiyyətli miqdarda sənədlər olan digər kitabxanaları əsasən universal və ya çox sahəli elmi kitabxanalardır. Azərbaycanda belə kitabxanalar içərisində müstəsna mövqe M.F. Axundov adına Milli Kitabxanaya məxsusdur.

M.F.Axundov adına Milli Kitabxananın biblioqrafik fəaliyyəti XX əsrin ikinci yarısında məzmun, forma və təşkilati baxımdan xüsusən səmərəli olmuş, kitabxana cəmiyyət



üzvlərinin biblioqrafik informasiyaya olan tələbatlarının ödənilməsində əhəmiyyətli nailiyyətlər qazanmış, zəngin təcrübə toplamışdır [25,s.8].

Öz əsasnaməsi və digər normativ sənədlər əsasında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün hal-hazırda kitabxanada optimal bir struktur formlaşdırılmışdır. Bu struktur aşağıdakı kimidir:

- Oxuculara xidmət şöbəsi
- Kitab fondlarinin mühafizəsi şöbəsi
- Not nəşrləri və səsyazmalari şöbəsi
- Azərbaycan ədəbiyyatinin arxivi şöbəsi
- Nadir kitablar və kitabxana muzeyi şöbəsi
- Diyarşünasliq elmi biblioqrafiya şöbəsi
- Sorğu informasiya xidməti şöbəsi
- Mədəni-kütləvi işlər şöbəsi
- Depozitar ədəbiyyat şöbəsi Nəşriyyat şöbəsi
- İnfrastruktrun təşkili və proqram təminati şöbəsi
- Avtomatlşdrma və informasiya texnologiyalari şöbəsi
- Elektron kataloqun formalaşdırılması şöbəsi
- Elektron resurslarinin yaradilması şöbəsi
- Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsi
- Kitab fondlarinin formalaşdırılması şöbəsi
- Analitik elektron məlumat bazasinin təşkili şöbəsi
- Kitabişləmə və кataloqlaşdirma şöbəsi
- Retrospektiv ədəbiyyatin elektron kataloqunun təşkili şöbəsi
- Kitabxanalarin metodik təminati şöbəsi
- Xarici ədəbiyyat və beynəlxalq kitab mübadiləsi şöbəsi

- Elektron informasiya xidməti və kitabxanalararası abonement şöbəsi
- Kitabxanaşünaslıq elmi-tədqiqat şöbəsi
- Kadrlar şöbəsi
- Ölkədaxili kitab mübadiləsi şöbəsi
- Çap məhsullarinin qeydiyyati və milli biblioqrafiya şöbəsi (Kitab Palatasi). [Mənbə: 156].

Bu şöbələrin hər biri bu və ya digər dərəcədə ətraf mühitin mühafizəsi və ekologiya üzrə ilkin sənəd və biblioqrafik təminata öz töhfəsini verir.

M.F. Axundov adina Azərbaycan Milli Kitabxanasının fondunun müxtəlif əlamətlərə görə tərkibi isə öz əksini hesabatlar əsasında tərtib edilmiş aşağıdakı cədvəldə tapmışdır.

**Cədvəl 5.**

**2015-cü ilin may ayına olan məlumata görə M.F. Axundov adina Azərbaycan Milli Kitabxanasının fondunun müxtəlif əlamətlərə görə tərkibi.**

| | | |
|---|---|---|
| | **Sənəd fondu cəmi** | **4.568.838** |
| | **Onlardan Təbiət, səhiyyə , tibb ədəbiyyat** | **946.739** |
| **1.** | **Fondun sənəd növünə görə tərkibi** | **Nüsxə** |
| 1.1. | Kitablar | 2.379.495 |
| 1.2. | Digər növ sənədlər | 2.189.343 |
| 1.3. | Jurnallar | 1.170 344 |
| 1.4. | Qəzetlər | 579 670 |
| 1.4.1 | Digər ardı davam edən nəşrlər | 132 421 |



| | | |
|---|---|---|
| 1.5. | **Sənədin texniki formasına görə** | |
| 1.5.1. | Elektron sənədlər(CD, VCD, DVD və s.) | 5092 |
| 1.5.2. | Onlardan tibb, səhiyyə və təbiət elmlərinə dair | 1000 |
| 2. | **Fondun sənədlərin dilinə görə tərkibi** | **Nüsxə** |
| 2.1. | Azərbaycan dilində | 622.723 |
| 2.2. | Rus dilində | 3.536.831 |
| 2.3. | Keçmiş SSRİ xalqları dillərində | 63.969 |
| 2.4. | Digər dillərdə | 359.079 |

Kitabxana fondunun mühüm tərkib hissəsi dissertasiyalardır. Respublikamızda qəbul edilmiş qaydalara əsasən ölkədə müdafiəyə təqdim edilən dissertasiyaların və referatların bir nüsxəsi(məcburi nüsxə kimi) bu Kitabxanaya verilir. Həmin sənəd növünün toplanması və istifadəsinin təşkili Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsi tərəfindən həyata keçirilir. 2014-cü ilə olan məlumata əsasən, şöbədə 8.790 nüsxə (hər biri 1 adda) dissertasiya saxlanır. Bunlardan 5.621 nüsxəsi Azərbaycan, 3.169 nüsxəsi isə rus dilindədir. Yuxarıda qeyd etdiyimiz kimi həmin dissertasiyalar içərisində bizim mövzuya dair dissertasiyalar mövcuddur və onlardan 86 nüsxə Azərbaycan, 81 nüsxəsi isə rus dilindədir. Şöbədə tədqiqatçıların bu vacib sənəd növünün istifadəsinin təşkili üçün kartoçka kataloqu (son illərdə isə elektron kataloq) yaradılır və bilavasitə sənədlə xidmət göstərilir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü

illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq şöbə Prezidentin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunan kitabların əksəriyyətinin elektron versiyasını hazırlayıb oxucuların istifadəsinə təqdim etmişdir [67,s.14-31].

Ətraf təbii mühitin mühafizəsi və ekologiya elmi üzrə sənəd fondunun formalaşdırılmasına gəldikdə isə M.F.Axundov adina Azərbaycan Milli Kitabxanada bu məsələyə böyük diqqət verilir, respublikamızda bu istiqamətdə çap edilmiş bütün kitabxanaların tam şəkildə komplektləşdirilməsinə çalışılır, ölkədə bu istiqamətdə nəşr olunan dövri nəşrlər abunə edilir, MDB məkanında rus dilində nəşr edilmiş kitablar sifariş verilir. Bu səylərin nəticəsində kitabxanada həmin istiqamətdə xeyli zəngin fond formalaşmışdır.

M.F.Axundov adina Azərbaycan Milli Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə kitab fondun tərkibinə, onun dillər üzrə bölgüsü məsələsinə gəldikdə isə, bu barədə 2015-ci ilin mart ayına dair rəqəmlələr aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 6.**

**2015-cu ildə M.F. Axundov adina Azərbaycan Milli Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə monoqrafik əsərlərin(kitab fondu və dissertasiyalar) tərkibi (ad üzrə).**

| N | Dillər | Kitabların miqdarı (nüsxə) |
|---|---|---|
| 1. | Azərbycan dilində | **250** |
| 2. | Rus dilində | **216** |



| | | |
|---|---|---|
| 3. | İngilis | 16 |
| 4. | **Dissertasiya** | **167** |
| | **Cəmi** | **649** |

Bu məlumatları əyani şəkildə təsəvvür etməyi asanlaşdırmaq üçün aşağıdakı diaqrama müraciət etmək olar.

**Diaqram 1. 2010-cu ildə M.F.Axundov adına Milli Kitabxananın fondunda olan ekologiya dair monoqrafik sənədlərin dilə görə növ tərkibi.**



Həmin kitabların ətraf təbii mühitin mühafizəsi və ekologiyanın hansı sahəsinə aid olması məsələsi də maraq doğurur. Həmin kitabların əksər hissəsi **ümumi** ekologiya. mühəndis ekeologiyası sahəsinə aiddir.

Haqqında bəhs edilən kitabların nəşr ili məsələsi də maraq doğuran məsələdir. Təhlil göstərir ki, Azərbaycan dilində olan kitabların əksər hissəsi 2000-ci ildən sora nəşr edilən kitablardır. Rus dilində olan kitabların isə əksər hissəsi 1990-2000-ci illərdə nəşr edilmişdir.

Bu kitabların məqsəd təyinatına gəldikdə isə onların əksər hissəsi **elmi ədəbiyyatdan**, bundan sonra **tədris ədəbiyyatından-(dərsliklərdən və dərs vəsaitlərindən)** ibarətdir. Sonrakı mövqedə elmi, daha sonra isə soraq kitabları durur.

M.F.Axundov adina Azərbaycan Milli Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə dövri və ardı davam edən nəşrlər fondu da formalaşmışdır. Bu fondun tərkibinə gəldikdə isə bu barədə rəqəmlələr aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 7.**

**M.F. Axundov adina Milli Kitabxanada olan ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə dövri və ardı davam edən nəşrlər fondunun ad və dillər üzrə tərkibi.**

| N | Dillər | Dövri və ardı davam edən nəşrlərin ad üzrə miqdarı | Onlardan ekologiya üzrə |
|---|---|---|---|
| 1. | Azərbycan dilində | 385 | 19 |
| 2. | Rus dilində | 160 | 6 |
| | Cəmi | 545 | 25 |



Kitabxananın fondunda bizi maraqlamdıran mövzuya aid olaraq Məqalələrin Sistemli Kartotekasınada- Universal kartotekada əks olunan 800 adda məqalə aşkara çıxarılmışdır. Bunlardan 650 məqalə rus, 150 isə Azərbaycan dilindədir.

Azərbaycanın beynəlxalq əlaqələrə daha yaxından inteqrasiya etməsi ekologiya üzrə beynəlxalq əlaqələrin də intensivləşməsinə gətirib çıxarır. Bu özünü ekologiya sahəsində də büruza verir. Məhz buna görə Kitabxananın Xarici ədəbiyyat və beynəlxalq kitab mübadiləsi şöbəsinin fəaliyyətinə də nəzər salmaq gərəkdir.

2015-ci ilin yanvarın 1-nə olan məlumata görə Xarici ədəbiyyat və beynəlxalq kitab mübadiləsi şöbəsinin fondu 301141 nüsxədən ibarətdir. Bura 115710 nüsxə kitab. 184968 nüsxə jurnal və 463 ədəd CD daxildir. Xarici ədəbiyyat və beynəlxalq kitab mübadiləsi şöbəsinin 5 fondu var ki. bunlara ingilis, alman , şərq. başqa dillər üzrə fondlar və jurnal fondu daxildir. Şöbədə ekologiyaya aid

-ingilis dilində-9;

-alman dilində 17;

fransız dilində -1.

bütünlükdə cəmi 27 kitab var.

Milli Kitabxanada bizi maraqlandıran sahə üzrə tələbatçılara sənədlə xidmət əsasən, Ümumi oxu zalında, Dövri mətbuat zalında, Biologiya və təbiət elmiləri zalında həyata keçirilir. Sonuncu zal öz ayrıca kataloquna soraq və biblioqrafik nəşrlər fonduna malikdir. Buradakı fondda ekoloji ədəbiyyat daha yüksək konsentrasiyaya malikdir. Əgər tələbatçıya ekoloji istiqamətli dissertasiyalara dair məlumat lazımdırsa, onu

Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsinə istiqmətləndirirlər.

Yuxarıda qeyd etdiyimiz kimi, ətraf mühitin mühafizəsi və ekologiya üzrə sənəd-informasiya təminatında monoqrafik sənədlərlə yanaşı dövri və ardı davam edən nəşrlərin böyük əhəmiyyət vardır.

Milli Kitabxananın Dövri mətbuat zalında 67 oxucu yeri vardır. Zalın yardımçı fondunda 4 illik jurnal və 5 illik qəzetlər saxlanılır.

Dövri mətbuat bölməsinə il ərzində Azərbaycan dilində 236 adda qəzet, 125 adda jurnal, rus dilində 22 adda qəzet, 20 adda jurnal alınır.

Dövri mətbuat zalı bütün cür oxucu qruplarına xidmət edir. Bu tələbatın ödənilməsi dövri nəşrlər fondu vasitəsi ilə həyata keçirilir. Bu fondun tərkibi Dövri nəşrlər kartotekasında öz əksini tapır. Həmin kartotekanın təhlili göstərir ki, Kitabxananın bu fondunda bizim tədqiq etdiyimiz sahə ilə bağlı dövri və ardı davam edən nəşrləri iki qrupa bölmək mümkündür.

1. Səhifələrində digər elmlərlə yanaşı, həm sırf ekologiya üzrə materiallar dərc edilən aşağıdakı dövri nəşrlər.
2. Səhifələrində ekologiya mövzusu aparıcı yer tutan dövri nəşrlər.

Birinci qrupa aşağıdakı dövri nəşrlari aid etmək olar:

**Azərbaycan dilində qəzetlər**

1. Aqrar mütəxəssis (Azərbaycan Dövlət Aqrar Universitetinin orqanı)
2. Azərbaycan fermeri (Pambıq Emalı və İxracatçılarının orqanı)



3. Baytarlıq təbabəti (Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq xidmətinin elmi, praktik, ictimai aylıq qəzeti).
5. Torpaq (Azərbaycan Respublika Dövlət Torpaq və Xəritəçəkmə komitə orqanı).
6. Təbib (Azərbaycan Tibb Universiteti orqanı).
7. Tibb (Azərbaycan Respublikası Səhiyyə nazirliyinin orqanı).

**Azərbaycan dilində jurnallar**

1. Azərbaycan Milli Elmilər Akademiyası xəbərləri. Biologiya və tibb elmləri
2. Azərbaycan Milli Elmilər Akademiyası xəbərləri. Yer elmləri
3. Azərbaycan Respublikası Təhsil Nazirliyi . Naxçıvan Dövlət Universiteti .Elmi əsərlər .Təbiət elmləri və tibb seriyası.
4. Azərbaycan Aqrar Elmi. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi elmi nəzəri jurnal
5. Azərbaycan Dövlət Aqrar Universitetinin elmi əsərləri
6. Azərbaycan Milli Elmilər Akademiyası Naxçıvan bölməsi. Təbiət və texnika elmləri seriyası. Xəbərlər
7. Azərbaycan Milli Elmilər Akademiyası xəbərləri. Biologiya elmləri
8. Azərbaycanda geofizika yenilikləri ; SOCAR: Rüblük elmi texniki jurnal
9. Bakı Universitetinin xəbərləri .Təbiət elmləri seriyası.
10. Bitki mühafizəsi və karantini : Mütəxəssislər, alimlər və fermerlər üçün dövri jurnal /təsisçi Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti . Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının nəşri.- Bakı: 2008 -

10. Coğrafiya və təbii resurslar [Mətn]: Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri /baş red., Məmmədov, Ramiz Mahmud oğlu Bakı: 2014 .

11. Elm texnika yenilikləri

12. Elm və Həyat. Metodiki –bədii, publisist jurnal.

13. Elmi Xəbərlər. Fundamental humanitar və Təbiət Elmlər seriyası (Gəncə dövlət Universiteti

14. Sumqayıt Dövlət Universitetinin Elmi xəbərləri. Təbiət və Texnika elmiləri bölməsi.

**Rus dilində jurnallar:**

1. Аграрнаянаука

2. Альтернативная энергетика и экология. (Международный научный журнал).

3. Биомедицина. Ежемесячный журнал.

4. Журнал общей биологии. Российская академия наук.

5. Известие Томского Политехнического Университета. (Науки о земле).

6. Природа . Ежемесячный естественный научный журнал . Российская академия наук.

Bu sadalanan nəşrlərin səhifələrində həmçinin ətraf mühitin mühafizəsi və ekologiya mövzusu üzrə materiallar dərc edilir. Bunlarla yanaşı, Kitabxananın Dövri nəşrlər fondunda bir sıra digər dövri, ardı davam edən nəşrlər də vardır ki, hansıların ki, səhifələrində bəhs etdiyimiz mövzu aparıcı mövqeyə malikdir. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar:

**Azərbaycan dilində jurnallar:**

1.Azərbaycan təbiəti [Mətn]: Elmi-kütləvi, illüstrasiyalı jurnal /Ekologiya və Təbii Sərvətlər Nazirliyi; baş red. M.Araz.- Bakı: 1975-



2.Ekologiya və su təsərrüfatı [Mətn]: elmi-texniki və istehsalat jurnalı/ /baş red., Məmmədov, K.M.- Bakı: 2005-

3.Hidrometeorologiya və Ətraf Mühitin Monitoringi /təsisçi.Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi.- Bakı: 1997-

4.Biomüxtəliflik [Mətn]: Enerji layihələrinin ekoloji dəyəri Bülleten.- Bakı: 2007-

5."İnsan və biosfer" (MAB) Azərbaycan Milli Komitəsi [Mətn]: elmi əsərləri /Azərbaycan Milli Komitə, YUNESKO üzrə Azərbaycanın Milli Komissiyası;.- Bakı: Elm, 2007 -

6.Azərbaycan təbiəti [Mətn]: Elmi-kütləvi, illüstrasiyalı jurnal /Ekologiya və Təbii Sərvətlər Nazirliyi; baş red. M.Araz.- Bakı: 1975-

7. Ağac .Üçaylıg çevrə dərgisi.

8..Azərbaycan Respublika Ekologiya və Təbii sərvətlər Nazirliyi. Hidrometeorologiya və ətraf mühitin monitorinqi jurnalı.

9.Biomüxtəliflik : Enerji layihələrinin ekoloji dəyəri. Bülleten.

10.Eco vision. Rüblük iş və iqtisadiyyat jurnalı. Təsisçi- Azərbaycan Türkiyə iş adamları birliyi.

11.Ecopark

12.Eko inter (İctimai siyası beynəlxalq jurnal B.

13.Ekologiya və su təsərrüfatı [Mətn]: elmi-texniki və istehsalat jurnalı/ /baş red., Məmmədov, K.M.- Bakı: 2005

14.Ekologiya və su təsərrüfatı. Elmi-texniki və istehsalat jurnalı

15.Ekoloji kənd təsərrüfatı. Gəncə Aqro Biznes Assosiasiyasız

16.İnsan və biosfer. (MAB) Azərbaycan Milli Komitəsi [Mətn]: elmi əsərləri /Azərbaycan Milli Komitə, YUNESKO üzrə Azərbaycanın Milli Komissiyası;.- Bakı: Elm, 2007 –

Şöbənin fondunda olan ətraf mühitin mühafizəsi və ekologiya üzrə rus dilində dövri nəşrlərə isə aşağıdakıları aid etmək mümkündür:

**Rus dilində jurnallar:**

1.Экология [Текст]: журнал /Российская Академия Наук; глав. ред., Большаков, В.Н.

2.Биосфера : Междисциплинарный научный и прикладной журнал по проблемам познания и сохранения биосферы и использования ее ресурсов /Фонд Научных Иселедований "XXI век" Санкт-Петербург: 2008-

Məlumdur ki, müasir dövrdə ekologiya sahəsinin mütəxəssislərin sənəd-informasiya təminatında dövri və ardı davam edən nəşrlərdə dərc edilən materialların böyük əhəmiyyəti vardır. Bu materialların biblioqrafik baxımdan əks olunması kartotekalar, son zamanlar isə onların elektron analoqları vasitəsi ilə reallaşır. Milli Kitabxananın Elektron kartotekası vasitəsi ilə aydınlaşdırmaq mümkündür ki, Elektron karotekada Azərbaycan və rus dillərində 263.321 biblioqrafik yazı var. Bunlardan 2.020 yazı ekologiya və ətraf mühitə dair Azərbaycanca, 2.100 yazı isə rusca məqalələri əks etdirir.

Kitabxanada yaradılan sənəd kütləsinin yaradılmasında və istifadəsində Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsinin böyük rolu var.

M. F. Axundov adına Milli Kitabxana universal elmi kitabxana olduğundan onun istifadəçiləri arasında elmi ədəbiyyata müraciət edən tələbatçıların sayı xeyli çoxdur. Onlar elmi ədəbiyyatin ən müxtəlif növlərindən geniş istifadə edirlər.



Bu növlərdən biri də elmi dərəcə müdafiə etmək üçün yazılmış dissertasiyalar və onların avtoreferatlarıdır. Məhz bu səbəbdən də kitabxanada strukturun tərkibində Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsi təşkil edilmişdir.

2009-cu ilin yanvar ayından "Elektron dissertasiya fondunun təşkili və ondan istifadə" şöbəsi müstəqil struktur kimi fəaliyyət göstərir. Şöbədə 1993-ci ildən bu günə kimi Azərbaycanda müdafiə edilmiş dissertasiyalar mühafizə olunur. Hal-hazırda şöbədə 9.583 dissertasiya vardır və bunların 3.962 nüsxəsi rus dilində, 5.621 nüsxəsi isə Azərbaycan dilində olan dissertasiyalardır. Şöbədə həmçinin internet vasitəsilə Rusiya Dövlət Milli Kitabxanasının Elektron Dissertasiya Fondunun virtual oxu zalına birbaşa əlyetərlik mümkündür.

Oxuculara həmçinin virtual xidmət göstərilməsi üçün şöbənin fondunda olan dissertasiyaların tammətnli elektron versiyasının hazırlanması və lokal şəbəkədə yerləşdirilməsi prosesi davam edir.

Yarandığı zamandan etibarən Şöbənin sənəd fondu mütəmadi şəkildə zənginləşir. 2015-cü ilin yanvarına olan məlumata görə şöbə aşağıdakı statistik göstəricilərə malikdir:

| | |
|---|---|
| Dissertasiyaların ümumi sayı | - 9800 adda |
| Azərbaycan dilində | - 5621 adda |
| Rus dilində | -3963 adda. |

Yuxarıda qeyd edildiyi kimi, bu şöbə Kitabxanada tələbatçıların ətraf mühitin qorunması və ekologiya üzrə sənəd-informasiya təminatı üçün böyük əhəmiyyətə malikdir. Hal-hazırda şöbədə Ekologiya üzrə Azərbaycan dilində 86 adda və rus dilində 81 adda dissertasiya saxlanılır.

Göründüyü kimi, Şöbədə toplanmış ekologiyaya dair dissertasiyalar fəlsəfə, biologiya, coğrafiya və kənd təsərrüfatı

üzrə alimlik dərəcəsi almaq üçün yazılmışdır. Bu onunla əlaqədardır ki, elmi informasiya fəaliyyətinin nəzəriyyəsi, kitabxanaşünaslıqvə biblioqrafiyaşünaslıqda olduğu kimi ekologiya elmi üçün də ayrıca elmi dərəcə adı yoxdur və bu sahədə tədqiqat aparan alim öz tədqiqatını yuxarıda göstərilən elmlərin birinin aspektləri üzərində qurmalıdır.

Şöbədə apardığımız müşahidələr göstərir ki, şöbəyə müraciət edən tədqiqatçıların xeyli bir hissəsi buradakı elektron kataloqdan və digər biblioqrafik axtarış mənbələrindən istifadə edirlər. Bundan başqa, dissertasiyaların və onların avtoreferatlarının sonunda verilmiş "istifadə edilmiş ədəbiyyat siyahıları" ekologiya üzrə çox qiymətli biblioqrafik mənbədir. Şöbədə ənənəvi biblioqrafik vasitələrdən ayrıca sistemli kataloq və müəlliflərin əlifba kataloqu vardır

Yuxarıda gətirdiyimiz statistik məlumat göstərir ki, M.F. Axundov adına Milli Kitabxananın Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsində toplanmış sənəd kütləsinin tərkibində bəhs etdiyimiz sahə üzrə sənədlərin payı 1,7% təşkil edir.

Beləliklə, Milli Kitabxananın fondunun tərkibində ətraf mühit və ekologiya üzrə kitabların xüsusi çəkisi çox aşağı göstəricilərinə malikdir ki, bu da faiz baxımdan 0,0126% təşkil edir. Bu onunla izah edilə bilər ki, həmin kitabxananın sənəd kitləsi universal elmi fond kimi formalaşmışdır və burada digər elmlər, o cümlədən ictimai-siyasi, humanitar sahələr, bədii istiqamətli xeyli ədəbiyyat vardır.

Respublikamızın ən böyük elmi qurumu olan Azərbaycan Milli Elmlər Akademiyası həm də ekologiya üzrə tədqiqatların aparıldığı ən böyük elmi müəssisədir. Akademiyanın tərkibinə daxil olan 37 elmi-tədqiqat



qurumundan 13 elmi müəssisə ekologiya istiqamətində elmi tədqiqatlar aparır. Bu səbəbdən də Milli Elmlər Akademiyasında alim və tədqiqatçılara kitabxana-biblioqrafik xidmətin təşkilinə böyük əhəmiyyət verilir. Həmin xidmətin təşkili üçün Akademiya sistemində 26 kitabxanadan ibarət bütöv bir şəbəkə yaradılmışdır ki, ona Mərkəzi Elmi Kitabxana başçılıq edir. Bu müəssisələrin əksərində xüsusi elmi kitabxana fəaliyyət göstərir [170]. Mərkəzi Elmi Kitabxana Akademiya sistemindəki 26 kitabxananın fəaliyyətini istiqamətləndirən metodiki mərkəzdir [35,s.1-24].

Bu kitabxana başda olmaqla Akademiya kitabxanaları sistemində çox zəngin kitab kütləsi formalaşmışdır. Hazırda ölkəmizdə təbiətşünaslıq, sosial-iqtisadi, siyasi, humanitar və texniki elm sahələri üzrə ən iri elmi kitabxana sayılan AMEA-nın Mərkəzi Elmi Kitabxanası dünya xalqlarının 50 dildə nəşr edilmiş 3 milyon nüsxədən artıq elmi ədəbiyyatı əhatə edən informasiya fonduna malik olub, 30 mindən artıq oxucuya xidmət göstərir [35,s.1-24]. Kitabxanada formalaşmış sənəd fondunun tərkibində isə ekologiya və ətraf mühitin mühafizəsinə dair xeyli zəngin sənəd kütləsi toplanmışdır. Bu səbəbdən də Azərbaycanda elmi-tədqiqat fəaliyyətinə dair və ekologiya, ətraf mühitin mühafizəsi mövzusubda sənəd kütləsindən söhbət getdikdə ilk növbədə Kitabxananın və ayrı-ayrı akademik müəssisələrin kitabxanalarında formalaşmış sənəd fondu nəzərdə tutulmalıdır [36; 37,s.32-40]. Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasının sənəd fondunun tərkibi, fəaliyyətinin əsas istiqamətləri barədə təsəvvür əldə etmək üçün 2012 -ci ilin illik hesabatındakı faktlara müraciət edək.

Cədvəl 8.

**2012-ci ildə Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasının sənəd fondunun tərkibi.**

| | **Fondun növü** | **Miqdar-nüsxə** |
|---|---|---|
| 1. | Fondun ümumi miqdarı Onun tərkibində | 2..178.752 |
| 1. | Kitablar | 1.227.142 |
| 2. | Xüsusi növ ədəbiyyat | 181.177 |
| 3. | Dövri mətbuat | |
| 3.1. | Jurnallar | 809.704 |
| 3.2. | Qəzetlər | 3.441 ad nüsxə |
| 4. | Mikroformalar, mikrofilmlər | 5.749 |
| 5. | Dissertasiyalar | 2.000 |
| | **Fondun elm sahələrinə görə tərkibi** | |
| 1. | Ictimai elmlər | 47.164 |
| 2. | Təbiət elmləri Onun tərkibində | 813.273 |
| 3. | Fizika ,riyaziyyat elmləri Onun tərkibində | 246.262 |
| 4. | Kimya elmləri | 250.553 |
| 5. | Geologiya -coğrafiya elmləri | 191.757 |
| 6. | Biologiya elmləri | 124.701 |
| 7. | Texniki elmlər | 362.156 |
| 8. | Kənd təsərrüfatı | 134.298 |
| 9. | Tibb elmləri | 108.197 |
| 10. | Bədii ədəbiyyat | 326.810 |
| 11. | Incəsənət | 142.295 |
| 12. | Kitabxana biblioqrafiya | 91.053 |
| 13. | Ensiklopediya, məlumat kitabları | 5.269 |
| 14. | Filologiya | 196.699 |



| | **Ekologiya üzrə kitablar cəmi - ondan** | **2.500** |
|---|---|---|
| 1. | Azərbaycan dilində | 500 |
| 2. | Rus dilində | 2.000 |

**Qeyd: Kitabxananın fonduna yeni ədəbiyyatın daxıl olmasını əks etdirən rəqəmləri əks etdirən cədvəl bir qədər sonra veriləcəkdir.**

Göründüyü kimi, kitabxananın fondu xeyli zəngin tərkibə malikdir. Burda ekologiyaya dair kitabların da xeyli təmsil olunması -2.500 adda - 4.300 nüsxədə həmin fondun bu sahənin mütəxəssislərinə xidmət üçün əhəmiyyət kəsb etməsinə imkan verir. Bu isə nüsxə baxımdan ümumi fondun 0,11%-i, kitab fondunun isə 0,2%-i təşkil edir. Kitablardan 250 adda Qərbi Avropa dillərindədir.

Həmin kitabların ətraf təbii mühitin mühafizəsi və ekologiyanın hansı sahəsinə aid olması məsələsi də maraq doğurur. Həmin kitabların əksər hissəsi ekologiyanın nəzəri problemlərinə həsr edilmişdir. Sonrakı yerləri ətraf mühitin qorunmasının praktik problemlərinə dair ədəbiyyat tutur.

Haqqında bəhs edilən kitabların nəşr ili məsələsi də maraq doğuran məsələdir. Təhlil göstərir ki, Azərbaycan dilində olan kitabların əksər hissəsi 2000-ci ildən sonrakı illərində nəşr edilən kitablardır. Rus dilində olan kitabların isə əksər hissəsi 1985-ci ildən sonrakı illərdə nəşr edilmişdir. Bu kitabların məqsəd təyinatına gəldukdə isə onların əksər hissəsi tədris ədəbiyyatından-dərsliklərdən və dərs vəsaitlərindən ibarətdir. Sonrakı mövqedə elmi, daha sonra isə soraq kitabları durur.

Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə dövri və ardı davam edən nəşrlər fondu da formalaşmışdır. Lakin məlumdur ki, tələbatçıların sənəd-informasiya ehtiyaclarının ödənilməsində kitablarla yanaşı dövri nəşrlərin də böyük əhəmiyyəti vardır. Kitabxananın fondunda ətraf mühit və ekologiya ilə bağalı aşağıdakı dövrü və ardı davam edən nəşrlər mövcuddur:

**Azərbaycan dilində**

1. Azərbaycan Milli Elmilər Akademiyasının xəbərləri: Biologiya elmləri seriyası.
2. Ekologiya və su təsərrüfatı .elmi-texniki və istehsalat jurnalı / Azərbaycan memarliq və İnşaat Universitetinin "Su təsərrüfatı və mühəndis Kommunikasiya sistemləri" fakültəsi.
3. Mərkəzi Nəbatat bağının əsərləri/ AMEA.
4. Azərbaycan Dövlət Aqrar Universitetinin elmi əsərləri
5. Azərbaycan Milli Elmilər Akademiyasının xəbərləri :Yer elmləri seriyası.
6. Bakı Universitetinin xəbərləri.Təbiət elmləri seriyası
7. Naxçıvan Dövlət Universitetinin elmi əsərləri .Təbiət elmləri və tibb seriyası.-Naxçıvan.
8. Sumqayıt Dövlət Universitetinin elmi əsərləri. Təbiət və texniki elmlər bölməsi.-Sumqayıt.
9. Ekoenergetika:elmi-texniki jurnal/AMEA;Beynəlxalq"Ekoenergetika"Akademiyası.

**Rus dilində**

1. Агрохимия /Рос.Академия Наук.-Москва.
2. Азербайджанский химический журнал /НАН Азербайджана



3. Бохимия /Рос.Академия Наук.-Москва.
4. Российский химический журнал / Рос.Академия Наук.-Москва.
5. Водные ресурсы / Рос.Академия Наук.-Москва.
6. Геоэкология / Рос.Академия Наук.-Москва.
7. Земля и Вселенная / Рос.Академия Наук.-Москва.
8. Лесоведение / Рос.Академия Наук.-Москва.
9. Океанология / Рос.Академия Наук.-Москва.
10. Природа / Рос.Академия Наук.-Москва.
11. Биология моря / Рос.Академия Наук. Владивосток.
12. Радиационная биология. Радиоэкология / Рос.Академия Наук.-Москва.
13. Экология / Рос.Академия Наук.-Москва.

Təqdim edilən faktlar təsdiq edir ki, Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə zəngin və müxtəlif çeşidli sənəd kütləsi formalaşdırılmışdır. Həmin sənəd kütləsi ilk növbədə elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan mütəxəssislər üçün nəzərdə tutulmuşdur. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan MEA-nın nəzdində fəaliyyət göstərən bir sıra elmi-tədqiqat institutlarında ekologiya istiqamətli tədqiqatlar aparılır və həmin fəaliyyətin kitabxana-biblioqrafik təminatı burada fəaliyyət göstərən və Elmlər Akademiyasının elmi kitabxanalar şəbəkəsinə daxil olan kitabxanalar tərəfindən həyata keçirilir.

Beləliklə, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının fondunun tərkibində bizim təqdim etdiyimiz sahə üzrə kitabların kitabxananın ümumi fondunda ətraf mühit və ekologiya üzrə kitabların xeyli dərəcədə təmsil olunması -2.500 adda *-4.300 nüsxədə* həmin fondun bu sahənin mütəxəssislərinə xidmət üçün əhəmiyyət

kəsb etməsinə imkan verir. Bu isə nüsxə baxımdan ümumi fondun 0,11%-i, kitab fondunun isə 0,2%-i təşkil edir. Kitablardan 250 adda Qərbi Avropa dillərindədir. [170].

Azərbaycan Elmlər Akademiyası sistemindəki elmi-tədqiqat institutları arasında ekoloji istiqamətli tədqiqatlar baxımdan xüsusi mövqe Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutuna məxsusdur. Kitabxananın sənəd fondu barədə məlumatlar aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 9.**

**Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun Elmi Kitabxanasının fondunun tərkibi.**

| | Sənədin növü | Miqdar (nüsxə) |
|---|---|---|
| 1. | Kitabxananın fondu – cəmi. Ondan ekologiya üzrə | 55.000<br>505 |
| 2. | Rus dilində ekologiya üzrə | 34.750<br>430 |
| 3. | Azərbaycan dilində ekologiya üzrə | 1.900<br>58 |
| 4. | Xarici dillərdə ekologiya üzrə | 1.250<br>17 |
| 5. | Jurnal | 22.000 |
| 6. | Qəzet(4 adda) | 1.855 |



2011-ci ildə Kitabxananın fonduna 60 adda kitab daxil olmuşdur ki, ondan 20 adda kitab ekologiyaya aiddir. Hazırda fondda ekologiyaya aid Azərbaycan dilində 66 adda kitab var. Kitabxananın fondunda Azərbaycan dilində toplanmış jurnalların tərkibi də maraq doğurur. Məsələn, 2011- 2012-ci illər kitabxana üçün abunə edilmiş Azərbaycan dilində jurnallardan aşağıdakıları göstərmək olar:

1. Azərbaycan təbiəti . (AMEA-nın nəşri)
2. AMEA- nın xəbərləri. Geologiya və coğrafiya bölməsi (yer elmləri seriyası)
3. XXI əsr-Dirçəliş. (Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun nəşri).

Kitabxananın fondunda olan rusca jurnallara misal olaraq aşağıdakıları göstərmək olar:

1. Известия Российский Академии Наук. Серии географическая. Москва.
2. Природа. Ежемесячный естественнонаучный журнал РАН. Москва.
3. Геоморфология. РАН .Москва.
4. География и природные ресурсы. Сибирскоe отделения РАН. Новосибирск
5. Наука и жизнь.Ежемесячный научно-популярный журнал. Москва.
6. Свет и природа. Москва.
7. Водные ресурсы. РАН

Bu jurnalların əksəriyyəti ətraf mühitin qorunması və ekologiya sahəsində məqalələr və digər materiallar dərc edir.

Qeyd etdiyimiz kimi, coğrafiya elminin öz predmetinə görə ekologiya elminə çox yaxın olması səbəbindən qeyd edilən kitabxananın fəaliyyətində də ekoloji tematika özünü aşkar

şəkildə büruzə verir. Bu xüsusilə Kitabxanada formalaşmış ilkin sənəd fondunda, Soraq-biblioqrafiya aparatının tərkibində, müraciət edən tələbatçıların sorğularında, onlara təqdim edilən sənədlərin mövzu əhatəsində, verilən biblioqrafik arayışlarda təzahür edir. Bu səbəbdən də respublikanın fəaliyyətində ekoloji istiqamətin aşkar şəkildə təzahür etdiyi kitabxanalarından bəhs edərkən Azərbaycan Elmlər Akademiyasının akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun Elmi kitabxanasını mütləq qeyd etmək lazımdır. Təhlillər göstərir ki, Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutuna Elmi kitabxanasında 55 000 nüxsə formalaşmış sənəd kütləsinin tərkibində ətraf mühitin mühafizəsi və ekologiya üzrə rus dilində 430 nüsxə (1,24%), Azərbaycam dilində 58 (3%) nüsxə və xarici dillərdə 17 (1,36%) nüsxə kitab tolanmışdır. Bu faizlərin orta göstəricisi isə 1,86% təşkil edir.

Azərbaycanda ictimai fəaliyyətin digər sahələri kimi, tibb elminə və səhiyyə sisteminin inkişafına böyük diqqət yetirilir. Bu məsələlər ekologiya ilə sıx bağlıdır və bu səbəbdən də bizim diqqətimizi cəlb edir. Müstəqillik illərində tibb elminin və səhiyyənin inkişafı üzrə böyük işlər görülmüş, xalqımızın sağlamlığının təmin edilməsi sahəsində bir çox layihələr reallaşdırılmışdır. Bu sahəyə dövlət qayğısı ölkə rəhbərliyinin daim diqqətində olan məsələlərdən biridir. Azərbaycan əhalisinin sağlamlığına qayğı daim ölkə rəhbərliyinin, şəxsən prezident İlham Əliyevin diqqət mərkəzindədir. Məsələn, 8 oktyabr 2014-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. Həmin iclasdakı yekun çıxışında Prezident İlham Əliyev qeyd etmişdi ki, "bəzi



istisnalarla, bütün şəhərlərimizdə müasir səhiyyə ocaqları yaradılır. Ya tikilir, ya da ki, əvvəlki illərdə tikilmiş xəstəxanalar, rayon mərkəzi xəstəxanaları əsaslı şəkildə təmir edilir. Üç-dörd şəhər qalıb ki, orada, hələ xəstəxanalar lazımi səviyyədə deyil. Yəqin ki, gələn il və 2016-cı ildə bu sahədə də işlər tam yekunlaşacaq və hər bir şəhərdə müasir avadanlıqla təchiz edilmiş gözəl tibb mərkəzləri olacaq" [61,s.1-3]. Təbii ki, bu sahənin uğurlu inkişafının başlıca şərtlərindən biri sahənin mükəmməl kitabxana-biblioqrafik təminatıdır. İctimai fəaliyyətin digər sahələrində olduğu kimi bəhs edilən sahənin də kitabxana-biblioqrafikik (sənəd-informasiya) təminatı sahəvi-inzibati prinsip üzrə təşkil edilmişdir. Bu sahə üzrə ölkədə əsas qurum Respublika Elmi Tibb Kitabxanasıdır. Bu kitabxana hal-hazırda sahə üzrə ölkənin ən böyük kitabxanasıdır. Azərbaycan Dövlət Respublika Elmi Tibb Kitabxanası Azərbaycan SSR Xalq Komissarları tərəfindən verilmiş 29 noyabr 1939-cu il qərarına əsasən təşkil edilmişdir. Kitabxana 1940-ci ildən real fəaliyyətə başlamışdır.

Respublika Elmi-Tibb Kitabxanası həm də Səhiyyə Nazirliyi sisteminə daxil olan elmi-tədqiqat institutlarında fəaliyyət göstərən elmi kitabxanalardan, iri səhiyyə müəssələrində-xəstəxanalarda fəaliyyət göstərən praktiki yönümlü kitabxanalardan ibarət kitabxana şəbəkəsinin mərkəzi kitabxanasıdır.

Kitabxana respublikanın Səhiyyə orqanlarının, elmi-tədqiqat və müalicə-profilaktika müəssisələrini xalqın sağlamlığı problemlərini, sosial-gigiyena və səhiyyənin təşkili, klinik və profilaktik təbabət, sanitar-epidemioloji və səhiyyənin, tibb elminin digər problemləri ilə məşğul olan alim və mütəxəssislər kitabxana-biblioqrafiya, və informasiya ilə

vaxtında tamin edir, səmərələşdirici təkliflər təqdim edir. Bundan başqa, Kitabxana Azərbaycan Respublikasında tibb kitabxanaları şəbəkələrinə təşkilatı-metodik rəhbərliyi və onların əlaqəli fəaliyyətini həyata keçirmək, elmi-tədqiqat institutlarının, ali və orta tibb təhsil müəssisələrinin elmi tibbi informasiya şöbələrinin fəaliyyətinə metodiki və koordinasiyası üzrə rəhbərliyi həyata keçirir. Kitabxana sahəvi depozitar kitabxana və tibb elminin aktual problemləri üzrə vahid soraq- informasiya fondlarını təşkil edir.

Bu bir faktdır ki, respublikamızın elmi potensialında Səhiyyə Nazirliyi sistetmində olan elmi-tədqiqat institutları da mühüm yer tutur. Həmin institutların fəaliyyətində ekologiya ilə bağlı tədqiqatlar da müəyyən yer tututr. Səhiyyə Nazirliyinin tərkibinə daxil olan 12 elmi-tədqiqat qurumundan bir sıra elmi müəssisə ekologiya ilə bağlı elmi tədqiqatlar aparır. Bu səbəbdən də Səhiyyə Nazirliyinin kitabxanalar sistemində alim və tədqiqatçılara ekologiya üzrə kitabxana-biblioqrafik xidmətin təşkilinə böyük əhəmiyyət verilir. Həm tədqiqatçılara, həm də respublikanın dövlət müalicə-profilaktika müəssisələrində çalışan mütəxəssislərə xidmətin təşkili üçün Səhiyyə Nazirliyinin sistemində 101 kitabxanadan ibarət şəbəkə fəaliyyət göstərir ki, ona Azərbaycan Respublika Elmi Tibb Kitabxanası başçılıq edir [81,s.6].

Respublikanın bir sıra elmi-tibb institutlarının kitabxanalarının bir çoxu xeyli zəngin ədəbiyyat fonduna malikdir ki, onun barədə aşağıdakı cədvəl vasitəsi ilə təsəvvür əldə etmək mümkündür.



**Cədvəl 10.**

**Respublika elmi-tibb kitabxanalar sisteminə daxil olan bir sıra kitabxanaların fondunun miqdarı.**

| | Kitabxananın adı | Fondun miqdarı |
|---|---|---|
| 1. | Səhiyyə Nazirliyinin Respublika Dövlət Elmi Tibbi Kitabxanası | 482.822 |
| 2. | Z. Əliyeva ad. Milli Oftalmologiya Mərkəzi Kitabxanası | 6.403 |
| 3. | C. Abdullayev ad. ET Kardiologiya İnstitutunun Kitabxanası | 10.123 |
| 4. | B. Eyvazov ad. ET Hematologiya və Transfuziologiya İnstitutunun Kitabxanası | 6.741 |
| 5. | ET Ağciyər Xəstəlikləri İnstitutunun Kitabxanası | 15.000 |
| 6. | ET Tibbi Bərpa İnstitutunun Kitabxanası | 69.347 |
| 7. | ET Mamalıq və Ginekologiya İnstitutunun Kitabxanası | 2.491 |
| 8. | ET Travmatologiya və Ortopediya İnstitutunun Kitabxanası | 4.850 |
| 9. | K.Y. Fərəcova ad. ET Pediatriya İnstitutunun Kitabxanası | 19.382 |
| 10. | Milli Onkologiya Mərkəzinin Kitabxanası | 9.296 |
| 11. | Ə. Əliyev ad. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Kitabxanası | 6.235 |

Beləliklə, Respublika Elmi-tibb Kitabxanası başda olmaqla, tibb-səhiyyə kitabxanaları sistemində çox zəngin kitab kütləsi formalaşmışdır. Həmin araşdırmalar birbaşa olmasa da, qismən ekologiya ilə əlaqədardır. Mərkəzi Elmi Kitabxanasında formalaşmış sənəd fondunun tərkibində isə ekologiya və ətraf mühitin mühafizəsinə dair xeyli zəngin sənəd kütləsi toplanmışdır.

Kitabxana həm də tibb-səhiyyə sistemindəki kitabxanaların fəaliyyətini istiqamətləndirən əsas metodiki mərkəzdir [62.s.113].

Kitabxanada fondda olan monoqrafiyaların 870-i ekoloji və təbabət ilə ekoloji mövzuların kəsişdiyi mövzularda olmuşdur. 2014-cü il üzrə tərtib edilən 205 yazılı biblioqrafik arayışdan 26-sı ekoloji mövzuda olmuşdur [82,s.8].

Kitabxananın fondunun bir neçə tərkib hissəsi vardır: ümumi fond, depozitar fond, arxiv fond, fəal fond, nadir nəşrlər fondu. Məzmununa görə əsas fond tibbi elmi fəaliyyətlə və tibbi təcrübə ilə məşğul olan, tibb sahəsində təhsil olan oxucular üçün nəzərdə tutulmuşdur. Bu baxımdan fond əsasən elmi və profilaktik tibbi ədəbiyyatdan ibarətdir. Kitabxana fondunun komplektləşdirilməsi tematik-topoloji plan əsasında keçirilir.

2011-ci ilin məlumatına görə Kitabxananın fondunda ekoloji məzmunlu 700 adda, Azərbaycan dilində 61 adda kitab olmuşdur [79,s.8].

2013-cü il 1 yanvar tarixinə olan məlumata görə Respublika Elmi Tibb Kitabxanasının fondunda müxtəlif növlü 371.355 nüsxə ədəbiyyat olmuşdur ki, onun tərkibində bizim öyrəndiyimiz mövzu üzrə artıq rus dilində 720 nüsxə, Azərbaycan dilində 73 adda kitab olmuşdur. [81,s.6]. Azərbaycan Respublika Elmi Tibbi Kitabxanasının fondunun tərkibi barədə məlumatlar aşağıdakı cədvəldə öz əksinin tapmışdır.

**Cədvəl 11.**

**Respublika Elmi Tibbi Kitabxanasının fondunun 2013-cü il üzrə tərkibi**

(1.01.2013-cü il üçün vəziyyət).

| | Fondun növü | Miqdar |
|---|---|---|
| 1. | Əsas fond | 371.355 nüsxə |
| 2. | Azərbaycan dilli ədəb | 5.828 |
| 3. | Rus dilli ədəb | 472.486 |
| 4. | Tibbi və digər ədəbiyyat | 354.051 |
| 5. | İctimai-siyasi | 11.709 |
| 6. | ***Ətraf mühitin mühafizəsi, ekologiya*** | *793* |
| | Ətraf mühitin mühafizəsi, ekologiya üzrə ədəbiyyatın faiz üzrə payı | ***0.21%*** |
| 7. | **Fondun sənəd tipinə görə bölgüsü** | |
| 6.1. | Kitab | 146.611 |
| | O cümlədən ekologiyaya dair-Azərbaycan dilində | |
| | -rus dilində | |
| 6.2 | Jurnal | 133.317 |
| 6.3. | Dissertasiya avtoreferatı | 26.153 |
| 5.4. | Disk | 43 |

**(Azərbaycan Respublika Elmi Tibbi Kitabxanasının 2013-cü il üçün hesabatı əsasında).**



Fondda olan kitabların nəşr ili məsələsi də maraq doğuran məsələdir. Təhlil göstərir ki, Azərbaycan və rus dilində olan kitabların əksər hissəsi sovet dövründə, 1960-1990-cı illərində nəşr edilən kitablardır.

Azərbaycanın beynəlxalq elmi əlaqələrinin artması Kitabxananın xarici ədəbiyyat fondunun da daha artıq aktuallıq kəsb etməsinə səbəbolmuşdur. Belə ki, 2014-cü ilin 1 yanvarına olan məlumata görə Kitabxananın Xarici şöbənin fondunda 50.796 nüsxə ədəbiyyat vardır ki, bundan da 50.073 nüsxə ingilis, 230 nüsxə fransız, 386 nüsxə alman, 87 nüsxə türk və 23

nüsxə digər dillərdədir. Həmin ədəbiyyatdan 4.500 nüsxə kitab, 37.723 nüsxə jurnal, 8401 nüsxə mikrofiş və 77 nüsxə CD formasındadır. Xarici fondada Ümumdünya Səhiyyə Təşkilatının (WHO) nəşrləri çoxluq təşkil edir [33,s.100].

Kitabxananın Xarici ədəbiyyat üzrə fondunda saxlanan ətraf mühitin mühafizəsi və ekologiya üzrə kitablardan aşağıdakıları göstərmək olar:

1.Guidelines for drinking water quality. – Geneva, 1985. – 120 p

2.Martin A., Harbison S.A. Radiation protection – London-New York, 1986. – 247 p.

3.Operation and maintenance of urban water supply and sanitation systems Geneva, 1994. – 100 p.

4.The urban health crisis. –Geneva, 1993. – 80 p.

5.Fitzpatrick, Bonnefoy. Environmental health services in Europe. – Geneva WHO. – 1998. – 124 p.

6.Water quality and human healt. - Geneva WHO.2012. – 475 p.

Son illər ərzində kitabxananın fonduna ekologiyaya dair kitabların komplektləşdirilməsi məsələsinə diqqətin artması nəticəsində komplektləşdirilən kitabların tərkibində ekologioya üzrə kitabların xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmaqdadaır.

Fondun tərkibində yuxarıda qeyd erdiyimiz kitabların ətraf təbii mühitin mühafizəsi və ekologiyanın hansı sahəsinə aid olması məsələsi də maraq doğurur. Həmin kitabların əksər hissəsi ekologiyanın nəzəriyyəsinə, ətraf mühitin mühafizəsinin praktik məslələrinə aiddir.

Respublika Elmi Tibb Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə dövri və ardı davam edən nəşrlər fondu da formalaşmlşdlr.



Kitabxananın oxucularının sənəd təminatında dövri mətbuat böyük əhəmiyyətə malikdir. Bu məsələnin həlli üçün Kitabxana hər il qarşıdakı il üçün lazımi dövri və ardı davam edən nəşrləri abunə edir. Bunlar aşağıdakıları aid etmək olar: "Ailə həkimi", "Azərbaycan təbabətinin müasir nailiyyətləri", "Azərbaycan tibb jurnalı" "Sağlam nəsil", "Биомедицина", "Бюллетен экспериментальной биологии и медицины", "Вестник рентгенологии и радиологии", "Вопорсы вирусологии","Гигиена и санитария", "Журнал микробиологии эпидемиологии и иммунобиологии", "Иммунобиология"," Клиническая дерматология и венерология", "Медицинская радиология и радиационная безопасность". İngilis dilində jurnallar: "Convention on the Protection and USE of Transboundary Watercourses and International Lakes UNITED Nations. New York and Ceneva 1994-47 p.", "An Environment for Better Health.Interqrated report of the ESF Environment and Health Proqramme . 1999- 77p. " kimi nəşrləri aid etmək olar.

Kitabxanada formalaşmış kitab fondunun tərkibinin təhlili göstərir ki, burada ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə kiçik də olsa sənəd kütləsi formalaşmışdır ki, bu da kitabxana istifadəçilərinin bu sahə üzrə elmi yeniliklərlə tanış olmasına imkan yaradır.

Respublika Elmi-Tibb Kitabxanasının fondunu təşkil edən kitab və dövri nəşrlərin böyük əksəriyyəti ənənəvi sənəd növü olan çap edilmiş sənədlərə aiddir. Lakin son zamanlar sənəd-kommunikasiyalar sistemində geyri-çap sənədlərinin yeni növü olan elektron sənədlərin tədricən yaılması prosesi respublikanın digər kitabxanaları kimi Respublika Elmi Tibb Kitabxanasınınsənəd fondunun tərkibinə də öz təsirini göstərdi.

Beləliklə, son 15 il ərzində Kitabxananın fonduna ənənəvi-çap əsərləri ilə yanaşı elektron informasiya daşıyacılarına yazılmış elektron nəşrlər də daxil olmağa başlamışdır. Hal-hazırda kitabxananın öz internet səhifəsi mövcuddur [154].

Araşdırılan faktik materialın təhlili aydın şəkildə göstərir ki. Respublika Elmi Tibb Kitabxanasının, eləcə də tibb kitabxanaları şəbəkəsinə daxil olan kitabxanaların fondun tərkibi xeyli zəngindir. Bu fondun tərkibində ekologiya üzrə sənəd kütləsinin formalaşması sübut edir ki, tibb-səhiyyə müəssisələrində çalışan tələbatçılar ekoloji istiqamətli sənədli informasiyaya xeyli maraq göstərir.

Azərbaycan Respublika Elmi Tibb Kitabxanasının fondunun, kitabxana-biblioqrafik fəaliyyətinin təhlili sübut edir ki, bu fondun tərkibimdə ekologiya üzrə həm kitablar, həm də dövri nəşrlər üzrə əhəmiyyətli miqdara malik sənəd kütləsi formalaşmışdır ki, onun tərkibində ətraf mühitin mühafizəsi, ekologiya üzrə ədəbiyyatın nüsxəyə görə faiz payı 0,21% təşkil edir. Burada ekologiya sahəsi üzrə intensiv iş aparılır, xidmət göstərilir. Kitabxanada formalaşmış sənəd kütləsi daim inkişaf edir və zənginləşir və bununla ölkənin tibb və səhiyyə sahəsinin mütəxəssislərinin, sahə üzrə tələbatçıların sənəd-informasiya tələbatlarının daha mükəmməl şəkildə ödənilməsinə imkan yaranır.

Respublikamızda mütəxəssislərin kitabxana-biblioqrafik təminatı məslə-sindən bəhs edərkən qeyd etmişdik ki, tarixən ölkəmizdə bu sahənin təşkili sahəvi-inzibati prinsipdə qurulmuşdur. Yəni, ölkədə ictimai fəaliyyətin ayrı-ayrı sahələrini idarə edən sahəvi nazirliklər var. Həmin nazirliklər öz səlahiyyətlərinə, fəaliyyət istiqamətlərinə aid digər işlərlə yanaşı, bu sahənin mütəxəssislərinin kitabxana-



biblioqrafik və elmi informasiya fəaliyyətini də təşkil edirlər. Bu prinsip ölkədə kənd təsərrüfatı fəaliyyətinə aiddir. Ölkəmizdə kənd təsərrüfatı sahəsi üzrə dövlət siyasətinin həyata keçirilməsi Kənd Təsərrüfatı Nazirliyi tərəfindən həyata keçirilir. Nazirliyim fəaliyyəti Əsasnaməyə uyğun olaraq qurulur.

Kənd Təsərrüfatı Nazirliyi həm də sahənin kitabxana-biblioqrafik və elmi informasiya təminatını həyata keçirir və bunun üçün onun tərkibində müvafiq strukturlar vardır. Bunlardan başlıcası Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasıdır. 1921-ci ildə yaradılmış Kitabxana hal-hazırda ölkədə bu sahə üzrə başlıca kitabxanadır və o, Nazirliyin tərkibindəki 17 elmi-tədqiqat institutlarında və respublikanın müxtəlif regionlarında mövcud olan digər qurumlarda fəaliyyət göstərən 33 kitabxanadan ibarət şəbəkəyə rəhbərlik edir. Məlumdur ki, kənd təsərrüfatı sahəsi ətraf təbii mühitlə, ekologiya ilə çox bağlılığı olan sahədir. Bu səbəbdən də həm Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının, həm də digər kənd təsərrüfatı kitabxanalarının fondunda ətraf təbii mühitin mühafizəsi, ekologiya üzrə də sənəd kütləsi formalaşmışdır.

Kitabxananın fondu mütəmadi olaraq artmaqdadır. Hal-hazırda Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının fondu 345.845 nüsxə təşkil edir. Bunlardan 165.147 nüsxəsi kitab və 180.698 nüsxəsi dövri və ardı davam edən nəşrlərdir. Kitabxananın fondundakı kitabların 36.856 nüsxəsi Azərbaycan dilindədir [76;77]. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının fondunun tərkibində ətraf təbii mühitin mühafizəsi, ekologiya üzrə kitablar, onların dillər üzrə bölgüsü barədə məlumat aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 12.**

**Azərbaycan Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasında ətraf mühitin mühafizəsi və ekologiya üzrə kitab fondunun dillər üzrə tərkibi (nüsxələrə görə).**

| N | Dillər | Dillər üzrə kitabların miqdarı | Bunlardan ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə | Sonuncu sütunun faizlə payı |
|---|---|---|---|---|
| 1. | Azərbycan dilində | 36.856 | 204 | 0,54% |
| 2. | Rus dilində | 303.977 | 510 | 0.168% |
| 3. | İngilis dilində | 5.012 | 15 | 0,3% |
| | Cəmi | 345.845 | 715 | 0,2% |

Rəqəm formasındakı həmin məlumatları vizual şəkildə təsəvvür etmək üçün aşağıdakı diaqrama müraciət etmək mümükndür.



**Diaqram 2.**

**Azərbaycan Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə kitab fondunun dillər üzrə tərkibinin pay bölgüsü(nüsxələrə görə).**




Həmin kitabların ətraf təbii mühitin mühafizəsi və ekologiyanın hansı sahəsinə aid olması məsələsi də maraq doğurur. Həmin kitabların əksər hissəsi kənd təsərrüfatının ekoloji problemlərinə aiddir. Sonrakı yerləri bu sahənin digər mövzularına dair kitablar tutur.

Haqqında bəhs edilən kitabların nəşr ili məsələsi də maraq doğuran məsələdir. Təhlil göstərir ki, Azərbaycan dilində olan kitabların əksər hissəsi 1985-2010 illərdə nəşr edilən kitablardır. Rus dilində olan kitabların isə əksər hissəsi 1982- 2010 illərdə nəşr edilmişdir [77,s.6]. Bu kitabların məqsəd təyinatına gəldukdə isə onların əksər hissəsi tədris ədəbiyyatından-dərsliklərdən və dərs vəsaitlərindən ibarətdir. Sonrakı mövqedə elmi, daha sonra isə soraq

kitabları durur.

Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasında ətraf mühitin mühafizəsi və ekologiya üzrə dövri və ardı davam edən nəşrlər fondu da formalaşmışdır. Bu fondun tərkibinə

gəldikdə isə bu barədə rəqəmlələr aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 13.**

**Azərbaycan Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasında olan dövri və ardı davam edən nəşrlər fondunun dillər üzrə tərkibi (ad miqdarına görə).**

| N | Dillər | Dövri və ardı davam edən nəşrlərin ad üzrə miqdarı | Onlardan ekologiya üzrə | Sonuncu sütunun faizlə payı |
|---|---|---|---|---|
| 1. | Azərbycan dilində | 14 | 2 | 14 |
| 2. | Rus dilində | 28 | 6 | 21 |
| 3. | İngilis | 4 | 1 | 25 |
| | Cəmi | 46 | 9 | 19 |

Rəqəm formasındakı həmin məlumatları vizual şəkildə təsəvvür etmək üçün aşağıdakı diaqrama müraciət etmək mümükndür.



**Diaqram 3.**

**Azərbaycan Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə dövri nəşrlər fondunun dillər üzrə tərkibinin pay bölgüsü(nüsxələrə görə).**




Kitabxananın dövri nəşrlər fondu tələbatçılar tərəfindən intensiv istifadə edilən fond növüdür. Bunlardan xüsusilə geniş istifadə edilən jurnallara aşağıdakıları aid etmək olar:

1.Земледелие . Москва.

2.Международный сельское хозяйства. Москва.

3.Экономика сельского хозаяйства Росия. Москва.

4.Журнал новости Россия. Москва.

Respublika Elmi-Kənd Təsərrüfatı Kitabxanasında ətraf mühitin mühafizəsi və ekologiya üzrə sənəd kütləsinin nəşr növünə görə tərkibi də xeyli maraq doğuran məsələdir. Məlumdir ki, müasir elmi sənədlərin nəşr növü əlamətinə görə ən çox yayılmış növləri çap və elektron sənədlərdir. Bir qədər

yuxarıda haqqında bəhs etdiyimiz kitab və dövri nəşrlər ənənəvi sənəd növü olan çap edilmiş sənədlərə aiddir. Lakin yeni texnologiyaların tətbiqi nəticəsində son illər sənəd-kommunikasiyalar sistemində qeyri-çap sənədlərinin yeni növü olan elektron sənədlərin yaranaraq yayılması prosesi Azərbaycan kitabxanalarına, o cümlədən Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının sənəd fonduna da öz təsirini göstərmişdir. İndi Kitabxananın sənəd fondunun tərkibində elektron sənəd fondunun yaradılması prosesinə başlanmışdır. Nəzərdə tutulur ki, bu tələbatçıların bu növ sənədlərə olan maraqlarının artmasını qarşılamağa imkan verəcəkdir. Bu sənədlərdən əksəriyyəti kompakt lazer diskinə-CD-yə yazılmış sənədlərdir. Bu baxımdan Kitabxananın sənəd fondu, o cümlədən həmin fondun ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə olan hissəsinin formalaşdırılması vacib məsələdir.

Kitabxananın kitab fondunun tərkibində ekologiya üzrə kitablar istifadəçilər tərəfindən geniş istifadə edilir. Məhz buna görə də Kitabxanada həmin kitabların komplektləşdirilməsi məsələsinə böyük diqqət yetirilir. Məsələn, təkcə 2012-ci ildə Kitabxana üçün 387 nüsxə kitab və 1.387 nüsxə dövrü nəşir alınmışdır ki, bu kitablardan da 150 nüsxəsi ekologiyaya aiddir [76,s.6]. Bəhs edilən məsələlər aşağıdakı cədvəldə ətraflı şəkildə öz əksini tapmışdır.



**Cədvəl 14.**

**Azərbaycan kənd təsərrüfatı kitabxanaları sistemində mövcud olan və həm də ekoloji istiqamətdə fəaliyyət göstərən kitabxanaların fondunun əsas göstəriciləri (nüsxələrə görə).**

| N | Kitabxananın adı | Fondda olan Kitabların miqdarı (nüsxə) | Onlardan ekologiyaya dair | Fondda olan dövri nəşrlərin miqdarı(nüsxə) | Onlardan ekologiyaya dair(ad üzrə) |
|---|---|---|---|---|---|
| 1. | Az.ETKTİ və Təşkili İnstitutu | 190.102 | 110 | 2.364 | 22 |
| 2. | Elmi tədqiqat Eroziya və Suvarma İnstitutu | 5.277 | 40 | 1.957 | 15 |
| 3. | ET Bitkiçilik İnstitutu | 17.638 | 70 | 6.350 | 25 |
| 4. | ET Hidromeliorasiya İnstitutu | 4.610 | 20 | 2.385 | 18 |
| 5. | ET Üzümçülük və Şərabçılıq İnstitutu | 7.090 | 30 | 2.138 | 20 |
| 6. | ET Əkinçilik i İnstitutu | 14.716 | 50 | 2.994 | 24 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 7. | ET Tərəvəzçi-lik və Toxum-çuluq İnstitutu | 10.218 | 60 | 4.992 | 30 |
| 8. | ET Bitki Mühafizəsi İnstitutu | 5.090 | 25 | 255 | 8 |
| 9. | ET Yem, Çəmənçilik və Otlaq İnstitutu İnstitutu | 4.307 | 21 | 1.735 | 17 |
| 10. | ET Meşə Təsərrüfatı İnstitutu | 4.934 | 19 | 239 | 10 |
| 11 | ET Heyvan-dar İnstitutu | 9.987 | 42 | 2.243 | 18 |
| 12. | ET KT Aqromexanika İnstitutu | 23.990 | 125 | 9.423 | 48 |
| 13. | ET İpəkçilik İnstitutu | 6.983 | 35 | 7.134 | 36 |
| 14, | ET Bağçılıq və Subtro-pik bitkilər İnstitutu | 22.143 | 110 | 26.350 | 44 |
| 15. | Pambıqçılıq ` İnstitutu | 39.840 | 120 | 19.085 | 48 |
| | **Cəmi** | **388.052** | **944** | **98.379** | **440 (ad təkrarı ilə cəmi)** |

(**Mənbə:** Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının 2012-2014-cü illər üçün hesabatları əsasında).



Verilən cədvəldə təqdim edilən statistik materialın təhlili sübut edir ki, Respublika kənd təsərrüfatı kitabxanaları şəbəkəsinə daxil olan kitabxanalarda fondun tərkibi xeyli zəngindir. Kitab fondunun ümumi tərkibinin 0,2%-ni, onun daxilində Azərbaycan dilində olan kitabların 0,54%-ni, rus dilində olan kitabların 0.168%-ni və ingilis dilində olan kitabların 0,3%-ni tədqiq etdiyimiz sahə üzrə kitablar təşkil edir. Bundan başqa, dövri mətbuat fondunun tərkibində də xeyli miqdarda nəşr ekologiya və ətraf mühitin mühafizəsi mövzusundadaır. Bu fondun tərkibində ekologiya üzrə sənəd kütləsinin formalaşması göstərir ki, kənd təsərrüfatı sahəsində çalışan tələbatçılar ekoloji istiqamətli sənədli informasiyadan da istifadə edir, bu sahəyə maraq göstərirlər. Apardığımız müşahidələr göstərir ki, həmin kitabxanaların istifadəçiləri arasında bəhs etdiyimiz sahəyə marağı xeyli böyükdür və bu marağın zaman baxımdan intensivləşməsi labüddür.

Beləliklə, təhlillər göstərir ki, Azərbaycan Respublika Kənd Təsərrüfatı Kitabxansında fondunun tərkibində ətraf mühitin mühafizəsi və ekologiya elmi üzrə xeyli sənəd kütləsinin formalaşmışdır. Belə ki, ümumi kitab həcminin- 345.845 nüsxə tərkibində (nüsxələrə görə) bu sahə üzrə 729 nüsxə kitab vardır ki, bu da 0,2% təşkil edir. Dil bölgüsündə isə burada rus dilində olan 303.977 nüsxə kitablardan 510 nüsxəsi bəhs etdiyimiz sahə üzrədir ki, bu da həmin miqdarın 0,167–ni təşkil edir. Azərbaycan dilində olan 36.856 nüsxə kitablardan 204 nüsxəsi bəhs etdiyimiz sahə üzrədir ki, bu da həmin miqdarın 0,54%–ni təşkil edir.

Azərbaycanda ümimilikdə kənd təsərrüfatı kitabxanaları sistemində mövcud olan kitabxanaların (Azərbaycan Respublika Kənd Təsərrüfatı Kitabxanası istisna

olmaqla) fondunun əsas göstəriciləri onun tərkibində ətraf mühitin mühafizəsi və ekologiya elmi üzrə xeyli sənəd kütləsinin formalaşdığını göstərir. Belə ki, ümumi kitab həcminin- 388.052 nüsxə- tərkibində (nüsxələrə görə) bu sahə üzrə 944 nüsxə kitab vardır ki, bu da 0,24% təşkil edir.

Azərbaycanın kitabxanaları içərisində ətraf mühitin mühafizəsi problemlərinə, ekoloji elmlərə xüsusi diqqət yetirən kitabxanalardan biri də Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasıdır.

Prezident Kitabxanası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 2003-cü ildə Bakının iki qədim kitabxanası- Bakı Şəhər Mərkəzi Kitabxanası və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Təsərrüfat Şöbəsinin (keçmiş Siyasi Maarif Evinin) kitabxanası əsasında yaradılmışdır. Kitabxana qarşısında Azərbaycan Respublikası Prezidenti İcra Aparatının və digər mərkəzi icra orqanlarının, həmçinin iqtisadiyyatın, mədəniyyətin müxtəlif sahələrində çalışan görkəmli alimlər,mütəxəssislər, yaradıcı ziyalılar üçün kitabxana-biblioqrafiya və informasiya bazası yaratmaq, müasir kitabxana-informasiya texnologiyasını tətbiq etməklə kitabxana işini kompüterləşdirmək kimi çox mühüm bir vəzifə qoyulmuşdur [46,s.6].

Kitabxananın kollektivi qarşısında Azərbaycan Respublikası Prezidenti İcra Aparatının, mərkəzi və yerli icra orqanlarının əməkdaşlarının, həmçinin iqtisadiyyatın, mədəniyyətin müxtəlif sahələrində çalışan mütəxəssislərin, yaradıcı ziyalıların istifadəsi üçün mükəmməl sənəd fondu və biblioqrafik ehtiyatlar yaratmaq, müasir kitabxana-informasiya texnologiyasını tətbiq etməklə kitabxana proseslərini avtomatlaşdırmaq kimi çox mühüm vəzifələr qoyulmuşdur.



Kitabxana Azərbaycan dövlətçiliyinə, milli ideologiyaya, azərbaycanşünaslığa dair ədəbiyyatı toplamaqla yanaşı, ümummilli lider Heydər Əliyev irsinə dair ədəbiyyatın toplanıb saxlanmasında və təbliğində də mühüm rol oynayır [16,s.3].

Kitabxananın əsas fəaliyyəti istiqamətlərinə kitab və digər sənədlər əsasında informasiya resurslarının yaradılması, bu sənədlərin mühafizəsi, bu resursları özündə əks etdirən müxtəlif axtarış sistemlərinin, ənənəvi və elektron kataloq və kartotekaların, yeni texnologiyalara əsaslanan digər informasiya resurslarının yaradılması və tələbatçıların bütün bu ehtiyatlardan istifadəsinin təşkili, həmin resursların daim inkişaf etdirilməsi və mühafizənin təmin edilməsi olmuşdur.

Qeyd edildiyi kimi, Kitabxananın xidmət göstərdiyi əsas tələbatçı kontingenti Prezident Administrasiyası və digər mərkəzi icra hakimiyyəti orqanlarının dövlət qulluqçuları, alim və tədqiqatçılardır. Bu səbəbdən də Kitabxananın fondu komplektləşdirilərkən dövlət idarəçiliyi, siyasətşünaslıq, sosiologiya, iqtisadiyyat, tarix, ekologiya, coğrafiya və bir sıra digər istiqamətlərdə ədəbiyyata üstünlük verilir [84,s.172]. Məlumdur ki, Pezident Kitabxanası respublikanın ölkə səviyyəli ilk kitabxanasıdır ki, fondundakı bütün sənədlər elektron kataloqda əks etdirilmişdir. 2014-cü ilə olan məlumata görə Kitabxananın fondunda toplanmış sənəd kütləsinin miqdarı 400 min nüsxəni keçmişdir.

Aşağıdakı cədvəldə 2013-cü ilin may ayındakı vəziyyətə görə Prezident Kitabxanasının sənəd kütləsini əks etdirən müxtəlif biblioqrafik verilənlər bazasında yerləşdirilmiş biblioqrafik yazıların miqdarı haqqında məlumat verilir. Onu da qeyd edək ki, Prezident Kitabxanasında yaradılan bütün biblioqrafik vəsaitlər azad istifadə üçün Kitabxananın internet

saytında yerləşdirilir. Bundan əlavə, bu Kitabxana respublikada ilk kitabxanadır ki, burada fonda daxil olan dövri və ardı davam edən nəşrlərdəki ən əhəmiyyətli məqalələr elektron kartotekada əks olunur. Həmin kartotekanın tərkibi barədə daha ətraflı məlumat açağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 15.**

**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında olan verilənlər bazaları və onlardakı biblioqrafik təsvirlərin miqdarı(2015-ci ilin 1 yanvar tarixinə olan məlumat).**

| № | Biblioqrafik Verilənlər Bazasının adı | Biblioqrafik təsvirlərin ümumi miqdarı | Onlardan ekologiyaya dair sənədlərin biblioqrafik təsvirlərinin miqdarı və faizi | | Ekologiyaya dair sənədlərin ümumi miqdardan dillər üzrə bölgüsü | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Azərbaycan | | Rus | |
| | | | Ad | Faiz | Ad | Faiz | Ad | Faiz |
| 1. | Elektron kataloq-2003-cü ildən sonra fonda daxil olmuş kitablar | 39 312 | 369 | 0,94 | 112 | 0,3 | 248 | 0,63 |
| 2. | Elektron kataloq-2003-cu ilə qədər fondda mövcud olmuş kitablar | 56 200 | 60 | 0,1 | 15 | 0,026 | 45 | 0,08 |
| 3. | Elektron kataloq-Dissertasiyaların avtoreferatları | 5 023 | 76 | 1,51 | 16 | 0,32 | 59 | 1,19 |
| 4. | monoqrafik sənədlərin biblioqraf yazılarının miqdarı- Cəmi | 100 535 | 532 | 0,523 | 142 | 0,14 | 352 | 0,38 |
| 5. | Elektropn kartoteka-Analitik biblioqrafik yazılar | 339 114 | 2 49 | 0 74 | 1 684 | 0,496 | 814 | 0,24 |
| 6. | Butunlukdə biblioqrafik yazılarının miqdarı- Cəmi | 540 184 | 3 79 | 0.70 | 1 969 | 0,364 | 1 528 | 0.336 |



Yuxarıdakı cədvəldəki faktlar sübut edir ki, Prezident Kitabxansının fondunun tərkibində ətraf mühitin mühafizəsi və ekologiya elmi üzrə çoxprofilli sənəd kütləsinin formalaşmışdır. Belə ki, 2003-cü ilə qədər formalaşmış 56.200 addan ibarət kitab fondunun tərkibində (adlara görə) bu sahə üzrə 60 adda kitab vardır ki, bu da 0,1 % təşkil edir. Dil bölgüsündə isə ətraf mühitin mühafizəsi və ekologiya elmi üzrə rus dilində olan kitablar 45 adda, 15 adda isə Azərbaycan dilində olan kitablardır.

Kitabxananın fonduna 2003-cü ildən sonra daxil olmuş 39.312 addan ibarət kitab fondunun tərkibində (adlara görə) bu sahə üzrə 369 adda kitab vardır ki, bu da həmin rəqəmin 0,94 %-ni təşkil edir. Dil bölgüsündə isə ətraf mühitin mühafizəsi və ekologiya elmi üzrə rus dilində olan kitablar 248 adda, 112 adda isə Azərbaycan dilində olan kitablardır ki, bu da faiz baxımdan 0,63% və 0,3%-ə müvafiqdir.

Kitabxanada formalaşmış dissertasiyaların avtoreferatlarından ibarət kolleksiya isə 5.023 sənəddən ibarətdir. Bunun tərkibində bizim tədqiq etdiyimiz mövzu üzrə 76 adda sənəd vardır ki, bu da həmin sənədlərin 1.51%-ni təşkil edir.

Beləliklə, Kitabxananın kitablardan və dissertasiya avtoreferatlarından ibarət monoqrafik sənədlər fondunda olan 100.535 adda sənədlərin tərkibində 532 adda sənəd vardır ki, bu həmin fondun 0,523%-ni təşkil edir. Həmin sənədlərdən 142 sənəd-yəni, 0,14%-Azərbaycan dilində və 352 sənəd- 0.383% rus dilindədir.

Kitabxananın Elektron kartotekasına gəldikdə isə burada toplanmış 339.114 analitik biblioqrafik yazıdan 2.498 adda yazı bizim təqdiq etdiyimiz sahəyə aiddir ki. bu da həmin sənədlərin 0.74-%-ni təşkil edir. Kitab fondundan fərqli olaraq burada sənədlərin daha çox hissəsi 1.684 adda və ya 0,496% azərbaycan, 814 adda və ya 0,24%-i rus dilindədir.

Bütünlükdə isə Kitabxananın Elektron kataloq və kartotekasında əks edilmiş 540.184 adda sənəddən biz maraqlandıran mövzu üzrə 3.797 adda adda sənəd sənəd vardır.

BDU-da ətraf mühitin mühafizəsi, ekologiya üzrə tədris və tədqiqatlar sahəsində də zəngin təcrübə toplanmımışdır. Uzun müddət ərzində bu tədqiqatlar təbiət elmləri üzrə kafedralarda aparılırdı. Lakin ölkədə ətraf mühitin mühafizəsi, ekologiya məsələlərinə diqqətin artması nəticəsində 1970-ci ildə Geologiya-coğrafiya fakültəsində kartoqrafiya, hidrometeorologiya və ekologiya ixtisaslarına tələbə qəbul edildi. 1979-cu ildə isəGeologiya-coğrafiya fakültəsinin nəzdində respublikada ilk ekeoloji istiqamətli kafedra -"Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə" kafedrası yaradıldı. Bu tələblərə ətraf mühitin qorunması və ekologiya istiqamətində ətraflı və sistemli bilik verməyə imkan yaratdı, Azərbaycanda ekologiya elminin inkişafında mühüm rol oynadı [159]. Uzun illər ərzində məhz bu fakultə Universiterdə və bütövlükdə respublikanın təhsil sistemində bəhs etdiyimiz sahə üzrə başlıca təhsil strukturu oldu. Sonrakı illərdəBDU-nun kimya və biologiya fakültələrində də ekoloji istiqamıətli kafedralar təsis edilmişdi. Lakin Azərbaycanda ekologiya sahəsində kadr hazırlığında, eləcə də bu sahə üzrə universitet təhsilinin və elminin inkişafında ən əhəmiyyətli



hadisə isə 2011-ci ildə Ekologiya və torpaqşünaslıq fakültəsinin yaradılması oldu.

Hal-hazırda fakültənin tərkibində 5 kafedra fəaliyyət göstərir::

- Ekoloji kimya:
- Coğrafiekologiya;
- Bioekologiya;
- Torpaqşünaslıq;
- Yerquruluşuvəkadastr.

Kafedraların elmi istiqamətləri aşağıdakılardır:

1. Ekoloji kimya- Ətraf mühitin toksiki birləşmələrlə çirklənməsinin monitorinqi və nəticələrinin aradan qaldırılması yollarının müəyyənləşdirilməsi.
2. Coğrafi ekologiya -Azərbaycanda təbii ekoloji şəraitin qiymətləndirilməsi və mühafizəsi.
3. Bioekologiya - Biomüxtəlifliyin tədqiqi, mühafizəsi, səmərəli istifadəsi və kompleks ekoloji qiymətləndirilməsi.
4.Torpaqşünaslıq -Torpaqların biomüxtəlifliyinin öyrənilməsi, genezisi, ekoloji qiymətləndirilməsi, münbitliyinin bərpası, mühafizəsi və səmərəli istifadəsi.
5.Yerquruluşu və kadastr- Azərbaycanın torpaq-kadastr rayonları, torpaqlarının tədqiqi və qiymətləndirilməsi.

Fakültənin strukturuna həm də bir elmi-tədqiqat laboratoriyası daxildir. Fakültədə təhsil əyani və qiyabi formada Azərbaycan və rus dillərində aparilir. Fakültədə 520-yə yaxın bakalavriat və magistrant tələbəsi təhsil alır, onların təlim tərbiyəsi ilə 30 nəfərə yaxın müəllim-professor heyəti məşğul olur ki, onlardan 1 nəfəri akademik,7 nəfər elmlər doktoru, professor, 22 nəfəri elmlər namizədi, dosent, baş müəllim, müəllimdir. Fakültədə təhsilin Bakalavr pilləsində ayrıca

Ekologiya, magistr səviyyəsində isə Ətraf mühit kimyası, Ekologiya, Torpağın ekologiyası, Ətraf mühitin bərpası metodları və mühafizəsi ixtisaslar üzrə kadrlar hazırlanır [160].

Təbii ki, Universitetdə qeyd edilən ixtisasların, kafedraların və ən nəhayət fakültənin yaradılması burada oxuyan tələbə kontingentinin, tədris və elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan professor-müəllim heyətinin sənəd-informasiya və biblioqrafik təminatını tələb edirdi ki, bu işlə universitetin Elmi Kitabxanası məşğul olur. Bu kitabxananın fəaliyyəti barədə aşağıda bəhs edəcəyik.

Məlumdur ki, müasir dövrdə ekologiya sahəsində təhsil prosesinin, eləcə də bu sahədə elmi tədqiqatların uğurla həyata keçirilməsi üçün başlıca şərtlərdən biri mükəmməl kitabxana-biblioqrafik xidmətin təşkilidir. BDU-da həmin xidmət Elmi Kitabxana tərəfindən həyata keçirilir. Elmi Kitabxana 1919-cu ildə universitetlə birlikdə yaradılmış və indi burada ali təhsilin kitabxana təminatı sahəsində böyük təcrübə toplanmışdır..

Hal-hazırda Elmi Kitabxananın qarşısında mühüm vəzifələr durur [48,s.49].

Bütün bu vəzifələrin yerinə yetirilməsi üçün Elmi Kitabxanada kitabxana-biblioqrafik xidmətin bütün istiqamətləri həyata keçirilir, yeni metod və texno-logiyalar, ilk növbədə elektron kataloq (2000-ci ildən) tətbiq edilir. Həmin fəaliyyətin vacib tərkib hissələrindən biri kitabxananın fondunun zənginləşdirilməsidir. Bu işdə beynəlxalq kitab mübadiləsinin imkanlarından, xaricdə fəaliyyət göstərən kitab donorluğu sisteminin potensialından geniş istifadə edilir [59,s.73-83]. Qeyd edək ki,kitabxananın yaranması və fəaliyyəti xüsusən də Kitabxanaçılıq-informasiya fakültəsinin professor-müəllim heyəti, başlıca olaraq professor A.A.



Xələfovun monoqrafiya və məqalələrində öz əksini tapmışdır. Görkəmli alim bu məsələyə ayrıca kitab həsr etmişdir [45].

Hal-hazırda Elmi Kitabxanada BDU-nun profilinə dair bütün elm və fəaliyyət sahələrinə dair zəngin kitabxana fondu formalaşmışdır. Hal-hazırda Azərbaycan ali təhsilinin flaqmanı olan BDU-nun Elmi Kitabxanasında 78 nəfər mütəxəssis çalışır. BDU-da ekologiya elminə verilən diqqətin, burada tarixən ətraf mühitlə bağlı tədqiqatların, ən sonda isə müstəqil Ekologiya fakültəsinin yaradılması Elmi Kitabxananın fondunun tərkibinə də təsir etmişdir [174].

Müstəqillik illərində kitabxana fondunda Azərbaycan dilində olan kitabların sayı əhəmiyyətli dərəcədə artmışdır. Son 12 ildə kitabxanaya Azərbaycan dilində 26.827 nüsxə ədəbiyyat daxil olmuşdur.

BDU-nun Elmi Kitabxanasının kitab fondun tərkibinə gəldikdə isə bu barədə rəqəmlələr aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 16.**

**BDU-nun Elmi Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə kitab fondunun dillər üzrə tərkibi (nüsxələrə görə).**

| N | Dillər | Dillər üzrə kitabların miqdarı |
|---|---|---|
| 1. | Azərbycan dilində | 274.913 |
| 2. | Rus dilində | 1.682.170 |
| 3. | Xarici dillərdə (ingilis, türk, alman, fransız və s) | 93.957 |
| | **Cəmi** | **2.051.040 nüsxə** |

Aparılan təhlil göstərir ki, Azərbaycan dilində olan kitabların əksər hissəsi 1960-80-ci illırdə nəşr edilən kitablardır. Rus dilində olan kitabların isə əksər hissəsi 1970-1990-cı illərdə nəşr edilmişdir.

1998-ci ildən bu günə kimi Bakı Dövlət Universitetində müdafiə edilən müxtəlif elm sahələrinə aid dissertasiyalardan bir nüsxə kitabxananın fonduna daxil olmuş və burada səliqə ilə qorunub saxlanılmaqdadır. Hazırda bu fondda 4.540 dissertasiya və 73.930 avtoreferat saxlanılır.

Müstəqillik illərində Kitabxananın fondunda Azərbaycan dilində olan kitabların sayı əhəmiyyətli dərəcədə artmışdır. Son 12 ildə Kitabxanaya Azərbaycan dilində 26.827 nüsxə ədəbiyyat daxil olmuşdur. Həmçinin, müstəqillik dövrü Kitabxananın beynəlxalq əlaqələrinin genişlənməsinə də böyük təsir göstərmiş, beynəlxalq kitab mübadiləsi genişlənmişdir. 12 ildə kitabxana 18 xarici ölkənin 52 kitabxanası ilə əlaqə saxlamış, kitabxananın fonduna xarici dillərdə 9.661 nüsxə ədəbiyyat daxil olmuşdur [45,s.71].

Bu kitabların məqsəd təyinatına gəldukdə isə, onların əksər hissəsi tədris ədəbiyyatından-dərsliklərdən və dərs vəsaitlərindən ibarətdir. Sonrakı mövqedə elmi, daha sonra isə soraq kitabları durur.

Kitabxanada formalaşmış dövri və ardı davam edən nəşrlər fondunun tərkibinin təhlili göstərir ki, burada ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə də sənəd kütləsi formalaşmışdır ki, bu da kitabxana istifadəçilərinin bu sahə üzrə elmi yeniliklərlə tanış olmasına imkan yaradır.



Beynəlxalq kitab mübadiləsi bölməsində kitab və jurnallarla yanaşı, elektron nəşrlər də saxlanılır. Hazırda kitab mübadiləsi şöbəsində elmin müxtəlif sahələrinə dair biblioqrafik və tam mətnli uniformasını əks etdirən 56 adda 136 ədəd CD-ROM, 20 ədəd DVD-ROM, 30 ədəd disket və 2 ədəd kaset saxlanılır. Mübadilə şöbəsinin müasir avadanlıqla, informasiya texnologiyası vasitələri ilə təmin edilməsi, şöbənin İnternetə qoşulması onun işində mühüm keyfiyyət dəyişikliklərinin baş verməsinə, böyük oxucu kontingentinə xidmət etməsinə səbəb olmuşdur

BDU-nun Elmi Kitabxanasının fondunu təşkil edən kitab və dövri nəşrlər ənənəvi sənəd növü olan çap edilmiş sənədlərə aiddir. Lakin son zamanlar sənəd-kommunikasiyalar sistemində geyri-çap sənədlərinin yeni növü olan elektron sənədlərin tədricən yayılması prosesi respublikanın digər kitabxanaları kimi BDU-nun Elmi Kitabxanasının sənəd fondunun tərkibinə də öz təsirini göstərdi. 2008-ci ilə olan məlumata görə Kitabxananın sənəd fondunda müxtəlif sahələrə dair biblioqrafik və tam mətnli informasiyaları əks etdirən 56 adda 136 ədəd CD-ROM, 20 ədəd DVD-ROM, 30 ədəd floppi disket və 2 ədəd kaset saxlanılır [45,s.75]. Keçən illlərdə Elektron sənəd fomdunun tərkibi daha da zənginləşmişdir.

BDU-nun Elmi Kitabxanasının ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə kitab fondun tərkibinə gəldikdə isə, 2014-cü idələ sistemli kataloqun araşdırılmasına əsasən söyləmək mümükünfür ki, kitabxananın fonndunda bu elmlərə dair rus dilində 1636 nüsxə, azərbaycan dilində isə 482 adda sənəd vardır ki, bu da fondun tərkibinin 0,06 %-ni təşkil edir.

Nəzərdən keçirilən rəqəmlər göstərir ki, BDU-nun Elmi Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiya

üzrə zəngin və müxtəlif çeşidli sənəd kütləsi formalaşdırılmışdır. Həmin sənəd kütləsi ilk növbədə tədris, elmi-tədqiqat fəaliyyəti məşğul olan mütəxəssislər professor- müəllim heyəti, elmi-tədqiqat laboratoriyalarının əməkdaşları, eləcə də müxtəlif pillələrdə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

Beləliklə, respublikamızın aparıcı kitabxanalarının fondunda formalaşmış sənəd kütləsinin təhlili göstərir ki, ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə sənəd kütləsinə malik dövlət idarəetmə orqranına məxsus kitabxananın (Ekologiya və Təbii Sərvətlər Nazirliyinin) və həmin nazirliyin nəzdində fəaliyyət göstərən Orhus İnformasiya Mərkəzinin, BDU-nun Elmi Kitabxanasının və bir sıra figər kitabxanaların fondunda ekologiya və ətraf mühitin mühafizəsi üzrə əhəmiyyətli sənəd kütləsi formalaşmışdır.

**Cədvəl 17.**

**Respublikanın bir sıra kitabxanalarının fondunun tərkibində ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə sənəd kütləsinin payı.**

| | Kitabxananın adı | Kitab fondunun tərkibində ətraf mühitin mühafizəsi və ekologiya üzrə sənədlərin Faizi |
|---|---|---|
| 1. | Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət İnformasiya-Arxiv Fondunun Elmi-Texniki Kitabxanası | 2,4 |
| 2. | Orhus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzi | nüsxə üzrə-31,4<br>ad üzrə-46 |
| 3. | M.F. Axundov adına Milli Kitabxana | 0,0126 |
| 4. | Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası | 0,2 |
| 5. | Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutuna Elmi kitabxanasın | 1,86 |
| 6. | Azərbaycan Respublika Elmi Tibb Kitabxanası | 0,21 |
| 7. | Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası | 0,2 |
| 8. | Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası | 0,70 |
| 9. | Bakı Dövlət Universitetinin Elmi Kitabxanası | 0.6 |



Cədvəldən göründüyü kimi bu pay-faiz M.F. Axundov adına Milli Kitabxanasının fondundakı 0,0126%-dən Orhus

Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzinin fondundakı nüsxə üzrə-31,4% və ad üzrə-46%-ə qədər dəyişir. Deməli, respublikanın bu sahə üzrə ixtisaslaşmamış aparıcı kitabxanaların fondlarında bəhs etdiyimiz sahə üzrə kitabların faiz payı bir faizdən də azdır.

Tədqiq etdiyimiz fondların tərkibində öyrəndiyimiz sahəyə dair kitabların içərisində dil baxımdan ilk yeri rus dilində, ikinci yeri isə Azərbaycan dilində kitablar təşkil edir. Fondların tərkibində, xüsusən də Orhus layihəsi üzrə yaradılmış fondda, xarici dillərdə (əsasən Avropa dillərində) olan kitablar və dövri nəşrlər də vardır. AMEA Mərkəzi Elmi Kitabxanasının və M.F. Axundov adına Milli Kitabxananın dövri nəşrlər fondu bu baxımdan daha zəngindir və bura respublikada çıxan dövri nəşrlərlə yanaşı, xarici dövri nəşrlər də daxil olur.

Tədqiq etdiyimiz kitabxanalarda sənəd fondu və axınının tərkibini açan biblioqrafik vasitələr sistemi, ilk növbədə kataloq-kartoteka sistemi də yaradılmışdır ki, bu həmin fondun tərkibini açmağa, onu təhlil və təbliğ etməyə imkan verir. Həmin kitabxanalarda formalaşmış sənəd kütləsi burada çalışan mütəxəssislərin bu mövzulu sənədlərə olan tələbatını müəyyən dərəcədə ödəməyə imkan verir. Lakin formalaşmış sənəd kütləsinin cəmiyyətin sənəd-informasiya tələbatını tamamilə ödədiyini söyləmək hələ tezdir. Bu kütlə hələ xeyli təkmilləşdirilməli, tələbatçıların ehtiyaclarına uyğun olan sənədlərlə zənginləşdirilməlidir.

Toplanmış faktiki-statistik material bu kitabxanalarda öyrəndiyimiz sahə üzrə müxtəlif növlü sənəd kütləsinin tərkibi barədə faktlar verməklə, bu sahədə görülmüş işləri ümumiləşdirməyə və qiymətləndirmə də imkan verir. Bu



nəticələr həmin kütlənin gələcək inkişafı barədə proqnozlar hazırlanmasında da səmərəli şəkildə istifadə edilə bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, indiyədək Azərbaycanda ancaq ətraf mühitin mühafizəsi və ekologiyaya dair sənəd kütləsini özündə əks etdirən və qismən də olsa sənəd kütləsinin modeli retrospektiv biblioqrafik vəsaitlərdir. Təssüf ki, indiyədək ən erkən zamanlardan müasir dövrə kimi Azərbaycanda nəşr edilmiş sənədlərdən ibarət sənəd kütləsinin tərkibində ətraf mühitin mühafizəsi və ekologiya üzrə sənəd kütləsinin yeri və rolunu əks etdirən retrospektiv vəsait yaradılmamışdır. Bu funksiyanı qismən də olsa və çox dar xronoloji əhatədə 2009-cu ildə M.F. Axundov adına Milli Kitabxana tərəfində tərtib və nəşr edilmiş "Azərbaycan ekologiyası-10 ildə:" retrospektiv elmi-köməkçi biblioqrafik göstəricisidir. 2009-cu ildə nəşr edilmiş bu vəsait 1997-2008-ci illərdə Azərbaycanda milli dildə və rus dilində nəşr edilmiş kitabları və dövri nəşrlərdə dərc edilmiş materialları əhatə edir. Onun həcmi 160 səhifədir və orada 1021 adda sənəd öz əksini tapmışdır. Burada Azərbaycan dilində 931, rus dilində isə 190 adda sənəd haqqında biblioqrafik informasiya toplanmışdır. Bu vəsait barədə daha ətraflı təhlil bizim tədqiqatın sonrakı fəslində verilmişdir.

Öyrəndiyimiz sahə üzrə sənəd kütləsindən bəhs edərkən bir məsələni də mütləq yadda saxlamaq lazımdır ki, bu kütlənin biblioqrafik modeli retrospektiv biblioqrafik vəsaitlərlə yanaşı, eləcə də kitabxananın kataloq və kartotekalarıdır. Onlar konkret kitabxananın fondunda toplanmış sənəd kütləsinin tərkibini müxtəlif aspektlərdən açır, onu təhlil etmək üçün geniş imkanlar yaradır. Son zamanlar Azərbaycanda da bir sıra layihələr reallaşdırılmışdır ki, onlar respublikamızda ətraf təbii

mühitin mühafizəsi və ekologiya üzrə sənəd kütləsini qismən də olsa təhlil etməyə imkan yaradır. Onu da qeyd edək ki, kataloqlar təkcə bir kitabxananın fondunda deyil, həm də bir neçə kitabxananın fondunda olan sənəd kütləsini də əhatə edə bilər. Bu halda ona toplu kataloqlar deyilir. Toplu kataloq həm çap formasında, həm də kartoçka şəklində tərtib edilə bilər. Haqqında bəhs etdiyimiz biblioqrafik vəsait növləri haqqında, onların quruluşu və axtarış imkanları barədə tədqiqat işinin üçüncü fəslində daha ətraflı məlumat veriləcəkdir.

Azərbaycanda ətraf mühitin mühafizəsi və ekologiya üzrə sənəd kütləsinin formalaşdırılması və onun istifadəsinin təşkili sahəsində xeyli iş görülsə də, indiki səviyyəni heç cür qənaətbəxş hesab etmək olmaz. Tədqiqat zamanı apardığımız müşahidələr, keçirdiyimiz söhbətlər bəhs etdiyimiz sahə üzrə mütəxəssislərin sənəd-informasiya tələbatının ödənilməsində xeyli problemlər olmasını aşkara çıxardı. Bu zaman ən çox şikayət mütəxəssislərin bəhs etdiyimiz sahənin ayrı-ayrı mövzu və problemləri üzrə ədəbiyyatın az olması, ya heç olmaması, ya da Azərbaycan dilində olmamamsı üzündən öz informasiya tələbatlarını tam ödəyə bilməməsidir. Bundan başqa, haqqında bəhs etdiyimiz kitabxanalarda elektron kataloqların yaradılması sahəsində işlərin zamanın tələblərindən xeyli geri qalması tələbatçıların lazımi biblioqrafik informasiyanı on-layn şəkildə bütün gün ərzində fasiləsiz olaraq əldə edilməsinə imkan vermir.

Bəhs etdiyimiz sahə üzrə problemlərin yığılıb qalmasının səbəblərindən biri də respublikamızda indiyə qədər heç kimin ətraf mühitin mühafizəsi və ekologiya üzrə sənəd kütləsi və fondun formalaşması və inkişafı məsələsini dərindən elmi təhlil edən elmi əsərlərin- məqalələrin, kitabların



yazılmamasıdır. Başqa sözlə, təqdim edilən tədqiqat bu problem üzrə ilk təcrübədir və ümid etmək olar ki, bundan sonra Azərbaycan kitabxanaşünas və biblioqrafiyaşünasları respublikada ətraf mühitin mühafizəsi və ekologiya üzrə sənəd kütləsi və fondunun formalaşması məsələsinə daha artıq diqqət yetirəcəklər.

## 2.2.Sahə üzrə sənəd axının yaranması və inkişaf xüsusiyyətləri

Ekologiya elmi və ətraf mühitin mühafizəsi fəaliyyəti üzrə sənəd-kommunikasiyalar sisteminin diqqət cəlb edən digər bir tərkib hissəsi bu sahə üzrə sənəd axınıdır. Yuxarıda qeyd edildiyi kimi, sənəd-kommunikasiya proseslərini öyrənən elmlər sənədləri hərəkət (dinamik) vəziyyətdə öyrənərkən bu sənədlər çoxluğuna sənəd axını deyilir və o, sənəd kütləsi ilə sıx məntiqi, səbəb-nəticə əlaqələləri ilə bağlıdır. Həqiqətən də, sənəd-kommunikasiyalar sistemində real şəkildə mövcud olan sənəd kütlələrinin demək olar ki, hamısı zaman boyunca miqdar xarakteristikası baxımdan dinamik olaraq dəyişir və bu dəyişiklik əksər halda bu kəmiyyətin artımı istiqamətində gedir. Sənəd axınının əsas fərqləndirici cəhəti onun məkan baxımından hərəkətdə olmasıdır. Sənəd axınını xarakterizə edən əlamətlərdən birincisi onun miqdar xarakteristikası və həmin miqdarın hansı zaman kəsiyinə aid olması, başqa sözlə, birinci kəmiyyətin ikinci kəmiyyətə nisbətidir. Yuxarıda qeyd etdiyimiz kimi, bu miqdarın ölçü vahidi kimi nüsxə, saxlama vahidi, çap vahidi, dərc vahidi, ədəd götürülə bilər. Zaman vahidi kimi isə, gün, həftə, ay, rüb, yarımillik və il götürülə bilər.

Sənəd axınının digər xüsusiyyəti isə sənəd axınının intensivliyidir. Burada intensivlik miqdarın həmin miqdarın ölçüldüyü zaman fasiləsinə nisbəti ilə müəyyən olunur. Beləliklə, vahid zaman ölçüsü ərzində meydana çıxan sənədlərin miqdarında artım müşahidə olunursa, bu, sənəd axınının intensivləşməsi deməkdir.

Bizim fikrimizcə, ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə sənəd axını bir çox xarakterik cəhətlərə malikdir. Bunlara ilk növbədə aşağıdakıları aid etmək olar:

1. Ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə sənəd axınının intensivləşməsi, yəni, bərabər zaman fasiləsi ərzində meydana gələn sənədlərin miqdarının artması. Belə bir xüsusiyyət ondan irəli gəlir ki, birinci fəsildə qeyd etdiyimiz səbəblər üzündən qlobal miqyasda ekoloji məsəllər get-gedə daha artıq əhəmiyyət kəsb edir ki, bu da həmin məsələlərə ictimai diqqətin artmasına, öz növbəsində bu mövzuda nəşr edilən kitabların, dərc edilən məqalələrin və s. miqdarının artmasına səbəb olmuşdur. Bu isə həmin sahə axının intensivləşməsinə gətirib çıxarır.

2. Ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə sənəd axınında keyfiyyət dəyişikliyinin baş verməsi, ətraf mühitin mühafizəsi ilə bağlı problemlərin mürəkkəbləşməsi, bu sahədə tədqiqatların dərinləşməsi, sahə üzrə elmi məhsulun daha da mükəmməl olmasına, ekoloji problemlərin daha ətraflı və yüksək elmi səviyyədə, daha geniş və yenilənən mövzu əhatəsində təhlil edilməsinə səbəb olur. Keyfiyyət dəyişiklikləri bu sahə üzrə sənədlərdə əvvəl toxunulmayan məsələlərin təhlil olunması, sahə üzrə təhsil alan və elmi fəaliyyətlə məşğul olan şəxslərin sayının artması kimi amillərin nəticəsində baş verir. Bu sahənin mütəxəssisləri bəzi hallarda təbiət elmləri bəzi



halda isə ekoloji elmlər üzrə elmi ədəbiyyatının sayının artmasını "informasiya partlayışı" kimi dəyərləndirirlər [93]. Bütün bunlar sahə üzrə meydana çıxan sənədlərin keyfiyyət baxımından daha yüksək səviyyəyə qalxmasına səbəb olmuşdur.

3. Ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə sənəd axını tamlığa malik olmaqla yanaşı, daxili struktur baxımdan diferensasiyaya da malikdir. Bu diferensasiya onunla xarakterizə olunur ki, sahə üzrə sənəd axınının məcmusunun tərkibində ayrı-ayrı mövzular, altsahələr, sənəd növləri və tipləri üzrə bölgü vardır. Bu tərkib hissələrin yeniləşmə prosesi fasiləsiz olaraq baş verir və ümumi axının tərkibində bunların xüsusi çəkisi və nisbəti də daim dəyişir.

4. Son zamanlar öyrəndiyimiz sahə üzrə sənəd axınının strukturunda müşahidə olunan digər bir hadisə orada çap edilmiş sənədlərin xüsusi çəkisinin davamlı olaraq azalması və bu azalmanın yerini elektron sənədlərin tutmasıdır. İndi dünyanın bir çox nəşriyyatları, xüsusən də elmi kitab və dövri nəşrlər burxan nəşriyyatları ildən-ilə öz məhsullarında elektron nəşrlərin faizini yüksəldirlər. Bu proses ekologiya sahəsində ədəbiyyat nəşrində də müşahidə edilməkdədir. Misal üçün bir zamanlar ancaq kağız variantında Şringer Konserni tərəfindən nəşr edilən **"Environmental Sciences Europe"**, Amerikan mülki Mühəndislik Cəmiyyəti tərəfindən nəşr edilən **"Journal of Environ mental Engineering"** kimi nüfuzlu ekoloji jurnallar indi həm də elektron formada nəşr edilir [173].

Ekologiya və ətraf mühit üzrə sənəd axınının təhlili çox güclü tədqiqat metodu hesab edilə bilər. Belə təhlillər sənədlərin məqsəd təyinatı, dili, ölkə mənsubiyyəti, nəşriyyatlar və s. üzrə də aparıla bilər.Son zamanlar öyrəndiyimiz sahə üzrə

müşahidə edilən kəmiyyət artımı heç də həmişə müvafiq keyfiyyətlə müşayiət edilmir. Belə ki, kəmiyyət çoxaldıqca, sənəd axınının tərkibində az əhəmiyyətli, xüsusi elmi və praktik aktuallıq kəsb etməyən sənədlərin sayı da daim artır. Bu, axının keyfiyyət göstəricilərini aşağı salır, kitabxanaçıların, biblioqrafların, elmi-texniki informasiya orqanlarının əməkdaşlarının işini çətinləşdirir. Çünki onlar sənəd axınını daha diqqətlə nəzərdən keçirməyə məcbur olurlar ki, az əhəmiyyətli sənədlər mümkün qədər tam çıxdaş edilsin, fondu lüzumsuz olaraq "şişirtməsin", kitabxananın maddi vəsaitinə, fonddakı faydalı fiziki sahəyə qənaət olunsun. Beləliklə, sənəd axınının intensivləşməsi kitabxanaçı-biblioqrafın qarşısında daha ciddi məsələlər qoyur, onlardan daha çox və gərgin işləmək tələb edir.

Sənəd axınının biblioqrafik modeli isə cari biblioqrafik göstəricilər, yeni ədəbiyyat bülletenləri, referativ jurnallar, ekspress və siqnal informasiya tipli vəsaitlər və ən nəhayət, kitabxananın fonduna yeni daxil olan ədəbiyyatı əks etdirən göstərici və kartotekalardır. İndi isə respublikamızda ekologiya elmi və ətraf mühitin mühafizəsi məsələlərinə dair sənəd axınının tərkibi, xüsusiyyətləri ilə bir qədər yaxından tanış olmaq üçün bu axını ən doğru, obyektiv əks etdirən biblioqrafik mənbələrə müraciət edək.

Respublikamızda tarixən elm və bilik sahələri üzrə meydana gələn yeni çap əsərləri-sənəd axını barədə ən tam məlumatı Azərbaycan Dövlət Kitab Palatasının tərtib və nəşr etdiyi dövlət uçot-qeyd biblioqrafiyası orqanlarından əldə etmək mümkündür. Azərbaycan Dövlət Kitab Palatası 1925-ci ildə təşkil edilmiş və 1926-cı ildə fəaliyyətə başlamışdır [19.s.32]. Azərbaycan Dövlət Kitab Palatasının əsas dövlət



uçot-qeyd biblioqrafik vəsaitləri cari "Azərbaycan mətbuat salnaməsi"nin tərkibinə daxil olan üç salnamədən -"Kitab salnaməsi"ndən, "Jurnal məqalələri salnaməsi"ndən və "Qəzet məqalələri salnamısi"ndən ibarətdir. Bildiyimiz kimi, həmin salnamələrdən birincisi--"Kitab salnaməsi" 1926-cı ildən, "Qəzet məqalələri salnaməsi" və "Jurnal məqalələri salnaməsi" hər ikisi 1938-ci ildən nəşr edilirdi. 1960-1989-cu illərdə bu üç salnamə yuxarıda adı çəkilən "Azərbaycan mətbuat salnaməsi"nin tərkibində nəşr edilirdi [1,s.5].

Dünya praktikasında funksiyasına görə dövlət uçot-qeyd biblioqrafik vəsaitlərinə yaxın olan "milli biblioqrafiya" məfhumundan da istifadə edilir. Lakin məlumdur ki, XX əsrin son rübündən başlayaraq sənəd-kommunikasiyalar sisteminə, sənəd axının tərkibinə maşınla oxunan bir çox yeni sənəd növləri daxil olmuşdur və bunlar ənənəvi çap nəşrlərinə oxşar şəkildə tirajlanaraq ictimai istifadəyə daxil olmuşdur [29,s.131].

Bu səbəbdən müasir dövrdə milli biblioqrafiyanın əməliyyat obyekti olan nəşrləri və sənədləri ancaq çapdan çıxmış sənədlər və nəşrlərlə məhdudlaşdırmaq düzgün yanaşma hesab edilə bilməz. Bu proses milli biblioqrafik uçotla məşğul olan qurumların fəaliyyətində də özünü göstərmişdir. Bu səbəbdən dünyanın əksər ölkələrində milli biblioqrafik uçotla məşğul olan qurumlar hansı fiziki daşıyıcı üzərinə, hansı metodla yazılmasından asılı olmayaraq ölkə ərazisində hazırlanaraq, tirajlanan bütün nəşrlərin uçotunu aparırlar [34,s.70].

Müasir biblioqrafiyaşünaslıqda milli biblioqrafiya anlayışına tarixən formalaşmış iki forma daxildir- cari milli biblioqrafiya və retrospektiv milli biblioqrafiya. QOST 7.0-77

uyğun olaraq milli biblioqrafiyanın bu növlərinə aşağıdakı kimi izahlar verilir. Cari milli biblioqrafiya anlayışı altında yaranan yeni çap və digər nəşriyyat məhsulları haqqında biblioqrafik informasiyanın hazırlanması və yayılması anlanır. Retrospektiv milli biblioqrafiya isə müəyyən bir dövrdə meydana çıxmış çap məhsulu və digər nəşrlər haqqında biblioqrafik informasiyanın hazırlanması və yayılması kimi şərh edilir [104,13 s.]. Ümumiyyətlə götürdükdə isə milli biblioqrafik uçotun yaranması səbəblərinə aşağıdakıları aid etmək olar:

1. Burjua dövlətlərinin yaranması, millətlərin, milli özünüdərkin formalaşması və bunun nəticəsində milli mədəniyyətin vacib tərkib hissəsi kimi ölkədə yaranan nəşrlərin aşkara çıxarılması, qeydi və bunu əks etdirən mənbələrin yaradılması zərurətin meydana gəlməsi;

2. Canlı, xalq dillərində kitabların nəşri və belə nəşrlərin əvvəl hökmranlıq edən beynəlxalq dil olan latın dilinin meydana çıxarması;

3. Kitab nəşri prosesinin intensiv inkişaf etməsi (əgər 1600-cü il üçün Avropada 30 min adda kitab nəşr edilmişdisə, bu rəqəm 1900-cu ildə 285 min ada çatmış. 2014-cü ilin yanvarından dekabr ayının birinə kimi isə dünyada 2 milyon 311 214 adda kitab nəşr edilmişdir [168].

Azərbaycan Dövlət Kitab Palatasının yuxarıda qeyd edilən vəsaitləri aylıq cari biblioqrafik vəsaitlər olmaqla sənəd axınının biblioqrafik modelləridir. Bu səbəbdən də Azərbaycanda yaranan yeni nəşr edilmiş sənədlərdən ibarət axını təhlil etmək üçün bu vəsaitlərə müraciət etmək lazımdır. Ölkəmizdə yaranan sənəd axınının təhlili üçün bu biblioqrafik vəsaitlərdən savayı digər bir vəsaitdən də istifadə edilə bilər. Bu retrospektiv, ardı davam edən vəsait olaraq 1960-cı ildən



nəşr edilən "Birillik Azərbaycan kitabiyyatı" göstəricisidir. Əslində bu vəsait aylıq "Kitab salnaməsi"nin illik buraxılışlarının kumulyativ versiyasıdır [1,s.5].

Adı çəkilən salnamələrin biblioqrafik funksiyaları, onların informasiya-axtarış imkanları və metodik xüsusiyyətləri ətraflı şəkildə üçüncü fəsildə nəzərdən keçiriləcəkdir. Bu paraqrafda isə biz əsasən həmin salnamələrdən istifadə etməklə ölkəmizdə bu sahə üzrə sənəd axınının tərkibini nəzirdən keçirəcəyik. Əvvəlcə, Azərbaycan Dövlət Kitab Palatasını fəaliyyət dövrünün salnamələrinə əsaslanaraq ölkəmizdə sənəd axınının xüsusiyyətlərini nəzərdən keçirək. Onu da qeyd edək ki, Azərbaycanda ekologiya elmi və ətraf mühitin mühafizəsi məsələlərinə diqqətin XX əsrin səksəninci illərindən xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq biz həmin salnamələrinin buraxılışlarını son dövrünü nəzərdən keçirəcəyik.

Məlumdur ki, tələbatçıların sənəd-informasiya təminatının ödənilməsində kitabların böyük əhəmiyyəti vardır. Ölkəmizdə tədqiq etdiyimiz sahə üzrə kitablardan ibarət sənəd axını Azərbaycan Dövlət Kitab Palatasının biblioqrafik nəşrlərində iki istiqamətdə əks etdirilirdi. Birinci- "Azərbaycan mətbuat salnaməsi"nin tərkibindəki "Kitab salnamıəsi"ndə, ikincisi isə, həmin salnamənin 12 aylıq buraxılışının kumulyativ toplusu olan "Birillik Azərbaycan kitabiyyatı"ında. Təbii ki, biz bu sənəd axınının xüsusiyyətlərini hər ay üzrə ayrıca tədqiq edə bilərik. Lakin bizim tədqiqatımız üçün aylıq göstəricilərdən daha çox illər üzrə dinamika maraq kəsb edir. Bu səbəbdən də, təqribən son on iki il ərzində ölkəmizdə bəhs etdiyimiz sahə üzrə sənəd axının bir hissəsi kimi kitabların nəşr dinamikası haqqında təsəvvür əldə etmək üçün əsas mənbə Azərbaycan Dövlət Kitab Palatasının "Azərbaycan kitab salnaməsi" və onun

il ərzində çıxan 12 nömrəsinin hər il çıxan yekunu olan "Birillik Azərbaycan kitabiyyatı" vəsaitidir.

Həmin vəsaitin həcmi və 1980-ci illərdə onun tərkibində öyrəndiyimiz sahə üzrə kitabların əks olunması haqqında təsəvvür əldə etmək üçün vəsaitin 1982-ci il 2-ci və 3-cü nömrələrinə diqqət yetirmək mümkündür.

Təhlil zamanı aşkar olmuşdur ki, bu iki nömrədə Azərbaycan və rus dillərində cəmi 249 kitab əks edilimişdir. Onlardan 15 adda kitab (ümumi həcmin 6%-i) ekologiya və ətraf mühitə dair kitablardır və onlardan da 5 ada kitab Azərbaycan, 10 adda kitab rus dilindədir.

Məlumdur ki, 1991-ci ildə Azərbaycan Dövlət Kitab Palatasının faktiki olaraq fəaliyyətini dayanmasından sonra ölkədə nəşr edilən yeni sənədlərin biblioqrafik baxımdan əks olunması, başqa sözlə, sənəd axının biblioqrafik modelinin yaradılması işi dayandı. Yalnız 1999-cu ildə Milli Məclis tərəfindən qəbul edilən "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə ölkə ərazisində dərc olunan çap məhsullarının dövlət uçotunu aparmaq və arxiv fondunu yaratmaq Milli Kitabxanaya həvalə olunduğundan bir neçə il sonra bu iş tədricən bu iş bərpa olunmağa başlandı.

Məlumdur ki, 2000-ci ildə Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının təklifi və Amerika Kitabxana Assosiasiyasının dəstəyi ilə ABŞ-ın Karneqi fondunun maliyyə dəstəyi əsasında Assosiasiya ölkədə dövlət uçot-qeyd biblioqrafik vəsaitlərinin tərtibi və nəşri sahəsində boşluğu aradan götürmək məqsədi ilə 2005-ci ildə Kitab Palatasından "Birillik Azərbaycan kitabiyyatı"nın 1992 və 1993-cü illəri əhatə edən materiallar alındı. Palatanın əməkdaşlarının iştirakı ilə redaktə edilidi və printerdə çap edilsə də nəşr edildmədi.



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 15 aprel qərarı ilə Azərbaycan Dövlət Kitab Palatasının funksiyaları M. F. Axundov adına Milli Kitabxana verildikdən sonra Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasından "Birillik Azərbaycan kitabiyyatı" ilə əlaqədar materiallar elektron formada alındı və 2009-cu ildə ildə nəşr edildi və Kitabxananın internet saytında yerləşdirldi [32,s.59]. Daha sonra isə növbə ilə həmin vəsaitin digər buraxılışları tərtib edilməyə başladı. Təəssüf ki, həmin vəsaitlərin kağız versiyaları nəşr edilməmişdir və ancaq elektron formada kitabxananın internet saytında "Kitabxananın nəşrləri" bölməsində yerləşdirilmişdir. Digər təəssüf doğuran məsələ ondan ibarətdir ki, əgər sovet dövründə ölkənin bütün nəşriyyatları məcburi nüsxə haqqında tələbə ciddi riayət edir və bu səbəndən də Palata ölkənin bütün kitab axınını- çap məhsulunu alaraq öz vəsaitlərində əks etdirirdisə, müstəqillik illərində meydana gələn çox sayda nəşriyyatlar məcburi nüsxə haqqına qanununa etinasız yanaşır və öz nəşrlərinin heç bir yerə, o cümlədən M.F. Axundov adına Milli Kitabxanaya məcburi nüsxə göndərmirdilər və nəticədə "Birillik Azərbaycan kitabiyyatı" ölkədə yaranan kitablardan ibarət sənəd axınını qeyri-tam şəkildə əks etdirir.

"Birillik Azərbaycan kitabiyyatı" vəsaitinin daha geniş zaman intervalında öyrəndiyimiz sahə üzrə sənəd axının əks etdirməsi xüsusiyyətləri xeyli əhəmiyyətli məslədir. Biz bunun üçün həmin vəsaitin 20 illik müddət ərzindəki buraxılışlarına müraciət etmişik. Bu araşdırmanın nəticəsi aşağıdakı cədvəldə öz əksini tapmışdır. Onu da vurğulamaq lazımdır ki, sovet dövründə olduğu kimi, müstəqillik dövründə də bu vəsaitin səhfələrində Azərbaycan və rus dillərində kitablarla yanaşı

həmin dillərdə yazılmış dissertasiyaların avtoreferatları da əksini tapmışdır və bizim bu mövzuda verdiyimiz təhlildəki rəqəmlər bu iki sənəd növünün ikisini də əhatə edir.

İndi isə həmin vəsaitlərdə əks olunan sənəd axınının-kitabların tərkibində ətraf mühitin mühafizəsi və ekologiyaya dair kitabların əks olunması xüsusiyyətlərinə nəzər yetirək.

2015-ci ilin martına olan məlumata görə, M.F. Axundov adına Milli Kitabxananın saytında "Birillik Azərbaycan kitabiyyatı"nın 18 illik buraxılışı yerləşdirilmişdir. Bunlar 1992, 1993, 1996, 1998, 1999, 2001, 2002, 2003, 2004, 2005, 2006, 2007, 2008, 2011, 2012 -ci illər buraxılışlarıdır. Beləliklə bu vəsaitlər məcmusu 20 illik bir müddəti əhatə etsə də, xeyli boşluqlara malikdir, yəni, əslində burada 20 vəsait omalıdırsa, cəmi 18 vəsait vardır və 3 ilə dair göstərici hələ yerləşdirilməmişdir.

Bütün bu 18 buraxılış universal vəsait olduğundan bunların səhifələrində ekologiya və ətraf mühitə dair kitablar da əks olunmuşdur.

**Cədvəl 18.**

**Azərbaycanda nəşr edilən ətraf mühitin mühafizəsi və ekologiyaya dair kitablar üzrə sənəd axınının dinamikası. Azərbaycan Dövlət Kiab Palatasının "Birillik Azərbaycan kitabiyyatı" vəsaiti əsasında (ad miqdarı üzrə).**

| İllər | Cəmi bütün elm sahələri üzrə kitablar | Onlardan ətraf mühitin mühafizəsi ekologiya üzrə | | | | Ekologiya və ətraf mühitin mühafizəsi üzrə sənədlərin faiz miqdarı |
|---|---|---|---|---|---|---|
| | | Azərb. dilində | Rus dilində | İngilis dilində | Cəmi | |
| 1992 | 906 | 8 | - | - | 8 | 0,88 |
| 1993 | 1128 | 7 | 6 | - | 15 | 1,15 |
| 1996 | 1494 | 6 | 5 | | 11 | 0,87 |
| 1998 | 1592 | 8 | 2 | | 10 | 0.63 |
| 1999 | 1568 | 15 | 2 | | 17 | 1,08 |
| 2001 | 1817 | 3 | 4 | | 7 | 0,38 |
| 2002 | 1805 | 24 | 5 | | 29 | 1,60 |
| 2003 | 2140 | 53 | 10 | | 63 | 2,94 |
| 2004 | 2203 | 23 | 11 | | 34 | 1,54 |
| 2005 | 2370 | 28 | 12 | | 40 | 1,69 |
| 2006 | 2167 | 32 | 9 | | 41 | 1,89 |
| 2007 | 2595 | 18 | 2 | | 20 | 0,77 |
| 2008 | 2232 | 18 | 9 | | 27 | 1.21 |
| 2009 | 2322 | 26 | 11 | | 37 | 1,59 |
| 2010 | 2776 | 25 | 5 | | 30 | 1,08 |
| 2011 | 2079 | 22 | 5 | | 27 | 1.30 |
| 2012 | 2848 | 30 | 6 | 2 | 38 | 1,33 |
| 2013 | 2733 | 16 | 3 | 1 | 20 | 0,73 |



Cədvəldəki rəqəmlər göstərir ki, müşahidə edilən dövrdə ən az monoqrafiya nəşr edilən il 1992-ci il (906 adda), ən çox nəşr edildiyi il 2012-ci il (2848 adda) olmuşdur. Ətraf mühitin mühafizəsi və ekologiyaya dair kitabların və dissertasiyaların ən az nəşr edildiyi il 2001-ci (7 adda), ən çox nəşr edildiyi il isə 2003-cü il (63 adda) olmuşdur. Bu mövzuda ədəbiyyatın həmin sənəd axınında faizi baxımdan ən aşağı olduğu il 2001-ci il (0,38%), ən yüksək olduğu il isə 2003-cü il (2,94%) olmuşdur.

Azərbaycan Dövlət Kitab Palatasının 1991-ci ildən etibarən "Azərbaycan mətbuat salnaməsi"nin buraxılışını

dayandırmışdır. Bu səbəbdən də salnamələrin buraxılışı dayandıqdan sonra ölkə dövri nəşrlərində dərc edilən sənəd axının ümumi mənzərəsini əks etdirən biblioqrafik vəsait mövcud deyil. Belə bir vəzifəni qismən olaraq respublikanın aparıcı elmi kitabxanalarının universal kartotekasının (məqalələrin sistemli kartotekasının) tərkibində təmsil olunan ətraf mühitin mühafizəsi və ekologiyaya dair biblioqrafik informasiyaya nəzər salmaqla yerinə yetirmək mümkündür. Belə informasiyanı Kitabxanada həmən ənənəvi yolla, Məqalələrin sistemli kartotekasına müraciət etmələ, həm də Elekron kartotekaya müraciət etməklə əldə etmək mükündür.

Milli Kitabxananın Elektron kataloq və Elektron kartotekasındakı biblioqrafik yazıların həcmi və onun tərkibində tədqiq etdiyimiz sahə üzrə sənədlərin təmsil olunması haqqında məlumatlar tədqiqatımızn üçüncü fəslində əks olunacaqdır.

Tədqiqat zamanı aşkarlanmış statistik materiallar ölkəmizdə ətraf mühitin mühafizəsi və ekologiya üzrə sənəd axınının xüsusiyyətləri barədə müəyyən təsəvvür əldə etməyə imkan verir. Xüsusən də Azərbaycan Dövlət Kitab Palatasının fəaliyyət göstərdiyi dövrdə ölkədə sənəd axınının salnamədə əks olunması digər elm və fəaliyyət sahələri ilə yanaşı öyrəndiyimiz sahə üzrə də sənəd axınının tərkibi haqqında məlumat əldə etməyə imkan yaradır. Təəssüf ki, Palata ləğv edildikdən sonra onun geniş funksiya spektrinin ancaq bir istiqaməti- kitabların biblioqrafik baxımdan əks olunması yerinə yetirilir və məcburi nüsxə haqqında qanunun tələblərinə bir çox naşirlərin etinasız münasibəti nəticəsində bu biblioqrafik mənbə ölkənin kitab məhsulunu ancaq bir qismi barəsində məlumatı özündə əks etdirir.



Ölkəmizdə öyrəndiyimiz sahə üzrə sənəd axını barədə məlumat əldə etməyin digər bir mənbəyi kitabxanaların fondunun artmasını əks etdirən statistik rəqəmlərdir.

Öyrəndiyimiz sahə üzrə Azərbaycanda sənəd axını barədə məlumatın digər bir mənbəyi respublika kitabxanalarının fondlarına yeni sənədlərin daxil olması barəsində statistik məlumatlardır ki, bunları da ilk növbədə kitabxanaların illik hesabatlarından əldə etmək mümkündür. Bu səbəbdən həmin mənbələrə müraciət etməyiniz zəruridir. Lakin qeyd edək ki, bizim tədqiq etdiyimiz kitabxanaların əksər hissəsində aparılan statistik uçot və (və ya) təqdim edilən illik hesabatlar sənəd axınının dinamikası barədə ancaq məhdud həcmdə məlumatlar əldə etməyə imkan verir.

Respublikamızda sırf ətraf təbii mühitin mühafizəsi və ekologiya elmi üzrə ixtisaslaşdırılmış ilk dövlət kitabxanası olan Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində yaradılmış Elmi kitabxananın fondunun sənəd kütləsi haqqında bir qədər əvvəl ətraflı məlumat vermiş və orada toplanmış sənəd kütləsini təhlil etmişdik. Qeyd etdiyimiz kimi, bu fondda dinamik bir fonddur və onun tərkibinə mütəmadi olaraq yeni sənədlər daxil olur. 2012-ci ilin hesabatına əsasən, kitabxananın fondunda 12.765 adda 24.074 nüsxə sənəd olmuşdur ki, bundan da 12.251 adda 16.729 nüsxə kitab, 46 adda, 4691 nüsxə dövri nəşrlər olmuşdur. Bundan başqa, kitabxananın fondunda 269 adda 2002 nüsxə xəritə, 199 adda 652 nüsxə xüsusi nəşrlər olmuşdur. Kitabxana fondunda axının təsiri ilə daim artım müşahidə edilir.

Belə ki, kitabxananın fonduna 2012-ci ildə 24 adda 37 nüsxə yeni kitab, 9 adda 37 nüsxə jurnal daxil olmuşdur. Təqdim edilən bu rəqəmlər müəyyən təsəvvür yaratmağa

imkan verir. Belə nəticə çıxır ki, illik sənəd axını ad üzrə kütlənin 0,2%-ni , nüsxə üzrə isə 0,15%-ni təşkil edir. Dövri nəşrlərin nüsxə üzrə axını isə müvafiq kütlənin 0,07%-ni təşkil etmişdir. Təəssüf ki, əlimizdə bu fondun daha geniş zaman kəsiyi üzrə axınını əks etdirən hesabatlar yoxdur və daha ətraflı təhilil aparmaq imkanlarımız məhduddur.

Respublikada beynəlxalq proqramlar çəçivəsində yaradılmış ilk və hələlik ki, yeganə informasiya qurumu Orhus Proqramı üzrə yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzidir.

Mərkəz mütəmadi olaraq yeni sənədlərlə zənginləşir və bu sənəd axının intensivliyi barədə Mərkəzin ayrı-ayrı illər üzrə hesabatlarını tutuşduraraq təsəvvür əldə etmək mümkündür. Respublikanın öyrəndiyimiz sahə üzrə ixtisaslaşdırılmış əsas sənəd-infomasiya təminatı müəssisələrindən biridir.

2012-ci ilin hesabatına əsasən İnformasiya Mərkəzinin ümumi fondu 667 nüsxə olmuşdur Fondun tərkibində azərbaycan dilində -122 nüsxə, rus dilində -513 nüsxə, ingilis dilində -30, fransız dilində 2 nüsxə kitab olmuşdur.Mərkəzin fondunda respublikamızda və digər ölkələrdə dərc edilən müxtəlif dövri nəşrlər, buklet və broşüralar da toplanmışdır [83]. Daha sonrakı dövr kimi əlimizdə olan material 2014-cü ilə aiddir. Belə ki, 2014-cü ildə bu fondun tərkibində olan kitabların miqdarı 1000-ə çatmışdır. Bunlardan 300 nüsxəsi dərsliklər. 200 nüsxəsi Azərbaycan, 470 nüsxəsi rus, 330 nüsxəsi ingilis dilində olan kitablardır. Fondda həm də 70 nüsxə videokasset olmuşdur [83].



Bu rəqəmlər intensiv sənəd axını nəticəsində Mərkəzin sənəd fondunun ildə təqribən 15% artmaqla çoxaldığını sübut edir.

Qeyd edildiyi kimi, İnformasiya Mərkəzinin fondunda xeyli miqdarda müxtəlif kitablar toplanmışdır. Bunların içərisində azərbaycan dilində olan kitablarla yanaşı böyük miqdarda xarici kitablar da vardır. Bu kitablar içərisində bir xeylisi ekologiyaya aiddir. İngilis dilində olan 30 adda kitabdan əksər hisəsi beynəlxalq təşkilatlar tərəfindən nəşr edilmiş kitablardır. (Bax. Əlavələr. Orhus İctimai Ekoloji İnformasiya Mərkəzinin Kitabxanasında olan kitabların siyahısı. İngilis dilində). Həmin kitablara misal olaraq aşğıdakıları göstərmək mümkündür:

Bu hesabatdakı rəqəmlərdən çıxış etməklə burada sənəd axınının dinamikası aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 19.**

**Orhus İctimai Ekoloji İnformasiya Mərkəzinin fondu ilə bağlı sənəd dinamikası. (2012 və 2014-cü illərə dair hesabatlara əsasən).**

| | Fondun ümumi miqdarı | Azərbaycan dilində Kitablar | Rus dilində Kitablar | Ingilis dilində kitablar |
|---|---|---|---|---|
| **2012-ci il üçün göstəricilər** | 667 | 122 | 513 | 30 |
| **2014-cü il üçün göstəricilər** | 1000 | 200 | 470 | 330 |

| | | | | |
|---|---|---|---|---|
| Artım-axın-mütləq | 333 | 78 | -43 | 300 |
| İl ərzində artım | 166 | 39 | -22 | 150 |
| Artım-axın-faizlə | 49% | 64% | -9,2% | 1100% |
| Artım-axın-faizlə-1 il üçün | 24.5% | 32% | -4,6% | 550% |

Göründüyü kimi, burada fondun ümumi tərkibi ilə bağlı intensiv axın müşahidə edilir. Ən intensiv artım ingilis dilində kitablarda müşahidə edilir. Axının intensivliyi üzrə növbəti yeri Azərbaycan dilində kitablarda və ən nəhayət ümumi fondda müşahidə edilir. Maraqlı vəziyyət rus dilində kitablarda müşahidə edilir. Burada 2 il ərzində kitabların miqdarı 43 nüsxə azalmışdır ki, bu da 2 il ərzində -9,2%, ildə isə -4,6 azalma deməkdir. Bu bir vəziyyət belə bir fikir söyləməyə imkan verir ki, qeyd edilən fondun tərkibi dinamik xüsusiyyətə malikdir və vəziyyətdən asılı olaraq artır və ya azalır.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fondu öz zənginliyi ilə seçilir. Kitabxananın fonduna 2007-2011-ci illərdə daxil olan sənəd axının tərkibi, onun zamana görə dəyişməsi barədə təsəvvür əldə etmək üçün aşağıdakı cədvələ müraciət edək.



**Cədvəl 20.**

**2007-2011-ci illər üçün olan məlumata görə M.F. Axundov adina Azərbaycan Milli Kitabxanasının fondunun müxtəlif əlamətlərə görə tərkibi.**

| Sənəd fondu və onun ayrı-ayrı növlər üzrə tərkibi | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
| Daxil olan sənədlərin ümumi miqdarı | 18.290 | 25.965 | 20.071 | 22.767 | 21.764 |
| Onlardan CD ROM, VCD, DVD | 51 | 235 | 278 | 1.171 | 1.358 |
| Onlardan qəzet | 1.174 | 1.010 | 1.008 | 1.012 | 646 |
| Onlardan jurnal | 2.736 | 3.256 | 2.840 | 3.251 | 3.519 |
| Onlardan ardı davam edən elmi əsər | 49 | 267 | 110 | 88 | 211 |
| Onlardan dillər üzrə | | | | | |
| Azərbaycan | 9.864 | 16.769 | 11.268 | 12.785 | 11.073 |
| Rus | 6.509 | 7.355 | 4.442 | 6.232 | 8.428 |
| Xarici dil | 1.917 | 1.841 | 4.361 | 3.750 | 2.263 |

Göründüyü kimi, nəzərdən keçirilən dövr ərzində axın daim mövcud olmuşdur. Əgər biz axının 2007-ci il üçün səviyyəsini 100% kimi qəbul etsək, 2008-ci ilin səviyyəsi 142%, 2009-cu il 110%, 2010-cu il 124% və1011-ci il 119% təşkil edəcəkdir. Təbii ki, bu axını əks etdirən ümumi

rəqəmlərdir və onun tərkibindəki ayrı-ayrı sənəd növləri üzrə fərqli dinamika müşahidə olunur.

2014-cü ildə Milli ədəbiyyatın komplektləşdirilməsi bölməsinə yönələn sənəd axınının tərkibinin təhlili də xeyli maraq doğurur. Belə ki, həmin ildə şöbəyə 12.836 nüsxə ədəbiyyat daxil olmuşdur. Bunlardan 10.428 nüsxə kitab, 2.408 nüsxə digər növ sənədlər olmuşdur.

Ümumilikdə 2015-ci ildə Kitabxananın fondunda 4.568. 838 nüsxə ədəbiyyat olmuşdur. Bunlardan 2.379.495 nüsxəsi kitab, digər sənədlər 2.189.343 nüsxədir.

**Cədvəl 21.**

**2014-cü ilin mart ayına olan məlumata görə M.F. Axundov adina Azərbaycan Milli Kitabxanasının fondunun müxtəlif əlamətlərə görə tərkibi.**

| | Sənədin növü üzrə | Miqdar-nüsxə |
|---|---|---|
| 1. | Jurnallar | 1.170 344 |
| 2. | Qəzet | 579 670 |
| 3. | Digər ardı davam edən nəşrlər | 132 421 |
| 4. | Sənədin dili üzrə | Miqdarı-nüsxə |
| 5. | Azərbaycan dilində | 585 599 |
| 6. | Rus dilində | 3.536.831 |
| 7. | Keçmiş SSRİ xalqları dillərində | 63.969 |
| 8. | Digər dillərdə | 359.079 |

Kitabxananın fondunun zənginləşdirilməsi məsələlərinə də lazımi diqqət yetirilir. Belə ki, 2015-ci ildə Kitabxananın Milli ədəbiyyatın komplektləşdirilməsi bölməsinə 12 836 nüsxə ədəbiyyat daxil olmuşdur. Bunlardan 10 428 nüsxəsi



kitab, 2408 nüsxəsi digər sənədlərdir. Dillər üzrə bölgüyə gəldikdə isə Azərbaycan dilində - 8626, rus dilində- 1279, xarici dillərdə -528 nüsxə kitab daxil olmuşdur. Bu kitabların elm sahəsi üzrə bölgüsünə gəldikdə, bu əlamət üzrə bölgü belə olmuşdur:

**Cədvəl 22.**

**M.F, Axundov adına Azərbaycan Milli Kitabxanasının Milli ədəbiyyatın komplektləşdirilməsi bölməsinə daxil olan ədəbiyyatın elm sahələrinə görə tərkibi (2015-ci il üçün).**

| | Elm sahələri | Miqdar-nüsxə |
|---|---|---|
| 1. | Təbiət elmləri | 1320 |
| 2. | Texniki | 1419 |
| 3. | Kənd təsərrüfatı | 216 |
| 4. | Tibb və səhiyyə | 929 |
| 5. | İctimai və humanitar | 2358 |
| 6. | Mədəniyyət Elm Maarif | 1021 |
| 7. | Filologiya | 2003 |
| 8. | Biblioqrafik vəsaitlər | 842 |
| 9. | Incəsənət | 320 |
| | Cəmi | 10 428 |

2015-ci il may ayına olan vəziyyətə görə isə Kitabxananın fondunu aşağıdakı rəqəmlər əks etdirirdi:

Sənəd fondu cəmi: 4.568.838 nüsxə .

Onlardan-kitablar- 2.379.495 nüsxə.

Digər növ sənədlər -2.189.343 nüsxədir.

**Onlardan dillər üzrə**

Azərbaycan dilində .-622.723 nüsxə,

Rus dilində -3.523.312 nüsxə ,
Keçmiş SSRİ xalqlarının dilində-63.969 nüsxə,
Xarici dillərdə-358.834 nüsxə.

Fondun tərkibində ətraf mühitin mühafizəsi və ekologiya üzrə ədəbiyyatın miqdarı bizim mövzumuz üçün xüsusi əhəmiyyət kəsb edir. Belə ki, əgər 1990-ci ildə Kitabxananın fondunda Azərbaycan dilində bəhs etdiyimiz mövzuda 49 adda ədəbiyyat olmuşdusa, 2010-ci ildə bu miqdar 260 ada çatmışdır və ya 5 dəfədən çox artmışdır. Rus dilində ədəbiyyat gəldikdə isə 1990-cı ildə 610 adda kitab var idisə, 2010-cu ildə kitabxananın fondunda qeyd etdiyimiz mövzuda rus dilində 1300 adda ədəbiyyat olmuşdur və ya başqa sözlə, 2 dəfədən çox artmışdır.

2015-ci ilin mart ayında isə ətraf mühitin mühafizəsi və ekologiya elmi üzrə müvafiq olaraq Rus dilində 1420 adda, Azərbaycan dilində 430 adda, cəmi 1650 adda kitab, 91 adda dissertasiya, 650 adda məqalə olmuşdur [68;69;70;71].

Bu rəqəmlər belə bir yekun fikrə gəlməyə imkan verir ki, 25 il ərzində M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının fonduna yönələn sənəd axının nəticəsində ətraf mühitin mühafizəsi və ekologiya üzrə Azərbaycan dilində kitablar 760% artaraq 49 addan 430 ada qədər, rus dilində kitablar 120% artaraq 610 addan 1.650 ada qədər çoxalmışdır.

Azərbaycanın ən böyük xüsusi elmi kitabxanası olan Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının fondu yaranandan bəri öz kəmiyyət xarasteristikasının dinamiksı ilə seçilir. Həmin dinamikanın təhlili burada sənəd axını barədə təsəvvür əldə etməyə imkan verir.



Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasında sənəd axınının tərkibi, fəaliyyətinin əsas istiqamətləri barədə təsəvvür əldə etmək üçün 2011-ci ilin illik hesabatındakı faktlara, fonda daxil olan sənəd axınının tərkibinə müraciət edək.

**Cədvəl 23.**

**2011-ci ildə AMEA Mərkəzi Elmi Kitabxanasının fonduna yeni daxil olan sənəd axını.**

| | Fonda daxil olan sənədlərin tərkibi | Miqdar(nüsxə) |
|---|---|---|
| 1. | Fonda daxil olan bütün növ sənədlərin miqdarı-ümumi Ondan: | 13.708 |
| 2. | Kitab və broşürələr | 8.901 |
| 3. | Azərbaycan dilində | 1.229 |
| 4. | Rus dilində | 1.716 |
| 5. | Jurnallar | 1.893 |
| 6. | Dissertasiyalar | 1.575 |
| 7. | Avtoreferatlar | 1.152 |
| 8. | Elektron nəşrlər-CD, DVD və s. | 127 |
| 8. | Qəzetlər –ad üzrə Onlardan | 29 |
| 9. | Hədiyyə alınan qəzetlər | 17 |
| 10. | Abunə edilən qəzetlər | 12 |
| 11. | Mübadilə fonduna verilən Kitablar | 5.956 |
| 12. | onlardan Azərbaycan dilində | 334 |
| 13. | onlardan rus dilində | 332 |
| 14. | ----------- jurnallar | 1.227 |

Göründüyü kimi, Kitabxananın fonduna daxil olan axın xeyli zəngin tərkibə malikdir və bu axın fondun bütün istiqamətlərini əhatə edir.

Nəzər alsaq ki, 2010-cu ilin məlumatlarına əsasən Kitabxananın fondunda bütün növdən olan sənədlətin miqdarı 1.167.347 nüsxə olmuşdur, və 2011-ci il ərzində fonda 13.708 nüsxə yeni sənəd daxil olmuşdur. Kitabxaqnanın sənəd kütləsinə daxil olan sənəd axınının 1.174% olmasını müəyyənləşdirə bilərik.

Azərbaycan Elmlər Akademiyası sistemindəki elmi-tədqiqat institutları arasında ekoloji istiqamətli tədqiqatlar baxımdan xüsusi mövqe Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutuna məxsusdur.

Əvvəlki paraqrafda qeyd edildiyi kimi, Kitabxananın sənəd fondu 2014-cü ildə 55.000 nüsxə olmuşdur ki, onun tərkibində 34.750 nüsxə rus, 1.900 nüsxə Azərbaycan, 1.250 nüsxə xarici dillərdədir.

Əlimizdə olan kitabxana statistika materialları belə bir məlumat almağa imkan verir ki, il ərzində bu fonda təqribən 60 adda kitab daxil olur ki, onun da təxminən 30%-i sırf ekologiyaya dair kitablardır.Əgər nəzər alsaq ki, 2014-cu ilin məlumatlarına əsasən Kitabxananın fondunda bütün növdən olan sənədlətin miqdarı 55.000 nüsxə olmuşdur, və 2014-cü il ərzində fonda 60 nüsxəsi kitab olmaqla 437 nüsxə yeni sənəd daxil olmuşdur. Kitabxaqnanın sənəd kütləsinə daxil olan sənəd axınının fonda nisbətən 1.146% olmasını müəyyənləşdirə bilərik.

Respublikanın əsas tibb-səhiyyə kitabxanası öz sahəsində ən zəngin sənəd fondu ilə yanaşı həm də həmin sahə üzrə sənəd



axını ilə də seçilir. Kitabxana mütəmadi olaraq öz profili üzrə sənədlərlə, il növbədə kitab və dövri mətbuatla komplektləşdirilir.

Respublika Elmi Tibb Kitabxanasının fondunun 2011-2013-cü illər üzrə tərkibi barədə digər məlumatlar aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 24.**

**Respublika Elmi Tibb Kitabxanasının fondunun tərkibi (2011-2013-cü illər).**

| | Fondun növü | İllər | | | Axın-artım faizlə |
|---|---|---|---|---|---|
| | | 2011-ci il | 2012-ci il ərzin. artım | 1.01.2013-cü il üçün vəziyyət | |
| 1. | Əsas fond | 370.065 | 1.290 | 371.355 | 0,35 |
| 2. | Azərbaycan dilində ədəbiyyat | 5.688 | 140 | 5.828 | 2,46 |
| 3. | Rus dilində ədəbiyyat | 472.074 | 412 | 472.486 | 0,25 |
| 4. | Tibbi və digər ədəbiyyat | 352.774 | 1.277 | 354.051 | 0,87 |
| 5. | İctimai-siyasi | 11.709 | - | 11.709 | 0 |
| 6. | **Fondun sənəd tipinə görə bölgüsü** | | | | |
| 6.1. | Kitab | 146.059 | 552 | 146.611 | 0,38 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | O cümlədən o ekologiyaya dair-Azərbaycan dilində | | 61 | | |
| | -rus dilində | | 55 | | |
| 6.2 | Jurnal | 132.854 | 463 | 133.317 | 0.35 |
| 6.3. | Dissertasiya avtoreferatı | 25.891 | 262 | 26.153 | |
| 5.4. | Disk | 40 | 13 | 53 | 0,32 |

**(Respublika Elmi Tibb Kitabxanasının 2011-2013-cü illər üçün hesabatı əsasında).**

Bu rəqəmlər göstərir ki, kitabxananın fonduna daxil olan sənəd axınının ayrı-ayrı tərkib hissələri 35%-dən 2,46%-ə qədər artım nümayiş etdirir.

Son illər ərzində kitabxananın fonduna ekologiyaya dair kitabların komp-lektləşdirilməsi məsələsinə diqqətin artması nəticəsində kitabların tərkibində ekologioya üzrə kitabların xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmaqdadır. Misal üçün, yuxarıdakı cədvəldəki rəqəmlər göstərir ki, 2011-ci ildə komplektləşdirilən kitabların tərkibində ekoloji tematikalı kitabların payı 12%-i keçmişdir.

Son illər Kitabxanaya türkcə və Avropa dillərində kitabların axını- onların daxil olması prosesi xeyli sürətlənmişdir. Bu kitabnların məqsəd təyinatına gəldikdə isə onların əksər hissəsi tədris ədəbiyyatından- dərsliklərdən və dərs vəsaitlərindən ibarətdir. Nəzərdən keçirilən rəqəmlər göstərir ki, Azərbaycan Respublika Elmi Tibb Kitabxanasında



ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə zəngin və müxtəlif çeşidli sənəd axını mövcuddur. Həmin sənəd kütləsi ilk növbədə elmi-tədqiqat fəaliyyəti və praktik fəaliyyət ilə məşğul olan mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

Fonda toplanmış kitabların hansı mislinin ətraf təbii mühitin mühafizəsi və ekologiyanın hansı sahəsinə aid olması məsələsi də maraq doğurur. Həmin kitabların əksər hissəsi ekologiyanın nəzəriyyəsinə, ətraf mühitin mühafizəsinin praktik məslələrinə aiddir.

Yuxarıda cədvəldə verilən rəqəmlər nümayiş etdirir ki, 2011-ci illə müqaisədə 2012-ci ildə kitabxananın fonduna daxil olan sənəd axınının ayrı-ayrı tərkib hissələri 0.35%-dən 2,46%-ə qədər artım nümayiş etdirmişdir.

Əgər nəzər alsaq ki, 2014-cu ilin məlumatlarına əsasən kitabxananın fondunda bütün növdən olan sənədlətin miqdarı 55.000 nüsxə olmuşdur,və 2014-cü il ərzində fonda 60 nüsxəsi kitab olmaqla 437 nüsxə yeni sənəd daxil olmuşdur, kitabxaqnanın sənəd kütləsinə daxil olan sənəd axınının 1,146% olmasını müəyyənləşdirə bilərik.

Azərbaycan iqtisadiyyatının mühüm sahəsi olan kənd təsərrüfatı üzrə kitabxana-biblioqrafik təminatında Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası aparıcı rola malikdir. Bu kitabxananın fondunun aktuallığının, tələbatçılar üçün əhəmiyyətinin saxlanması üçün bu fonda daim yeni sənədlər komplektləşdirilir, yəni sənəd axını daxil olur. Bunun nəticəsində Kitabxananın fondu mütəmadi olaraq artmaqdadır. Məsələn, əgər 2012-ci ilin yanvarın 1-nə olan məlumata görə, onun fondundakı sənədlərin ümumi miqdarı 480.309 idisə, il ərzində bu fond 1.290 nüsxə , yəni 0,28% artaraq 481.599 nüsxə olmuşdur.

Hal-hazırda Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının fondu 370.372 nüsxə təşkil edir. Bunlardan 16.5147 nüsxəsi kitab və 180.698 nüsxəsi dövri və ardı davam edən nəşrlərdir. Kitabxananın fondundakı kitabların 5.828 nüsxəsi Azərbaycan dilindədir.

2012-ci ildə Kitabxana üçün 387 nüsxə kitab və 1.387 nüsxə dövrü nəşr alınmışdır ki. bu kitablardan da 34 nüsxəsi ekologiyaya aiddir [76;77].

Beləliklə, son illər ərzində Respublika Elmi-Kənd Təsərrüfatı Kitabxanasının fonduna daxil olan sənəd axını orta hesabla 0,28% artım nümayiş etdirir ki, bu da fondun daima yeniləndiyini sübut edir.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası respublika səviyyəli kitabxana olub öz fondunun inkişafının çevikliyi ilə seçilir. Bu çeviklik Kitabxanada fondun inkişafı, yenilənməsi istiqamətində aparılan ardıcıl işin nəticəsidir. Kitabxana nəinki Azərbaycanda, MDB məkanında, eləcə də uzaq xarici ölkələrdə çıxan ədəbiyyatı izləyir və komplektləşdirmə yolu ilə həmin sənədlərdən axın formalaşdıraraq fondu yeniləyir. Bundan əlavə, həmin axının tərkibində hədiyyə edilən nəşrlər, ilk növbədə kitablar mühüm yer tutur. Hədiyyəni təkcə müəlliflər və naşirlər deyil, həm də səfirliklər, beynəlxalq səfirliklər də təqdim edirlər.

Dövri və ardı davam edən nəşrlərdən ibarət sənəd axını isə əsasən abunə yolu iləş formalaşır.

İndi isə Prezident kitabxanasının sənəd fonduna daxil olan axını qısaca olaraq nəzər yetirək.



Cədvəl 25.

**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının fonduna daxil olan sənəd axını.**

| | İllər | Yeni kitabların miqdarı (ad üzrə) | Onlardan Ekologiya və ətraf mühitin mühafizəsi üzrə | | | |
|---|---|---|---|---|---|---|
| | | | Azərbaycan dilində | Rus dilində | Cəmi | Faizə görə |
| 1. | 2003 | 388 | - | 2 | 2 | 0,51 |
| 2. | 2004 | 1935 | 4 | 13 | 17 | 0,88 |
| 3. | 2005 | 2251 | 4 | 22 | 26 | 1,15 |
| 4. | 2006 | 3590 | 14 | 16 | 30 | 0,84 |
| 5. | 2007 | 2341 | 7 | 16 | 23 | 0,97 |
| 6. | 2008 | 2300 | 12 | 14 | 26 | 1,13 |
| 7. | 2009 | 3475 | 5 | 18 | 23 | 0,66 |
| 8. | 2010 | 3979 | 9 | 23 | 32 | 0,50 |
| 9. | 2011 | 4290 | 7 | 27 | 34 | 0,80 |
| 10. | 2012 | 4207 | 19 | 7 | 26 | 0,62 |
| 11. | 2013 | 3783 | 14 | 11 | 25 | 0,66 |
| 12. | 2014 | 3869 | 13 | 20 | 33 | 0,85 |
| 13. | 2015 | 2789 | 9 | 10 | 19 | 0,68 |

Göründüyü kimi, Prezdent kitanxanasını fonduna daxil olan həm ümumilikdə bütün kitabları əhat edən sənəd axını, həm də onların tərkibində olan Ekologiya və ətraf mühitin mühafizəsi üzrə kitablardan ibarət olan sənid axını zaman baxımdan stabil deyil və daim dəyişir. Bu dəyişmə həm də bu mövzulu kitabların dil üzrə bölgüsün də özünü göstərir.

Kitabxananın fonduna daxil olan kitablardan ibarət axının içərisində bizi maraqlandıran sahə üzrə kitabların midarının təhlili göstərir ki, tədqiq etdiyimiz müddət ərzində ən güclü axın 2011-ci ilə -34 adda kitab ən zəif axın isə 2003-cü ilə- cəmi - 2 adda kitab təsadüf etmişdir.Kitabxananın fonduna daxil olan kitablardan ibarət axının içərisində bizi maraqlandıran sahə üzrə kitabların faizi də xeyli maraq

doğurur. Tədqiq etdiyimiz 13 il ərzində Kitabxananın fonduna daxil olan sənəd axının tərkibində bu mövzulu kitabların ən yüksək faiz dərəcəsi 2005-ci ilə -1,15, daha sonra 2008-ci ilə -1,13%, ən aşağı pay isə 2003-cu ilə -0,51% və 2010-cü ilə -0,50% aiddir.

Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında fondla bağlı sənəd axını diqqət cəlb edən əlamətlərə malikdir. Belə ki, sovet dövründə fonda daxil olan axın xeyli intensiv idi. Elmi Kitabxana mütəmadi olaraq kitabxana kollektoru vasitəsi ilə bu ali məktəbin fakültələrinin profilinə uyğun kitablar sifariş edib komplektləşdirirdi. Bundan əlavə kitabxana İttifaqın bir çox kitabxanaları ilə ədəbiyyat mübadiləsi aparırdı. Lakin müstəqillik illərində iqtisadi çətinliklər üzündən komplektləşdirmə üçün nəzərdə tutulan vəsaitin azalması kitabxana fonduna daxil olan sənəd axınının -ilk növbədə kitab axının zəifləməsinə səbəb oldu. Sonrakı illərdə müəlliflərin, xüsusən də BDU-nun professor-müəllim heyətinin öz kitablarını kitabxanaya hədiyyə verməklə, məcburi nüsxə təqdim edilməsi vasitəsi ilə kitablardan ibarət sənəd axını tədricən dirçəlməyə başladı. Komplektləşdirməyə ayrılan vəsaitin az olması üzündən bu məbləğ ancaq bir sıra dövri elmi nəşrlərin abunəsinə sərf olunur. Qeyd etdiyimiz səbəbdən Kitabxananın fonduna daxil olan kitab axının tərkibində azərbaycan dilində olan kitabların payı daha yüksək faizə malikdir.

Həmçinin, müstəqillik dövrü kitabxananın beynəlxalq əlaqələrinin genişlənməsinə də böyük təsir göstərmiş, beynəlxalq kitab mübadiləsi genişlənmişdir. 12 ildə kitabxana 18 xarici ölkənin 52 kitabxanası ilə əlaqə saxlamış, kitabxananın fonduna mübadilə yolu ilə xarici dillərdə 9.661



nüsxə ədəbiyyat daxil olmuşdur. Bundan başqa, bir sıra xarici qurumlar, təşkilatlar, universitetlər BDU-nun Elmi Kitabxanasına hədiyyə olaraq elmi və tədris ədəbiyyatı verirlər ki, bu da axının müəyyən hissəsini təşkil edir.

Müstəqillik illərində Elmi Kitabxananın fondunun kompüterləşdirilməsinin, daxil olan sənəd axının inkişaf dinamikasını göstərmək üçün aşağıdakı cədvələ diqqət yetirək.

**Cədvəl 26.**

**Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının fonduna daxil olan sənəd axını –illər üzrə nüsxə.**

| | İllər | Fondun miqdarı | | İllər | Fondun miqdarı |
|---|---|---|---|---|---|
| 1. | 1991 | 2.088.297 | 11. | 2001 | 2.012.270 |
| 2. | 1992 | 2.018.162 | 12. | 2002 | 2.016.901 |
| 3 | 1993 | 2.016.356 | 13. | 2003 | 2.025.988 |
| 4. | 1994 | 2.020.497 | 14. | 2004 | 2.033.986 |
| 5. | 1995 | 1.980.877 | 15. | 2005 | 2.041.505 |
| 6. | 1996 | 1.984.790 | 16. | 2006 | 2.045.551 |
| 7. | 1997 | 1.989.326 | 17. | 2007 | 2.458.991 |
| 8. | 1998 | 1.993.946 | 18. | 2008 | 2.468.062 |
| 9. | 1999 | 1.999.060 | 19. | 2014 | 2.500.000 |
| 10. | 2000 | 2.003.515 | | | |

Son 12 ildə Elmi Kitabxanaya Azərbaycan dilində 26.827 nüsxə ədəbiyyat daxil olmuşdur ki, bu da axının il ərzində 1,08% artım verdiyi deməkdir.

Cədvəldən məlum olur ki, 1991-1993-cü illərdə kitabxana fondunda artım yox, azalma olmuşdur ki, bu fondda olan ədəbiyyatın bir hissəsinin silinməsi ilə əlaqədar olmuşdur. 1994-cü ildən kitabxananın fondu artmağa başlasa da növbəti il fond yenə də azalmışdır. Bunun səbəbi 1994-cü ildən kitabxanada aparılan islahatlar nəticəsində köhnəlmiş kitabların (100 min nüsxəyə qədər) fonddan çıxarılması olmuşdur.

Sənəd axının daxil olması nəticəsində kitabxana fondunun inkişafında 1995-cu ildən tədrici şəkildə artım başlamışdır. Bu zaman illik sənəd axını orta hesabla 4-5 min nüsxə ətrafında olmuşdur.

Müstəqillik illərində kitabxana fondunun inkişaf dinamikası ilə tanışlıqdan məlum olur ki, müstəqilliyin ilk dörd ilində azalma olsa da, sonrakı illərdə Elmi Kitabxananın fondu axın nəticəsində müntəzəm olaraq artmışdır.

Bütün bunların nəticəsidir ki, kitabxana hər il orta hesabla 10.000 nüsxəyə qədər yeni ədəbiyyat alır. Bu ədəbiyyat içərisində dərsliklər, dərs vəsaitləri ilə yanaşı, elmin müxtəlif sahələrinə dair qiymətli elmi nəşrlər, elmi-tədqiqat əsərləri, monoqrafiyalar mühüm yer tutur. Təkcə 2003-cü ildə Elmi Kitabxanaya 300 milyon manat qiymətində 9 min nüsxədən artıq ədəbiyyat daxil olmuşdur. Bu kitablar içərisində pulsuz məcburi nüsxələr, hədiyyələr və mübadilə yolu ilə daxil olan kitablar da az deyildir.

BDU-nun Elmi Kitabxanası respublikamızda yeganə kitabxanadır ki, onun sənəd axının tərkibinə xaricdə dərc edilən referativ jurnallar daxildir. Moskva şəhərində nəşr edilən ən



bahalı referativ jurnalları (7 adda) almağa müvəffəq olmuşdur. Bu jurnallardan universitet alimləri ilə yanaşı respublikamızın fundamental və texniki elmlər sahəsində çalışan bütün alimlərinin maneəsiz istifadə etməsi elmimizə böyük töhfədir. Hazırda Kitabxana 11 adda qəzetə, 85 adda elmi jurnala abunə yazılmış, mübadilə və hədiyyə yolu ilə 378 adda xarici jurnal alır.

BDU-nun Elmi Kitabxanasının ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə kitab fondunun tərkibinə gəldikdə isə bu barədə rəqəmlələr aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 27.**

**BDU-nun Elmi Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə kitab fondunun dillər üzrə tərkibi (nüsxələrə görə).**

| N | Dillər | Dillər üzrə kitabların miqdarı |
|---|---|---|
| 1. | **Azərbycan dilində** | 379 |
| 2. | **Rus dilində** | 651 |
| 3. | **İngilis dilində** | 18 |
| | Cəmi | 1048 |

Haqqında bəhs edilən kitabların nəşr ili məsələsi də maraq doğuran məsələdir. Təhlil göstərir ki, Azərbaycan dilində olan kitabların əksər hissəsi 2005-2015-ci illərdə nəşr edilən kitablardır. Rus dilində olan kitabların isə əksər hissəsi 1983-1995-ci illərdə nəşr edilmişdir.

Beləliklə, son 12 ildə Elmi Kitabxanaya Azərbaycan dilində 26.827 nüsxə ədəbiyyat daxil olmuşdur ki, bu da axının il ərzində 1.08% artım verdiyi deməkdir.

İkinci fəslin yekunu olaraq aşağıdakıları söyləmək mümkündür. Bəhs etdiyimiz sahə üzrə sənəd-informasiya tələbatının öyrənilməsi üçün sənədlərin iki mövcudluq halı olan sənəd kütləsi və sənəd kütləsinə diqqət yetirilməlidir. Sənəd-kommunikasiya proseslərini öyrənən elm sahələrində sükunət (statik) halda öyrənilən sənədlər çoxluğuna sənəd kütləsi, hərəkət (dinamik) vəziyyətdə öyrənilən sənədlər çoxluğuna isə sənəd axını deyilir. Həm sənəd kütləsi, həm də sənəd axını zaman məhdudiyyətindən başqa, sənədin növü, məzmunu, dili, kütlənin mövcud olduğu ərazi, nəşriyyat və s. kimi əlamətlərlə də xarakterizə oluna bilər. Azərbaycan kitabxanalarında toplanmış sənəd kütləsi barədə detallı məlumat mənbəyi kimi, statistik materiallardan, kitabxana hesabatlarından, dövlət uçot-qeyd biblioqrafik mənbələrdən və retrospektiv vəsaitlərdən istifadə edilə bilər. Ən qiymətli statistik mənbələrdən biri "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın müddəalarına əsasən 2009-cu ilin sentyabr ayının 1-dən 10-a qədər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən Respublika ərazisindəki kitabxanalarda keçirilmiş monitorinqin nəticələridir. Bu tədqiqat əsasında aşkara çıxarılmışdır ki, idarə aidiyyətindən asılı olmayaraq Respublikada 8.507 kitabxana mövcud olmuşdur. Bu kitabxanalarının fondunda cəmi 110.994.331 nüsxə sənəd olmuşdur. Bu fəsildə bizim mövzu üçün əhəmiyyət kəsb edən 8 aparıcı kitabxana və bir ixtisalaşdırılmış fondda fomalaşmış



sənəd kütləsinin ümumi parametrləri və onun tərkibində bizi maraqlandıran sənədlərin payı araşdırılmışdır.

Təhlil edilən faktlar, respublikamızın 9 aparıcı kitabxanasının fondları içərisində bizi maraqlandıran tematikaya dair sənədlərin miqdarı və faizi barədə apardığımız təhlilin nəticələri Cədvəl 17-də ətraflı şəkildə nəzərdən keçirilmişdir. Məlum olmuşdur ki, bizi maraqlandıran tematikaya dair sənədlərin ən yüksək konsentrasiyası Orhus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzinin sənəd fonduna məxsusdur. Onun tərkibində bizim tədqiq etdiyimiz sahə üzrə kitabların ad üzrə miqdarı 227, nüsxə üzrə miqdarı 314-dir. Bu fond bizim tədqiq etdiyimiz kitabxananın ümumi fondunda ətraf mühit və ekologiya üzrə kütlənin, onun aparıcı hissəsi olan kitabların xüsusi çəkisinin ən yüksək göstəricilərinə malikdir ki, bu da faiz baxımdan müvafiq olaraq 46% və 31,4% təşkil edir. Növbəti yerdə Ekologiya və Təbii Sərvətlər Nazirliyində Arxiv İnformasiya fondunun Elmi-texniki kitabxananın fondu durur. Burada bəhs etdiyimiz sahə üzrə kitabların xüsusi çəkisi gözləninən qədər də yüksək deyildir və 2,4% təşkil edir. Digər kitabxanalarda müsbət sənəd axını bəzilərində bir qədər az, digərlərində nisbətən çox olmaqla mövcuddur.

Yuxarıda göstərilən faktlar, respublikamızın aparıcı kitabxanalarının fondunun təhlili bunu deməyə əsas verir ki, ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə sənəd axınının artan rəqəmləri nəzərdən keçirilən bir fonddan başqa bütün kitabxanalara xasdir. Belə ki, Orhus Proqramı üzrə çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzidə son 2 il ərzində kitabların miqdarı 43 nüsxə azalmışdır ki, bu da 2 il ərzində -9,2%, ildə isə -4,6 azalma deməkdir.

Digər kitabxanalarda daxil olan sənəd axını bəzilərində bir qədər az, digərlərində nisbətən çox olmaqla mövcuddur. Məsələn, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində yaradılmış Elmii kitabxananı fondunda bu axın illik sənəd axını ad üzrə kütlənin 0,2%-ni , nüsxə üzrə isə 0,15%-ni təşkil edir. Dövri nəşrlərin nüsxə üzrə axını isə müvafiq kütlənin 0,07%-ni təşkil etmişdir.

M.F. Axundov adına Milli Kitabxananın fonduna yönələn sənəd axının nəticəsində 25 il ərzində ətraf mühitin mühafizəsi və ekologiya üzrə Azərbaycan dilində kitablar intensiv artaraq 49 addan 430 ada qədər, rus dilində kitablar artaraq 610 addan 1650 ada qədər çoxalmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının fonduna 2011-ci il ərzində 13.708 yeni sənəd daxil olmuşdur və fonda daxil olan sənəd axınını 1,174% müəyyənləşdirə bilərik. Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasının 2014-cu ilin məlumatlarına əsasən Kitabxananın fondunda bütün növdən olan sənədlətin miqdarı 55.000 nüsxə olmuşdur və 2014-cü il ərzində fonda 60 nüsxəsi kitab olmaqla 437 nüsxə yeni sənəd daxil olmuşdur. kitabxananın sənəd kütləsinə daxil olan sənəd axınının 1,146% olmasını müəyyənləşdirə bilərik. Azərbaycan Respublika Elmi Tibb Kitabxanasının fondunda 2011-ci illə müqaisədə 2012-ci ildə kitabxananın fonduna daxil olan sənəd axınının ayrı-ayrı tərkib hissələri 0.35%-dən 2,46%-ə qədər artım nümayiş etdirmişdir. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının fondunda isə son illər ərzində Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının fonduna daxil olan sənəd axını orta hesabla 0,28% artım nümayiş etdirir ki, bu da fondun daima yeniləndiyini sübut edir. Azərbaycan Respublikası



Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının fondunda son 13 il ərzində Kitabxananın fonduna daxil olan sənəd axının tərkibində ekologiya mövzulu kitabların daxil olmasının ən yüksək faiz dərəcəsi 2005-ci ilə -1,15, daha sonra 2008-ci ilə -1,13%, ən aşağı pay isə 2003-cu ilə -0,51% və 2010-cü ilə -0,50%- aiddir. Bakı Dövlət Universitetinin Elmi Kitabxanasına son 12 il ərzində Azərbaycan dilində 26.827 nüsxə ədəbiyyat daxil olmuşdurki, bu da axının il ərzində 1, 08% artımı deməkdir.

Beləliklə, bizim tədqiq etdiyimiz kitabxanaların böyük əksəriyyətində həm bütün fond, həm də onun tərkib hissəsi olan təbiətin mühafizəsi və ekologiya üzrə kitab kolleksiyalarına aid sənəd axını stabil müsbət parametrlərə malikdir. Bu isə belə bir fikir söyləməyə əsas verir ki, ölkəmizin kitabxanaları ətraf mühitin mühafizəsi və ekologiya üzrə tələbatçıların yeni ədəbiyyatla təminatı məsələsinin öhtəsindən qismən də olsa gələ bilir.

## III FƏSİL

# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ EKOLOGİYA ELMİ ÜZRƏ BİBLİOQRAFİK İNFORMASİYA TƏMİNATI SİSTEMİNİN VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

### Ekologiya və ətraf mühitin mühafizəsi üzrə ənənəvi biblioqrafik informasiya təminatı

Biblioqrafik elmlər kompleksinə daxil olan digər sahəvi istiqamətlər kimi, ətraf mühitin mühafizəsi və ekologiya üzrə biblioqrafiyanın da spesifik obyekti vardır. Beləliklə, ekoloji biblioqrafiyanın obyekti ekoloji istiqamətli sənəd-kommunikasiyalar sistemindən, onun tərkib hissəsi kimi bu mövzulu sənədlərdən və bu sahə üzrə informasiya tələbatçılarından ibarətdir. Ancaq nəzərə almaq lazımdır ki, ekoloji biblioqrafiyanın sənəd-kommunikasiyalar sistemi təkcə bu mövzulu sənədlərdən və bu sahə üzrə informasiya tələbatçılarından ibarət deyildir. Müasir cəmiyyətdə ilkin sənədlərin və biblioqrafik informasiyanın tələbatçılara çatdırılmasına xidmət edən bir sıra ictimai təsisatlar, kommunikasiya vasitələri və kanalları da vardır ki, bunlar da sənəd-kommunikasiyalar sisteminin tərkib hissələridir. Həm də belə bir faktı qeyd etmək lazımdır ki, XX əsrin son rübündən etibarən həm ekologiya, həm də bir sıra digər sahələr üzrə sənəd-informasiya və biblioqrafik təminatda elektron sənəd-informasiya xidməti göstərən şirkətlərin, nəşriyyatların, redaksiyaların xüsusi çəkisi ardıcıl olaraq artmaqdadır. Bu proses daha çox tələbatçının fərdi kompüterlərdən, şəbəkə



texnologiyalarından istifadə etmək imkanı qazanması ilə əlaqədardır.

Kitabxanada bu sahə üzrə fəaliyyət təşkil edilərkən kitabxanada biblioqrafik işinin təşkilinin ümumi metodikası nəzərə alınmalıdır. Məlumdur ki, müasir kitabxanalarda biblioqrafik fəaliyyətinin təşkili dedikdə, bütün biblioqrafik vasitələrdən istifadə etməklə kitabxananın öz vəzifələrinin müvəffəqiyyətlə yerinə yetirməsinə yönəldilmiş kompleks tədbirlərin həyata kecirilməsi, başa düşülməsi bunun düzgün təşkili kitabxananın biblioqrafik işinin məcmunu təşkil edən, biblioqrafik funksiyaları yerinə yetirən bütün şöbələrin dəqiq qarşılıqlı əlaqəsini nəzərdə tutulur. Professor Z. Əliyevin qeyd etdiyi kimi, "kitabxanalarda müxtəlif elm, mədəniyyət sahələrinin elmi mütəxəssislərinə, ümumi, xüsusi peşə mənsublarına biblioqrafiktəsirin relevantlığının, dolğunluğunun, kompleksliliyinin təmin olunmasında əsas amil, orada biblioqrafik informasiya ehtiyatlarının yetkinliyidir [23,s.63]. Kitabxanada bu sahədə biblioqrafik fəaliyyət həyata keçirilərkən bir sıra vacib amillər nəzərə alınmalıdır. Bu amillərədən ən vacibləri iki qrupa bölünə bilər ki, birinciyə daxili amillər aiddir. Bu amillərədən kitabxananın tipi və onun əsas vəzifələri, idarə mənsubiyyəti, fərdi və kollektiv abonentlərin tərkibi, və fondun həcmi daxildir. İkinci qrup amillərə isə kitabxananın qarşılıqlı təsirə girdiyi xarici sosial mühitlə bağlı amillər aiddir. Bunlardan il növbədə ştatda olan işçilərin sayı, onların peşə hazırlığının səviyyəsi, avtomatlaşdırma vasitələrindən istifadə dərəcəsi kimi amilləri qeyd etmək olar.

Kitabxaların yerinə yetirdiyi ictmai funksiyalardan çıxış edərək orada həyata keçirilən biblioqrafik fəliyyətin əsas istiqamətlərini aşağıdakı kimi təsnifləşdirmək olar:

1-kitabxanada soraq-biblioqrafiya aparatının (SBA) təşkili;

2-müxtəlif məqsəd və oxucu istiqamətli biblioqrafik vəsaitlərin tərtibi;

3-biblioqrafik informasiya xidməti;

4-soraq biblioqrafiya xidməti;

5-tövsiyə-biblioqrafiya fəaliyyəti;

6-metodiki iş və məsləhətlər;

7-biblioqrafik biliklərin təbliğı;

8-biblioqrafik iş sahəsində elmi-tədqiqat işi. [92,s.8].

Hər bir kitabxana öz tipindən, inzibati mənsubiyyətindən, konkret vəzifələrindən, miqyasından və digər parametrlərindən çıxış edərək bu istiqamətləri reallaşdırır. Başqa sözlə desək, bu kitabxanaların biblioqrafik fəaliyyəti üçün bir növ maksimum proqramdır və yuxarıdakı amillər nəzərə alınmaqla kitabxanada bu istiqamətlərdən bəziləri həyata keçiriməyə bilər. Məsələn, uşaq kitabxanasında biblioqrafik informasiya xidmətinin spesifik ixtisaslaşdırılmış formalarının, sıravi kütləvi kitabxanada isə biblioqrafik iş sahəsində elmi-tədqiqat işin həyata keçirilməsi real tələb deyildir. Bu deyilənlər sözün tam mənasında ətraf mühitin mühafizəsi və ekologiya elmi üzrə də biblioqrafik fəaliyyətə də aid edilə bilər.

Uzun müddət ərzində ekologiyanın biblioqrafik informasiya təminatına aid olan suallar digər biblioqrafik fənlərin tərkibində öyrənilirdi. Lakin XX əsrin son rübündə ekologiyanın biblioqrafiyasının biblioqrafik elmlər sisteminin



müstəqil bir sahəsi kimi fərqləndirilməsi zərurəti meydana çıxdı və həmin istiqamət formalaşdı.

Ekoloji biblioqrafiya xidmət etdiyi elm və praktiki fəaliyyət sahəsi ilə sıx bağlıdır. Məlumdur ki, ekologiya elmi bəşəriyyətin müşahidə və eksperimentləri vasitəsilə inkişaf edir. İnsanın öz müxtəlif tələbatı üçün ətraf mühitə təsiri və həmin tələbatların ödənilməsi üçün yönəlmiş əmək fəaliyyəti texnologiyasının yaranmasına gətirib çıxarmışdır. Bu sahədə mövcud olan sənədlər bir sıra əlamətlərinə görə fərqləndirilə bilər. Ekologiya üzrə elmi tədqiqatların məzmunu və inkişaf istiqamətləri bu sahə üzrə sənədlərin məzmununa da təsir edir. Bu inkişaf ilk növbədə ekologiya elminin özünün inkişaf dinamikası ilə bağlıdır.

Ekologiya elminin inkişaf dinamikası daim dəyişir. Bəzən bir müddət ərzində ekologiyanın ayrıca bir sahəsində sürətli yenişləşmə və inkişaf nəzərə çarpır. Bu zaman təbii ki, həmin sahə üzrə sənəd axını da güclənir.

Diferensiasiya və inteqrasiya prosesləri ekologiya sahəsində müşahidə edilən proseslərdə də müşahidə edilir. Diferensiasiya prosesi zamanı ekologiya elminin konkret bir sahəsi şaxələnərək yeni istiqamətlər yaranır. Buna misal olaraq dənizlərin ekologiyasını, şəhər ekologiyasını və s. göstərmək olar İnteqrasiya zamanı isə ekologiya elminin digər müstəqil elm sahəsi ilə qovuşmasından meydana gələn yeni istiqamətlərin formalaşması prosesi baş verir [18,s.117]. Buna misal olaraq ekologiya və geologiya elmlərinin inteqrasiyasından əmələ gəlmiş geoekologiyanı, texniki elmlərlə ekologiyanın inteqrasiyasından yaranan mühəndis ekologiyasını misal göstərmək olar. Göstərilən diferensiasiya və inteqrasiya prosesləri öz əksini bu sahədə yaranan

informasiya tələbatında, sənəd kütləsi və axınında göstərir. Buna görə də həmin elm üzrə biblioqrafik fəaliyyət təşkil edilərkən qeyd edilən proseslər nəzərə alınmalıdır [110,s.54].

Ekologiyanın biblioqrafiyasının obyektinin öyrənilməsi üçün nəzərdə tutulan məsələlərdən biridə bu sahə üzrə sənədlərin spesifik məzmun və tərtibat xüsusiyyətləridir. Ekologiya elminə aid olan bir sıra sahələr özlərinə məxsus dilə malikdir. Həmin dilin əlamətlərinə bu sahə üzrə formalaşmış olan riyazi işarələrvə simvollar dilini aid etmək mümkündür. Ekologiya üzrə sənədlərə məxsus olan bu əlamətlər Azərbaycan Respublikasında həmin sahənin biblioqrafik təminatının təşkili zamanı hökmən nəzərə alınmalıdır.

Ətraf mühitin mühafizəsi istiqamətində fəaliyyətin və ekologiyanın biblioqrafik təminatı məsələləri. Azərbaycan kitabxanalarının da fəaliyyətində prioritet daşıyan məslələrdəndir. Azərbaycan kitabxanaları bu təminatı reallaşdırmaq üçün geniş spektrli fəaliyyət həyata keçirir. ilk növbədə Biblioqrafik Verilənlər Bazaları yaradırlar [86,s.306].

İndi isə respublikamızın ayrı-ayrı kitabxanalarında, informasiya mərkəzlərində ətraf mühitin mühafizəsi və ekologiya üzrə biblioqrafik təminatının təşkili məsələlərini qısaca nəzərdən keçirək.

Azərbaycanda fəaliyyəti müstəsna olaraq ətraf təbii mühitin mühafizəsi və ekologiya elmi üzrə istiqamətlənmiş əsas kitabxanalardan biri Ekologiya və Təbii Sərvətlər Nazirliyində fəaliyyət göstərən Elmi kitabxanadır. Kitabxananın həm xidmət etdiyi qurumun fəaliyyəti, həm həmin qurumda çalışan mütəxəssislərin informasiya tələbatı, həm də burada formalaşdırılmış sənəd fondlarının mövzusu-elmi istiqaməti məhz ətraf təbii mühitin mühafizəsi və



ekologiya elmi üzrədir. Bu səbəbdən də kitabxanada həyata keçirilən biblioqrafik fəaliyyətdə də bu istiqamət aparıcı mövqeyə malikdir.

Kitabxananın biblioqrafik fəliyyətinin əsas istiqamətlərindən ən başlıcası Soraq-bilioqioqrafiya aparatının yaradılması və aparılmasıdır.

Kitabxana yaranandan dərhal sonra 1941-ci ildə yaradılmışdır. Hal-hazırda Kitabxananın Soraq-bilioqioqrafiya aparatı özündə bütün lazımi tərkib hissələri əhatə edir. Yəni kitabxanın Soraq-bilioqioqrafiya aparatının tərkibində Soraq və biblioqrafik nəşrlər fondu, kataloq və kartoteka sistemi və Ödənilmiş arayışlar arxivi mövcuddur. Burada xüsusən Soraq və biioqrafik nəşrlər fondunun yaradılması və aparılması sahəsində xeyli iş görülmüşdür. Kitabxana Nazirliyin profilinə müvafiq olaraq bu fonda rəhbər materiallar, soraq nəşrləri, lüğət və ensiklopediyalar toplanmışdır.

Kitabxananın kataloq və kartoteka sitemınə gəldikdə isə bu sistemli və əlifba kataloqu daxildir. Bu kataloq yeni ədəbiyyat axınına müvafiq olaraq daim təkmilləşdirlir. Təbii ki, əgər hasısa ədəbiyyat kitabxananın fondundan çıxdaş olunarsa, bu da kataloq və kartoteka sitemində öz əksini tapır. Bu sistem həm Kitabxananın özündə, həm də Nazirliyin internet saytı vasitəsi ilə istifadəçilər üçün əlyetərdir [157]. Lakin təəssüf ki, burada yaradılmış kataloq biblioqrafik təsvir üzrə QOST-a uyğun gəlmir, dövri nəşrlərdəki materialları əks etdirən məqalələrin sistemli kartotekası yaradılmır.

Müasir kitabxanaların biblioqrafik fəaliyyətinin əsas istiqamətlərindən biri olan müxtəlif məqsəd və oxucu istiqamətli biblioqrafik vəsaitlərin tərtibinə gəldikdə isə, burada belə vəsaitlər tərtib edilmir.

Kitabxanada həyata keçirilən biblioqrafik xidmətə gəldikdə isə, burada əsasən Soraq biblioqrafiya xidməti, və tövsiyə-biblioqrafiya fəaliyyəti həyata keçirilir. Bu xidmətlər təbii ki, Nazirliyin əməkdaşlarına ünvanlanmışdır. Çünki bu binaya giriş vəsiqə ilə olduğundan kənar şəxslər kitabxanaya müraciət edə bilmirlər və buradan məsafədən istifadə, xidmət göstərilməsi nəzərdə tutulmamışdır.

Kitabxanada verilən arayışların əksər hissəsi şifahi arayışlardır ki, bunların da çoxu mövzu və biblioqrafik dəqiqləşdirmə arayışlarıdır.

Kitabxanada həyata keçirilən biblioqrafik biliklərin təbliği də biblioqrafik fəaliyyətin zəruri istiqaməti sayıla bilər. Belə ki, kitabxana işçilərinə kitabxana-biblioqrafik biliklərin əsaslarının aşılanması onların öz informasiya ehtiyaclarını daha asan və effektiv ödəməsinə şərait yaradır.

Kitabxanada biblioqrafik iş sahəsində heç bir elmi-tədqiqat işi aparılmır.

Orhus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzi respublikamızda bəhs etdiyimiz sahə üzrə kitabxana-biblioqrafik fəaliyyətlə məşğul olan az sayda qurumlardan biridir. İnformasiya Mərkəzinin fəaliyyətində biblioqrafik istiqamət əhəmiyyətli yer tutur.

Mərkəz xeyli kiçik olmasına eağmən burada biblioqrafik fəaliyyətin bir çox istiqamətləri həyata keçirilir. Mərkəzdə onun sənəd fondunu özündə əks etdirən sitemli kataloq yaradılır, ən müxtəlif biblioqrafik və faktoqrafik sorğulara cavablar verilir.

Mərkəzin fondu siyahı formasında, həm də kompüterdə tərtib edilmiş kataloqda öz əksini tapır. Lakin təəssüf ki, burada kitabxana-bibliqrafik bilikləri olmayan işçilər çalışır. Bu səbəbdən kataloqda sənədlərin təsviri və düzülüşü heç bir



standarta uyğun gəlmir. Eləcə də, fondun düzülüşündə, istifadəsinin təşkilində, tələbatçıların ilkin sənəd və biblioqrafik sorğularının cavablandırılmasında əməkdaşların peşə biliklərinə yiyələnməsi Mərkəzin fəaliyyərinin daha səmərəli olmasına şərait yarada bilər.

Sevindirici haldır ki, son zamanlar Mərkəzin fondunda olan nəşrlər (kitablar) barədə biblioqrafik məlumat Mərkəzin internet səhifəsində yerləşdirilmişdir ki, bu da hətta Mərkəzə gəlmədən belə onun fondunda olan kitablar barədə biblioqrafiya məlumat əldə etməyə imkan verir.

İl ərzində Mərkəzdən 240 oxucu istifadə edir. Bunlar Ekologiya nazirliyin əməkdaşlarından, tələbələrdən, müəllimlərdən, qəzet və jurnallar redaksiyasında işləyən jurnalistlərdən ibarətdir. 5 kompüter var və 5 oxucu bu kompüterdən istifadə edə bilər. Mərkəzdə Oxu zalından istifadə edərək oxucular kompüterlərdən informasiya axtarışı edə bilirlər. 2014- cü il uçun 10 sərgi keçirilib, 2 kitab təqdimatı, 1 kitab müzakirəsi, 5 diskussiya ekoloji maariflənmə yönümündə digər tədbirlər həyata keçirilmişdir ki, bunların hər birində tələbatçılara digər məlumatlarla yanaşı biblioqrafuk informasiya da çatdırılır.

Mərkəzin kiçik miqyası və az fondu, burada cəmi bir işçi işləməsi burada biblioqrafik fəaliyyətin digər istiqamətlərinin həyata keçirilməsinə imkan vermir.

Müasir dövrdə cəmiyyətin ekologiya elmi və ətraf mühitin mühafizəsi üzrə biblioqrafik informasiya təminatı sahəsində həyata keçirilən işlərin həcminə görə M.F.Axundov adına Milli Kitabxana respublikanın kitabxanaları arasında qabaqcıl mövqeyə malikdir. Bu kitabxana müasir

kitabxanaların yerinə yetirdikləri əsas biblioqrafik fəliyyətin istiqamətlərinin demək olar ki, hamısı həyata keçirilir.
Xüsusi ilə də son on il ərzində kitabxananın fəaliyyətinin bütün istiqamətlərində nəzərə çarpan canlanma biblioqrafik fəaliyyətin güclənməsində, fəallaşmasında da özünü büruzə verir. Respublika ətraf mühit problemləri ilə maraqlanan tələbatçılar üçün M.F.Axundov adına Milli Kitabxananın biblioqrafik fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Məlumdur ki, bu kitabxana respublikada da ən müxtəlif elm sahələri üzrə ən müxtəlif dillərdə ədəbiyyatı toplanan ən böyük kitabxsaxlayıcılardan biridir [85,s.17].

Qeyd etdiyimiz kimi, Milli Kitabxananın bir çox şöbələrində biblioqrafik fəaliyyət həyata keçirilir. Lakin sırf biblioqrafik fəaliyyətlə məşğul olan 3 şöbə vardır:

1. Sorğu-informasiya xidməti şöbəsi
2. Diyarşünaslıq elmi-biblioqrafiya şöbəsi
3. Çap əsərlərinin qeydiyyatı və Milli biblioqrafiya şöbəsi. [26,s.38].

M.F.Axundov adına Milli kitabxanada soraq-biblioqrafiya aparatının (SBA) təşkili istiqamətdə böyük işlər görülür. Məlumdur ki, bu kitabxana özündə ən çox sayda ayrıca-ixtisaslaşdıdlmış oxu zalları, digər xidmət şöbələri olması ilə seçilir. Bunların hər birinin öz soraq-biblioqrafiya aparatı mövcuddur ki, burada işləyən tələbatçı lazımi informasiya üçün başqa yerə getməyə vaxt sərf etməsin. Burada ənənəvi metodlara əsaslanan SBA-nın yaradılması həm ümumkitabxana miqyasında, həm ixtisaslaşmış fondlarda lokal miqyasda həyata keçirilir. (Həmin şöbə və bölmələrin fəaliyyəti barədə II fəslində ətraflı bəhs edilmişdir). Bunların əksəriyyətində - ilk növbədə sənəd fondları yaradan və istifadəsini təşkil edən, biblioqrafik



resurslar yaradan şöbə və bölmələrdə ətraf təbii mühitin mühafizəsi və ekologiya elmi üzrə əhəmiyyətli həm ilkin, həm də biblioqrafik informasiya resursları formalaşdırılmışdır. Bu resurslarda SBA-nın tərkibi kimi formalaşdırılan Soraq və biblioqrafik nəşrlər fondunun tərkibində ekoloq mütəxəssislər üçün maraq kəsb edən rəhbər sənədlər-ilk növbədə AR qanunları, Prezidentin fərman və sərəncamları, Nazirlər Kabinetinin və nazirliklərin qərarları, əlaqədat beynəlxalq təşkilatların rəhbərə səbədləri, lüğətlər, ensiklopediyalar, normativ-texniki nəşrlər, bələdçilər biloji (bitki və heyvan) göstəriciləri, bəzi fundamental monoqrafiyalar və dərsliklər toplanır. Daha sonra SBNF-nin ikinci vacib elementi olan biblioqrafik vəsaitlərin toplanmasına da diqqət yetirilir. Burada həm universal, uçot-qeyd, həm nəşriyyat xarakterli, həm də mövzu xarakterli biblioqrafik vəsaitlərin toplanmasına xüsusi diqqət yetirilir. Soraq-biblioqrafiik nəşrlər fondları daim zənginləşdirilir, yeni nəşrlərlə komplektləşdirilir.

M.F.Axundov adına Milli Kitabxana respublika kitabxanaları arasında kataloq və kartoteka sisteminin zənginliyi ilə birinci yerdə duran kitabxanadır. Burada həm ümumkitabxana miqyaslı, həm də şöbə və fondlar çərçivəsində çox saylı kataloq və kartoteka yaradılmışdır [25,s.37]. Həmin kataloq və kartotekaların demək olar ki, hər birində, təbii ki, not nəşrləri və səs yazmaları şöbəsinin kataloq və kartotekaları istisna olunmaqla ətraf təbii mühitin mühafizəsi və ekologiya elmi üzrə sənədlərə dair biblioqrafik informasiya vardır. Xüsusən də Diyarşünasliq elmi biblioqrafiya şöbəsinin kataloq və kartotekalarında bu sahə üzrə zəngin biblioqrafik informasiya vardır.

2015-ci ilin 1 yanvarına olan məlumata görə Milli Kitabxananın Elektron kataloqunda 176.384 adda monoqrafik тtipli bibliqrafik yazısı vardır. Bunlardan 2.324 əsər Azərbaycan, 1.054 sənəd isə rus dilində olmuşdur.

Məqalələrin sistemli kartotekasına müraciət etməklə, həm də Elekron kartotekaya müraciət etməklə burada həmin sənəd növü üzrə olan, həm də tədqiq etdiyimiz sahə biblioqrafik yazılar barədə məlumat əldə etmək mükündür. Sonuncu vasitəsi ilə aydınlaşdırmaq mümkündür ki, 2015-ci ilin
1 yanvarına olan məlumata görə, Elektron karotekada Azərbaycan və rus dillərində 263.321 biblioqrafik yazı var. Bunlardan 2.020 yazı ekologiya və ətraf mühitə dair Azərbaycanca, 2.100 yazı isə rusca məqalələri əks etdirir.

Milli Kitabxanada bizi maraqlandıran sahə üzrə tələbatçılara həm biblioqrafik, həm də sənədlə xidmət əsasən, Ümumi oxu zalında, Dövri mətbuat zalında, Biologiya və təbiət elmləri üzrə oxu zalında həyata keçirilir. Sonuncu zal öz ayrıca kataloquna, Soraq və biblioqrafik nəşrlər fonduna malikdir. Buradakı fondda ekoloji ədəbiyyat daha yüksək konsentrasiyaya malikdir. Əgər tələbatçıya ekoloji istiqamətli dissertasiyalara dair məlumat lazımdırsa, onu Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsinə istiqmətləndirilirlər.

Kitabxanada bütün istehsal proseslərinin, ilk növbədə biblioqrafik proseslərin həyata keçirilməsində avtomatlaşdırma -"Virtua" Avtomatlaşdıma sisteminin tətbiq xeyli irəliləyişə səbəb olmuşdur.

Xüsusən də "Virtua" Avtomatlaşdıma sisteminin tərkib hissəsi kimi geniş axtarış imkanlarına malik Elektron kataloq biblioqrafik fəaliyyətə dönüş yaratmışdır.



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında kataloq-kartoteka sisteminin yaradılmasına və aparılmasına böyük əhəmiyyət verilir.

Tədqiqatlarda qeyd edildiyi kimi, müasir dövrdə Milli Kitabxananın xeyli zəngin növ müxtəlifliyinə malik kataloq sisteminin tərkibini belə qruplaşdırmaq olar:

1. Oxucu və məqsəd əlamətlərinə görə - xidmət və oxucu kataloqları;

2. Sənədlərin qruplaşdırılması qaydalarına görə -əlifba, sistemli, predmet, xronoloji, topoqrafik;

3. Sənədlərin nəşr növlərinə görə - kitab, jurnal, ardı davam edən nəşrlər, qəzet, not-musiqi materialları, nadir nəşrlər, normativ sənədlər, avtoreferatlar, mikrofişlər, xəritələr, maqnit lentləri, təsviri incəsənət materialları, elektron sənədlərin kataloqları;

4. Dillərə görə-Azərbaycan, rus, keçmiş SSRİ xalqları, Qərbi Avropa və Yaxın və Orta Şərq xalqları dillərində;

5. Əhatəliyinə görə - fondun bütövlükdə və ayrı-ayrı hissələrini əhatə edən kataloqlar; ayrı-ayrı kolleksiyaların kataloqları.

Milli Kitabxananın kataloqlar sistemində ən iri kataloq özündə 20 milyondan artıq kartoçkanı 2.100 kataloq qutusunda əks etdirən, oxucular tərəfindən biblioqrafik təsvirlərin çoxaspektli axtarışını təmin edən xidmət əlifba kataloqudur.

Bunlardan əlavə Kitabxanada müxtəlif əhatə və təyinatlı kartotekalarlar da yaradılaraq istifadəyə verilmişdir. Bunlara aiddir:

1. Jurnal və qəzet məqalələri sistemli (ümumi) kartotekası (Azərbaycan və rus dilli sənədlər əsasında);

2. Mövzu kartotekaları (Azərbaycan dilində);

3. Xüsusi kartotekalar (Azərbaycan və xarici dillərdə);

4. Diyarşünaslıq (Azərbaycanşünaslıq), (Azərbaycan və xarici dillərdə) kartotekası.

Qeyd edək ki, Kitabxanada ümumiiyyətlə kitabxananın fondunu əks etdirən kataloq və kartotekalarla yanaşı, ayrı-ayrı şöbə və fondları əks etdirən kataloq və kartotekala da vardır [25,s.42, s.48].

İndi Kitabxanada 40-dan artıq kataloq və kartoteka aparılır. Onların tərkibində 10 milyondan artıq biblioqrafik yazı vardır [66,s.200].

Yuxarıda qeyd edilidiyi kimi, M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasında kataloqlaşdırma içinin prinsipcə yeni mərhələsi 2000-ci ildə ABŞ-ın VTLS Korporasiyasının "Virtua" avtomatlaşdırma sisteminin tətbiqi üzrə işlər başlamışdır. Bu isə Kitabxanada karaloqlaşdırma işinin yeni mərhələyə daxil olması deməк idi. Lakin bir sıra inzibati, kadr və digər çətinliklər üzündən işlərdə müəyyən fasilə yarandı. Bu işlər yalnız 2008-ci ildə bərpa edildi və az bir müddət ərzində az midarda olsa da biblioqrafik yazını əhatə etməklə elektron kataloqun istismarına başladı. Elə həmin ildə "Virtua" avtomatlaşdırma sisteminin imkanlarına əsaslanmaqla elektron kartotekanın da yaradılmasına başladı. Lakin nəyə görəsə Kitabxanada bu biblioqrafik infomasiaya axtarış sisteminə analitik elektron-məlumat bazası adı verilmişdir.

M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasında müxtəlif məqsəd və oxucu istiqamətli biblioqrafik vəsaitlərin tərtibi biblioqrafik fəaliyyətin prioritet istiqamətlərindən biridir. Mövcud olduğu dövr ərzində Kitabxanada müxtəlif mövzulu, tipli, həcmli və oxucu təyinatlı yuzlərlə biblioqrafik göstərici tərtib edilmişdir. Bu göstəricilərin əksəriyyəti kitabxananın



metodik və mözu profilinə-bədii ədəbiyyata, ədəbiyyatşünaslığa və incəsənətə aid olsada müstəqillik illərdən etibarən digər sahələr üzrə, eləcə də universal məzmunlu və vəsaitlər hazırlanmağa başlanmışdır.

Kitabxanada tərtib edilmiş vəsaitlərin ad etibarı ilə əksər hissəsi ayrıca buraxılışlı (qeyri-seriyal) vəsaitlərdir. Tipinə görə bu vəsaitlərin əksər hissəsi tövsiyə, az hissəsi isə elmi-köməkçi göstəricilərdir.

Milli Kitabxanada bəh etdiyimiz sahə üzrə cari biblioqrafik informasiya təminatında cari biblioqrafik vəsaitlərin böyük rolu vardır. Bu baxımdan Kitabxananın üzün müddət ərzində hazırlayıb nəşr etdirdiyi "Kənd təsərrüfatına dair yeni ədəbiyyat" vəsaitinin də böyük rolu olmuşdur. Bu vəsait müəyyən fasilə ilə 1974-1991-ci illər ərzində hazırlanaraq çap edilmişdir [24,s.342]. Vəsait kənd təsərrüfatı üzrə olsa da, onun təkbində az miqdarda olsa da bu sahə ilə bağlı ekeoloji istiqamətli sənədlər haqqında da məlumatlar verilirdi.

Son 8 ildə kitabxanada cari biblioqrafik vəsaitlərin buraxılışına olan diqqət xeyli artmışdır. Bununla bərabər digər müsbət bir tendensiya isə kitabxananın bütün nəşrlərinin elektron formalarının Kitabxananın İnternet saytında yerləşdirilməsidir. 2008-ci ildən başlayaraq Kitabxana burada yaradılan bütün məhsul Kitabxananın internet saytında "Kitabxananın nəşrləri" bölməsində toplanaraq təqdim edilir.

Kitabxananın internet saytının "Kitabxananın nəşrləri" bölməsində material illərə görə qruplaşdırılaraq verilir. İndi isə biz həmin bölmənin quruluşu, orada biblioqrafik vəsaitlərin təmsil olunması və onların tərkibində ətraf mühitin mühafizəsi və ekologiya elminə dair ədəbiyyatın təmsil olunmasına diqqət

yetirək. Qeyd edək ki, bu bölmədəki materiallar 2008-ci il və daha sonrakı illərdə nəşr olunmuş materialları əks etdirir və illər üzrə qruplaşdırılmışdır.

Hal-hazırda M.F.Axundov adina Azərbaycan Milli Kitabxananın internet saytında xeyli adda cari vəsait yerləşdirilmişdir. Bunlar 2011-ci ildə tərtib edilmiş "Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü" adlı böyük həcmli elmi-köməkçi biblioqrafik göstərici, M.F. Axundzadənin 200 illik yubileyinə həsr edilmiş elektron sənəd toplusunun tərkibindəki biblioqrafik bölmələr ("Əsərləri", "Haqqında əsərlər (Kitablar, Məqalələr)", Mirzə Ələkbər Sabirin 150 illik yubileyinə həsr edilmiş elektron sənəd toplusunun tərkibindəki biblioqrafik bölmələrdir ( "Əsərləri" və "Haqqında" bölmələri). Lakin onlardan ancaq bir adda vəsait ekoloji istiqamətlidir. Güman etmək olar ki, Kitabxananın biblioqrafik fəaliyyətinin gələcək dövrlərində Azərbaycanda ətraf mühitin mühafizəsi üzrə daha çox aktual biblioqrafik göstəricilər yaradılacaqdır və bu vəsaitlərdən istifadə birbaşa internet saytından müyəssər olacaqdır.

M. F. Axundov adına Milli Kitabxanada tərtib edilmiş mövzu vəsaitlərindən bəhs edərkən diqqət cəlb edən belə bir məsələni qeyd etmək lazımdır ki, kitabxanada bizi maraqlandıran istiqamətdə bir adda elmi-köməkçi göstərici "Azərbaycan ekologiyası – 10 ildə:" və bir adda metodik-biblioqrafiq tövsiyə "Ekologiya və kitabxanaların qarşısında duran vəzifələr " hazırlanıb nəşr eilmişdir.

Qeyd etdiyimiz kimi, indiyədək Azərbaycanda ancaq ətraf mühitin mühafizəsi və ekologiyaya dair sənəd kütləsini özündə əks etdirən və qismən də olsa sənəd kütləsinin modeli olan yeganə retrospektiv biblioqrafik göstərici 2009 ildə M.F.



Axundov adına Milli Kitabxana tərəfində tərtib və nəşr edilmiş "Azərbaycan ekologiyası-10 ildə" retrospektiv elmi-köməkçi biblioqrafik göstəricidir. 2009-cu ildə nəşr edilmiş bu vəsait 1997-2008-ci illərdə Azərbaycanda milli dildə və rus dilində nəşr edilmiş kitabları və dövri nəşrlərdə dərc edilmiş materialları əhatə edir. Onun həcmi 160 səhifədir və orada 1.132 adda sənəd öz əksini tapmışdır. Burada Azərbaycan dilində 926, rus dilində isə 196 adda sənəd haqqında biblioqrafik informasiya toplanmışdır [85,s.15].

Vəsait "Tərtibçidən" bölməsi ilə açılır. Sonra isə biblioqrafik material sənədlərin tipi və tematikası nəzərə alınmaqla iki fəsildə, onun daxilində isə sənəd növü və illər üzrə bölmələrdə verilir ki, bunlar (hər birinə dair sənədlərin miqdarı göstərilməklə) aşağıdakı cədvəldə öz əksini tapmışdır. Burada materialın illər üzrə deyil, mövzular üzrə qruplaşdırıldığı bölmə də vardır. Bu həm Azərbaycan, həm də rus dilində "Dövri mətbuat materialları " bölməsinin daxilində verilmiş tematik altbölmələrdir. Görünür ki, bölmənin əvvəlində biblioqrafın ekologiya üzrə tematik bölmələrə aid edə bilmədiyi material hər bir il üzrə ayrıca verilir. Daha sonra isə tematik altbölmələr verilir ki, onların daxilində təsvirlər əlifba ardıcıllığı ilə düzülür.

Tədqiqatımızın bu mərhələsində vəsaitdə 10 il ərzində ölkədə formalaşmış sənəd sənəd kütləsinin mövzu baxımından və sənədlərin ictimai funksiyasına görə tərkibi maraq doğurduğundan bu məsələni bir qədər ətraflı nəzərdən keçirək.

Qeyd etdiyimiz kimi, göstəricinin "Tərtibçidən" bölməsindən sonra onun əsas, biblioqrafik hissəsi başlayır. Buradakı mövzu bölmələrinin ardıcıllığı və onların hər birində təmsil olunan sənədlərin təsvirlərinin miqdarı aşağıdakı kimidir:

Cədvəl 28.

**M.F. Axundov adına Milli Kitabxana tərəfində tərtib və nəşr edilmiş "Azərbaycan ekologiyası – 10 ildə:" retrospektiv elmi-köməkçi biblioqrafik göstəricinin tərkibi.**

| Bölmələrin adı | Biblioqr. təsvirlərin miqdarı |
|---|---|
| I FƏSİL Ekologiya və təbiəti mühafizə haqqında Azərbaycan Respublikası qanunvericiliyi<br><br>Onun daxilində bölmələr: | |
| Azərbaycan Respublikasının Qanunları | 16 |
| Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları | 41 |
| Milli Proqram | 2 |
| Tədbirlər planı | 2 |
| Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarları | 9 |
| Ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması məsələlərinə həsr olunmuş müşavirə | 8 |
| II FƏSİL. Azərbaycan ekologiyası haqqında kitablar, avtoreferatlar, dissertasiyalar və dövri mətbuat materialları | |
| Kitablar | 87 |
| Dissertasiyalar | 24 |



| | |
|---|---|
| Avtoreferatlar | 20 |
| Dövri mətbuat materialları-(ümumi məsələlər) | 342 |
| Su hövzələri | 52 |
| Xəzərin ekologiyası | 73 |
| Atmosferin çirklənməsi və qorunması | 18 |
| Radiasiya təhlükəsizliyi | 14 |
| Torpağın, yararlı sahələrin çirklənməsi və qorunması | 35 |
| Meşələr | 57 |
| Qlobal ekoloji problemlər.:İqlim dəyişmələri, səhralaşmaya qarşı mübarizə. | 15 |
| Biomüxtəliflik: Qırmızı kitab, qoruqlar, bitki və heyvanlar aləmi | 34 |
| Kənd təsərrüfatı, sənaye, tikinti və nəqliyyat ekologiyası | 25 |
| Ekoloji tərbiyə və mədəniyyətin davamlı inkişafı | 52 |
| **Azərbaycan dilində bütün dövri mətbuat materialları cəmi** | **704** |
| **Azərbycan dilində cəmi** | **926** |
| III FƏSİL<br>Rus dilində | |
| Законодательство Азербайджанской | |

| | |
|---|---|
| Республики по экологии и охране природы | |
| Законы | 12 |
| Указы | 11 |
| Распоряжения | 11 |
| Положения | 2 |
| Книги, диссертации, авторефераты и материалы периодической печати по экологии Азербайджана | |
| Книги | 27 |
| Диссертации | 5 |
| Авторефераты | 9 |
| Газетно-журнальные статьи | 31 |
| Биоразнообразие | 5 |
| Животноводство | 3 |
| Растениеводство | 7 |
| Атмосфера и климат | 11 |
| Водоёмы, водные бассейны | 18 |



| | |
|---|---|
| Экология Каспия | 13 |
| Экология земельных ресурсов, строительства и транспорта | 16 |
| Экология промышленности, сельского хозяйства | 8 |
| **Rus dilində bütün dövri mətbuat materialları -cəmi** | **109** |
| **Rus dilində- cəmi** | **196** |
| **Cəmi vəsaitdə əks olunan sənədlərin miqdarı** | **1.132** |

Vəsaitin Azərbaycan bölməsindən sonra rus bölməsi başlayır. Rus bölməsinin daxilində də material Azərbaycan dilindəkinə uyğun bölmələrdə qruplaşdırılmışdır. Bölmə və altbölmənin daxilində isə material əvvəlcə illəri əhatə edən altbölmələr şəklində qruplaşdırılmışdır. İllərin daxilində isə biblioqrafik yazılar əlifba ardıcıllığı ilə düzülmüşdür.

Vəsaitin "Газетно-журнальные статьи" bölməsinin sonunda yardımçı aparat verilmişdir. Burada ayrıca olaraq Azərbaycanca, daha sonra isə rus dilində olan materialların müəlliflərinin əlifba gösdəricisi verilmişdir.

Vəsaitin təhlili 10 il ərzində Azərbaycanda öyrəndiyimiz sahə üzrə toplanmış sənəd kütləsinin tərkibi haqqında məlumat əldə etməyə imkan yaradır ki, bunu da aşağıdakı diaqramda aşkar görmək mümkündür.

Diaqramdan aydın şəkildə görünür ki, vəsaitdə olan Azərbaycan dilində materialların böyük əksəriyyətini dövri mətbuatda dərc edilmiş materiallar tutur (77%) ki, bunun da tərkibində aparıcı yeri qeyri-tematik (43%), və tematik (34%)

| | |
|---|---|
| Республики по экологии и охране природы | |
| Законы | 12 |
| Указы | 11 |
| Распоряжения | 11 |
| Положения | 2 |
| Книги, диссертации, авторефераты и материалы периодической печати по экологии Азербайджана | |
| Книги | 27 |
| Диссертации | 5 |
| Авторефераты | 9 |
| Газетно-журнальные статьи | 31 |
| Биоразнообразие | 5 |
| Животноводство | 3 |
| Растениеводство | 7 |
| Атмосфера и климат | 11 |
| Водоёмы, водные бассейны | 18 |



| | |
|---|---|
| Экология Каспия | 13 |
| Экология земельных ресурсов, строительства и транспорта | 16 |
| Экология промышленности, сельского хозяйства | 8 |
| **Rus dilində bütün dövri mətbuat materialları -cəmi** | **109** |
| **Rus dilində- cəmi** | **196** |
| **Cəmi vəsaitdə əks olunan sənədlərin miqdarı** | **1.132** |

Vəsaitin Azərbaycan bölməsindən sonra rus bölməsi başlayır. Rus bölməsinin daxilində də material Azərbaycan dilindəkinə uyğun bölmələrdə qruplaşdırılmışdır. Bölmə və altbölmənin daxilində isə material əvvəlcə illəri əhatə edən altbölmələr şəklində qruplaşdırılmışdır. İllərin daxilində isə biblioqrafik yazılar əlifba ardıcıllığı ilə düzülmüşdür.

Vəsaitin "Газетно-журнальные статьи" bölməsinin sonunda yardımçı aparat verilmişdir. Burada ayrıca olaraq Azərbaycanca, daha sonra isə rus dilində olan materialların müəlliflərinin əlifba gösdəricisi verilmişdir.

Vəsaitin təhlili 10 il ərzində Azərbaycanda öyrəndiyimiz sahə üzrə toplanmış sənəd kütləsinin tərkibi haqqında məlumat əldə etməyə imkan yaradır ki, bunu da aşağıdakı diaqramda aşkar görmək mümkündür.

Diaqramdan aydın şəkildə görünür ki, vəsaitdə olan Azərbaycan dilində materialların böyük əksəriyyətini dövri mətbuatda dərc edilmiş materiallar tutur (77%) ki, bunun da tərkibində aparıcı yeri qeyri-tematik (43%), və tematik (34%)

altbölmələrdədir. Həm kitabların. həm də rəsmi sənədlərin pay bölgüsü bərabərdir (9%).

**Diaqram 4 .**

**"Azərbaycan ekolopgiyası-10 ildə" vəsaitinin tərkibində olan materialların pay bölgüsü(Azərbaycan dilində).**




Tədqiqatımız üçün maraq kəsb edən digər məsələ "Azərbaycan ekolopgiyası-10 ildə" vəsaitinin tərkibində olan rus



dilində olan materialların sənəd növünə pay bölgüsü məsləsi də xeyli mraq doğurduşundan bu payı özündə əks etdirən diaqrama müraciət edə bilərik.

**Diaqram 5.**

**"Azərbaycan ekolopgiyası-10 ildə" vəsaitinin tərkibində olan materialların sənəd növünə görə pay bölgüsü (rus dilində).**




Vəsaitdə toplanmış tərkibində dövri mətbuatda dərc edilmiş materialların xüsusi çəkisi Azərbaycan dilindəkinə

nisbətən daha azdır (59%). Bunun da tərkibində aparıcı yeri tematik (43%) və daha az yeri qeyri-tematik (16%). Burada rəsmi sənədlərin payı daha yüksəkdir (19%). Kitabların payı cəmi 14%-dir.

Bu vəsait kiçik bir dövrü əhatə etsə də, ölkəmizdə ekologiya üzrə ilk retrospektiv göstərici olmasına və həmin dövrün sənəd kütləsini əks etdirən yeganə göstərici kimi qiymətli vəsait hesab edilə bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, M. F. Axundov adına Milli Kitabxananın internet saytında "Kitabxananın nəşrləri" bölməsində yerləşdirilmiş və bizim mövzuya dair biblioqrafik informasiyanın əks olunduğu ixtisaslaşdırılmış vəsaitlərdən ikincisi 2009-cu ildə tərtib edilmiş "Ekologiya və kitabxanalarin qarşısında duran vəzifələr" adlı metodik tövsiyə vəsaitidir.

Məlumdur ki, M. F. Axundov adına Milli Kitabxana Mədəniyyət və Turizm nazirliyinin tabeliyində olan kitabxanalar üçün metodiki mərkəzdir. Bu səbəbdən də burada həmin kitabxanaların metodiki rəhbərliyinə xüsusi diqqət yetirilir.Bu metodiki rəhbərliyin həyata keçirilməsinin əsas üsullarından biri fəaliyyətin bu və ya digər istiqaməti, bu və ya digər mövzular üzrə işi optimal təşkil etməyə yönəlmiş metodiki tövsiyələrin tərtib edilərək kitabxanalara göndərilməsidir. Bu tövsiyələrdə işin necə görülməsi, tədbirin necə keçirilməsi, nəyin və necə təbliğ olunması barədə konkret məsləhətlər verilir. Belə metodiki vəsaitlərin ayrılmaz tərkib hissəsi biblioqrafik informasiyadır. Burada mövzu ilə bağlı ən zəruri və əlavə ədəbiyyatın siyahısı verilir. bu mənbələrdən necə istifadə edilməsi izah edilir. Bu səbəbdən də bir çox hallarda tövsiyə biblioqrafik vəsaiti kimi də istifadə edilir.



Haqqında bəhs etdiyimiz vəsaitin əvvəlində göstərilir ki, bu vəsait respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələrdir.

Vəsaitin həcmi 56 səhifədir və 10 bölmədən ibarətdir. Burada girişdən sonra Xronologiya, Görkəmli şəxslər ekologiya haqqinda, Ekologiya və kitabxanalarin qarşisinda duran vəzifələr, Ekoloji təqvim və s. bölmələri və daha sonra ədəbiyyat siyahisi bölməsi verilmişdir. Burada Azərbaycan dilində 57 adda və rus dilimdə 14 adda ədəbiyyatın və 8 internet saytın ünvanından ibarət siyahı verilmişdir. Azərbaycan dilində ədəbiyyat bundan əvvəlki vəsaitdə olduğu kimi, ədəbiyyat tipinə görə qruplara ayrılmışdır. İlk olaraq rəsmi sənəd ədəbiyyatı, sonra isə digər sənəd tipləri təqdim edilmişdir. Ədəbiyyat siyahısının tərkibinin təhlili göstərir ki, bu ən müxtəlif sənəd tiplərini əhatə edir və onun tərkibində ətraf mühitlə əlaqəli sənədlər də vardır.

Yuxarıda qeyd edildiyi kimi, M.F.Axundov adına Milli Kitabxananın internet saytında "Kitabxananın nəşrləri" bölməsində yerləşdirilmiş və tərkibində bizi maraqlandıran məsləyə dair biblioqrafik informasiyanın da əks olunduğu iki adda ixtisaslaşdırılmış vəsait yerləşdirilmişdir. Bunlar "Yeni kitablar" və "Birillik Azərbaycan kitabiyyatı" göstəriciləridir.

Bildiyimiz kimi, dövlət uçot-qeyd biblioqrafik vəsaiti olan "Birillik Azərbaycan kitabiyyatı" universal xarakterli biblioqrafik vəsait 1960-1991-ci illərdə ildə bir dəfə olaraq Azərbaycan Dövlət Kitab Palatası tərəfindən Azərbaycan Kitab Salnaməsinin aylıq buraxılışları əsasında hazırlanıb nəşr edilirdi. 1991-ci ildən sonra müxtəlif inzibati çətinliklər üzündən vəsaitin tərtib və nəşri dayandı. Azərbaycan

Respublikası Nazirlər Kabinetinin 2004-cü il 15 aprel qərarı ilə Azərbaycan Dövlət Kitab Palatasının funksiyaları M. F. Axundov adına Milli Kitabxana verildikdən sonra "Birillik Azərbaycan kitabiyyatı" universal uçot-qeyd biblioqrafik vəsaitinin nəşri də bu kitabxananın vəzifələri sırasına aid edildi və 2009-cu ildən "Birillik Azərbaycan kitabiyyatı" nın bir neçə il ərzində çıxmamış buraxılışların hazırlanmasına başlandı. Bu zaman Kitab Palatasının rəsmi şəkildə mövcud olduğu, lakin fəaliyyətsizliyi nəticəsində biblioqrafik baxımdan əks olunmayan illər üzrə də materiallar bu Kitabxana tərəfindən toplanaraq əks olunmağa başladı.

"Birillik Azərbaycan kitabiyyatı"nın M. F. Axundov adına Milli Kitabxana verildikdən sonra hazırlanmış buraxılışları M. F. Axundov adına Milli Kitabxana saytındaı "Kitabxananın nəşrləri" bölməsində yerləşdirilmişdir. Hal-hazırda həmin bölmədə "Birillik Azərbaycan kitabiyyatı"nın 18 illik buraxılışı yerləşdirilmişdir. Bunlar 1992, 1993, 1996, 1998, 1999, 2001, 2002, 2003, 2004, 2005, 2006, 2007, 2008,2009, 2010, 2011, 2012 və 2013-cü illər buraxılışlarıdır. Beləliklə bu vəsaitlər məcmusu 20 illik bir müddəti əhatə etsə də xeyli boşluqlara malikdir [85,s.14].

Tədqiqatımızın əvvəlki fəslində Azərbaycanda sənəd axının modeli kimi "Birillik Azərbaycan kitabiyyatı" və "Yeni kitablar" vəsaitinin bi sıra buraxılışlarının quruluşundan, həcmindən, onlarda ətraf mühitin mühafizəsi və ekologiya elmi üzrə kitabların miqdarı və xüsusi çəkisi məsələləri öz əksini tapmışdır. Bu paraqrafda isə həmin vəsaitə bir qədər başqa aspektdən yanaşaraq onun quruluşu və onun tərkibində ətraf mühitin mühafizəsi və ekologiya məsələsinə diqqət yetirəcəyik.



Bütün bu 18 buraxılış universal vəsait olduğundan bunların səhifələrində öyrəndiyimiz sahəyə dair kitablar da əks olunmuşdur. İndi isə 1996-cı il buraxılışın timsalında "Birillik Azərbaycan kitabiyyatı"nın quruluşu və bəhs etdiyimiz sahə üzrə kitabların əks olunmasını nəzərdən keçirək.

"Birillik Azərbaycan kitabiyyatı"nın 1996-cı ildə çıxmış kitabları əks etdirən buraxılışı 2011-ci ildə hazırlanaraq kitabxananın internet saytında, "Kitabxananın nəşrləri" bölməsində yerləşdirilmişdir. Vəsaitin həcmi 216 səhifədir və orada 1996-cı ildə ölkəmizdə nəşr edilmiş Azərbaycan, rus və ingilis dillərində 1.488 adda kitab haqqında biblioqrafik məlumat verilir. Vəsait "müqəddimə" bölməsi ilə başlayır və daha sonra biblioqrafik informasiya verilir. Daha sonra isə yardımçı aparat və mündəricat yerləşir.

"Birillik Azərbaycan kitabiyyatı"nın M. F. Axundov adına Milli Kitabxanası tərəfindən tərtib edilən buraxılışlarının Kitab Palatasının buraxlışlarından bir xeyli fərqi vardır. Bu ilk növbədə Kitab Palatasının buraxlışlarından fərqli olaraq indiki buraxılışlarda rus və Azərbaycan dilində olan sənədlərin bir bölmə daxilində ardıcıl verilməsidir. Bizim fikrimizcə, əvvəlki metod daha mükəmməl idi. Bundan əlavə, Kitab Palatasının buraxlışlarında Azərbaycanda kitab nəşrinə dair zəngin statistik cədvəllər (o cümlədən, kitabların elm sahələrinə görə bölgüsü) verildiyi halda, indi belə təhlil aparılmır ki, bu ciddi nöqsan hesab edilməlidir.

Vəsaitdə təmsil olunan sənədlərin tipi xüsusi maraq doğurur. Burada 1-905 nömrəli biblioqrafik təsvirlər əksər hissəsi Azərbaycan dilində olan kitabları əks etdirir. Ayrı-ayrı elm və fəaliyyət sahələrinə dair və sayı çox az olan kitablar həmin bölmənin Azərbaycan dilində olan kitablarının ardınca

heç bir ayırıcı işarə olmadan verilmişdir. Buradan belə nəticəyə gəlmək olar ki, 1996-cı ildə respublikamızda Azərbaycan dilindən başqa dildə lap az kitab nəşr edilmişdir. Müəlliflərin rus dilində yardımçı göstəricisində dissertasiya və avtoreferat müəlliflərinin adları kitab müəlliflərinin adları ilə qarışıq verildiyindən il ərzində müəllif üzrə təsvir edilmiş neçə kitabın nəşr edildiyini müəyyənləşdirmək üçün bütün göstərici nəzərdən keçirilməlidir. Qalan materiallar yəni 906-1488 nömrəli təsvirlər isə dissertasiyaların tam mətni və avtoreferatları əhatə edir ki, bunların hamısı rus dilindədir. Həm dissertasiyaların özünü, həm də avtoreferatları əks etdirən hissələrdə bir elm sahəsinə dair bölmədə əvvəlcə doktorluq dissertasiyalarının (avtoreferatların), daha sonra isə namizədlik dissertasiyalarının (avtoreferatların) təsvirləri verilir.

Bir sənəd kimi dissertasiyaların tam versiyasını əks etdirən biblioqrafik təsvirlər vəsaitdə 906-1164 nömrələri arasında (cəmi 258 adda dissertasiya), elmi dərəcə almaq üçün yazılmış dissertasiyaların avtoreferatı isə 1165-1488 arasındakı təsvirləri əhatə edir ( cəmi 323 avtoreferat). Bu kitablardan ətraf mühitin mühafizəsi ekologiya üzrə Azərbaycan dilində 6 adda, rus dilində 5 kitab və 2 adda dissertasiya avtoreferatı vardır.

"Birillik Azərbaycan kitabiyyatı"nın sonunda isə yardımçı göstəricilər-müəlliflərin əlifba göstəricisi (ayrıca Azərbaycan, rus və xarici dillərində) və sərlövhələrin əlifba göstəricisi (ayrıca Azərbaycan, rus və xarici dillərdə) verilmişdir.

Bizim mövzumuz üçün ətraf mühitin mühafizəsi və ekologiya maraq kəsb etdiyi üçün vəsaitdə bu sahələrə dair materiala nəzər yetirək.



"Birillik Azərbaycan kitabiyyatı"nın 1996-cı il buraxılışında kitabları əks etdirən material UOT-un bölmələrinə uyğun təsnifləşdirilmişdir.

Vəsaitdə ayrıca nə ətraf təbii mühiti mühafizə, nə də ekologiyaya elmi bölmələri yoxdur. Burada həmin sahə üzrə kitablar "502/504 Təbiət elmləri" şöbəsinin başlanğıcında, "54 Kimya. Kristalloqrafiya. Mineraloqiya" şöbəsinin altbölmələrində, "57 Biologiya elmləri" şöbəsinin bölmələrində (574. Hidrobiologiya, 58. Botanika və 59. Zoologiya bölmələri) öz əksini tapır.

Bizim mövzumuz üçün maraq kəsb edən ikinci vəsait "Kitabxananın nəşrləri" bölməsində yerləşdirilmiş **"Yeni kitablar"** göstəricisidir. Yuxarıda qeyd etdiyimiz kimi, bu göstəricinin 2007-ci il 3 və 4-cü il nömrələrindən başlayaraq onlar müntəzəm şəkildə kitabxananın internet saytının "Kitabxananın nəşrləri" bölməsində yerləşdirirlər. İndiyə qədər "Kitabxananın nəşrləri" bölməsində "Yeni kitablar" göstəricisini 10 buraxılışı yerləşdirilmişdir. İndi isə vəsaitin 2008-ci il I buraxılışının timsalında vəsaitdə təbiət elmlərinə dair ədəbiyyatın əks olunmasına nəzər yetirək.

Vəsait "Göstərici haqqında" bölməsi iə açılır ki, burada onun quruluşu və təyinatı haqqında məlumat verilir. "Birillik Azərbaycan kitabiyyatı"ından fərqli olaraq bu göstəricidə digər təsnifat prinsipi tətbiq edilmişdir və bölmələrə indeks verilməmişdir. Burada ilk olaraq "Təbiət elmləri" bölməsi verilmişdir.

Təhlil göstərir ki, göstəricidə Azərbaycan dili ilə yanaşı rus və ingilis dillərində kitablar da təmsil olumuşdur. Təbii ki, bu kitabların əksəriyyəti Kitabxananın beynəlxalq kitab mübadiləsi proqramı vasitəsi ilə əldə edilmişdir.

Vəsaitdə ayrıca nə ətraf təbii mühiti mühafizə, nə də ekologiyaya elmi bölmələri yoxdur. Burada həmin sahə üzrə kitablar əsasən "502/504 Təbiət elmləri" şöbəsinin başlanğıcında. "54 Kimya. Kristalloqrafiya. Mineraloqiya" şöbəsinin altbölmələrində, "57 Biologiya elmləri" şöbəsinin bölmələrində (574. Hidrobiologiya, 58. Botanika və 59. Zoologiya bölmələri) öz əksini tapır.

Hər sahəvi bölmənin daxilində materiallar ayırıcı element vermədən əvvəlcə Azərbaycan, daha sonra rus və sonra isə xarici dillərə görə qruplaşdırılmışdır. Dillərin daxilində isə biblioqrafik yazılar əlifba ardıcıllığı ilə düzülmüşdür. Azərbaycan dilində olan kitablara KBT üzrə təsnifat indeksi verilmişdir.

Göstəricinin müsbət xüsusiyyətlərindən biri bura yardımçı aparatın verilməsidir. Həmin aparata müəlliflərin əlifba göstəricisinin və sərlövhələrinin əlifba göstəricisinin verilməsidir. Onların hər ikisinin daxilində altbölmə kimi, ayrıca olaraq Azərbaycan, rus, ingilis və digər dillər üzrə kitablar qruplaşdırılmışdır.

Bütün bu deyilənlər sübut edir ki, M.F.Axundov adına Milli Kitabxananın biblioqrafik vəsaitlərin hazırlanması və nəşri sahəsində fəaliyyətində ətraf mühitin mühafizəsi və ekologiya mövzusu da lazımınca öz əksini tapır.

M.F.Axundov adına Milli Kitabxananın biblioqrafik fəaliyyətində soraq biblioqrafiya xidməti də vacib rol oynayır. Bu xidmətlə kitabxanadan istifadə edən demək ki, bütün oxucu kollektivi əhatə edilmişdir. Statistik materiallar göstərir ki.
2015-ci ildə Kitabxanada oxucuların ümumi sayı 75.526 nəfər olmuşdur. Bunlardan nəfəri elmi dərəcəli mütəxəssislər olmuşdur. Tələbələr isə 1778 nəfər olmuşdur. Bu rəqəmlər

Bütün bu 18 buraxılış universal vəsait olduğundan bunların səhifələrində öyrəndiyimiz sahəyə dair kitablar da əks olunmuşdur. İndi isə 1996-cı il buraxılışın timsalında "Birillik Azərbaycan kitabiyyatı"nın quruluşu və bəhs etdiyimiz sahə üzrə kitabların əks olunmasını nəzərdən keçirək.

"Birillik Azərbaycan kitabiyyatı"nın 1996-cı ildə çıxmış kitabları əks etdirən buraxılışı 2011-ci ildə hazırlanaraq kitabxananın internet saytında, "Kitabxananın nəşrləri" bölməsində yerləşdirilmişdir. Vəsaitin həcmi 216 səhifədir və orada 1996-cı ildə ölkəmizdə nəşr edilmiş Azərbaycan, rus və ingilis dillərində 1.488 addа kitab haqqında biblioqrafik məlumat verilir. Vəsait "müqəddimə" bölməsi ilə başlayır və daha sonra biblioqrafik informasiya verilir. Daha sonra isə yardımçı aparat və mündəricat yerləşir.

"Birillik Azərbaycan kitabiyyatı"nın M. F. Axundov adına Milli Kitabxanası tərəfindən tərtib edilən buraxılışlarının Kitab Palatasının buraxlışlarından bir xeyli fərqi vardır. Bu ilk növbədə Kitab Palatasının buraxlışlarından fərqli olaraq indiki buraxılışlarda rus və Azərbaycan dilində olan sənədlərin bir bölmə daxilində ardıcıl verilməsidir. Bizim fikrimizcə, əvvəlki metod daha mükəmməl idi. Bundan əlavə, Kitab Palatasının buraxlışlarında Azərbaycanda kitab nəşrinə dair zəngin statistik cədvəllər (o cümlədən, kitabların elm sahələrinə görə bölgüsü) verildiyi halda, indi belə təhlil aparılmır ki, bu ciddi nöqsan hesab edilməlidir.

Vəsaitdə təmsil olunan sənədlərin tipi xüsusi maraq doğurur. Burada 1-905 nömrəli biblioqrafik təsvirlər əksər hissəsi Azərbaycan dilində olan kitabları əks etdirir. Ayrı-ayrı elm və fəaliyyət sahələrinə dair və sayı çox az olan kitablar həmin bölmənin Azərbaycan dilində olan kitablarının ardınca



bizim üçün ondan ötrü maraq kəsb edir ki. Bu tələbatçılar kitabxanaya hər gəlişində biblioqraflara və ya kitabxananın digər əməkdaşlarına müraciət edərək biblioqrafik arayışlar alırlar.

**Cədvəl 29.**
**M.F, Axundov adına Azərbaycan Milli Kitabxanasının tələbatçılarının müxtəlif əlamətlərə görə tərkibi (2015-ci il üçün).**

| | Tələbatçı qrupu | Miqdar (nəfər) |
|---|---|---|
| 1. | Iqtisadçı | 292 |
| 2. | Tibb | 297 |
| 3. | Mühəndis, texniki işçilər | 250 |
| 4. | Mədəni maarif işçisi | 281 |
| 5. | Tarixçi | 313 |
| 6. | Ədəbiyyat, incəsənət | 302 |
| 7. | Riyaziyyat, fizika, kimya | 220 |
| 8. | Geologiya, coğrafiya | 119 |
| 9. | Kənd təsərrüfatı | 153 |
| 10. | Digər ixtisaslar | 124 |
| | **Tələbatçıların peşəyə görə tərkibi** | |
| 11. | Qulluqçular | 2718 |
| 12. | Fəhlələr | 2663 |
| | **Tələbatçıların elmi dərəcəyə görə tərkibi** | |
| 13. | Elmi dərəcəsi olan tələbatçılar | 993 |
| | Cəmi | 75.526 |

(M. F. Axundov adına Milli Kitabxananın 2015-ci il üçün hesabatı əsasında)

Yuxarıda verilən statistik cədvəldə ətraf mühit və ekologiya üzrə tələbatçılar barədə rəqəmlər əks edilməsə də, müşahidələr göstərir ki, təbiət elmləri və texmika sahəsində tələbatçıların ən azı 3%-i bizim bəhs etdiyimiz sahə üzrə maraqlanır, bu mövzuda ədəbiyyatdan istifadə edirlər.

M.F.Axundov adına Milli kitabxanada göstərilən soraq-biblioqrafik xidmətdə ətraf mühitin mühafizəsi və ekologiya üzrə biblioqrafik xidmət də mövcuddur. Məsələn, 2014-cü ildə Xarici ədəbiyyat şöbəsində bəhs etdiyimiz sahə üzrə 40 oxucu olmuş və onlara 120 adda kitab verilmişdir. Elektron informasiya xidməti və KAA şöbəsində isə həmin müddət ərzində bu mövzu üzrə 85 adda kitab verilişi olmuşdur.

Kitabxananın Depozitar ədəbiyyat şöbəsində də bəhs etdiyimiz sahə üzrə soraq-biblioqrafik xidmət həyata keçirilir. 2014-cü ildə burada 39 oxucuya xidmət göstərilmiş və onlara 293 nüsxə sənəd verilmişdir.

Kitabxananın Dəqiq və texniki elmlər zalında da bəhs etdiyimiz sahə üzrə soraq-biblioqrafik xidmət həyata keçirilir. 2014-cü ildə burada 170 oxucuya xidmət göstərilmişdir. Burada onlara 684 nüsxə sənəd (534 nüsxə kitab və 150 nüsxə jurnal) verilmişdir.

Kitab verilişi barədə gətirdiyimiz bu rəqəmlər kitabxananın soraq-biblоqrafik fəaliyyəti ilə sıx əlaqədardır. Belə ki, əksər hallarda bu veriliş məhz verilmiş biblioqrafik arayışlar nəticəsində mümkün olur.

Kitabxana hələ sovet dövründən respublikada bədii ədəbiyyata, ədəbiyyatşünaslığa və incəsənət sahəsi üzrə elmi informasiya mərkəzi idi və bu sahə üzrə fərqləndirilməyən (cari növzu göstəricisi vasitəsi ilə) və fərqləndirilən biblioqrafik informasiya xidməti göstərirdi. Mədəniyyət nazirliyinin



funkiyası genişləndirilərək ona turizm işi də əlavə edildikdən sonra kitabxana öz biblioqrafik informasiya xidmətini sahə istiqamətinə turizmi də əlavə etdi və bu sahə cari vəsaitdə də əks olunmağa başladı. Lakin indiyədək Kitabxanada həyata keçirilən ətraf mühitin mühafizəsi və ekologiya üzrə bibnlioqrafik informasiya xidməti yalnız "Yeni kitablar" universal cari göstəricində digər mövzular kimi bu mözunun əhatə edilməsindən kənara çıxmır.

Kitabxanada mövcud olan ayrıca metodiki şöbə ölkənin bütün kütləvi kitabxanalarına metodik yardım göstərir, məsləhətlər verir. Metodik işin mühüm istiqaməti metodik vəsaitlərin hazırlanmasıdır. Kitabxanada ətraf mühitin mühafizəsi və ekologiya elmi üzrə ədəbiyyatın təbliği, oxuculara xidmət göstərilməsi sahəsində metodiki işin nümunəsi kimi yuxarıda adını çəkdiyimiz "Ekologiya və kitabxanalarin qarşıslnda duran vəzifələr" adlı metodik tövsiyə vəsaiti göstərmək mümükündür.

M.F.Axundov adına Milli kitabxanada biblioqrafik biliklərin təbliğinə gəldikdə isə bu not nəşrləri şöbəsindən başqa oxuculara xidmət göstərilən bütün şöbələrdə həyata keçirilir. Təbii ki, ətraf mühitin mühafizəsi və ekologiya elmi üzrə biliklər kitablar və fondu təşkil edən digər sənədlər və son zamanlar həm də on layn elektron resursların təbliği vasitəsilə həyata keçirilir.

Ümimilikdə götürdükdə isə M.F.Axundov adına Milli kitabxana respublika səviyyəli kitabxanalar arasında bəhs etdiyimiz sahə üzrə ən fəal iş aparan kitabxana hesab edilə bilər.

Azərbaycanda ətraf təbii mühitin qorunası və ekologiya elmi üzrə biblioqrafik təminat sahəsində potensiala malik kitabxanalardan biri də Respublika Elmi Tibb Kitabxanasıdır.

Respublika Elmi Tibb Kitabxanasının biblioqrafik fəaliyyəti müasir kitabxana-biblioqrafik fəaliyyətinin demək olar ki, bütün sahələrini əhatə edir. Bunların içərisində soraq-biblioqrafik aparatın yaradılması: soraq-biblioqrafiya aparatının yaradılması;soraq-biblioqrafiya xidməti; biblioqrafik-informasiya xidməti: tövsiyə-biblioqrafik xidməti kimi istiqamətlər daha fəal şəkildə aparılır. Müxtəlif növlü və təyinatlı biblioqrafik vəsaitlərin tərtibi istiqamətdə iş xeyli zəifdir. Son 2-3 ildə tədricən biblioqrafik istiqamətli elmi-tədqiqat işi üzrə fəaliyyət formalaşmağa başlamışdır.

Qeyd edilən istiqamətlərin hər birində bu və ya digər dərəcədə ətraf mühitin mühafizəsi və ekologiya məsələsi aspekti özünü büruzə verir. Əgər nəzərə alsaq ki, tibb elminin ekologiya ilə və səhiyyənin ətraf mühitin mühafizəsi üzrə fəaliyyətlə xeyli sıx təmasları, ortaq nöqtələri vardır Kitabxananın fəaliyyətində həmin sahəyə verilən diqqətin necə əhəmiyyətli olduğunu qiymətləndirmək mümkündür.

Kitabxanada SBA-nın yaradılması və aparılması məsələsinə böyük diqqət yetirilir. Onun vacib tərkib hissəsi kimi, Kitabxana zəngin Soraq və biblioqrafik nəşrlər fonduna malikdir. Bu fondda təmsil edilə tibbi soraq nəşrlərinə aşağıdakıları misal göstərmək mümkündür:

Kütləvi tibb ensiklopediyası [Mətn]: Bir cilddə /Baş red.: İ. Vəliyev; Red. heyətinin sədri: Ə. İnsanov; Elmi məsləhətçilər: Ə. Ə. Abbasquliyev və b.; Tərt.: Ş. Q. Vəliyev, S. H. Əhmədov; Rəssam: A. K. Səmədzadə; Fotoqraflar: H. M. Hüseynzadə, A. V. Xmelevski.-Bakı: Azərbaycan Ensklopediyası NPB. 2000.-432 s.: ill., cədvəl.

Tibbi bioloji terminlərin izahlı lüğəti [Mətn] : [A-Z] : Azərbaycan Tibb Univeristetinin tələbələri üçün "Tibbi



biologiya və genetika" dərsliyinin termin və anlayışlarının ensiklopedik lüğəti /S. D. Əliyev, C. Ə. Nəcəfov, R. Ə. Əliyev [və b.] ; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Resp. Səhiyyə Nazirliyi.-Bakı: Müəllim, 2010.-417, [1] s.: ill.

XXI əsr Azərbaycan həkimləri [Mətn]: (Ensiklopedik nəşr) /tərtib ed. və red. E. İsgəndərzadə; İngilis dilinə çevirəni və ing. mətninin red. K. Zamanlı; VEKTOR Beynəlxalq Elm Mərkəzi.-Bakı: Vektor, 2003.-215, [5] s. və s.

Bunlardan əlavə, Kitabxananın Soraq və biblioqrafik nəşrlər fondunda rus və digər dillərdə xeyli lüğət, ensiklopediya və digər soraq nəşri toplanmışdır.

Kitabxananın xeyli geniş kataloq və kartoteka sistemi də mövcuddur. Bu sistem özündə demək olar ki, bütün növ kataloq və kartotekaları əhatə edir və həmin sistem daim yenilənir və əvəzlənir [17,s.94].

2012-ci ildə Kitabxana üçün İRBİS 64 Kitabxanaların Avtomatlaşdırılması Sistemi alındıqdan sonra burada kitabxana-biblioqrafik fəaliyyətində yeni texnologiyaların tətbiqi geniş miqyas almışdır ki, bunun da tərkibində elektron kataloqun yaradılmasına xüsusi diqqət yetirilir. Hal-hazırda bu kataloq Kitabxananın fondunda olan on minlərələ sənədi özündə əks etdirir və tələbətçılara nəinki Kitabxananın binasında, həm də dünyanın istənilən nöqtəsindən istifadə etmək mümkündür.

Kitabxanaın biblioqrafik fəaliyyətində biblioqrafik informasiya xidmətinə böyük diqqət yetirilir. Bunlardan daha çox fərqləndirilməyən biblioqrafik informasiya xidməti daha geniş tətbiq edilir. Bildiyimiz kimi, bunlara mütəxəssis günləri, informasiya günləri, ədəbiyyat sərgiləri, yeni ədəbiyyat bülletenləri və s. daxildir.

Kitabxanada mütəmadi olaraq müxtəlif hadisələrə, şəxslərə, aktual mövzulara həsr edilmiş ədəbiyyat sərgiləri keçirilir. Bunlara misal olaraq prof. A.A. Xələfovun 75 ilik yubileyi ilə əlaqədar, "Vərəmə dair ədəbiyyat", "Bağırsaq xəstəliklərini nprofilaktikası üzrə ədəbiyyat" , "Ümumdünya Səhiyyə Təşkilatlarının materialları" və s. sərgiləri qeyd etmək mümkündür. Lakin hələ indiyədək bizim bəhs etdiyimiz saha üzrə ədəbiyyat sərgisi keçirilməmişdir. Kitabxanın istifadəçilərinə biblioqrafik xidmətinin təşkilində Xarici ədəbiyyat şöbəsi də mühüm rol oynayır. Bu şöbənin yüzdən çox daimi istifadəçisi vardır. Onlardan: elmi işçilər-30, həkimlər-26 nəfər, tələbələr- 54 olmuşlar [78]. Şöbənin oxucuları digər tibbi ədəbiyyatla yanaşı Ümumdünya Səhiyyə Təşkilatının materiallarına da böyük maraq göstərmişlər. Şöbənin əməkdaşları Ümumdünya Səhiyyə Təşkilatlarının materiallarından ibarət ayrıca birf ond yaratmış, onun texniki və elmi işlənməsi ilə məşğul olmuşlar. Bu şöbədən ənənvi kitabxana xidməti ilə yanaşı oxucular üçün bəzi materialların tərcüməsi ilə də məşğul olmuşlar.

Kitabxanada istifadəçilərə biblioqrafik xidmətin daha bir forması: yaxın və uzaq məsafədən elektron resurlarından istifadə etməklə arayışların tərtibidir. Kitabxananın kompüter zalı vasitəsilə çalışan peşəkar əməkdaşlar onlara adi axtarış saytları ilə yanaşı, xüsusi tibb saytlarından istifadə edilməsində də kömək göstərir, biblioqrafik informasiya tapmağa yardım edirlər. Buda oxucuların sorğularının tam və operativ ödənilməsinə şərait yaratmışdır. Bundan əlavə kompüter zalında bu ildən daha bir yeni informasiya xidməti, yəni disklərdən (CD) istifadənin təşkili təmin edilmişdir. Son illər fondun komplektləşdirilməsində CD-lər az yer tutmur. Hazırda



45 ədəd CD toplanmışdır. CD-lərdən istifadənin əlverişliyini təmin etmək məqsədi ilə onların kartotekası da yaradılmışdır. Son illər RETK-da oxuculara biblioqrafik xidmətdə də xeyli irəliləyişlər baş vermişdir. Bu baxımdan Biblioqrafiya şöbəsində bir sıra tədbirlər həyata keçirilmişdir. Yalnız 2005-ci ldə 39 biblioqrafik arayış hazırlanıb, sifarişçilərə çatdırılmışdır. Bu arayışlarda 1290 müxtəlif mənbə toplanıb, sistemləşdirilib oxcuların istifadəsinə verilmişdir. Bu arayışların tərtibində biblioqraflar ənənəvi mənbələrlə yanaşı, internet vasitəsilə digər kitabxanaların elektron kataloqlarından da istifadə edilir. Kitabxanada yerinə yetirilmiş iri həcmli arayışlara misal olaraq «Osteomielit xəstəliyi zamanı dispanserlərin təşkili», «Angionevrologiya və beyinini şemikpozuntuları», «Hipertonik xəstələrin qeyri-medikamentoz müaliəcəsi» ,«Sonillər Azərbaycanda infeksion xəstəliklər», «QİÇS (AİDS)» və s. Biblioqrafik sorğularla daha çox halda aspirantlar, dissertantlar müraciət edirlər. Belə tələbatçılara tövsiyə xidməti də göstərilir, onlara bilioqrafik məzmunlu məsləhətlər də verilir.

Kitabxananın Biblioqrafiya şöbəsinin tərkibinə ölkəşünaslıq bölməsi də daxildir. Həmin bölmənin biblioqrafları alimlərimlərin tibb üzrə rus və Azərbaycan dillərində dərc olunan əsərlərinin elmi işlənməsi, təsvir edilməsi, işlənmiş kartoçkaların ölkəşünaslıq əlifba və sistemli kataloquna əlavə olunması ilə məşğul olur. Milli tibb ədəbiyyatı ilə məşğul olan, eləcədə sorğusun da milli ədəbiyyatla maraqlanan oxuculara adətən bu bölmənin əməkdaşı yardım göstərir. Bölmənin "Vətən təbabəti" kataloqu daim yeni ədəbiyyatla zənginləşmişdir [38.s.127].

Respublika Elmi-Tibb Kitabxanası çox geniş istifadəçi kontingentinə malikdir ki, onların biblioqrafik təminatı

Kitabxananın başlıca prioritet sahəsidir. Bu, istifadəçilərin tərkibini əks etdirən cədvəldən də aşikar olaraq görünür.

Cədvəl 30.

**Respublika Elmi-tibb Kitabxanasının istifadəçilərinin tərkibi.**

| | Gəliş barədə məlumatlar | Miqdar |
|---|---|---|
| 1. | Ümumi gəliş<br>Onlardan : | 3969 |
| 2. | Elmlər doktoru | 32 |
| 3. | Elmlər namizədi | 33 |
| 4. | Aspirantlar | 51 |
| 5. | Elmi işçilər | 373 |
| 6. | Həkimlər | 1970 |
| 7. | Tələbələr | 967 |
| 8. | Orta tibb personalı | 40 |
| 9. | Digər istifadəçilər | 503 |

**(Qeyd: Məlumat 2015-ci ilə aiddir)**

Həmin istifadəçilərinin çox istifadə etdikləri sənədlərin elm və sahə aidiyyətinə gəldikdə isə burada tibb ədəbiyyatı üstünlük təşkil edir. Belə ki, 2014-cü ildə Kitabxanada 15.440 nüsxə tibb mövzulu sənəd verişmişdir. Digər elm sahələri üzrə isə 5130 adda sənəd verilmişdir. Ekoloji məzmunlu sənədlərin miqdarı isə 1890 olmuşdur. Təbii ki, sənəd verilişindən əvvəl mütləq biblioqrafik axtarış aparmaq lazımdır. Bunun üçün isə



peşəkar biblioqrafların yardımı, onların göstərdiyi soraq-biblioqrafik xidmətin böyük əhəmiyyəti vardır.

Kitabxanada tələbatçılara verilən sənədlərin nəşr tipləri və bunların içərisində ekoloji sənədlərin yeri də xeyli maraq doğurur. Belə ki, 2014-cü ildə Kitabxanada verilən sənədlərin nəşr tipi üzrə bölgüsü aşağıdakı kimi olmuşdur.

Cədvəl 31.

**Respublika Elmi-tibb Kitabxanasında istifadəçilərə verilən sənədlərin nəşr tipinə görə tərkibi.**

| | Verilən sənədin nəşr tipi | Miqdar |
|---|---|---|
| 1. | Monoqrafiyalar | 7910 |
| 2. | Məcmuələr | 3060 |
| 3. | Avtoreferatlar | 241 |
| 4. | Jurnallar | 10882 |
| 5. | Qəzetlər | 256 |
| | **Cəmi** | **22 349** |

2014-cü il üzr tərtib edilən 205 yazılı biblioqrafik arayışdan 26-sı ekoloji mövzuda olmuşdur [82,s.6].

Kitabxanada oxucu marağını, onu bu gün daha çox narahat edən məsələləri daha dərindən tədqiq etmək üçün oxucu anketləri tətbiq edilməyə başlanmışdır [62,s.113]. Çünki tələbatçıların sənəd-informasiya ehtiyaclarının öyrənilməsi olmadan biblioqrafik xidməti düzgün qurmaq mümükün deyildir.

Yuxarıda qeyd edildiyi kimi, Kitabxanada soraq-biblioqrafik xidmətlə yanaşı biblioqrafik informasiya xidmətinin müxtəlif formaları da tətbiq edilir.

Fərqləndirilməyən biblioqrafik informasiya xidməti Kitabxanaın fonduna daxil olan yeni ədəbiyyatın bülletenlərinin hazırlanması və paylanması vasitəsi ilə teallaşır. Məlum olduğu kimi, kitabxanada bu istiqamətdə fəliyyətin 40 ildən artıq bir tarixi vardır. Bundan başqa kitabxanada fərqləndirilən biblioqrafik informasiya xidməti xidməti də aparılır. Bu xidmətlə əsasən Səhiyyə Nazirliyin məsul işçiləri əhatə edilmişdir.

Son illər Kitabxanada biblioqrafik istiqamətli elmi-tədqiqat işinə olan diqqət də artmaqdadır. Kitabxananın əməkdaşları mütəmadi olaraq elmi məqalələrələ ölkənin kitabxana-biblioqrafik profilli elmi məcmuələrində çıxış edirlər. Kitabxanın iki nəfər əməkdaşı isə dissertant kimi elmi-tədqiqat mövzusu götürərək intensiv araşdırmalar aparır.

Respublika Elmi Tibb Kitabxanasında ətraf mühitin mühafizəsi və ekologiya elmi sahəsində da biblioqrafik fəaliyyət yuxarıda qeyd edilən istiqamətlərdə aparılmışdır. Kitabxanada Soraq biblioqrafiya paratın tərkibində olan Soraq və biblioqrafik nəşrlər fondunda bu mövzuda dövlət rəsmi sənədləri, ensiklopediyalar, lüğətlər. Biblioqrafik vəsaitlər toplanmışdır. Kitabxananın ənənəvi kataloq-kartoteka sitemində fondda olan bəhs etdiyimiz mövzuda sənədləri əks etdirən xeyli biblioqrafik informasiya toplanmışdır. Ən başlıcası 2010-cu ilin 22 dekabrında Kitabxanada "Ekologiya ətraf mühit və sağlamlıq" mövzusunda informasiya günü keçirilmışdir. Bu tədbir ilə əlaqədar "Ekologiya, ətraf mühit və sağlamlıq" mövzusunda biblioqrafik göstərici tərtib edilmişdir. Göstəricidə 230 mənbə təsvir edilmişdır [78. s.8].

2012- ci ildə Kitabxanaya oxucu gəlişi 3792 nəfər olmuşdur. Bu baxımdan ekoloji ədəbiyyata dair oxucu



gəlişi bu rəqəmin təqribən 5 faizini təşkil edir [80,s.4]. Respublika Elmi Tibb Kitabxanasında tələbatçılara xidmətdə, burada yerinə yetirilən digər proseslərdə kataloq-kartoteka sisteminin əhəmiyyəti böyükdür. Bu vəzifələrin yerinə yetirilməsi üçün Kitabxanada mükəmməl kataloq-kartoteka sistemi formalaşdırlımışdır. Kitabxanada həyata keçirilən biblioqrafik fəaliyyətin intensivliyi onun statistik materiallarında öz əksini tapır. Məsələn, Kitabxanada 2007-ci ildə xidmət şöbəsinə 3541 nəfər oxucu gəlmişdir. 21405 nüsxə ədəbiyyat verilişi qeydə alınmışdır. 2007-ci ildə ümumilikdə 29 sərgi keçirilmiş və orada 334 nüsxə ədəbiyyat təqdim olunmuşdur. 2007-ci ildə 39 biblioqrafik arayış hazırlanıb oxuculara çatdırılmişdır. Bu arayışlarda 1290 adda haqqına məlumat toplanıb, sistemləşdirilib oxucuların istifadəsinə verilmişdir. Həmin il Kitabxanalararası abonement vasitəsilə xidmət zamanı 1170 oxucu gəlişi, 3665 nüsxə kitab verilişi qeydə alınmışdır. Əsasən yeni jurnallara və kitablara tələbat artmaqdadır. Respublikanın bir sıra başqa kitabxanaları, məsələn: Azərbaycan Tibb Universitetinin kitabxanası, BDU-nun elmi kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, M.F. Axundov ad. Milli Kitabxana, ABŞ səfirliyi Amerika mərkəzi və s. ilə sıx əlaqələr qurulmuşdur [78,s.6-7].

Ekologiya , ətraf mühitin mühafizəsi və onların tibb sahəsində əlaqəsi haqqında olan mövzularda 2015-cü ildə 5 kütləvi və elimi tədbir, o cümlədən ədəbiyyat sərgisi keçirilmişdir [82,s.6].

2012-ci ildə "Ekologiya, gigiyena və sağlamlıq" mövzusunda retrospektiv biblioqrafik göstərici hazırlanmışdır. Göstəricidə təbabətin ekoloji aspektdə öyrənilməsi, ekologiya ilə təbabətin kəsişən mövzu və istiqamətlərində statistik

təhlillər və elmi tədqiqatlara aid tibbi ədəbiyyat öz əksini tapır.

Kitabxanada bəhs etdiyimiz mövzuya dair də soraq-biblioqrafik xidmət həyata keçirilir.

Azərbaycanda ali dövlət icra orqanı olan Prezident Adminstrasiyasına və eləcə də kütləvi tələbatçılara xidmət edən əsas kitabxana kimi Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasıda ölkədə ətraf mühitin mühafizəsi və eklogiya elmi sahəsində ilkin sənəd və biblioqrafik resurslar hazırlayan və biblioqrafik təminatı həyata keçirən əsas kitabxanalardan biridir.

Prezident Kitabxanasında digər fəaliyyət istiqamətləri ilə yanaşı biblioqrafik təminata da böyük əhəmiyyət verilir. Burada həmin fəaliyyətin tərkib hissələri kimi soraq-biblioqrafik aparat yaradılır, müxtəlif növlü müstəqil və qeyri-müstəqil biblioqrafik vəsaitlər tərtib edilir, soraq-biblioqrafiya və biblioqrafik informasiya, tövsiyə xidmətləri həyata keçirilir, biblioqrafik məsləhətlər verilir, biblioqrafik biliklər təbliğ edilir [84,s.174].

Kitabxananın biblioqrafik resurslarının tərkibində biblioqrafik nəşrlərin böyük əhəmiyyəti vardır. Bu fond soraq və biblioqrafik nəşrlər fondunn daxilində yaranır. Hal-hazırda bunun daxilinə 120 adda biblioqrafik vəsait daxildir. Bunların tərkibində Azərbaycan Dövlət Kitab Palatasının nəşrləri, M.F. Axundov adına Milli Kitabxananın nəşrləri, eləcə də digər kitabxanaların və keçmiş Sovetlər İttifaqının kitabxanalarının biblioqrafik nəşrləri də əhəmiyyətli yer tutur. Azərbaycanın müstəqillik qazanmasından sonra fonda toplanan biblioqrafik göstəricilərin əksəriyyəti Azərbaycanın görkəmli adamlarının həyat və yaradıcılığına həsr edilmiş elmi köməkçi şəxsi



biblioqrafik göstəricidir. Kitabxanadakı biblioqrafik resursların ikinci tərkib hissəsi kataloq və katoteka sistemidir. 2003-cü ildə kitabxana yeni statusda təşkil olunan zaman onun sələfi olan kitabxanaların kataloq kartoteka sisteminin ancaq bir hissəsi kitabxanalara verilmişdir.

Prezident Kitabxanasında ekoloji mövzular üzrə də kitabxana- biblioqrafik fəaliyyət həyata keçirilir, bu mövzulu sənəd fondu formalaşdırılır, sənədlə xidmət göstərilir, biblioqrafik xidmətin müxtəlif formaları yerinə yetirilir. Prezident Kitabxanasının informasiya resurslarının tərkibində ətraf mühitin mühafizəsi və ekologiya üzrə informasiyanın da əhatə edildiyi biblioqrafik resursların əsas komponentlərinə Kitabxananın soraq-biblioqrafik aparatı və burada tərtib edilən biblioqrafik vəsaitlər sistemi aid edilə bilər.

Kitabxananaın soraq-biblioqrafik aparatının tərkibində zəngin soraq və biblioqrafik nəşrlər fondu formalaşdırılmışdır. Burada ekoloji istiqamətli rəsmi sənədlər-qanunlar, hökumətin qərarları və digər rəsmi sənədlər toplanmışdır. Bu fonda bəhs etdiyimiz mövzuda xeyli sayda ensiklopediya, bələdçi, lüğət və sair nəşrlər də vardır.

Məlum olduğu kimi, kitabxanada biblioqrafik axtarışın həyata keçirilməsi üçün əsas vasitə biblioqrafik vəsaitlər fondu və kataloq-kartoteka sistemidir. Prezident Kitabxanasında bunların yaradılması və təkmilləşdirilməsinə böyük əhəmiyyət verilir. Bu iş xüsusi ilə 2004-cü ildə Prezident Kitabxanasında İRBİS 64 Kitabxana Avtomatlaşdırma sisteminin tətbiqi ilə yeni səviyyəyə yüksəlmişdir. Qeyd edək ki, müstəqillikdən sonrakı dövrdə Prezident Kitabxanasından əvvəl qədər ölkənin heç bir iri kitabxanasında kitabxana- biblioqrafik proseslərin avtomatlaşdırılması sistemi tətbiq edilməmişdi. M. F. Axundov

adına AMK-da həmin iş Prezident Kitabxanasından bir neçə il əvvəl başlasa da texniki, maliyyə, kadr problemləri üzündən bu sahədə iş yarımçıq qalmaış və yalnış 2008-ci ildən avtomatlaşdıma işi normal templə yenidən başlamışdı. Prezident Kitabxanası həm də respublikada müasir itabxana-biblioqrafik proseslərin avtomatlaşdırılması sisteminin müxtəlif modullarından, yaratdığı imkanlarından dеmək olar ki, tam şəkildə istifadə edən yeganə dövlət kitabxanasıdır.

Kitabxanada kitabxana-biblioqrafik proseslərin avtomatlaşdırması işinin ilk mərhələsi kimi sistemə Kitabxananın fonduna 2004-cü ildən başlayaraq daxil olan ədəbiyyatı əks etdirən biblioqrafik informasiya daxil edilməyə başlamışdı. İkinci mərhələdə isə fondda bundan əvvəl mövcud olmuş ədəbiyyatı əks etdirən biblioqrafik informasiya daxil edilməyə başlandı. 2005-ci ildən isə sistemə Kitabxananın fonduna daxil olan dövri mətbuatın səhifələrində dərc edilmiş ən əhəmiyyətli materiallar haqqında ədəbiyyatı əks etdirən biblioqrafik informasiyanın daxil edilməsinə-elektron kartotekanın yaradılmasına başlandı.

Kitabxananın kitabları əks etdirən elektron kataloqunda fondda olan bütün kitablar, o cümlədən ətraf mühitin mühafizəsinə dair kitablar haqqında məlumat verilir. əvvəlki fəsildə qeyd edildiyi kimi Prezident Kitabxanasının elektron kataloquna daxil olan biblioqrafik verilənlər bazalarından hər biri kitabları iki bazada-2003-cü ilə qədər daxil olmuş kitabları əks etdirən "Retrofond" adlı kataloda və 2003-cü ildən sonra daxil olmuş kitabları əks etdirən "Yeni kitablar" adlı biblioqrafik verilənlər bazasında əks etdirir. Bundan başqa elektron kataloqda dissertasiyaların avtoreferatlarının, elektron nəşrlərin, BMT-nin hədiyyə etdiyi kitablardan ibarət fondun,



dövri mətbuatda dərc edilmiş ən əhəmiyyətli materialların və not nəşrlərinin ayrıca biblioqrafik verilənlər bazaları vardır. Sonuncu verilənlər bazasında savayı bu biblioqrafik verilənlər bazalarının hər birində bizi maraqlandıran sahə üzrə sənədlər barədə biblioqrafik informasiya verilir. Prezident Kitabxanasının kataloq-kartoteka sisteminin tərkibi, orada toplanmış biblioqrafik yazıların miqdarı və tərkibi haqqında tədqiqatın ikinci fəslində ətraflı məlumat verilmişdir.

Prezident Kitabxanasında müxtəlif növlü və təyinatlı biblioqrafik vəsaitlərin tərtibinə də böyük diqqət yetirilir. Hal-hazıra Kitabxnada yaradılmış biblioqrafik vəsaitlər sistemi anlarla addu vəsaiti əhatə edir. Həmin vəsaitləri müstəqil və qeyri- müstəqil kimi iki növə ayırmaq olar. Qeyd edək ki, Kitabxanada yaradılan tammətni sənəd toplularının tərkibində verilən biblioqrafik bölmələr qeyri-müstəqil biblioqrafik vəsaitlər hesab edilir.

Burada biblioqrafik vasitələr sisteminin tərkibində özündə ekologiya elmi və ətraf mühitin mühafizəsi mövzularnda olan sənədlər haqqında məlumatı əks etdirən vacib biblioqrafik mənbə növü kitabxanada tətib edilmiş müstəqil biblioqrafik vəsaitlərdir.

2014-cü ilin yanvarına olan məlumata görə Prezident Kitabxanasının yaradılmış biblioqrafik vəsaitlər sistemi 14 adda müstəqil göstəricini əhatə edir. Bu vəsaitlər Prezident Kitabxanasının fonduna daxil olan kitabları, dövri və ardı davam edən nəşrlərin səhifələrində dərc edilən materialları özündə əks etdirir.

Həmin vəsaitlər içərisində özündə fomda daxil olan yeni dövri və ardı davam edən nəşrlərdəki materialları müxtəlif aspektlərdə özündə əks etdirən "İnformasiya

bülletenləri" adlı vəsaitlər seriyasını vurğulamaq lazımdır. İndi həmin vəsait 10 tematik istiqamətdə hazırlanaraq tələbatçıların istifadəsinə təqdim edilir. Bunların arasında bizim üçün "Ekologiya" adlı informasiya bülleteni əhəmiyyət kəsb edir. Bu vəsait 2010-cu ildən başlayaraq rüblük olaraq nəşr edilir. 2015-ci ilin sonuna kimi bu vəsaiin 24 buraxılışı çıxmışdır. Vəsaitin orta həcmi rüblük buraxlışlarının həcmi üçün 5-12 səhifə arasında dəyişir. Vəsatin bir buraxılışında verilən biblioqrafik təsvirlərin miqdarı da buna münasib olaraq 40-120 arasında olur [84,s.174].

Vəsaitin aşağıdakı tematik bölmələri var:

1. Ekoloji maarifləndirmə
2. Neft və Ekologiya
3. Ətraf mühit
4. İqlim dəyişikliyi
5. Biomüxtəliflik

Vəsaitin hər bir tematik bölməsinin daxilində material əvvəlcə dillər üzrə (Azərbaycan, rus və ingilis), onun daxilində isə əlifba sırası ilə düzülür. "Ekologiya" informasiya bülleteninin hər bir buraxılışında təxminən altmış sənəd barədə biblioqrafik məlumat dərc olunur.

Bu biblioqrafik yazıların hazırlanması metodikası da xeyli maraq kəsb edir. Hər bir sənəd qüvvədə olan standartın tələblərinə uyğun şəkildə təsvir olunur. Əgər sənədin sərlövhəsi onun mövzu açıqlamırsa, biblioqrafi təsvirin sonunda çox müxtəsər şəkildə bir cümləlik annotasiya ilə onun məzmunu barədə məlumat verilir.

Yuxarıda qeyd edilən "Ekologiya" informasiya bülleteni Prezident Kitabxanasında bizi maraqlandıran mövzuda tərtib edilmiş yeganə müstəqil vəsaitdir. Bundan



başqa, yuxarıda deyildiyi kimi, Kitabxanada bəhs etdiyimiz mövzuda qeyri-müstəqil vəsait də tərtib edilmişdir. Bu, Prezident Kitabxanasında yaradılmış **"Azərbaycan Ekologiyası" adlı** elektron sənəd toplusunun tərkibində olan biblioqrafik bölmədir.

Kitabxananın **"elektron layihələr"** adlı sənəd toplusu növünə aid olan bu toplu 5 tematik bölmə və 29 altbölmədən ibarətdir. Toplunun "Elektron Resurslar" bölməsinin tərkibində verilən **"Biblioqrafiya" adlı altbölmə** iki hissədən ibarətdir. Bunlar **"Kitablar"** və **"Avtoreferatlar"** adlı hissələrdir. "Kitablar" hissəsində 318 adda kitab haqqında biblioqrafik məlumat verilir. "Kitablar" hissəsində material əvvəlcə dillər (Azərbaycan, rus və xarici -İngilis, Fransız, Türk və s. dillərdə), onların daxilində isə əlifba üzrə düzülür. "Avtoreferatlar" hissəsində isə Azərbaycanda ekologiya elmi üzrə müdafiə edilmiş 47 adda doktorluq və namizədlik dissertasiyaları öz əksini tapmışdır (məlumat 2015-ci ilin sonuna aiddir), Bu dissertasiyalar Azərbaycan və rus dillərindədir.
fərqləndirici cəhəti ondan ibarətdir ki, zaman keçdikcə və Kitabxananın fonduna bu mövzuda yeni kitablar və dissertasiyalar daxil olduqca Kitabxananın əməkdaşları onlar haqqında məlumatı bu vəsaitə əlavə edirlər və ya başqa sözlə desək, vəsait mütəmadi olaraq aktuallaşdırılır.

Yuxarıda göstərilənlər sübut edir ki, müasir dövrdə Prezident Kitabxanasının biblioqrafik fəaliyyətində ekoloji tematikaya kifayət qədər diqqət yetirilir [84,s.174].

Məlumdur ki, Prezident Kitabxanası öz biblioqtafik xidmətinin mükəmməlliyi, yüksək keyfiyyəti ilə seçilir. Burada həm soraq-biblioqrafik, həm də biblioqrafik informasiya xidmətləri həyata keçirilir.

Kitabxanaya müraciət edən hər bir tələbatçısının sorğusuna diqətlə yanaşılır və soraq-biblioqrafik xidmət rejimində kitabxananın ixtiyarında olan ilkin sənəd və biblioqrafik informasiya resursların çərçivəsində cavablandırılır, arayışlar verilir. Biblioqrafik informasiya xidmətinə gəldikdə isə, kitabxanada bu xidmətin fərqləndirilməyən forması həyata keçirilir, cari biblioqrafik vəsaitlərdən istifadə etməklə lazımi informasiya çatdırılır. Bu xidmətlərin hər iki formasında ətraf mühirin mühafizəsi və ekologiya mövzusu əksini tapır.

Prezident Kitabxanasının ümumilikdə tələbatçılan biblioqrafik təminat sahəsində qazandığı yüksək səviyyəni vurğulamaqla yanaşı, qeyd etmək lazımdır ki, bu kitabxananın böyük potensial imkanları bir çox digər sahələr kimi ekologiya üzrə də biblioqrafik təminatın daha mükəmməl formalarının yaradılması üçün geniş perspektivlər yaradır.

Bakı Dövlət Universitetinin Elmi Kitabxanası öz biblioqrafik fəaliyyətində müasir kitabxamna-biblioqrafik fəaliyyətin əksər istiqamətlərini uğurla həyata keçirir. Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının formalaşmış zəngin soraq-biblioqrafiya aparatı özündə bu aparata aid bütün tərkib hissələri birləşdirir. Müstəqillik illərində Elmi Kitabxananın maddi-texniki bazası əsaslı şəkildə möhkəmləndirilmişdir və indi Kitabxananın ixtisaslaşmış fondları və oxu zalları universitetin üç korpusunda yerləşir. Kitabxananın 12 şöbəsi vardır. Elmi Kitabxanada oxuculara xidmət etmək üçün min nəfərdən artıq oturacaq yeri olan 12 oxu zalı fəaliyyət göstərir. Gün ərzində tələbə oxu zallarına 1.749 nəfər, professor-müəllim oxu zallarına isə 181 nəfər oxucu gəlir. Bir gündə oxuculara abonementdən 2.353 kitab, oxu zallarından isə 2823 kitab



verilir. Kitabxananın daimi oxucularının sayı 15.806 nəfərdir. Bunlardan: 10.644 nəfəri tələbə, 458 nəfəri müəllim və 230 nəfəri professordur. Bütün bu oxucu kontingenti həm də biblioqrafik informasiya istehlakçılarıdır. Hazırda oxucuların istifadəsində olan elektron kataloqda 120.000-dən artıq sənəd öz əksini tapmışdırb [84,s.174].

Kitabxanada həyata keçirilən soraq biblioqrafik xidmət barədə əlimizdə dəqiq məlumat olmadığından biz bu xidmət barədə dolayısı olsa da təsəvvür əldə etmək üçün kitabxanada oxuculara xidmət barədə aşağdakı cədvəldə əks olunmuş statistik məlumatlara müraciət edək.

**Cədvəl 32.**

**Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında öxuculara xidmətin əsas göstəriciləri(1991-2007-ci illərin hesabatları əsasında)**

| Oxuculara xidmət işinin təşkili № | İllər | Oxucuların ümumi sayı (vahid oxucu biletinə görə) | Kitaxana-ya ümumi oxucu gəlişinin miqdarı | Sənəd verilişinin miqdarı |
|---|---|---|---|---|
| 1. | 1991 | 16.603 | 659.738 | 1.489.596 |
| 2. | 1992 | 16.160 | 681.124 | 1.545.834 |
| 3. | 1993 | 15.030 | 610.000 | 1.600.000 |
| 4. | 1994 | 15.050 | 850.000 | 1.650.000 |
| 5. | 1995 | 14.184 | 650.000 | 1.500.000 |
| 6. | 1996 | 14.250 | 685.000 | 1.555.000 |
| 7. | 1997 | 13.815 | 643.259 | 1.420.199 |
| 8. | 1998 | 14.486 | 675.840 | 1.491.985 |

| | | | | |
|---|---|---|---|---|
| 9. | 1999 | 14.953 | 697.558 | 1.540.159 |
| 10. | 2000 | 15.756 | 747.333 | 1.650.060 |
| 11. | 2001 | 14.519 | 860.996 | 1.685.281 |
| 12. | 2002 | 15.478 | 850.975 | 1.601.860 |
| 13. | 2003 | 14.207 | 811.859 | 1.512.490 |
| 14. | 2004 | 14.886 | 821.538 | 1.611.228 |
| 15. | 2005 | 15.062 | 928.611 | 1.612.288 |
| 16. | 2006 | 15.242 | 946.785 | 1.631.314 |
| 17. | 2007 | 14.326 | 926.785 | 1.687.686 |

Cədvəldən göründüyü kimi, son 15 il ərzində kitabxanada oxuculara xidmət sahəsində göstəricilər əsasən artmaq istiqamətində dəyişmişdir.

### 3.2. Azərbaycan kitabxanalarında sahə üzrə elektron biblioqrafik informasiya təminatının vəziyyəti

XX əsrin ortalarından etibarən başlayan və sonrakı dövrdə daha da intensiv şəkildə kitabxanalarda tətbiq edilməyə başlayan EHM-lərə əsaslanan yeni informasiya texnologiyaları əsrin sonuna doğru kitabxanalarda həyata keçirilən fəaliyyətdə, onların yerinə yetirdiyi xidmətlərdə inqilabi dəyişikliklərə gətirib çıxardı. Kitabxana-biblio qrafik prosesləri avtomatlaşdırıldı və bunun nəticəsində işin sürəti, keyfiyyəti, faydalı iş əmsalı dəfələrlə yüksəldi, tələbatçılara xeyli tez zamanda və yüksək daha keyfiyyətlə təqdim edilənilkin və biblioqrafik informasiya onların öz peşə fəaliyyətlərində və



digər informasiya tələbatlarının ödənilməsində daha çox səmərə verməyə başladı. Kitabxanaların fəaliyyətində yeni meydana çıxan və tələbatçı məmnunluğunu yüksəldən amillərədən biri onlar üçün elektron informasiya resurslarının yaradılması və təqdim edilməsi oldu. Bəs elektron informasiya resursu nədir? Müasir elm və praktikada elektron informasiya resursu deyərkən yaradılmasında və istifadəsində hesablama qurğularının müxtəlif növləri, o cümlədən kompüterlərdən istifadə edilən informasiya resursları nəzərdə tutlur. Belə resurslar ilk dəfə ABŞ kitabxanaçılığında meydana gəldiyi və həmin sahədə ən qabaqcıl təcrübə bu ölkədə olduğu üçün bu resurssun hansı növlərdən ibarət olması barədə məlumat almaq üçün həmin ölkənin təcrübəsinə müraciət edək.

*Elm və fəaliyyət sahələri üzrə tədqiqat bələdçiləri.* Burada hər bir sahə üzrə aparıcı mütəxəssilərlə əlaqə üçün informasiya, sahə üzrə kitabxanada mövcud olan ənənəvi sənəd fondları haqqında məlumat, sahənin tədqiqatçıları üçün faydalı olcaq Web saytların linkləri verilir.

*Göstəricilər.* Bu göstəricilər kitablar, dövri və ardı davam edən nəşrlərdə dərc edilmiş məqalələr və digər sənədlər haqqında biblioqrafik informasiyanı özündə əks etdirir. Qeyd edilir ki, on layn biblioqrafik göstəricilər predmet-sahə, müəllif, sərlövhə, açar söz, yaxud fraza üzrə axtarış aparmağa imkan verir. Bü zaman axtarış nəinki biblioqrafik təsvir, eləcə də biblioqrafik yazının tərkibində verilmiş annotasiya üzrə də aparıla bilər.

*Elektron kitablar və mətnlər.* Kitabxana çox sayda elektron kitablara, eləcə də digər çap nəşrlərinə (yəni, onların elektron versiyalarına) əlyetərlik təmin edir.Lakin bir çox

sənədlərin yerini Kitabxana kataloqundan istifadə edilməklə təyin edilə bilər.

*Elektron jurnallar.* Kitabxananın tələbatçılara jurnalların elektron versiyasını tapmağa imkan verən e- jurnallar verilənlər bazası vardır.

*Kitabxana kataloqları.* Kitabxanaların əksəriyyəti öz elektron kataloqlarına özweb saytları vasitəsilə əlyetərlik yaradırlar. Bir çox digər kitabxanalar öz fondları barədə biblioqrafik informasiyanı WorldCat yaxud RLG Union Catalog kimi iri biblioqrafik verilənlər bazalarında yerləşdirirlər.

*Soraq mənbələri.* Bir çox lüğətlər, almanaxlar, ensiklopediyalar, və digər soraq mənbələri Kitabxananın web saytı vasitəsi ilə on layn rejimdə əlyetərdir. İstifadəçi bu mənbənin harada olduğunu Kitabxananın verilənlər Bazası Tapıcısı, Kitabxana kataloqu və ya Elm və fəaliyyət sahələri üzrə tədqiqat bələdçi vasitəsi ilə müəyyən edərək tapa bilər.

*Səs yazıları.* Əgər tələbatçı elektron səs yazısı axtarırsa, axtarışa Predmetlər üzrə Musiqi Bələdçisindən istifadə etməklə başlaya bilər.

*İmic Verilənlər bazaları.* (Burada "imic" deyərkən vizual formda təqdim edilən informasiya nəzərdə tutulur). Belə verilənlər bazalarında foto, rəsm əsərləri, yaxud xəritələr əhatə olunur. Tələbatçı imiclərin harada olduğunu Verilənlər Bazası Tapıcısı və İncəsənət üzrə Predmet Bələdçisi vasitəsi ilə də müəyyən edə bilər [175].

Göründüyü kimi, müasir texnoloji yeniliklərin geniş tətbiq edildiyi, eləcə də universitetin kitabxanaçılıq fakültəsi tərəfindən güclü metodiki dəstəyə malik kitabxanalarda elektron resursların bir çox növləri üzrə informasiya ehtiyatları



yaradılır və onlardan istifadə üçün on layn rejimdə əlyetərlik təmin edilir.

Burada mövcud olan resursların genetik əlamətini, özündə ilkin və ya ikinci səviyyəli informasiyanı əks etdirməsi məsələsinə nəzər salsaq görərik ki, bu sadalanan 8 növ resursdan 6 növü ilkin iki növü isə ikinci səviyyəli-biblioqtafik informasiya resursudur. Bunlar biblioqtagik göstəricilər və kataloqlardır. Nəzərə alsaq ki, ABŞ kitabxanaçılığı yeni texnologiyaların tətbiq, eləcə də elektron resursların yaradılması istifadəsinin təşkili sahəsində ölkəmizdən xeyli qabaqdadır. Adları sadalanan elketron resurs növlərinin necə rəngarəng olmasını anlamaq mümkündür. Respublikamızdaelektron resursların yaradılması işinin prioritet istiqamətləri seçilərkən təbii ki, ən zəruri istiqamət seçildi ki, bu da elektron biblioqrafik resursların və onun da daxilində ən vacibi olan elektron kataloqunyaradılması seçildi. Bu səbəbdən də Azərbaycan kitabxanalaında elektron resursların yardılaması sahəsində işlər ilk növbədə elektron biblioqrafik resursların və ilk növbədə onun ən zəruri növü olan **elektron kataloqların** yaradılması ilə başlanır.Bu şərt respublikanın yeni texnologiyalar tətbiq edən bütün kitabxanalarəna aiddir. Onu da nəzərə almaq zəruridir ki, belə kitabxanaların tələbatçı kontingentinə ətraf mühitin mühafizəsi və ekologiya elmi üzrə informasiya tələbatına malik qruplar daxildir və bu səbəbdən həmin kitabxanalarda yaradılan elektron biblioqrafik ehiyatların-elektron kataloqların tərkibində bizm öyrəndiyimiz sahə üzrə sənədlərə dair biblioqrafik informasiya da əks olunur.

İkinci fəsildə biz Azərbaycan kitabxanalarının vəziyyətinə dair respublika miqyaslı monitorinqdən bəhs etmişdik. Bu motorinqdə Azərbaycan kitabxanalarının sənəd

kütləsinin tərkibində elektron sənədlər məsləsi də öz əksini tapmışdır. Belə ki, həmin monitorinqin nəticələrinə görə, respublikamızda hansı nazirliyə, baş idarəyə aid olmasından asılı olmayaraq **8507** kitabxana mövcud olmuşdur. Bu kitabxanalarının fondunda cəmi **110.994.331** nüsxə sənəd olmuşdur ki, bunlardan cəmi **76.114** nüsxəsi elektron sənədlərdir ki, bu da həmin fondların cəmi **0,068%-ni** təşkil edir [56,s.7-8]. Digər ölkələrin analoji statistik göstəraiciləri ilə müqayisədə bu çox kiçik rəqəmdir və nəinki dünyanın inkişaf etmiş ölkələrinin, hətta bir sıra MDB ölkələrinin belə göstəricilərindən xeyli aşağıdır.

Respublika kitabxanalarının fondunda yaşayış məntəqələrinin növünə görə elektron sənədlərin paylanması da maraq doğuran suallardan biridir.

Monitorinqin nəticələrinə əsasən, müəyyən etmək mümkündür ki, elektron nəşrlər kitabxanaların şəhər və ya kənd yaşayış məntəqələri üzrə fərqli şəkildə bölünmüşdür. Ümumilikdə respublikamızın şəhərlərində fəaliyyət göstərən kitabxanaların fondunda **80.767.634** nüsxə sənəd vardır ki, bunlardan da **75.110** nüsxəsi və ya **0,092** faizi elektron sənədlərdir.

Bundan əlavə müayinənin nəticəsində elektron sənəd fondlarının kitabxananın tipindən asılı olaraq bölüşməsində də xeyli fərq olduğu meydana çıxarılmışdır. [56,s.7-8]. Misal üçün, monitorinqin nəticələrinə əsasən müəyyən olunmuşdur ki, elektron nərlər kitabxanaların idarə aidiyyətinə görə aşağıdakı şəkildə, yəni qeyri-bərabər formada bölünmüşdür və bu məlumat aşağıdakı cədvəldə əks olunmuşdur.



**Cədvəl 33.**

**Azərbaycan kitabxanalarının ayrı-ayrı növləri üzrə fondun miqdarı, onun tərkibində elektron sənədlərin miqdarı və nisbi faizi.**

| N | Kitabxanaların növləri | Fondun ümumi miqdarı (nüsxə) | Elektron sənədlərin miqdarı (nüsxə) | Elektron sənədlərin fonda görə faizi |
|---|---|---|---|---|
| 1. | Mədəniyyət və Turizm Nazirliyinin kitabxanaları | 35.528.523 | 4354 | 0,,012 |
| 2. | Elmi kitabxanalar, elmi-tədqiqat müəssisələrindəki kitabxanalar | 23..719.951 | 17.140 | 0,1 |
| 3. | Ali təhsil müəssisələrinin kitabxanaları | 10.059.769 | 25.471 | 0,3 |
| 4. | Orta ixtisas təhsil müəssisələrinin kitabxanaları | 88.5967 | 1491 | 0,2 |
| 5. | İlk peşə- ixtisas təhsil müəssisə-lərinin kitabxanaları | 55.7048 | 1.130 | 0,2 |
| 6. | Ümumtəhsil | 38.481.902 | 25.104 | 0,1 |

| | | | | |
|---|---|---|---|---|
| | müəssisələrinin kitabxanaları | | | |
| 7. | Musiqi məktəblərinin kitabxanaları | 193.671 | 513 | 0.3 |
| 8. | Səhiyyə müəssisələrinin kitabxanaları | 33.4626 | 55 | 0.016 |
| 9. | Digər kitabxanalar | 1.222.884 | 856 | 0,1 |
| | **Cəmi** | **110.994.331** | **76.114** | **0,068%** |

Cədvəldən aydın olur ki, elektron sənədlərin sənəd fondunda xüsusi çəkisinə görə ali təhsil müəssisələrinin və musiqi məktəblərinin kitabxanalarının statistik göstəriciləri ümumrespublika kitabxanalarının göstəricilərdən 4.5 dəfə yüksəkdir. Bunun əksi olaraq Mədəniyyət və Turizm Nazirliyinin və səhiyyə müəssisələrinin kitabxanalarında bu faiz ümumrespublika göstəricilərindən on dəfə aşağıdır. Bu fakt Mədəniyyət və Turizm, eləcə də Səhiyyə nazirliklərinin tabeliklərində olan kitabxanaların fondlarında elektron sənədlərin miqdarının artırılmasına diqqət yetirmələrinin zərurətini göstərir.

Respublika kitabxanalarının fondunda yaşayış məntəqələrinin növünə görə elektron sənədlərin paylanması da maraq doğuran suallardan biridir.

Monitorinqin nəticələrinə əsasən, müəyyən etmək mümkündür ki, elektron nəşrlər kitabxanaların şəhər və ya kənd yaşayış məntəqələri üzrə fərqli şəkildə bölünmüşdür.



**Ümumilikdə respublikamızın şəhərlərində fəaliyyət göstərən kitabxanaların fondunda 80.767.634 nüsxə sənəd vardır ki, bunlardan da 75.110 nüsxəsi və ya 0,092 faizi elektron sənədlərdir.** Bu göstəricilər şəhər kitabxanala-rında aşağıdakı kimi təzahür edir:

**Cədvəl 35.**

**Azərbaycanın şəhərlərində fəaliyyət göstərən kitabxanalarının ayrı-ayrı növləri üzrə fondun miqdarı, onun tərkibində elektron sənədlərin miqdarı və nisbi faizi**

| N | Kitabxanaların növləri | Fondun ümumi miqdari | Elektron sənədlərin miqdarı | Elektron sənədlərin fonda görə faizi |
|---|---|---|---|---|
| 1. | Mədəniyyət və Turizm Nazirliyinin kitabxanaları | 1.707.4881 | 3.752 | 0,,02 |
| 2. | Elmi kitabxanalar, elmi-tədqiqat müəsisələrindəki kitabxanalar | 23.719.951 | 17.140 | 0,1 |
| 3. | Ali təhsil müəssisələrinin kitabxanaları | 10.059.769 | 25.471 | 0,3 |
| 4. | Orta ixtisas təhsil müəssisələrinin kitabxanaları | 885.957 | 1.491 | 0,2 |
| 5. | İlk peşə- ixtisas təhsil müəssisələrinin kitabxanaları | 50.5878 | 1.130 | 0,2 |

| | | | | |
|---|---|---|---|---|
| 6. | Ümumtəhsil müəssisələrinin kitabxanaları | 26.874.221 | 24.938 | 0,2 |
| 7. | Musiqi məktəblərinin kitabxanaları | 15.2519 | 277 | 0,18 |
| 8. | Səhiyyə müəssisələrinin kitabxanaları | 34.4626 | 55 | 0,016 |
| 9. | Digər kitabxanalar | 1.176.842 | 856 | 0,1 |
| | **Cəmi** | **80.767.634** | **75.110** | **0,092 %** |

Bu cədvəl də əvvəlki cədvələ bənzəyən göstəriciləri əks etdirir. Belə ki, burada da elektron sənədlərin sənəd fondunda xüsusi çəkisinə görə ali təhsil müəssisələrinin kitabxanalarının fondlarında elektron sənədlərin faizi şəhərlər üzrə ümumrespublika göstəricilərindən 3 dəfə yüksəkdirsə, səhiyyə müəssisələrinin kitabxanalarında bu faiz ümumi göstəricilərindən on dəfə aşağıdır [56.s.10]. Bu fakt Səhiyyə Nazirliyinin tabeliyində olan kitabxanaların fondlarında elektron sənədlərinin miqdarının artırılmasına diqqət yetirmələrinin zərurətini göstərir.

Ümumilikdə respublikamızın kənd yerlərində fəaliyyət göstərən kitabxanalar gəldikdə isə onların fondunda **30.226.697** nüsxə sənəd vardır ki, bunlardan da cəmi 1004 nüsxəsi və ya **0,003** faizi elektron sənədlərdir. Bu göstəricilər şəhər kitabxanalarındakı analoji göstəricilərdən 30 dəfə aşağıdır. Həmin göstəricilərin onların növünə (kitabxanaların idarə tabeçiliyinə) görə paylanması isə aşağıdakı kimidir:



**Cədvəl 36.**

**Azərbaycanın kənd yerlərində fəaliyyət göstərən kitabxanalarının ayrı-ayrı növləri üzrə fondun miqdarı, onun tərkibində elektron sənədlərin miqdarı və nisbi faizi.**

| N | **Kitabxanaların növləri** | **Fondun ümumi miqdari** | **Elektron sənədlərin miqdarı** | **Elektron sənədlərin fonda görə faizi** |
|---|---|---|---|---|
| 1. | Mədəniyyət və Turizm Nazirliyinin kitabxanaları | 18.453.642 | 602 | 0,,003 |
| 2. | Elmi kitabxanalar, elmi-tədqiqat müəssisələrindəki kitabxanalar | - | - | - |
| 3. | Ali təhsil müəssisələrinin kitabxanaları | - | - | - |
| 4. | Orta ixtisas təhsil müəssisələrinin kitabxanaları | - | - | - |
| 5. | İlk peşə- ixtisas təhsil müəssisələrinin kitabxanaları | 51.170 | - | - |
| 6. | Ümumtəhsil | 11.634.691 | 166 | 0,0015 |

| | | | | |
|---|---|---|---|---|
| | müəssisələrinin kitabxanaları | | | |
| 7. | Musiqi məktəblərinin kitabxanaları | 4.152 | 236 | 0,18 |
| 8. | Səhiyyə müəssisələrinin kitabxanaları | 46.042 | - | - |
| 9. | Digər kitabxanalar | 1.176.842 | - | - |
| | **Cəmi** | **30.226.697** | **1.004** | **0,003%** |

Bu cədvəl kənd yaşayış məntəqələrində fəaliyyət göstərən kitabxanaların fondunda elektron sənədlərin təmsil edilməsi sahəsində vəziyyətin heç də ürəkaçan olmadığını göstərir. Belə ki, bu tipli yaşayış məntəqələrində fəaliyyət göstərən 6 növ kitabxananın cəmi 3 növünün fondlarında elektron sənədlər vardır. Həmin kitabxanalardan peşə-ixtisas təhsili və səhiyyə müəssisələrinin kitabxanalarında elektron sənədlər ümumiyyətlə yoxdur. Fondunda elektron sənədlər olan kitabxanalardan yalnız musiqi məktəblərinin kitabxanalarının fondlarında elektron sənədlərin təmsil dərəcəsi nisbətən yüksəkdir və ümumilikdə kənd kitabxanalarına aid orta göstəricilərindən 60 dəfə yüksəkdir. Fondunda elektron sənədlər olan kənd kitabxanalarından bu sənədlərlə ən pis təchiz edilmiş kitabxanalar kənd ümumtəhsil məktəblərinin kitabxanalarıdır. Fondlarında 11,6 milyon nüsxədən artıq olan məktəb kitabxanalarında fondlarda cəmi 116 nüsxə elektron sənəd vardır. Bu faktlar bir daha göstərir ki, respublikanın kənd



yerlərindəki kitabxanalarında elektron sənədlərlə təminat səviyyəsi çox qeyri-qənaətbəxşdir.

Tədqiqatımızın mövzusu üçün maraq kəsb edən digər məsələ məhz elektron sənədlərin ərazi əlamətinə görə Azərbaycan kitabxanalarının fondunda paylanmasının öyrənilməsindən ibarətdir. Yuxarıda haqqında bəhs etdiyimiz statistik müayinədə bu məsələ də statistik baxımdan təhlil edilmişdir və biz həmin rəqəmlərə nəzər salmaqla ayrı-ayrı iqtisadi rayonlarda kitabxanaların fondlarında elektron sənədlərin miqdarını (həm də xüsusi çəkisini) müqayisə və təhlil edə bilərik.

Statistik müayinə göstərir ki, Azərbaycan kitabxanaların fondunda olan 76114 nüsxə elektron sənədlərdən əksəriyyəti-66716 nüsxəsi (87,5%) Bakı şəhərinin payına düşür. Bu rəqəmin isə yarıdan bir qədər azı, 32219 nüsxəsi Nərimanov rayonunun payına düşür. Məlumdur ki, müstəqillik dövründə respublikamızın ərazisi rəsmi şəkildə 10 iqtisadi-coğrafi rayona bölünmüşdür. Haqqında bəhs etdiyimiz statistik mənbədə həmin iqtisadi rayonlarda, həm də onların tərkibinə daxil olan inzibati rayonlarda həm bütünlükdə kitabxana fondlarının, həm də onların tərkib hissəsi olan elektron sənədlərin miqdar göstərici haqqında məlumatlar əks olunmuşdur [56,s.48-56].

Kitabxanaların fondunda elektron sənədlərin payının artması, biblioqrafik proseslərin avtomatlaşdırılması və elektron formada biblioqrafik informasiya mənbələrinin meydana gəlməsi sənəd-kommunikasiyalar sistemində, xüsusən də kitabxanalarda biblioqrafik informasiyanın əhəmiyyətini daha da artırdı, ona olan müraciəti, istifadəni asanlaşdırdı və intensivləşdirdi. Nəticədə ektron sənəd kommunikasiyaları baxımından təcrübi biblioqrafik fəaliyyətdə xeyli dəyişikliklər

yarandı. İlkin sənədin ona aid olan biblioqrafik yazı ilə birlikdə olması, məkan etibarilə ayrılıb-ayrılmaması az əhəmiyyət daşımır.Bununla əlaqədar olaraq sənədin biblioqrafik yazı elementləri (müəllif, sərlövhə və s.) və onun digər axtarış vasitələri (təsnifat indeksi, predmet rubrikaları, annotasiya və ya referat) yeganə axtarış vasitəsi olaraq qalmır. Əgər əsər hipermətn formasında təqdim edilirsə, mətn fraqmentləri üzrə də axtarış aparmaq imkanı reallaşır. Tədricən ənənəvi və elektron sənədlər vəhdət təşkil edir. İldən-ilə daha çox sənəd-kitablar, jurnallar və digər növ sənədlər əvvəlcə maşınlaoxunan formaya keçirilir, sonradan ya elektron kommunikasiya üçün müxtəlif formalarda (kompakt (lazer) diski, fleş yaddaş və s.) istifadə olunur ya da kağız formasında çap edilir. İndi dünyada minlərlə adda jurnal paralel olaraq həm kağız, həm də elektron formada mövcuddur. Xeyli miqdarda kitab və jurnal isə ancaq elektron formadadır, yəni kağız çap analoqu yoxdur. Bir çox hallarda əsərin hansı fiziki formada hazırlanması son mərhələdə maliyyə imkanlarından asılı olaraq müəyyənləşdirilir. Bir neçə sahədə (elm, texnika,iqtisadiyyat, biznes və s.) elektron nəşrlər kağız nəşrlərə nisbətən təqribən iki dəfə ucuzdur və bir saata hazırlana bilir. Bu ucuzlaşma və operativlik getdikcə artır. Çünki elektron vasitələrin satış qiymətləri ilbəil azalır, konstruktiv elementləri təkmilləşdirilir və operativliyi artır [64,s.50]. Lakin həm ayrı-ayrı ölkələrin, həm də beynəlxalq təşkilatların (İFLA) təşəbbüsü və dəstəyi ilə aparılan bu işlərin reallaşması dünya miqyasına vahid həm də homogen elektron ilkin sənəd və biblioqrafik informasiya mühitinin yaradılmasına gətiriib çıxaracağına və qlobal sənəd-kommunikasiyalar sisteminin daha ahəngdar fəaliyyət göstərəcəyinə olan inamı artırır.



Son zamanlar bütünlükdə dünyada, eləcə də Azərbaycanda ekologiya üzrə sənəd axınında müşahidə edilən xarakterik cəhət bu sahə üzrə sənəd axınının tərkibində qeyri-ənənəvi - rəqəmli sənədlərin meydana gəlməsi və xüsusi çəkisinin artmasıdır. Hal-hazırda bu sahə üzrə xüsusilə, soraq ədəbiyyatı elektron formatına keçirilərək CD-yə yazılmış mətnlər və multimedia vasitələr şəklində nəşr edilir.

Bu tədqiqat işində haqqında bəhs etdiyimiz və öz yaradılması məqsədi, fəaliyyətinin əsas istiqamətləri ətraf mühitin mühafizəsini və ekologiya elmini əhatə edən əsas iki kitabxanada elektron informasiya resursların zərurət baxımdan ən vacib növü olan biblioqrafik mənbələrin yaradılması sahəsində işin yeganə istiqaməti fondda olan ədəbiyyatı haqqında məlumatın biblioqtafik siyahı şəklində tərtib edilərək kitabxnanın (mərkəzin) öz web saytlarında yerləşdirilməsi ilə məhdudlaşır. Bunlar Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət İnformasiya-arxiv fondunun Elmi-Texniki Kitabxanası və Orhus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzi və onun sənəd fondudur. 2015-ci ilin yanvarına olan vəziyyətə görə onların heç birində elektron biblioqrafik göstərici, elektron kataloq və ya biblioqrafik verilənlər bazası yaradılmamışdır. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Elmi-Texniki Kitabxanasının on layn elektron biblioqrafik resursu-fondda olan kitabların siyahısı [157] internet ünvanından, Orhus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzinin fondunda olan kitabların biblioqrafik siyahısı isə [158]. İnternet ünvanından əlyetərdir. Onu da qeyd edək ki, saytda təqdim edilən həmin

biblioqrafik informasiya heç bir axtarış funksiyası verilmədən sadə formada təqdim edilir.

Bu kitabxanalarda elektron biblioqrafik informasiya resursların heç bir digər növü yaradılmamışdır. Bu fondlarda olan sənəd fondun tərkibi haqqında əvvəlki fəsildə ətraflı məlumat verilmişdir.

Ölkəmizdə kitabxanalara məxsus elektron formalı həm ilkin sənəd həm də biblioqrafik informasiya resurslarının yaradılmasında Axundov adina Azərbaycan Milli Kitabxanasinın gördüyü iş müstəsna qeyd edilməlidir.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası ölkənin universal kitabxanası olmaqla bütün elm və fəaliyyət sahələri üzrə tələbatçılara kitabxana və biblioqrafik xidmətin bütün istiqamətlərini həyata keçirir. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası yuxarıda qeyd etdiyimiz kitabxana şəraitində yaradılan müasir elektron resurs formalarından bir sıra növlərini yaradır.

Bunlara elektron formada təqdim edilən elektron kitablar və digər elektron mətnlər, biblioqrafik göstəricilər və kitabxana kataloqları daxildir.

Yuxarıda qeyd etdiyimiz kimi, Kitabxananın internet saytında Kitabxanada yaradılmış və ya kənardan alınmış elektron kitablar yerləşdirilmişdir.

2014-cü ilin mart ayına olan məlumata əsasən Kitabxananın 4.545.478 nüsxə təşkil edən ümumi sənəd fondunda 3.362 nüsxə elektron sənəd – CD, VCD, DVD vardır. Bu sənədlərdən əksəriyyəti kompakt lazer diskinə-CD- yə yazılmış sənədlərdir. Lakin hələlik ki, bu elektron sənəd fondunun tərkibində ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə sənədlərin miqdarı xeyli azdır.



Dünyada Azərbaycan dilində ədəbiyyata malik ən böyük fondu olan bu kitabxananın fonduna təkcə 2009-cu ildə 20 min nüsxədən artıq yeni ədəbiyyat daxil olmuşdur. Həmin il ərzində kitabxananın daimi oxucularının sayı 38 666 nəfər, virtual oxucuların – elektron kataloqdan və elektron kitabxanadan istifadə edən oxucuların (sadəcə saytdan istifadə edənlər istisna olmaqla) sayı 118 452 nəfər, virtual sifarişin xidmətlərindən istifadə edənlərin sayı 329 nəfər, Rusiya Dövlət Kitabxanasının virtual oxu zalından istifadə edənlərin sayı 447 nəfər olmuşdur. Orta illik davamiyyət 209.522 nəfər olmuş, kitab verilişi isə 746.648 nüsxəyə çatdırılmışdır. 2010-cu ildə Azərbaycan ədəbiyyatının arxivi şöbəsinin nəzdində fəaliyyət göstərən Mikrofilm bölməsində 150 nüsxə kitab mikrofilmləşdirilmişdir [69;70;71;72].

Kitabxananın elektron kataloqunda təqdim edilən biblioqrafik informasiyadan bəhs edərkən qeyd etmək lazımdır ki, artıq 7 ildir ki, Kitabxanada VİRTUA adlı kitabxana-biblioqrafik proseslərinin kompleks avtomatlaşdırılması sistemi tətbiq edilmişdir. Bu sistemin ən vacib modullarından biri biblioqrafik verilənlər bazasıdır. Kitabxananın direktoru K. Tahirovun qeyd etdiyi kimi indi orada 250 min nüsxədən artıq ədəbiyyatı əks etdirən elektron biblioqrafik yazı öz əksini tapmışdır [67,s.14-31

M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə sənəd kütləsinin nəşr növünə görə tərkibi də xeyli maraq doğuran məsələdir. Məlumdir ki, müasir elmi sənədlərin nəşr növü əlamətinə görə ən çox yayılmış növləri çap və elektron sənədlərdir. Bir qədər yuxarıda haqqında bəhs etdiyimiz adi kitab və dövri nəşrlər ənənəvi sənəd növü olan çap edilmiş

sənədlərə aiddir. Lakin son 20 ildə sənəd-kommunikasiyalar sistemində geyri-çap sənədlərinin yeni növü olan **elektron sənədlərin** yaranaraq yayılması prosesi Azərbaycan kitabxanalarına. o cümlədən M.F.Axundov adina Azərbaycan Milli Kitabxanasının sənəd fonduna da öz təsirini göstərdi.

Kitabxanada "Virtua" Avtomatlatlaşdırma sisteminin tərkib hissəsi kimi geniş axtarış imkanlarına malik Elektron kataloq tətbiq edilmişdir. Elektron resursların yaradılması şöbəsi tərəfindən 2009-cu ildə 32 986 adda Azərbaycan və rus dilində olan cari ədəbiyyatın biblioqrafik yazısı yaradılaraq elektron kataloqun məlumat bazasına daxil edilib. Ümumiyyətlə, 2010-cu ilin sonuna kimi 94 757 biblioqrafik yazı. 267 142 nüsxə ədəbiyyat elektron kataloqa daxil edilmişdir [70]. Bu fəliyyət sonrakı illərədə də intensiv şəraitdə davam etdirilmişdir. Həmin fəaliyyətin nəticəsində biblioqrafik axtarış və xidmət xeyli asanlaşmışdır.

Kitabxanada elektron kataloqun yaradılması sahəsində fəaliyyətdə Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və informasiya texnologiyaları şöbəsinin xidməti böyükdür. Bu şöbə kitabxana proseslərinin avtomatlaşdşırılması ilə əlaqədar olaraq yaradılmışdır [31.s.139]. 2010-cu ildə Şöbədə 244 kitabın tam mətnini, 8 dövri mətbuat nömrəsini elektron kitabxanaya yerləşdirib. Hazırda bu iş müəlliflərin çoxsaylı müraciətləri əsasında davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq şöbə Prezidentin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunan kitabların əksəriyyətinin



elektron versiyasını hazırlayıb oxucuların istifadəsinə təqdim etmişdir [67, s.17-18].

Kitabxananın fondunda təbiət elmlərinə dair kitabların geniş təmsil olunduğunu nəzərə alsaq söyləmək mümkündür ki, bu yazıların içərisində ekologiyaya dair kitablar da geniş təmsil olunmuşdur ki, bu barədə tədqiqatın ikinci fəsildə ətraflı məlumat verilmişdir.

Kitabxananın fəaliyyətində elektron vasitələrdən istifadə etməklə kitabxana-biblioqrafik xidmət getdikcə daha geniş miqyas alır. Bu xidmət bəhs etdiyimiz sahə üzrə də əhəmiyyət daşıyır.

Müasir kitabxananın sənəd fondunun biblioqrafik baxımdan elektron formada tələbatçıların qarşısında açılmasının vacib istiqamətlərindən biri fondda toplanmış dövri və ardı davam edən nəşrlərin tərkibinin analitik biblioqrafik istiqamətdən açılması, orada dərc edilən ən əhəmiyyətli materialların seçilərək analitik-sintetik işlənməsi və bunun əsasında universal kartotekanın (məqalələrin sistemli kartotekasının) tərtibidir. Belə bir kartotekanın tərtib edilməsinə hələ Kitabxananın yaradılmasının ilk illərində başlanmışdır və bu iş indi də plana uyğun şəkildə davam edir. Bu zaman toplanmış biblioqrafik material M.F. Axundov adına Milli Kitabxananın həm ənənəvi, həm də Elektron kataloquna daxil edilir.

Kitabxananın **Dövri nəşrlər fondunda** ətraf mühitin mühafizəsi və ekologiya üzrə kifayət qədər nəşrlər toplanmışdır. Bu nəşrlər haqqında məlumatı təkcə Dövri nəşrlərin kartotekasında deyil. Elektron kataloqun tərkibində "Dövri mətbuat" parametrinə görə axtarış aparmaqla tapmaq olar. Qeyd edək ki, 2015-ci ilin may ayına olan vəziyyətə görə

Elektron kataloqda araşdırdığımız sahə üzrə **1701 biblioqrafik yazı** var. Lakin təəssüf ki, bu yazılarda dövri ya ardı davam edən nəşrlərin hər birinin ayrıca ümumi təsvirləri ilə yanaşı, onların səhifələrində getmiş ayrı-ayrı yazıların analitik təsvirləri də verilmişdir ki. bu da xeyli qarışıqlıq yaradır.

Müstəqillik qazanmış Azərbaycanda xeyli müddət ərzində dövlət milli biblioqrafiya işi heç bir müəssisə tərəfindən yerinə yetirilmirdi və bu səbəbdən də ölkədə 60 ilə yaxın davam edən, milli dövlətçilik. elm. təhsil, mədəniyyət üçün böyük əhəmiyyət daşıyan milli biblioqrafiya sahəsində qazanılmış səviyyə itirilmiş oldu. Yalnız 2004-cü il 15 aprel tarixində Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan Dövlət Kitab Palatasının funksiyalarının M. F. Axundov adına Respublika Dövlət Kitabxanasına verilməsindən sonra bu sahədə vəziyyət az da olsa yaxşılaşmağa başladı. Belə ki, Kitabxana Kitab Palatasının fəaliyyətsiz qaldığı dövrdə Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası tərəfindən hazırlanmış, lakin nəşr edilməmiş "Birillik Azərbaycan Kitabiyyatı"nın 1992 və 1993-cü il buraxılışlarının **elektron versiyalarını** istifadəyə təqdim etdi.

Bundan sonra isə Kitabxana həmin vəsaitin aradakı illər boş qalmaqla 1996, 1998, 1999, 2001, 2002, 2003, 2004, 2005, 2006, 2007, 2008,2009, 2010, 2011, 2012 və 2013-cü illərə aid materiallarını toplayıb nəşr etməyə başladı. Müstəqillik dövründə "Birillik Azərbaycan kitabiyyatı"nın səhifələrində ətraf mühitin mühafizəsi, ekologiya mövzusunda kitabların necə əks etdirildiyinə nəzər salmaq üçün vəsaitin 1992-ci il buraxılışına diqqət yetirək. 144 səhifəlik bu vəsaitdə həmin il ərzində Azərbaycanda nəşr edilmiş Azərbaycan və rus dillərində 906 adda kitab və 248 adda dissertasiya haqqında



məlumat verilir. Material UOT-un bölmələrinə müvafiq olaraq sistemli şəkildə qruplaşdırılmışdır [34,s.77].

Milli Kitabxanada yaradılmış analitik elektron məlumat bazasının təşkili şöbəsində 2011-13-cü illərdə bizi maraqlandıran sahə üzrə Azərbaycan dilində 66 adda , rus dilində 130 adda məqalə haqqında biblioqrafik yazı daxil edilmişdir.

Kitabxananın Soraq-biblioqrafiya aparatında onun fondunda olan ənənəvi sənədlərlə yanaşı, CD, VCD və DVD formasında olan 3362 nüsxə elektron sənədlər də əks olunur.

Axundov adına Milli Kitabxanada belə innovativ xidmət xüsusi olaraq ixtisaslaşmış şöbə və zallarda həyata keçirilir. Məsələn, 2014-cü ildə Kitabxananın Elektron informasiya xidməti və KAA şöbəsində ekologiya və ətraf mühitin mühafizəsi mövzusu üzrə 85 adda kitab verilisi olmuşdur ki, təbii ki, bu yalnız elektron biblioqrafik xidmətdən istifadə vasitəsilə mümkün olmiuşdur..

Kitabxanada elektron vasitələrdən istifadə etməklə kitabxana-biblioqrafik xidmət göstərmək üçün Lokal şəbəkədən istifadə üzrə oxu zalı da vardır.

Kitabxanada elektron formada sənədlərələ və biblioqrafik informasiya ilə xidmət göstərilməsində Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsi xeyli iş görür. Şöbədə dissertasiyaların toplanması, onları əks etdirən elektron biblioqrafik mənbələrin yaradılması, bu sənədlərlə bağlı kitabxana xidməti həyata keçirilir. 2014-cü ilə olan məlumata əsasən, Şöbədə 8.790 nüsxə (hər biri 1 adda) dissertasiya saxlanır. Bunlardan 5.621 nüsxəsi azərbaycan, 3.169 nüsxəsi isə rus dilindədir. Yuxarıda qeyd etdiyimiz kimi həmin dissertasiyalar içərisində bizim mövzuya dair

dissertasiyalar mövcuddur və onlardan 86 nüsxə Azərbaycan, 81 nüsxəsi isə rus dilindədir. Şöbədə tədqiqatçıların bu vacib sənəd növünün istifadəsinin təşkili üçün kartoçka kataloqu(son illərdə isə elektron kataloq) yaradılır və bilavasitə sənədlə xidmət göstərilir [87,s.228].

M. F. Axundov adına Milli Kitabxanada yaradılan elektron biblioqrafik informasiya resursunun digər bir istiqaməti 2009-cu ilin yanvar ayından fəaliyyətə başlayan "Elektron dissertasiya fondunun təşkili və ondan istifadə" şöbəsinin yaratdığı elektron biblioqrafik mənbələrdir. Hal- hazırda şöbədə mövcüd olan 9.583 dissertasiya dan (bunlardan 3.962 nüsxəsi rus dilində, 5.621 nüsxəsi isə Azərbaycan dilindədir) hamısı bu şöbədə kompüterdə tərtib edilmiş biblioqrafik siyahıda öz əksini tapır.

Beləliklə, M. F. Axundov adına Milli Kitabxanada yaradılan elektron biblioqrafik informasiya resursları tələbatçıların ən müxtəlif məzmunlu və istiqamətli ən müxtəlif sənəd növlərinə istiqamətlənmiş informasiya tələbatını ödəməyə imkan verir.

Azərbaycan Respublika Elmi Tibb Kitabxanasında elektron biblioqrafik resursların yaradımasının nisbətən kiçik tarixi vardır. 2010-ci ildən başlayaraq Kitabxananın fonduna müntəzəm şəkildə kompakt lazer diskləri daxil olmağa başlamışdır. Təkcə 2011-ci ildə fonda 10 adda CD və DVD daxil olmuşdur. Bizim mövzumuz üçün maraq kəsb edən məsələ bu kitabxananın fondunda ekologiya istiqamətli sənəd kütləsi, onların dillər üzrə bölgüsü barədə məlumatdır. Təhlil göstərir ki, kitabxananın fondunda hələ ekologiyaya dair elektron nəşrlər çox az təmsil olunmuşdır. Kitabxanada İRBİS 64 Kitabxanaların Avtomatlaşdırılması Siteminin təttbiqinin iki



illik müddəti ərzində müəyyən qədər sənəd haqqında biblioqrafik informasiya elektron formada sistemə daxil edilmişdir. Araşdırdığımız sahə üzrə biblioqrafik təminatda "Ekologiya, ətraf mühit və sağlamlıq" mövzusunda kitabxananın tərtib etdiyi biblioqrafik göstəricinin əhəmiyyəti böyükdür.

Respublikada ətraf mühitin mühafizəsi və ekologiya üzrə ilkin sənəd və biblioqrafik təminat sahəsində yeni texnologiyaların tətbiqində, elektron biblioqrafik təminatda Azərbaycan Respublikası Prezident İşləri İdarəsinin Prezident Kitabxanasının böyük töhfəsi vardır. Əvvəlki fəsildə qeyd edildiyi kimi, 2004 cü ildə Kitabxana İRBİS – 64 avtomatlaşmış kitabxana informasiya sistemini aldıqdan sonra burada bütün proseslər kimi biblioqrafik proseslərdə də avtomatlaşdırma başlandı. İlk olaraq 2003-cü ildən etibarən Kitabxanaya daxil olan yeni kitablar üçün nəzərdə tutulmuş ilk BVB-lər (biblioqrafik verilənlər bazası) yaradıldı.

2005-ci ildən etibarən isə kitabxananın sələfi olan kitabxanaların fondundan gətirilmiş kitabların daxil edilməsi üçün " Retro kitabların verilənlər bazası " yaradıldı. Elə həmin il respublikada ilk dəfə olaraq kitabxananın fonduna daxil olan yeni dövrü nəşrlərdən ən əhəmiyyətli materialları özündə əks etdirən məqalələrin biblioqrafik verilənlər bazası yaradıldı. Elə həmin il respublikada ilk dəfə olaraq kitabxanaların fonduna daxil olan yeni dövrü nəşrlərdən ən əhəmiyyətli materialların analitik biblioqrafik təsviri daxil edilməyə başlandı. Bunun ardınca kitabxana BMT-nin Bakıdakı İnkişaf Proqramının ləğv edilən kitabxanaların fondunun bir hissəsini qəbul etdi. Həmin nəşrlər kitabxanalarda BMT-in Depozitar fondu adlı kolleksiya şəklində təşkil edildi. Eləcə də həmin fondların ayrıca BVB

təşkil edildi. Başqa bir Biblioqrafik Verilənlər Bazası Kitabxananın Nadir fondundakı kitabları özündə əks etdirir.

Keçən 10 il ərzində kitabxana fondunu əks etdirən BVB-in yaradılması sahəsində böyük işlər görülmüşdür. 2003 cü ildən etibarən fonda daxil olan bütün kitablar BVB-da öz əksini tapmışdır [30,s.139]. Bundan əlavə, retro fondun tərkibinə daxil olan kitabların da artıq hamısı BVB-da öz əksini tapmışdır. İkinci fəsildə hal-hazırda Kitabxananın kataloqunu təşkil edən biblioqrafik verilənlər bazasının tərkibi, orada əks olunmuş elektron biblioqrafik yazıların miqdarı haqqında ətraflı məlumat verilmişdir. Əlavə olraq qeyd etmək lazımdır ki, bu kitabxana respublikada bu miqyaslı yeganə kiktabxanadır ki, burada fondda olan bütün sənədlər elektron kataloqda əks edilmişdir(**bax: Cədvəl 15**).

1 yanvar 2015-ci ilə olan məlumata görə həmin verilənlər bazasında **540.184** biblioqrafik yazı vardır. Həmin yazılardan **3.797** yazı ətraf mühitin mühafizəsi və ekologiyaya dair sənədləri əks etdirir. **540.184** biblioqrafik yazıdan **100.535** biblioqrafik yazı monoqrafik sənədlərə dair, **339.114** isə analitik biblioqrafik yazılar olmuşdur. Sonuncuların tərkibində isə ekologiyaya dair yazıların miqdarı isə müvafiq olaraq **532** və **2.498** yazı bizim tədqiq etdiyimiz sahəyə aid sənədlər olmuşdur.

Kitabxanaların biblioqrafik fəaliyyətinin digər istiqaməti müxtəlif tipli və təyinatlı biblioqrafik göstəricilərin tərtibidir. Həmin göstəricilər kitabxanaların fəaliyyət istiqaməti və oxucu tələbatının tərkibi nəzərə alınmaqla tərtib edilir. Bu vəsaitlərin hər biri elektron formada tərtib edilərək Kitabxananın internet saytı vasitəsi ilə tələbatçıların istifadəsinə verilir. Bundan əlavə, kitabxanada tərtib edilmiş biblioqrafik vəsaitlər müstəqil və



qeyri müstəqil olmaqla iki tipə bölünür. Bu fəslin əvvəlki paraqrafında Prezident Kitabxanasında yaradılan qeyri-kataloq tipli biblioqrafik vəsaitlər barədə məlumat verilmişdir və qəyd edilmişdir ki, həmin vəsaitlər müstəqil və qeyri-müstəqil olmaqla iki növə bölünür. Müstəqil biblioqrafik vəsaitlər arasında bir vəsait bizm tədqiq etdiyimiz mövzuya aid vəsait olan **"Ekologiya" adlı informasiya bülleteni** xüsusi əhəmiyyət kəsb edir. Bu vəsait 2010-cu ildən başlayaraq rüblük olaraq nəşr edilir. 2015-ci ilin sonuna kimi bu vəsaiin 24 buraxılışı çıxmışdır. Vəsaitin orta həcmi rüblük buraxlışlarının həıcmi üçün 5-12 səhifə arasında dəyişir. Vəsatin bir buraxılışında verilən biblioqrafik təsvirlərin miqdarı da buna münasib olaraq 40-120 arasında olur. Bu vəsaitin quruluşu və axtarış imkanları barədə əvvəlki paraqrafda ətraflı bəhs edilmişdir.

Elektron formada müyəssər olan və özündə bizim tədqiq etdiyimiz sahə üzrə sənədləri əks etdirən qeyri-müstəqil vəsait isə **"Azərbaycan Ekologiyası" adlı** elektron sənəd toplusunun tərkibində olan biblioqrafik bölmədir.

Kitabxananın **"elektron layihələr"** adlı sənəd toplusu növünə aid olan bu toplu 5 tematik bölmə və 29 altbölmədən ibarətdir. Toplunun "Elektron Resurslar" bölməsinin tərkibində verilən **"Biblioqrafiya" adlı altbölmə** iki hissədən ibarətdir. Bunlar **"Kitablar" və "Avtoreferatlar"** adlı hissələrdir. "Kitablar" hissəsində 318 adda kitab haqqında biblioqrafik məlumat verilir. "Kitablar" hissəsində material əvvəlcə dillər (Azərbaycan, rus və xarici -İngilis, Fransız, Türk və s. dillərdə), onların daxilində isə əlifba üzrə düzülür. "Avtoreferatlar" hissəsində isə Azərbaycanda ekologiya elmi üzrə müdafiə edilmiş 47 adda doktorluq və namizədlik dissertasiyaları öz

əksini tapmışdır (məlumat 2015-ci ilin sonuna aiddir). Bu dissertasiyalar Azərbaycan və rus dillərindədir.

Bu faktlar sübut edir ki, Prezident Kitabxanasının fəaliyyətində elektron resursların, eləcə də ətraf mühitin mühafizəsi və ekologiya üzrə də elektron biblioqrafik resursların yaradılmasına xüsusi diqqət yetirilir.

Prezident Kitabxanasının ətraf mühitin mühafizəsi və ekologiya üzrə elektron biblioqrafik təminatı barədə deyilənləri yekunlaşdıraraq qeyd etmək zəruridir ki, bu kitabxanada həmin sahədə tələbatçıların ehtiyacların ödənilməsi sahəsində xeyli yüksək səviyyə qazanılmışdır.

**Üçüncü fəsli yekunlaşdıraraq** belə qənaətə gəlmək mümkündür ki, Azərbaycan kitabxanalarında ətraf mühitin mühafizəsi və ekologiya üzrə biblioqrafik informasiya təminatının bu sahənin özünün uğurlu funksiya göstərməsi üçün müstəsna əhəmiyyəti vardır. Bunun üçün kitabxanlarda həyata keçirilməsi mümkün olan bütün biblioqrafik fəaliyyətin səkkiz istiqamətinin imkanlarından istifadə edilməlidir. Bu fəsildə Azərbaycanın bu sahə üzrə ən əsas kitabxanalarının təcrübəsi ümumiləşdirilmişdir. Müəyyənləşdirilmişdir ki, bu sahə üzrə sənəd kütləsi və axını baxımdan ikinci fəsildə fəaliyyəti təhlil edilmiş bütün kitabxanalarda biblioqrafik təminatın bir çox istiqamətləri həyata keçirilməkdədir. Həmin kitabxanaların əksər hissəsi bəhs etdiyimiz sahə üzrə soraq-biblioqrafiya aparatını (SBA) təşkil edir, soraq biblioqrafiya xidməti, tövsiyə-biblioqrafiya fəaliyyəti həyata keçiririrlər. Bəhs etdiyimiz sahə üzrə müxtəlif məqsəd və oxucu istiqamətli biblioqrafik vəsaitlərin tərtibinə gəldikdə biz yalnız M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının və



nisbətən kiçik miqyasada Azərbaycan Respublika Elmi Tibb Kitabxanasının adını çəkə bilərik. Sahə üzrə biblioqrafik informasiya xidməti ancaq M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında həyata keçirilir. Bu sahə üzrə ixtisaslaşdırlmış şəkildə biblioqrafik biliklərin təbliğı və biblioqrafik elmi-tədqiqat işi isə heç bir fakt aşkar edilməmişdir. Qeyd etmək lazımdır ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət İnformasiya-Arxiv Fondunun Elmi-Texniki Kitabxanası və Orxus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzi bu sahə üzrə dar ixtisaslaşdırılmış qurumlar olsa da onlar biblioqrafik təminat sahəsində öz potensillarından xeyli az istifadə edirlər. Bu sahədə biblioqrafik təminatın intensivləşdirlməsində Azərbaycan Milli Elmlər Akademiyasının çox sayda elmi işçiləri Bakı Dövlət Universitetinin professor-müəllim heyətinin və təhsil alanların belə bir təminata böyük etiyacı olduğunu nəzərə alınmalı və onların elmi kitabxalarında sənəd kütləsi zənginləşdirlməli, ənənəvi biblioqrafik təminat işi canlandırılmalıdır.

Respublikada bu sahə üzrə biblioqrafik təminatda 2009-cu ildə M.F. Axundov adına Milli Kitabxana tərəfindən tərtib və nəşr edilmiş "Azərbaycan ekologiyası – 10 ildə" mövzu biblioqrafik göstərici, "Ekologiya və kitabxanaların qarşısında duran vəzifələr" adlı metodik tövsiyə vəsaiti, "Yeni kitablar", "Birillik Azərbaycan Kitabiyyatı", Respublika Elmi Tibb Kitabxanasının "Ekologiya, ətraf mühit və sağlamlıq" mövzusunda biblioqrafik göstəricisi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının

"Ekologiya" adlı informasiya bülleteninin əhəmiyyəti qeyd edilməlidir.

Respublikada bu sahə üzrə elektron formada biblioqrafik təminatda da ilk mövqelərdə kitabxanaın fondunda olan bütün kitabları artıq elektron kartotekada əks etdirmiş, fonduna daxil olan dövri nəşrlərdəki ən əhəmiyyətli materialları elektron kartotekda əks etdirmiş Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının, xeyli zəngin elektron biblioqrafik resurslara, bu sahədə böyük potensial imkanlara malik M.F. Axundov adına Milli Kitabxananın fəaliyyəti qeyd edilməlidir. Haqqında bəhs etdiyimiz digər kitabxanalar bu sahədə fəaliyyətilərin həcminin artırılması və keyfiyyətinin yüksəldilməsi istiqamətində xeyli iş görə bilərlər.

### 3.3. Azərbaycanda ətraf mühitin mühafizəsi və ekologiya üzrə ilkin sənəd və biblioqrafik informasiya təminatının inkişaf perspektivləri

XX əsrin sonu XXI əsrin əvvəllərində qlobal miqyasda baş verən informasiyalaşdırma fenomeni və ətraf mühitlə bağlı problemlərin get-gedə kəskinləşməsi bəşəriyyətin diqqətini daha da artıq dərəcədə özünə cəlb edir. Qloballaşan dünyanın tərkib hissəsi olan Azərbaycanda da bu iki proses-bu iki problem cəmiyyətmizin diqqət mərkəzində olmalıdır. Həqiqətən də, Cənubi Qafqazın, eləcə də Yaxın Şərqin gözəl, təbiətən zəngin guşəsi olan ölkəmizin füsnkar təbiəti XIX əsrin ikinci yarısından etibarən get-gedə daha da kəskinləşən antropogen təsirə məruz qaldı, ölkənin əksər regionlarında minilliklər nəticəsində formalaşmış biosenozlarda geriyə dönməyən dəyişikliklər baş verdi. səhralaşma, şoranlaşma, zəngin bitki



örtüyün kasadlaşması, çayların debitinin azalması, göllərin quruması, Xəzərin və digər su hövzələrinin, torpağln, havanın zərərli maddələrlə çirklənməsi artan fəlakət miqyas aldı.Yüzlərlə bitki, heyvan, balıq və quş növlərinin ya nəsli kəsildi və ya kəsilmək ərəfəsindədir. Azərbaycanın "Qırmız kitabını"nın məzmunu mütəmadi olaraq yeniləmək lazım gəlir. Bütün bu mənfi proseslərin nəticəsində əhalinin sağlamlığına da ciddi ziyan dəydi, həyat şəraiti pisləşdi, kənd təsərrüfatının məhsuldarlığı azaldı.

Belə bir şəraitdə Azərbaycan cəmiəyytinin bütün üzvlərinin-fermerdən başlamış nazirə, meşəbəyidən başlamış şirkət müdirinədək - bu problemin əhəmiyyətini dərk etməsi və onun aradan qaldırılması üçün məqsədəyönlü fəaliyyəti tələb edirlir. Buna görədə də, heç də təsadüfi deyildir ki, araşdırmalar nəticəsində aşkara çıxdıki, 1 yanvar 2015-ci ilə olan vəziyyətə görə Azərbaycan Respublikasında ətraf təbii mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadənin ümumi məsələləri üzrə qanunvericilik sənədlərinin sayı 231 olmuşdur. Bu sənədlərə qanunlar, Prezidentin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları daxildir.

Respublikada bu sahə üzrə əsas icra orqanı olan Ekologiya və Təbi Sərvətlər Nazirliyi fəaliyyət göstərir. Bundan əlavə, bir sıra digər nazirliklər, məsələn, Kənd Təsərrüfatı və Səhiyə nazirlikləri, Elmlər Akademiyasının və digər qurumların, ali məktəblərin, elmi cəmiyyətlərin elmi kollektivləri və bir sıra digər dövlət orqanlarıda bu sahə ilə özlərinin üzərinə düşən vəzifələri həll edirlər. Bu işlə həm də çox sayda ictimai birliklər, özəl şirkətlər də fəaliyyət göstərirlər. Təbiidir ki, bu sahə üzrə çalışan bütün növlərə, qruplara aid kollektivlər, qurumlar həm özləri sənədlər yaradır (məsələn

Prezident Adminstrasiyanın müvafiq şöbəsi. Milli Məclisin əlaqədar komissiyası, nazirlik və baş idarələr, elmi-tədqiqat institutları, digər qurumlar) çox saylı sənədlər yaradırlar. Onlar nəinki özləri bu mövzuda sənədlər yaradır, həm də ölkədə, eləcə də digər qurumlar, fərdlər tərəfindən yaradılan sənədlərdən istifadə edirlər. Bununla da bu sahə üzrə Sənəd-kommunikasiyalar sistemi yaranaraq inkişaf edir. Həm də ölkəmizdə bu məzmunlu sənədlərin yaradılması və istifadəsi zamanı həm də xarici təcrübəyə, beynəlxalq qurumların, digər ölkələrin rəsmi sənədlərinə, elmi, tədris, praktik, soraq nəşrlərinə intensiv şəkildə müraciət edilir. Nəzərə alsaq ki, ətraf mühitin qorunması problemi hələ Sovet dövründə aktual olmuş və müstəqillik illərində bu sahəyə diqqət xeyli artmışdır, bu sahə üzrə Sənəd-kommunikasiyalar sistemində gedən proseslərin necə intensiv olduğunu, sənəd kütləsinin hansı sürətlə artdığını, sənəd axınının necə intensiv olduğunu təsəvvür etmək mükündür. Cəmiyyətin ilkin sənəd və biblioqrafik informasiya ilə təminatda müstəsna mövqeyi, ölkənin ən ucqar rayonlarından başlyaraq iri şəhərlərində mövcud olması, vətəndaşlara müyəssr olması və digər amillər nəzrə alınarsa, heç şübhəsiz ki, bəhs etdiyimiz sahə üzrə Sənəd-kommunikasiyalar sisteminin əsas təsisatı məhz kitabxanalardır. Həqiqətən də, bəhs etdiyimiz sahə üzrə yaranan sənədlərin demək olar ki, hamısı sənəd axını vasitəsi ilə kitabxanalarda toplanır, bununla sənəd kütləsi yaranır və inkişaf edir. Kitabxanalar isə öz ictimai funksiyalarına müvafiq olaraq təkcə kütləni-fondu formalaşmaqla kifayətlənmir, bu fondu strukturlaşdırır, onun tərkibini biblioqrafik metodlarla porensial tələbatçılar qarşısında açır, bu qiymətli sərvətin mükün qədər səmərəli şəkildə ictimai istifadəsini təşkil edir. Məhz bu zaman



biblioqrafik fəaliyyətə ehtiyac meydana gəlir. Kitabxana fondunun biblioqrafik modeli olan kataloq və kartoteka sistemi yaradır, sənəd kütləsini və axınını müxtəlif aspektlərdən əks etdirən ən müxtəlif biblioqrafik vəsaitlər, arayışlar, icmallar, siyahılar tərtib edirlər.

Yuxarıda haqqında bəhs etdiyimiz monitorinqin nəticələri göstərir ki, hal-hazırda Azərbaycanda ən müxtəlif tipli, miqyaslı, idarə mənsubiyyətli 8507 kitabxanada 111 milyon nüsxədən artıq sənəd olmuşdur [56,s.3]. Əgər yuxarıdakı fikirləri, Azərbaycan üçün ətraf mühitin qorunması probleminin necə kəskin əhəmiyyət kəsb etdiyini nəzərə alsaq bu kitabxanaların fəaliyyətində (o cümlədən, biblioqrafik istiqamətdə) bəhs etdiyimiz sahənin necə əhəmiyyət kəsb etdiyi şübhəsizdir.

Apardığımız tədqiqatlar nəticəsində respublikanın bir sıra aparıcı kitabxanalarında bəhs edilən sahə üzrə formalaşmış sənəd kütləsi, onların fondlarına daxilı olan sənəd axınının xüsusiyyəti, ümumi kütlə və axınının tərkibində bəhs edilmiş mövzu üzrə sənədlərin (o cümlədən, elektron sənədlərin) xüsusi çəkisi müəyyənləşdirilmiş, bu sahədə aparılan biblioqrafik fəaliyyətin (o cümlədən, elektron formada), biblioqrafik təminatın müxtəlif istiqamətləri təhlil edilmişdir. Tədqiqat zamanı aparılan araşdırmalar belə bir fikirə gəlməyə əsas verir ki, Azərbaycanda ətraf mühitin mühafizəsi və ekologiya elmi sahəsində kitabxana-biblioqrafik təminat mövcud ictimai informasiya tələbatını müəyyən qədər ödəyə bilir. Lakin bu vəziyyət kitabxanaçıları, biblioqrafları arxayın etməməli, bu sahədə işin yaxşılaşdırılması üzrə mövcud ehiyat imkanları nəzərə alınmalı, qabaqcıl dünya təcrübəsi öyrənilməli və tətbiq edilməlidir.

Bizim fikrimizcə, Azərbaycanda ətraf mühitin mühafizəsi və ekologiya elmi sahəsində kitabxana-biblioqrafik təminatın yaxşılaşdırılması istiqamətində bir sıra məqamlar nəzərə alınmalıdır. Bunlara aşağıdakılar aid edilə bilər.

1.Tədqiqat zamanı biz ətraf mühitin mühafizəsi və ekologiya elmi sahəsində sənəd kütləsi və axının tərkibini təhlil etmişik. Bu zaman aşkar etmişik ki, bu sahə üzrə ayrı-ayrı nəşr tiplərinə aid olan nəşrlərin çeşidi kifayət qədər geniş deyildir. Xüsusən də rəsmi, soraq və tədris nəşrlərinin çeşidi bu sahədə tələbatı ödəyəcək qədər zəngin deyildir. Deməli, bəhs etdiyimiz sahə üzrə göstərilən nəşr tiplərinə aid ədəbiyyatın daha geniş çeşiddə nəşr edilməsinə və yayılmasına ehtiyac vardır.

2.Bəhs etdiyimiz sahənin ölkəmiz üçün böyük əhəmiyyət kəsb etməsinə, ölkədə bu sahə üzrə nazirliyin mövcudluğuna baxmayaraq ölkəmizdə hələ də ixtisaslaşdırılmış elmi, istehsalat xarakterli dövri nəşr buraxılmır və sənəd axının tərkibində belə nəşrin yerinin boş olduğu görünür.

3.Bəhs etdiyimiz sahənin ölkəmiz üçün böyük əhəmiyyət kəsb etməsinə, ölkədə bu sahə üzrə nazirliyin mövcudluğuna baxmayaraq hələ də bu sahədə sənəd-informasiya tələbatının xüsusiyyətləri barədə ətraflı məlumat verəcək respublika səviyyəli monitorinq, geniş araşdırma aparılmamışdır. Bizim apardığımız tədqiqatın ancaq bir aspekti bu məsələni əhatə edirdi və bir fəlsəfi doktoru dissertasiyasının çərçivəsi həmin problemin dərindən respublika miqyasına tədqiqi üçün yetərli deyil. Belə tədqiqatın aparılması həmin problem barədə ətraflı məlumat əldə etməyə və bu işin yaxşılaşdırmaq istiqamətdə tövsiyələr hazırlamağa imkan verərdi.



4.Bizim mövzuya əlaqədar digər problem sahə üzrə infomasiya tələbatının ödənilməsi üçün mövcud sənəd kütləsindən daha səmərəli istifadə edilməsi, bu kütlənin tələbatçılar qarşısında biblioqrafik vəsaitlərlə daha aşkar şəkildə təbliği məsələsidir. Respublikada indiyədək bu istiqamətdə yaradılmış yeganə vəsait 2009-cu ildə M.F. Axundov adına Milli Kitabxana tərəfindən tərtib və nəşr edilmiş "Azərbaycan ekologiyası – 10 ildə" mövzu biblioqrafik göstəricisi cəmi 10 il ərzində (1997-2008-ci illərdə) nəşr edilmiş kitabları əks etdirir və əvvəlki tarixi dövr retrospektiv biblioqrafik baxımdan əks edilməmişdir. Bundan əlavə, respublikanın əksər nəşriyyatlarının məcburi nüsxə haqqında qanunun tələblərinə lazımınca diqqət yetirilmədiyindən bu vəsaitin həmin dövrdə Azərbaycanda nəşr edilən kitabların hamısını əks etdirməsi sual altındadır. Daha sonra, bu vəsait ancaq Milli Kitabxananın fondunda olan kitabları əks etdirir. Eləcə də, vəsait ancaq bir nəşr növünü-kitabları əks etdirir. Beləliklə, təəssüf ki, indiyə qədər respublika kitabxanalarının heç biri bəhs etdiyimiz sahə üzrə böyük həcmli yekunlaşdırıcı xarakterli retrospektiv biblioqrafik vəsait hazırlanmamışdır. Belə vəsait mümkün qədər geniş xronoloji əhatəli olub bütün nəşr növlərini, təkcə kitabları deyil, eləcə də rəsmi sənədləri, normativ nəşrləri, dövri və ardı davam edən nəşrlərdəki məqalələri əks etdirərsə, təkcə bir kitabxananın fondunu deyil, tərkibində öyrəndiyimiz sahə üzrə əhəmiyyətli həcmdə sənəd kütləsinin formalaşdığı digər kitabxanaların fondunu da əhatə edərsə, ölkədə bu sahə üzrə mövcud olan biblioqrafik tələbatı daha səmərəli şəkildə ödəyə bilər.

5.Biz hesab edirik ki, öyrəndiyimiz sahə üzrə biblioqrafik vəsaitlər sisteminin təkmilləşdirilməsi təkcə vətən

ədəbiyyatını əks etdirən biblioqrafik vəsaitlərin hazırlanması və nəşri ilə məhdudlaşmamalıdır. Belə vəsaitlərlə yanaşı, həm də kitabxanalarımızda formalaşmış sənəd kütləsinin tərkibində olan xaricdə nəşr edilmiş sənədlərdən ibarət olan, sahə üzrə sənəd kütləsinin formalaşdığı əsas kitabxanaların fondunu əhatə edən kütlənin də tərkibi açılmalı, onalrı özündə əks etdirən xüsusi vəsait yaradılmalıdır.

6.Sahə üzrə cari bilioqrafik təminatın vəziyyəti də xeyli sual doğurur. Hal-hazırda respublikada bu sahədə yeganə cari biblioqrafik vəsait Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası tərəfindən 2010-cu ildən başlayaraq hazırlanaraq rüblük olaraq yalnız internet vasitəsi ilə əlyetər olan "Ekologiya" adlı informasiya bülletenidir. Bu vəsaitin əhəmiyyətini təsdiq etməklə yanaşı, qeyd etməliyik ki, bu vəsait də yalnız bu kitabxana çərçivəsində sənədlər (axını) və yalnız dövri nəşrlərdə dərc edilmiş materialları əks etdirir. Bu məhdudlaşdırıcı əlamətlər isə onun biblioqrafik dəyərini xeyli aşağı salır. Biz hesab edirik ki, həmin vəsait ancaq kitabları, ancaq bir kitabxananın fondunu əks əks etdirməklə kifayətlənməsə, onun biblioqrafik dəyəri xeyli yüksələ bilər.

7.Bəhs etdiyimiz problemin digər bir istiqaməti öyrəndiyimiz sahə üzrə elektron biblioqrafik resursların təkmilləşdirilməsi problemidir.

Fəaliyyətini tədqiq etdiyimiz kitabxanalardan yalnız bir kitabxana (Prezident Kitabxanası) istisna omaqla hələ heç biri öz fondunda olan kitabları elektron kataloqda əks olunması məsləsini həll edib qurtarmamışdır. AMEA-nın Mərkəzi Elmi Kitabxanasının, Respublika Elmi tibbi Kitabxanasının və bir sıra kitabxanaların elektron kataloqları hələ də internet vasitəsi əlyetər deyildir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət



İnformasiya-Arxiv Fondunun Elmi-texniki Kitabxanası və Orhus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzi və onun sənəd fondunun isə kataloqu elektron kataloq formasında deyil. Sadəcə Word formatında yığılmış sadə siyahıdan ibarətdir. Deməli, bəhs etdiyimiz sahə üzrə tələbatçıların informasiya tələbatının elektron kataloqlar vasitəsi ilə əks edilməsinin məqbul vəziyyətə, dünyanın əksər ölkələrində mövcud olan vəziyyətə çatdırılması üçün mütləq kitabxanalarda olan kitab fondunun elektron kataloqlarda əks edilməsi məsələsi başa çatmalıdır.

8.Sonuncu məsələnin məntiqi davamı kitabxanaların fonduna daxil olan dövri və ardı davam edən nəşrlərdə dərc edilmiş ən əhəmiyyətli materialların elektron kartotekada əks edilməsidir. Bildiyimiz kimi, müasir tələbatçılar, alim və mütəxəssislər öz fəaliyyət və tədqiqatlarında çox tez-tez dövri və ardı davam edən nəşrlərdə dərc edilmiş ən əhəmiyyətli materiallara müraciət edirlər və bu axtarış zamanı elektron kataloqa (daha dəqiq desək, elektron kartotekaya) müracitə edirlər. Biz bu sahədə də xeyli geriliyin olduğunu görürük. Bu sahədə qaənaətbəxş nəticəyə nail olmuş yeganə kitabxana yenə də Prezident Kitabxanasıdır və on ilə yaxındır ki, Kitabxanada bu istiqamətdə iş aparılır. Milli Kitabxanada həmin istiqamətdə işlər bir qədər gec başlanmışdır və dövri nəşrlərdə dərc edilən materiallar üzrə axtarış aparan zaman nədənsə kitabların təsviri də bu növ sənədlərin biblioqrafik yazılarına qarışır. Təəssüf ki, tədqiqatımızda haqqında bəhs etdiyimiz digər kitabxanalardan heç biri bu sahədə bir iş aparmır. Beləliklə, respublikanın digər kitabxanalarının da bu istiqamətdə iş aparması və mövcud fəaliyyətin keyfiyyətinin artırılması vacibdir.

9.Ölkəmizdə öyrəndiyimiz sahə üzrə biblioqrafik təminatın yaxşılaşdırılması üzrə qeyd edilməsini zəruri heab etdiyimiz sonuncu məsələ bu sahə üzrə kitabxanaların əlaqələndirmə şəklində fəaliyyət göstərməsi zərurətidir. Dünyanın əksər ölkələrində artıq elektron kataloqların yaradılması və aparılması işi ölkənin kitabxanaları tərəfindən əlaqələndirilmiş şəkildə aparılır. Azərbaycanda bu sahədə yeganə təcrübə Mədəniyyət və Turizm Nazirliyinin Rusiya Federasiyasının EBNİT Assosiasiyasının yardımı ilə yaratdığı AzLİBNET toplu elektron kataloqudur. Lakin təəssüf ki, burada ardı davam edən və dövri nəşrlərdə dərc edilən materiallar öz əksini tapmır və üstəlik respublikanın bir çox aparıcı kitabxanaları hələ də bu toplu kataloqa üzv deyillər. Ən yaxın zamanda respublikamızda bəhs etdiyimiz sahə üzrə biblioqrafik təminatda toplu elektron kataloqun geniş miqyasda tətbiq edilməsi məsləsin həll edilməsi bu sahənin biblioqrafik təminatının yaxşılaşdırılmasına xeyli yardım edə bilər.



## NƏTİCƏ

Aparılan araşdırmaların nəticələri barədə yekun olaraq aşağıdakıları söyləmək mümkündir. Ətraf mühit-orqanizmlərin böyümə şəraiti, maddələr mübadiləsi və energetikası, onların ətraf aləmlə birliyidir. Ətraf mühitin canlı orqanizmlərin yaşadığı fəzada, məkanda yerinə görə bir sıra əsas növləri vardır. İnsanın ətraf mühitdən düzgün istifadə etməsi, özünün və planetin digər sakinlərinin həyatına qorunması üçün ekologiya elminin böyük əhəmiyyəti vardır. Ekologiya – canlı orqanizmlər arasında və onların olduğu mühitlə qarşılıqlı əlaqəsi haqqında sintetik bioloji təlim və ya elmdir. Ekologiyanın əsas predmeti daxilində enerji və üzvi maddələrin transformasiya prosesi gedən və bir-birilə qarşılıqlı əlaqədə olan canlı orqanizmlərin məcmusunu öyrənməkdir. Beləliklə, ekologiyanın əsas vəzifəsi ekosistemdə enerji və materiyanın qarşılıqlı təsirini öyrənməkdir. Bu elmin diferensasiyası nəticəsində onun ümumi ekologiya, akvatik ekologiya, bitki ekologiyası, təkamül ekologiyası, insan ekologiyasə və bir çox digər sahələri yaranmışdır.

Həm sovet dövründə, həm də müstəqillik illərində ölkədə ətraf mühitin qorunması istiqamətdə işə, bu sahə üzrə ekoloji tədqiqatlara diqqət yetirilmişdir. Həm Ümummilli lider H.Əliyevin, həm də hazırkı prezident İ. Əliyevin dövründə Azərbaycan dövləti bu məsələyə qayğısını əsirgəməmiş, bu sahə üzrə qanunvericilik sistemi yaradılmış, Prezidentin fərman və sərəncamları verilmiş, bu sahə üzrə dövlət proqramları qəbul edilmiş, "Ekologiya ili" adlı davamlı tədbirlər kompleksi keçirilmiş, idarəetmə və nəzarət sistemi təkmilləşdirilmişdir.

Tədqiqat çəçivəsində tərəfimizdən bəhs edilən sahənin aparıcı müəssisələrinin kontingentinin peşə vəzifə və digər parametrləri öyrənilmiş və ilk dəfə olaraq bu sahə üzrə anket sorğusu keçirilmiş. 330 mütəxəssisinə xüsusi tərtib edilmiş anket sorğusu paylanmışdır. Paylanmış 330 sorğu blankından cəmi 70-i geri qaytarılmışdır. Onlardan 7 blank düzgün cavablandırılmadığına, sualların əksərinə cavab verilmədiyinə görə etibarsız sayılaraq ləğv edilmişdir. Cavablandırılmış blanklar tərəfimizdən tədqiq edilərək ümimiləşdirilmiş və bu nəticələr öz əksini xüsusi cədvəl və diaqramlarda tapmışdır. Ən başlıcası, məlum olmuşdur ki, tələbatçıların əksəriyyəti-80%-dən çoxu informasiya axtarışı üçün kitabxanalara (ilk növbədə elmi) gedir, biblioqrafik vasitələrdən-göstəricilərdən, kataloq və kartoteka sistemindən istifadə edir. Tələbatçılar təkcə ekologiyanın ayrı-sahələri, həm də təbiət elmlərinə dair informasiya tələbatlarının intensivliyi ilə seçilir. Məlum olmuşdur ki, respondentlər ənənəvi mənbələrlə yanaşı, həm də on layn informasiya resurslarına tez-tez müraciət edirlər. Əldə edilmiş nəticələr sahənin informasiya tələbatçılarının sənəd-informasiya və biblioqrafik təminatının təkmilləşdirilməsi üçün böyük əhəmiyyətə malikdir.

Ekologiya və ətraf mühitin mühafizəsi üzrə mütəxəsislərin informasiya tələbatının öyrənilməsinin nəticəsi olaraq aşağıdakıları söyləmək mümkündür. Bəhs etdiyimiz sahə üzrə sənəd-informasiya tələbatının öyrənilməsi üçün sənədlərin iki mövcudluq halı olan sənəd kütləsi və sənəd axınına diqqət yetirilməlidir. Azərbaycan kitabxanalarında toplanmış sənəd kütləsi barədə detallı məlumat mənbəyi kimi, statistik materiallardan, kitabxana hesabatlarından, dövlət uçot-qeyd



biblioqrafik mənbələrdən və retrospektiv vəsaitlərdən istifadə edilə bilər.

Təhlil edilən faktlar, respublikamızın respublikanın 9 aparıcı kitabxanasının fondları içərisində bizi maraqlandıran tematikaya dair sənədlərin miqdarı və faizi barədə apardığımız təhlilin nəticələri Cədvəl 17-də ətraflı şəkildə nəzərdən keçirilmişdir. Məlum olmuşdur ki, bizi maraqlandıran tematikaya dair sənədlərin ən yüksək konsentrasiyası Orhus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzinin sənəd fonduna məxsusdur. Onun tərkibində bizim tədqiq etdiyimiz sahə üzrə kitabların ad üzrə miqdarı 227, nüsxə üzrə miqdarı 314-dir. Bu fond bizim tədqiq etdiyimiz kitabxananın ümumi fondunda ətraf mühit və ekologiya üzrə kütlənin, onun aparıcı hissəsi olan kitabların xüsusi çəkisinin ən yüksək göstəricilərinə malikdir ki, bu da faiz baxımdan müvafiq olaraq 46% və 31,4% təşkil edir. Növbəti yerdə Ekologiya və Təbii Sərvətlər Nazirliyində Arxiv İnformasiya Fondunun Elmi-texniki kitabxananın fondu durur. Burada bəhs etdiyimiz sahə üzrə kitabların xüsusi çəkisi gözləninən qədər də yöksək deyildir və 2,4% təşkil edir.

Yuxarıda göstərilən faktlar, respublikamızın aparıcı kitabxanalarının fondunun təhlili bunu deməyə əsas verir ki, ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə sənəd axınının artan rəqəmləri nəzərdən keçirilən bir fonddan başqa bütün kitabxanalara xasdir. Belə ki, Orhus Proqramı üzrə çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzidə son 2 il ərzində kitabların miqdarı 43 nüsxə azalmışdır ki, bu da 2 il ərzində -9,2%, ildə isə -4,6 azalma deməkdir.

Digər kitabxanalarda daxil olan sənəd axını bəzilərində bir qədər az, digərlərində nisbətən çox olmaqla mövcuddur.

Məsələn, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində yaradılmış Elmii kitabxananın fondunda bu axın illik sənəd axınə ad üzrə kütlənin 0,2%-ni , nüsxə üzrə isə 0,15%-ni təşkil edir. Dövri nəşrlərin nüsxə üzrə axını isə müvafiq kütlənin 0.07%-ni təşkil etmişdir.

M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasınəın fonduna yönələn sənəd axının nəticəsində 25 il ərzində ətraf mühitin mühafizəsi və ekologiya üzrə Azərbaycan dilində kitablar 49 addan 430 ada qədər, rus dilində kitablar 610 addan 1.650 ada qədər çoxalmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasənən fonduna daxil olan sənəd axını 1,5-1,2% arasında dəyişir. Akademik Həsən Əliyev adına Coprafiya İnstitutunun kitabxanasının fondunda sənəd axını təqribən 1,2% göstəricisinə malikdir. Azərbaycan Respublika Elmi Tibb Kitabxanasının fondunda 2011-ci ilə müqaisədə 2012-ci ildə Kitabxananın fonduna daxil olan sənəd axınının ayrı-ayrı tərkib hissələri 0.35%-dən 2,46%-ə qədər artım nümayiş etdirmişdir. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının fondunda isə son illər ərzində Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının fonduna daxil olan sənəd axını orta hesabla 0.28% artım nümayiş etdirir ki, bu da fondun daima yeniləndiyini sübut edir. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının fondunda son 13 il ərzində Kitabxananın fonduna daxil olan sənəd axının tərkibində ekologiya mövzulu kitabların daxil olmasının ən yüksək faiz dərəcəsi 2005-ci ilə-1,15, daha sonra 2008-ci ilə-1,13%, ən aşağı pay isə 2003-cu ilə-0,51% və 2010-cı ilə-0.50%- aiddir.

Beləliklə, bizim tədqiq etdiyimiz kitabxanaların böyük əksəriyyətində həm bütün fond, həm də onun tərkib hissəsi olan



təbiətin mühafizəsi fəaliyyəti və ekeologiya elmi üzrə kitab kolleksiyalarına daxil olan sənəd axını stabil müsbət parametrlərə malikdir. Bu isə belə bir fikir söyləməyə əsas verir ki, ölkəmizin kitabxanaları ətraf mühitin mühafizəsi və ekeologiya üzrə tələbatçıların yeni ədəbiyyatlə təminatı məsələsinin öhtəsindən qismən də olsa gələ bilir.

Tədqiqat nəticəsində belə qənaətə gəlmək mümkündür ki. Azərbaycan kitabxanalarında ətraf mühitin mühafizəsi və ekologiya üzrə biblioqrafik informasiya təminatının bu sahənin özünün uğurlu funksiya göstərməsi üçün müstəna əhəmiyyəti vardır. Bunun üçün kitabxanalarda həyata keçirilməsi mümkün olan bütün biblioqrafik fəaliyyətin səkkiz istiqamətinin imkanlarından istifadə edilməlidir. Bu hissədə Azərbaycanın bu sahə üzrə ən əsas kitabxanalarının təcrübəsi ümumiləşdirilmişdir. Müəyyənləşdirilmişdir ki, bu sahə üzrə sənəd kütləsi və axını baxımdan ikinci fəsildə fəaliyyəti təhlil edilmiş bütün kitabxanalarda biblioqrafik təminatın bir çox istiqamətləri həyata keçirilməkdədir. Həmin kitabxanaların əksər hissəsi bəhs etdiyimiz sahə üzrə soraq-biblioqrafiya aparatını (SBA) təşkil edir, soraq biblioqrafiya xidməti, tövsiyə-biblioqrafiya fəaliyyəti həyata keçiririrlər. Bəhs etdiyimiz sahə üzrə müxtəlif məqsəd və oxucu istiqamətli biblioqrafik vəsaitlərin tərtibinə gəldikdə biz yalnız M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının və nisbətən kiçik miqyasada Azərbaycan Respublika Elmi Tibb Kitabxanasının adını çəkə bilərik. Sahə üzrə biblioqrafik informasiya xidməti ancaq M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında həyata keçirilir. Bu

sahə üzrə ixtisaslaşdırılmış şəkildə biblioqrafik biliklərin təbliği və biblioqrafik elmi-tədqiqat işi isə heç bir fakt aşkar edilməmişdir. Qeyd etmək lazımdır ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət İnformasiya-Arxiv Fondunun Elmi-Texniki Kitabxanası və Orhus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzi bu sahə üzrə dar ixtisaslaşdırılmış qurumlar olsa da onlar biblioqrafik təminat sahəsində öz öotensillarından xeyli az istifadə edirlər. Bu sahədə biblioqrafik təminatın intensivləşdirilməsində Azərbaycan Milli Elmlər Akademiyasının çox sayda elmi işçiləri Bakı Dövlət Universitetinin professor-müəllim heyətinin və təhsil alanların belə bir təminata böyük etiyacı olduğunu nəzərə alınmalı və onların elmi kitabxalarında sənəd kütləsi zənginləşdirilməli, ənənəvi biblioqrafik təminat işi canlandırılmalıdır.

Respublikada bu sahə üzrə biblioqrafik təminatda 2009-cu ildə M.F. Axundov adına Milli Kitabxana tərəfindən tərtib və nəşr edilmiş "Azərbaycan ekologiyası – 10 ildə" mövzu elmi-köməkçi retrospektiv biblioqrafik göstərici, "Ekologiya və kitabxanaların qarşıslnda duran vəzifələr" adlı metodik tövsiyə vəsaiti, fonda daxil olan yeni ədəbiyyatı əks etdirən "Yeni kitablar", Respublika Dövlət Kitab Palatasının uçot-qeyd biblioqrafik vəsaitinin varisi olan "Birillik Azərbaycan kitabiyyatı" göstəriciləri, Respublika Elmi Tibb Kitabxanasının "Ekologiya, ətraf mühit və sağlamlıq" mövzusunda biblioqrafik göstəricisi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının hazırladığı "Ekologiya" adlı informasiya bülleteninın əhəmiyyəti qeyd edilməlidir.



Respublikada bu sahə üzrə elektron formada biblioqrafik təminatda da ilk mövqelərdə kitabxanaın fondunda olan bütün kitabları artıq elektron kartotekada əks etdirmiş, fonduna daxil olan dövri nəşrlərdəki ən əhəmiyyətli materialları elektron kartotekda əks etdirmiş Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının, xeyli zəngin elektron biblioqrafik resurslara, buu sahədə böyük potensial imkanlara malik M.F. Axundov adına Milli Kitabxananın fəaliyyəti qeyd edilməlidir. Haqqında bəhs ertdiyimiz digər kitabxanalar bu sahədə fəaliyyətilərin həcminin artırılması və keyfiyyətinin yüksəldilməsi istiqamətində xeyli iş görə bilərlər.

Əlavə

**"Ekologiya və ətraf mühitin mühafizəsi sahəsi üzrə mütəxəssislərin sənəd-informasiya tələbatı və onun ödənilməsi istiqamətləri" mövzusunda 2015-ci ilin yanvar-mart aylarında keçirilmiş anket sorğusunun sualları**

**1.Siz kitabxananın üzvüsünüzmü?**

1).Bəli 2.)Xeyir

1.1..Əgər üzvüsünüzsə, hansının(hansıların)?

**2. Siz kitabxanada biblioqrafların xidmətindən istifadə** edirsinizmi?

1) Bəli 2 )Xeyr

**4. Əgər istifadə edrsinizsə, həmin xidmətin səviyyəsi Sizi qane edirmi?**

1.) Bəli 2. )Xeyr.

**5. Ən çox hansı dillərdə olan mənbələrdən isfifadə edirsiniz?**

1 ) Azərbaycan 2) Rus 3) İngilis 4) Fransız 5) Türk

6)Digər dillərdə (göstərin)

**6. Bilavasitə ixtisasınızdandan əlavə, digər sahələrə dair məlumata ehtiyacınız olurmu?**

1.) Bəli 2.) Xeyr

**7. Əgər olursa hansı sahələrə dair?**

**8. Sizi maraqlandıran bilik sahəsinə dair infornasiyanı əldə etmək üçün daha çox haraya müraciət edirsiniz?**

1) Kitabxanaya 2 ) Elmi informasiya şöbəsinə

3 ) İş yoldaşlarına (həmkarlara)

4 ) Digər yerə ( mümkünsə, göstərin)

**9. Hansı dövriliklə müraciət edirsiniz?**

1). Həftədə bir necə 2 )Həftədə bir dəfə

3) Ayda bir necə dəfə 4 ) Ayda bir dəfə

5) Digər qaydada (mümkünsə, göstərin ).



**10. Oxuduğunuz kitab və məqalələrdəki, ədəbiyyat siyahılarından sonrakı axtarışlar üçün istifadə edirsinizmi?**

1 ) Bəli 2). Xeyr

**11. Ədəbiyyat axtarışı üçün həmkarlarınızın (iş yoldaşlarınızın tövsiyyələrindən faydalanirsınızmı?**

1) Bəli 2) Xeyr

**12. İstifadə etdiyiniz kitabxanada (elmi-informasiya bölməsində) biblioqraflara (informatorlarla ) sorğu ildə müraciət edirsinizmı?**

1) Bəli 2) Xeyr

**13. Əgər müraciət edirsinizsə, onların verdiyi arayışlar (cavablar) Sizi qane edirmi?**

1) Bəli 2) Xeyr

**14. Ədəbiyyat axtarışı üçün biblioqrafik vasitələrə, o cümlədən göstəricilərə və biblioqrafik siyahılara müraciət edirsinizmi?**

1 ) Bəli 2 )Xeyr

**15. Əgər müraciət edirsinizsə, hansı intensivliklə?**

1 ) Hər gün 2) Hər həftə 3 ) Ayda bir dəfə

4 ) Digər qaydada (mümkünsə göstərin)

**16. Sizə (şöbənizə) kitabxanadan və ya informasiya bölməsindən yeni ədəbiyyat bülletenləri və ya informasiya bülletenləri göndərilirmi?**

1) Bəli 2) Xeyr

**17. Həmin bülletenlərin hansı müsbət və ya mənfi xüsusiyyətlərini qeyd edə bilərsinizmi?**

**18. Sizə informasiyanın Seçilib Yayılması (rusca-İRİ- İzbiratelnoe Rasprosrtanenie İnformatsii) üsulu ilə xidmət edirlərmi?**

1) Bəli 2) Xeyr

**19. Əgər xidmət edirlərsə, bu xidmətin hansı müsbət (və ya mənfi) cəhətlərini qeyd edə bilərsinizmi?**

**20. Ən çox hansı elm və fəaliyyət sahələrinə dair sənədlərdən istifadə edirsiniz?**

a)

b)

c)

d)

**21. Ardıcıl şəkildə dövri çıxan informasiya nəsrlisinə və ya biblioqrafiq dövri nəşrlərə müraciət edirsinizmi?**

1) Bəli 2) Xeyr

**22. Əgər müraciət edirsinizsə, hansılara?**

**23. Kitabxananın kataloq və kartotekalarına müraciət evdarsınızmı?**

1) Bəli 2) Xeyr

**24. Əgər müraciət edirsinizsə, ən çox hansı növünə?**

**25. Sizi maraqlandıran sahəyə dair biblioqrafik göstəricilərdən müntəzəm istifadə edirsinizmi?**

1) Bəli 2) Xeyr

**26. Əgər istifadə edirsinizsə, hansılardan?**

**27.Sizi maraqlandıran mövzuda kitabın fondda olub-olmadığını müstəqil şəkildə, biblioqrafın köməyi olmadan müəyyən edə bilirsinizmi?**

1) Bəli 2) Xeyr

**28. Əgər müəyyən edə bilirsinizsə, hansı yolla?**

(mümkünsə, şərh edir)

**29. Biblioqraf və ya informatora sorğu ilə müraciət edirsinizmi?**

1) Bəli 2) Xeyr

**30. Hər hansı faktı, rəqəmi familiyanı, formulu tez tapmaq**



**üçün ən çox haraya müraciət edirsiniz?**

1) Məlumat kitabına 2) Monoqrafiyaya 3) Jurnal məqalələrinə 4) Ensiklopediyaya 5) Kolleqalara 6) Digər mənbələrə (mümkünsə, göstərin)

**31. Aşağıdakı informasiya mənbələrindən daha çox hansıdan istifadə edirsiniz?**

1) Referativ jurnal 2) Siqnal informasiyası 3) İcmal informasiya (obzornaya informasiya ) 4)Ekcpres–informasiya 5) Heç birindən

6) Digər növündən (mümkünsə göstərin)

**32. Sizin jurnallara ehtiyacınız olurmu?**

1) İxtisasınıza dair (hansılara) 2) Ehtiyac olmur 3) Digər sahələrə dair (hansılara)

**33. Əgər ehtiyacınız olursa, sizi daha çox hansı dövri nəşrlərdən (jurnallardan) istifadə edirsiniz?**

a) b)

c) d)

1) Cari ildə 2) Keçən ildə 3) Son ildə

4) Digər dövrdə (mümkünsə, göstərin)

**34. Sizin kitablara ehtiyacınız olurmu?**

1) Ehtiyac olmur 2) Olur. İxtisasa dair 3) Olur. Digər sahələrə dair (hansılara)

**35. Əgər ehtiyacınız olursa, Sizin daha çox hansı dövrdə nəşr olunmuş kitablar maraqlandırır?**

1) Cari ildə 2) Keçən ildə 3) Son üç ildə

4) Digər dövrdə (mümkünsə, göstərin)

**36, Siz bilirsinizmi ki, kitabxanada (elmi-informasiya şöbəsində) Sizi maraqlandıran mövzuda yazılı arayış (ədəbiyyat siyahısı) sifariş verə bilərsiniz?**

1)Bəli 2) Xeyr

**37. Əgər bilirsinizsə, indiyə kimi belə imkandan istifadə etmisinizmi?**
1) Bəli 2) Xeyr
**38. Məqaləyə (kitaba) ədəbiyyat siyahısı tərtib etmək, istinad vermək üçün xüsusi qaydaların (biblioqrafik təsvirə dair standartın) mövcudluğundan xəbərdarsınızmı?**
1) Bəli 2) Xeyr
**39. Əgər xəbərdarsınızsa, həmin standartın tələbələrini gözləyirsinizmi?**
1) Bəli 2) Xeyr
**40. Siz informasiya ehtiyaclarınızı ödəmək üçün İnternet sistemindən istifadə edirsinizmi?**
1) Bəli 2) Xeyr
**41. Əgər istifadə edirsinizsə, İnternet vasitəsi ilə kitab, məqalə və s. dair informasiya (yəni biblioqrafik informasiya) əldə edirsinizmi?**
1) Bəli 2) Xeyr
**42. Ən çox hansı saytlara müraciət edirsiniz?**

**Özünüz haqqında məlumatlar:**
1.Təhsiliniz.........................................................................
2. İxtisasınız.........................................................................
3.Elmi dərəcəniz.................................................................
4.İş yeriniz (müəssisə, şöbə)............................................
5. Vəzifəniz
6. Tədqiq etdiyiniz sahə............................................................
7. Yaşınız...................................................................................
8.Özünüz haqqında digər məlumatlar.........................
**Qeyd olunması lazım bildiyiniz anket sorğunuzun mövzusuna dair qeyd və təklifləriniz.**



## İstifadə olunmuş ədəbiyyatın biblioqrafik siyahısı

1. Azərbaycan biblioqrafiyasının biblioqrafiyası/ Tərt. edən N. İ. İsmayılov. —B.: Mütərcim, 2003. —112 s.
2. Azərbaycan Respublikasinda ekoloji cəhətdən dayaniqli sosial-iqtisadi inkişafa dair milli proqram// Xalq qəzeti. —2003. —18 fevral.-— S.2-4.
3. Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Azərbaycan SSR Dövlət Təbiəti Mühafizə Komitəsi// Kommunist. —1980. — 1 fevral. — S.1.
4. Azərbaycan Prezidenti İlham Əliyev 2006-cı ilin iyul ayının 3-də ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması məsələlərinə həsr olunmuş respublika müşavirəsindəki nitqi //Xalq qəzeti. — 2006. — 3 iyul. — S.1-3.
5. Azərbaycan Prezidenti İlham Əliyevin 2010-cu il feralın 18-də ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması məsələlərinə həsr olunmuş respublika müşavirədəki nitqi //Xalq qəzeti. — 2010. —18 fevtal. — S.4. S.2-4.
6. Azərbaycan Respublikası Dövlət Təbiəti Mühafizə Komitəsinin Azərbaycan Respublikası Dövlət Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinə çevrilməsi haqqında Azrbaycan Respub-likası Prezidentinin fərmanı "// Kommunist. —1992. — 7 sentyabr. — S.2.
7. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması haqqında Azrbaycan Respublikası Prezidentinin fərmanı "// Azərbaycan. —2001. —23 may. — S.2.
8. Azərbaycan Respublikasinda bioloji müxtəlifliyin qorunmasi və davamli istifadəsinə dair milli strategiya və fəaliyyət plani // Xalq qəzeti. — 2006. — 23 mart. — S.2-4.

9. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının vəzifələri //Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri, metodik və təcrübi jurnal. — 2008. — №2. — S. 7- 30.
10. Azərbaycan Respublikasinda meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram // Xalq qəzeti. — 2003. — 18 fevral. — S.4.
11. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə// Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi: normativ-hüquqi aktlar toplusu.2 cilddə. l cild. — B.:Qanun, 2006. —760 s.
12. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Azərbaycan Respublikası Dövlət hidrometeorologiya Komitəsi yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı "// Kommunist. — 1992. — 21 yanvar.
13. Azərbaycan Respublikasinin Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi //Xalq qəzeti. —2013. — 20 oktyabr. — № 231. — S.1-3.
14. Azərbaycan SSR-in Qırmızı kitabı [Mətn] : nadir və nəsli kəsilmək təhlükəsi olan heyvan və bitki növləri /AzSSR Dövlət Təbiəti Mühafizə Komitəsi ; AzSSR EA ; red. hey. Ç. M. Adıgözəlov, U. K. Ələkbərov, M. A. Musayev [və b.] ; tərt. H. S. Abbasov, Q. F. Axundov, X. Q. Quliyev [və b.] XXX). —Bakı: İşıq, 1989. —543 s.
15. Ekologiya [Mətn]: ali məktəblər üçün dərslik / F. Əliyev, A.Bədəlov, E.Hüseynov, F.Əliyev; elmi red. B.Budaqov (rəyçi): red. M.Babayev, N.Məmmədov, F.Mustafayev; elmi məsləhətçilər Ə. Əsgərov [və b.]. —B.: Elm, 2012. —827 s.
16. Əhmədov M. Müasir tipli kitabxana informasiya cəmiyyətinin atributudur // Azərbaycan. —2006. — 20 avqust. —№186. — S.3.



17.Əhmədova E. Respublika Elmi Tibb Kitabxanasında ədəbiyyatın təsnifləşdidrlməsi və kataloqların təşkili// Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və təcrübi jurnal. — 1998. — №1. — S. 93-96.
18. Əliyev İ.Z. Ekologiya üzrə biblioqrafiyanın bəzi nəzərə məsələləri// Elmi əsərlər/AMEA Mərkəzi Elmi Kitabxanası. — 2013. — №13. — S.114-119.
19. Əliyev Z. H. Azərbaycan biblioqrafiyasının tarixi :dərs vəsaiti. — B.: Bakı Universiteti nəşriyyatı, 2007. — 190 s.
20. Əliyev Z.H. Biblioqrafik informasiya sənəd informasiya tələbatının ödənilməsində mühüm vasitədir // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi -nəzəri və təcrübi jurnal. — 2004. — №1. — S.82-92.
21. Əliyev Z.H. Biblioqrafik informasiya və onun elmi mahiyyəti // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. — 1998. — №1. — S.17-25.
22. Əliyev Z.H. Müasir dövrdə Azərbaycanda elmi- tədqiqat işçilərinin və mütəxəssislərin biblioqrafik təminatının əsas istiqamətləri // Sosializmin təkmilləşməsi illərində Azərbaycanda elmi işçilərə kitabxana-biblioqrafiya xidməti(Elmi əsərlərin mövzu məcmuəsi). — B.: ADU, 1985. — S.49-55.
23. Əliyev Z.H.Azərbaycan cəmiyyətinin informasiya tələbatçilari və onlarin biblioqrafik İnformasiya təminatinin əsas amilləri//Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və təcrübi jurnal. —2006. — №1,. — S.55-66.
24. Əliyeva A. Kitabxanaın fəaliyyətində biblioqrafik vəsaitlərin rolu //Tarix və onun problemləri. — 2008. — №4. — S.339-344.
25. Əliyeva A. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının biblioqrafik fəaliyyəti (1970-2000-ci illər):

pedaqogika üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. — Bakı. 2008. — 162 s.

26. Əliyeva G.M.F.Axundov adina Azərbaycan Milli Kitabxanasinin cari biblioqrafik fəaliyyəti//Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. — 2012. — №2. — S.37-39.

27. Əliyeva İ. Ekologiya üzrə informasiya tələbatı həmin sahənin sənəd-kommunikasiyalar sisteminin əsas tərkib hissəsi kimi. Kilis //Ekoloji 2012 Sempozyumu, Türkiyə. 03-05 Mayıs, 2012.Kilis. 7 Aralik Universitesi Fen Edebiyat Fakültesi Biyoloji Bölümü Sempozyum Bildiri Özetləri. Türkiyə. — Kilis, 2012. — . S.465-466.

28. Əliyeva İ.Z. Ekologiya üzrə informasiya tələbatı həmin sahənin sənəd-kommunikasiyalar sisteminin əsas tərkib hissəsi kimi //Kitabxanaçılıq-informasiya fakültəsinin yaranmasının 56 illiyinə həsr olunmuş "Kitabxana-informasiya və nəşriyyat fəaliyyətinin müasir problemləri" adlı gənc tədqiqatçıların Respublika elmi konfransının tezisləri.18 may 2012-ci il. — Bakı. 2012. — S.33-35.

29. Əliyeva İ.Z. Milli biblioqrafiyanın inkişafının bəzi məsələləri və Azərbaycan kitabına dair milli biblioqrafik vəsaitlərdə ekologiyaya dair informasiyanın əks olunması xüsusiyyətləri // Kitabxana-informasiya fəaliyyəti və fənlərarası inteqrasiya mövzusunda beynəlxalq elmi konfransın materialları. — Bakı. 2016. — S.130-134.

30. Əliyeva İ. Z. Azərbaycanda ekologiya üzrə biblioqrafik verilənlər bazasının yaradılması sahəsində kitabxnaların təcrübəsi//Kitabxanaçılıq və infomasiya:elmi-nəzəri və təcrübi jurnal. —2013. —№2.(33).. —S.132-142.

31. Əliyeva İ.Z. Kitabxanalarda ekoloji ədəbiyyatın mövcud vəziyyəti//Azərbaycan təbabətinin müasir naliyyətləri. — № 4. —Bakı. 2015. — 257 s.



32. Əliyeva İ.Z. Ekologiya və ətraf mühitin mühafizəsi üzrə cari biblioqrafik vəsaitlər sisteminin bəzi xüsusiyyətləri// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. —2014. — №2 (35) — S.56-61.

33. Əliyeva İ.Z. Ekoloji ədəbiyyatın mövcud vəziyyəti //Pedaqoji İniversitet xəbərləri:Təbiət elmləri seriyası.. — 2013. — № 4. — S.98-101.

34. Əliyeva İ.Z. Milli biblioqrafiyanın inkişafının bəzi məsələləri və Azərbaycan kitabına dair milli biblioqrafik vəsaitlərdə ekologiyaya dair informasiyanın əks olunması xüsusiyyətləri // Bakı Qızlar Universitetinin elmi əsərləri. 2014, №4 (20), S.69-79).

35. Əliyeva-Kəngərli A.İ. Azərbaycan milli elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası-80 // Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının elmi əsərləri. — 2003. — S. 1-24.

36. Əliyeva-Kəngərli A.İ. Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar. — Bakı: Elm, 2007. — 394 s.

37. Əliyeva-Kəngərli A.İ. Müstəqillik dövründə Mərkəzi Elmi Kitabxananin fondlarinin formalaşması:İnkişafi və təkmilləşdirilməsi tendensiyalari (tədqiqat materialları əsasında) Azərbaycan MEA-nın Mərkəzi Elmi Kitabxanası Kitabxanaşünaslıq və informasiya. — 2010. — № 1. — S. 32-40.

38. Hacıyeva V. Müstəqillik illərində Respublika Elmi Tibb Kitabxanasında oxuculara kitabxana-informasiya xidmətinin təşkili// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri və təcrübi jurnal. — 2008. — №2. — S.127-131.

39. Xələfov A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin inkişaf istiqamətləri: mülahizələr, təkliflər və proqramlar. — Bakı, 2006. —106 s.

40. Xələfov A.A. İnformasiya cəmiyyəti və kitabxana işi // Bakı Universiteti xəbərləri: Humanitar elmlər ser. — 2004. — №3. — S.316-327.
41. Xələfov A.A. İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların vəzifələri // Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri, metodik və təcrübi jurnal. —2005. — №2. — S.5-17.
42. Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri //Respublika. — 2002. — 17 aprel. — S.4.
43. Xələfov A.A. Kitab öz "ünvan"ına çatdıqda oxunur: Yaxud müasir dövrdə kitabxana nəşriyyat münasibətlərinin bəzi xüsusiyyətləri // Azərbaycan. — 2002. — 7 iyul.
44. Xələfov A.A. Müasir dövrdə Azərbaycanda elmi-tədqiqat işçilərinin və mütəxəssislərin biblioqrafik təminatının əsas istiqamətləri // Sosializmin təkmilləşməsi illərində Azərbaycanda elmi işçilərə kitabxana-biblioqrafiya xidməti(Elmi əsərlərin mövzu məcmuəsi). —B.: ADU, 1985. —S.49-55.
45. Xələfov A.A. Bakı Dövlət Universitetinin Elmi Kitabxanası 90 il elm və təhsilin xidmətində. Monoqrafiya. —Bakı: Bakı Universiteti nəşriyyatı. 2009. — 210 s.
46. Xələfov A.A. Ölkəmizdə ilk fundamental elektron kitabxana //Xalq qəzeti. — 2006. — 18 fevral. — № 36. — S.6.
47. Xəlilov R., Əliyev L. Azərbaycan ekologiyası və şəxsiyyət amili // «Dirçəliş XXI əsr».— 2004. — №74-75. — 256 c.
48. İbrahimova S.H. Baki Dövlət Universiteti Elmi kitabxanasının informasiyalaşdirilmasi və informasiya mədəniyyətinin formalaşdirilmasi tendensiyasinin əsas istiqamətləri // Kitabxanaşünasliq və informasiya:elmi-nəzəri və praktiki jurnal. — 2010. — № 2. — S. 47-53.
49.İsmayılov X.İ. Azərbaycan Respublikasında kitabxana

işinin metodik təminat sisteminin inkişaf tarixi (1918- 2000): Monoqrafiya. —Bakı, 2000. — 440 s.
50. İsmayılov X.İ. Kitabxana menecmentinin əsasları: dərs vəsaiti. —Bakı, 2005. — 199 s.
51. İsmayılov X.İ. Ismayılov.N.İ. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təminatı// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: ali məktəblərarası elmi məqalələr məcmuəsi. —Bur.7. —Bakı: Mütərcim, 2007. —S.318-320.
52. İsmayılov X.İ. İsmayılov.N.İ. Bayramova.İ.Z. Azərbaycan Respublikasının regionlarının kitabxana- informasiya resurslarının inkişafının bəzi məsələləri (Gəncə- Qazax iqtisadi rayonunun nümunəsində) // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri, metodik və təcrübi jurnal. —2009. — № 1. — S.99-112.
53. İsmayılov N.İ Azərbaycan SSR-də tibb işçilərinin peşə tələbatının öyrənilməsi əsasında təbabət üzrə məhəlli sənəd axınının təhlili // Sənəd axını və elmin müxtəlif sahələrinin biblioqrafik biblioqrafik təminatı problemləri (Elmi əsərlərin mövzu məcmuəsi). B.: ADU, 1986, S.61-66.
54. İsmayılov N.İ. Kitabxana işçisi nəyi bilməlidir? Azərbaycanda sahəvi kitabxana ehtiyatlarının inkişaf meylləri // Bakı Universiteti Xəbərləri: Humanitar elmlər seriyası. —2004. — №2. — S.260-268.
55. 2012/2013-cü tədris ili üçün Azərbaycanın ali məktəblərindəki ixtisasların siyahısı // "Abiturient" jurnalı. —2012. —№.2. — S.4-18.
56. "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə statistik bülleten /Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. —B., 2009. — 88 s.
57. Məmmədov Q., Xəlilov M. Ekologiya, Ətraf mühit və

insan:dərslik. — B.: Elm, 2006. — 608 s.
58. Məmmədov Q.Ş. Xəlilov M.Y. Ekologiya və ətraf mühitin mühafizəsi. —Bakı. "Elm" nəşriyyatı. 2005. — 880 s.
59. Məmmədov M.Ə., Yusifova C.N. Müstəqillik illərində BDU-nun Elmi Kitabxanasının beynəlxalq əlaqələri // Kitabxanaşünasliq və informasiya:eli-nəzəri və praktiki jurnal. — 2010. — № 1. — S 73-83.
60. Muradov Ş.M. İnsan potensialı: Əsas meyllər, reallıqlar. problemlər. — Bakı: Elm. 2004. — 660 s..
61. Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda Prezident İlham Əliyevin yekun nitqi//"Xalq qəzeti". —2014. — 9 oktyabr. — № 218. — S.1-3.
62. Pirverdiyeva R., Pirəliyevə Y. Azərbaycan Dövlət Respublika Elmi Tibb Kitabxanasında oxucularla işin spesifik xüsusiyyətləri// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. —2006. — N 2. — S. 111-115.
63. Prezident Heydər Əliyev Avropa Parlamentinin nümayəndələrini qəbul etmişdir// Xalq qəzeti. —2001. — 28 may. — S.2.
64. Rüstəmov Ə., Mustafayeva N. Elektron kommunikasiya mühitində biblioqrafiyanin b əzi məsələləri// Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri. metodik və təcrübi jurnal. — 2008. — №1. —S.47-61.
65. SSRİ Geologiya Nazirliyi "Azərbaycangeologiya" Azərbaycan Geoloji Kəşfiyyat İşləri İstehsal Birliyinin Azərbaycan Respublikası Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsinə çevrilməsi haqqında Azrbaycan Respublikası Prezidentinin fərmanı "// Kommunist. — 1991. — 5 avqust. — S.1.
66. Tahirov K. M. Dünya milli kitabxanaları: M.F.



Axundzadə adına Azərbaycan Milli Kitabxanası [Mətn]: dərs vəsaiti K.M.Tahirov; elmi red. A.Xələfov; rəyçi. K.Aslan, P.Kazımi; Azərb. Resp. Təhsil Nazirliyi. — B.: Bakı Universiteti, 2013. — 211 s.
67. Tahirov K.M. M.F. Axundov adina Azərbaycan Milli Kitabxanası müstəqillik illərində //Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və təcrübi jurnal. — 2010. — № 1. — S. 14-31.

### Hesabatlar

68. Ekologiya və Təbii Ehtiyatlar Nazirliyinin Dövlət İnformasiya-Arxiv Fondunun Elmi-Texniki Kitabxanasının 2012-ci il üçün hesabatı.
69. M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının 2007-2008-ci illər üçün hesabatı.
70. M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının 2009-cu il üçün hesabatı.
71. M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının 2010-cu il üçün hesabatı.
72. M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının 2011-2012-ci illər üçün hesabatı.
73. M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının 2014-2015-ci illər üçün hesabatı.
74. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının 2010-cu il üçün hesabatı.
75. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının 2011-ci il üçün hesabatı.
76. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının 2012-ci il üçün hesabatı
77. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının 2013-cü il üçün hesabatı

78. Respublika Elmi Tibb Kitabxanasının 2010-cu il üçün hesabatı. .-s.8
79. Respublika Elmi Tibb Kitabxanasının 2011-ci il üçün hesabatı. —S. 8.
80. Respublika Elmi Tibb Kitabxanasının 2012-ci il üçün hesabatı. — S. 4.
81. Respublika Elmi Tibb Kitabxanasının 2013-cü il üçün hesabatı. — S.6.
82. Respublika Elmi Tibb Kitabxanasının 2014-cü il üçün hesabatı. —S. 8.
83. Orhus İctimai Ekoloji İnformasiya Mərkəzinin 2012- ci və 2014-cü illər üçün hesabatı.

**Rus dilində**

84. Алиева И.З. Библиографическая информация по экологии в системе библиографических средств Президентской библиотеки Управления делами Президента Азербайджанской Республики// Гілея: науковий віснк.Збірник наукових праць. —К.: ВІР УАН. — 2013. — Випуск 79. — №12. — с. 173-175
85. Алиева И. Особенности формирования экологической библиографии в Азербайджане в годы независимости//Вектор науки ТГУ. —Серия: Педагогика, психология. — 2013. — № 4. — С.14-17.
86. Алиева И.З. О научно-исследовательских аспектах библиографической информационной системы по экологии//Мирнауки, культуры, образования. — 2013. — №4(41). —С.305-307.
87. Алиева И.З.Некоторые вопросы деятельность Азербайджанской Национальной Библиотеки им. М. Ф.



Ахундова области экологической библиографии годы независимости. Сборник материалов V Международной научно-практической конференции 10-12 июля 2014 года.
—Махачкала, 2014. — С.225-228.
88. Арский Ю.М., Потапов И.И., Карцева Е.В.О работе секции "информационное обеспечение экологических исследований" научного совета по проблемам экологии и чрезвычайным ситуациям ран в 2008 г//Проблемы окружающей среды и природных ресурсов.
—2009. — № 8. — С. 28-38.
89. Ахметшина Т.Д. Информационное обеспечение ученых и специалистов янц со ран в области природоохранной деятельности и экологии//Вестник национальной библиотеки Республики Саха (Якутия).
—2012. — № 1. — С. 83-85.
90. Барахнин В.Б., Федотов А.М. Исследование информационных потребностей научного сообщества для построения информационной модели описания его деятельности//Вестник Новосибирского государственного университета. Серия: Информационные технологии. — 2008. — Т. 6. — № 3. — С. 48-59.
91. Березкина Н.Ю., Авгуль Л.А., Невский Б.Б., академии Е.Е Информационное обеспечение проблем экологии в центральной научной библиотеке НАН Беларуси// Информационные ресурсы России. — 2005. — № 1. — С. 11.
92. Библиографическая работа в библиотеке: организация и методика: Учеб. для библ. фак. ин-тов

культуры и пед. вузов / О. П. Коршунов, Д. Я. Коготков, Э.К. Беспалова и др.]; Под ред. О. П. Коршунова. — М. : Из-во Кн. палаты , 1990. — 254 с.

93. Библиография естественнонаучгой литературы: учебник/ под ред.М.П. Гастфера и Г.К. Быстровой. М.: Книга, 1983. 287 с.

94. Библиография естественнооаучной литературы: Учебник/ Под ре. М.П. Гастфера, Г.К. Быстровой. — М.: Книга, 1989. — 288 с.

95. Бондарик Г.К., Иерусалимская Е.Н., Ярг Л.А. Научные основы информационного обеспечения управления состоянием окружающей среды на региональном уровне// Инженерная геология. —2011. — № 3. —С.12-18.

96. Бурова И.В. Педагогические условия формирования информационно-образовательных потребностей студентов вуза//Вестник Челябинского государственного педагогического университета. —2013.
—№ 1. — С. 28-36.

97. Вальдман И.А., Косарецкий С.Г., Мерцалова Т.А. Рекомендации, направленные на повышение качества публичных докладов// Муниципальное образование: инновации и эксперимент. — 2009. — № 5. — С. 43-51.

98. Выпханова Г.В. Информационное содержание эколого-правовых мер и экологического управления// Административное и муниципальное право. —2009. — № 10. — С. 18-28.

99. Выпханова Г.В. К вопросу об информационном



обеспечении природопользования и охраны окружающей среды: концептуальные и правовые аспекты// Экологическое право. — 2006. — № 5. — С. 36-41.

100. Гаптраванова Л.И. Информационное пространство профессионализации библиотекаря: коммуникационный и коммуникативный аспекты //Современные проблемы науки и образования. — 2015. — № 1. — С. 1054.

101.Геннадиник В.Б. Информационное обеспечение управления охраной окружающей среды регионального уровня: диссертация на соискание ученой степени кандидата технических наук. —Тюмень, 2004.

102. Гиляревский Р.С. Научные коммуникации и проблема информационной потребности / Р.С. Гиляревский, В. А Маркусова., А.И. Черный // НТИ. — Сер. 1. — 1993. — N 9. — С. 1-7.;

103. Горький М.Мать [Текст]; По Союзу Советов : [Повести и очерки] / Максим Горький ; [Послесл. Л. Емельянова]. —Ленинград: Лениздат, 1975. — 368 с.

104. ГОСТ 7.0-77. Система стандартов по информации, библиотечному и издательскому делу. Библиографическая деятельность. Основные термины и определения. — М., 1978. — 13 с.

105. Дербаль Мохамед. Исследование информационного обеспечения систем управления защиты окружающей среды: диссертация на соискание ученой степени кандидата технических наук. — Санкт-Петербург, 2003.

106. Дженюк С.Л. Методология информационного обеспечения мониторинга окружающей среды: диссертация на соискание ученой степени доктора

географических наук. —Мурманск, 2002.

107. Дрешер Ю.Н. Мониторинг информационных потребностей специалистов по обеспечению комфортной среды// Труды Санкт-Петербургского государственного университета культуры и искусств. — 2008. — Т. 183. — С.155-163.

108. Дрешер, Ю.Н. Изучение информационных потребностей информационного поведения специалистов в структуре деятельности пообеспечению комфортной информационной среды / Ю.Н. Дрешер, Т.А.Атланова // Научные и технические библиотеки. —2005. — № 11. — С. 5-14.

109. Дусь, Ю. Опыт изучения информационной культуры / Ю. Дусь, А. Садчикова // Высшее образование в России. —2004. — № 2. — С.175-176.

110. Евдокимов В.И. Информацинно-библиграфическое обеспечение научных работ по экологии человека//Экология человека. — 2005. — №11. —С.53-57.

111. Егорова. Надежда Алексеевна. Информационная и просветительская деятельность библиотек в области экологии: диссертации на соиск.канд. пед. наук.—М.,2010. — 290 с.

112. Ершова Т.В. Создание информационных обществ, отвечающих потребностям человека декларация гражданских обществ. принятая на всемирной встрече на высшем уровне по вопросам информационного общества (8 декабря 2003 года)//Информационное общество. — 2005. — № 6. — С. 12-25.

113. Загидуллина М.В. Теоретическая модель информационных потребност//Челябинский гуманитарий. —2011. — Т. 4. — № 17. — С. 35-37.



114. Зарайская В.П. Роль библиотек в обеспечении населения информацией по проблема экологии и устойчивого развития общества // Библиотековедение. — 2006. — №5. — С. 44-57.

115. Зубов, Александр Александрович. Становление и первоначальное расселение рода "Homo" [Текст] / А. А. Зубов. —Санкт-Петербург : Алетейя, 2011. — 222 с.

116. Исмаилов Н. И. Библиотечно-библиографические и информационные ресурсы Азербайджанской Республики: Состояние и пути совершенствования. — Б.: Мутарджим, 2003. — 134 с.

117. Каминецкая И.В. Ролевой подход к изучению информационных потребностей ученых руководителей научных коллективов (на примере академических институтов)//Теория и практика общественно-научной информации. — 2004. — № 19. — С. 13-21.

118. Карташов Н.С. Информационные потребности и библиотечные ресурсы // Бибтиотеки СССР. —1972. — Вып. 54. — С. 88-96.

119. Карташов Н.С. Факторный анализ потребностей специалистов в библиотечных ресурсах // Науч. б-ки Сибири и Дальнего Востока. — 1972. — Вып. 12. — С. 5-59.

120. Келюх А.А. Подготовка специалистов по предоставлению информационных, консультативно-логистических услуг в эко-агропроизводстве//Економічні студії. — 2014. — № 4 (04), —С. 132-135.

121. Коготков С.Д. Некоторые вопросы теории информационных потребностей // НТИ. — Сер.1. — 1979. —

№ 2. — С. 1-8.

122. Коготков С.Д. Некоторые теоретические проблемы разработки психологической модели поведения читателей // Тез. докл. и сообщ. конф. по итогам науч.- инф. работы Гос. б-ки СССР им. В.И.Ленина за 1982 г., 19-20 апр.. 1983 г. —М., 1983. — С. 44-46.

123. Коготков С.Д. Профессиональные информационные потребности и их роль в библиотечно-библиографической деятельности: Автореф. дис. . канд. пед. наук / Моск. гос. ин-т культуры. —М., 1979. — 16 с.

124 .Коготков, С.Д. Формирование информационных потребностей / С.Д. Коготков // НТИ. —Сер. 2. —1986. — № 2. — С. 1-7.

125 .Котов Э.М., Целых А.Н. Описание информационной потребности для информационно-поисковой системы// Известия ЮФУ. Технические науки. —2007. —№ 5 (77). — С. 105-108.

126. Кочукова Е.В., Павлова О.В. Информационные потребности ученых и специалистов РАН в области наук о земле, общенаучном направлении и отечественный книжный рынок// Библиосфера. —2009. — № 1. — С. 80-84.

127. Крейденко, В.С. Библиотечные исследования. Научные основы: учеб. пособие / В.С. Крейденко. —М.: Книга. 1983. — 144 с.

128. Кугель. О.М. Зусьман, В.А. Минхиц // НТИ. —Сер.8: Организация и методика информ. работы.. —1995. — № 7. — С. 12-17.

129. Лаврик О.Л., Рыкова В.В. Возможности электронной библиотеки гпнтб со ран для обеспечения исследований в области природопользования и устойчивого развития// Интерэкспо. Гео-Сибирь. — 2013. — Т. 4. — № 2. — С. 95-100.



130. Лаврик О.Л., Шевченко Л.Б. Информационный поток по экологии: проблемы доступа и использования для информационного обеспечения научных исследований// Научные и технические библиотеки. —2006. — № 3. —С. 7.

131. Лучанская В. В. Информационно- библиографическое обеспечение экологической информацией для решения проблем устойчивого развития региона// Материалы IX Международной Конференция "Крым 2002".—М., 2002. — С.231-233.

132. Мазов Н.А., Гуреев В.Н. Изучение информационных потребностей ученых с использованием библиометрического анализа для оптимизации комплектования //Библиосфера. — 2012. — № 4. — С. 57-66.

133. Макеев А.О. Обеспечение сетевого доступа и информационного обмена с применением www-технологии к информационным системам и базам данных в области агропочвоведения и экологии//Отчет о НИР № 96-07-89228 (Российский фонд фундаментальных исследований)

134. Научная библиотека университета и информационные потребности ученых//Вестник Рязанского государственного агротехнологического университета им. П.А. Костычева. — 2012. — № 3 (15). — С. 72.

135. Надпорожская Е.В. и др. Опыт конвертировния базы данных электрон¬ного каталога из АС-Обл. Библиотека в систему автоматизаций библиотек ИРБИС // Науч. и тех. б-ки. —2002. — №2. — 22-26.

136. Общая биогеосистемная экология [Текст] / И.В.Стебаев, Ж.Ф.Пивоварова, Б.С.Смоляков, С.В.Недель-кина; Отв.ред.С.Н.Родин. — Новосибирск : ВО"Наука", 1993. —288 с.

137. Оганова О.А., Сорокина Г.И. Информационные потребности пользователей ЦНБ УРО РАН// Библио-сфера. —2008. — № 3. — С. 43-48.

138. Осипова, И.П. Библиотечное обслуживание: тенденции и проблемы: (1990-е годы)// Библиотекове-дение. —1997. —№2. —С. 18-31.

139. Полищук М.А. Информационные потребности пользователей библиотеки (по результатам социологичес-кого исследования) // Вестник Удмуртского университета. —2014. — № 3-1. — С. 54-60.

140. Потапов И.И., Карцева Е.В. Информационное обеспечение проблем экологии, охраны окружающей среды и чрезвычайных ситуаций//Проблемы окружающей среды и природных ресурсов. — 2012. — № 7. — С. 55-61.

141 .Сальников И.И. Движущие силы развития средств удовлетворения информационных потребностей человека //XXI век: итоги прошлого и проблемы настоящего плюс. —2014. — № 3 (19). — С. 11-15.

142 .Сальников И.И. Основные этапы развития информационных потребностей человека//Современные наукоемкие технологии. —2010. — № 10, —С. 186-188.

143 .Соколов А.В. Что есть информационная потреб-ность?// Труды Санкт-Петербургского государственного университета культуры и искусств. — 2013. —Т. 197, — С. 7-18.

144 .Соколов, А.В. Коммуникационные потребности:


учеб. пособие для бакалавров образования / А.В. Соколов; науч. ред. И.И. Горлова. — Краснодар, 1996. —162 с.

145. Ступкин В.В. Информационные потребности и качество интегрированных библиотечно-информацион-ных систем// Теория и практика общественно-научной информации. — 2011. — № 20. — С. 86-91.

146 .Ступкин В.В. Проблемы информационных потребностей пользователей интегрированных систем библиотечно-информационного обеспечения научно-образовательной деятельности//Вестник Московского государственного университета культуры и искусств. —2008. — № 2. — С. 143-147.

147 .Турков С.Л. Информационное обеспечение геоэкологических исследований //Региональная экология. — 2006. — № 1-2,. — С. 15-20.

148 .Федотова Д.Н. Динамика информационно-библиографических потребностей специалистов на различных стадиях цикла «Наука-производство»//Науч. и техн. б-ки СССР. —. 1981. —,№ 10, —С. 9-13.

149. Хомподоева М.В. Проблемы информационного обеспечения физической культуры и спорта (на примере республики Саха (Якутия)) //Вестник спортивной науки. — 2007. — № 2. — С. 58-60.

150. Человек и природа: экологическая история: [сборник].-Санкт-Петербург : Европейский университет в Санкт-Петербурге, 2008, 348 с.

151.Шаронова Н.В., Козуля М.М., Святкин Я.В. Информационное обеспечение определение комплексной оценки экологической качества систем окружающей

среды //Проблеми інформаційних технологій. — 2014. — № 2 (14). — С. 109-113.

152. Шевченко Л.Б., Лаврик О.Л., Калюжная Т.А. Информационные ресурсы по экологии и охране окружающей среды//Экология. Серия аналитических обзоров мировой литературы. —2007. — № 86. — С. 1-273.

153. Экология и экономика природопользозовагния: учебник/ Под ред. проф. Э.В.Гирусова. — М.: Юнитидана. 2007. —591с.

**İnternet resursları**

154. http://azdretk.ucoz.net/

155. Azərbaycanda QHT-lərin sayı 3600-ü, mətbuat orqanlarının sayı 4500-ü ötdü http://modern.az/articles/21851/1/

156. http://anl.az

157. http://eco.gov.az/az/157-kitabxana

158. http://eco.gov.az/az/158-orxus-ictimai-ekoloji-informasiya-merkezi

159. http://geography.bsu.edu.az/.

160. http://ecosoil.bsu.edu.az

161. http://modern.az/articles/21851/1/

162. http://www.acep.az/index_az.shtml.

163. http://www.azecolab.com/

164. http://www.eco.gov.az/Orhus.php

165. http://www.menr.gov.ua/.

166. http://www.minpriroda.gov.by

167. http://www.mnr.gov.ru

168. http://www.worldometers.info/books/

169. Mərdanov M. 2009-2010-cu dərs ilinin yekunlari və 2010-2011-ci dərs ilində qarşida duran vəzifələr: Təhsil



işçilərinin Respublika konfransinda təhsil naziri M.Mərdanovun çıxışı. - Bakı, 4 sentyabr 2010-cu il. Slayd 249 //www.edu.az).Slayd 249 //www.edu.az

170. www. science.az.

171. www.eco.gov.az/qanunlar/qerarlar/nk/22.do

172. List of environmental journals//https://en.wikipedia.org / wiki/ List_of_environmental_journals.

173. Нестеренок Н. В. Информационное обеспечение устойчивого развития и экологизации промышленного производства: опыт РНТБ //http://rlst.org.by/izdania/ib-1-2011/1054.html).

174. http://lib.bsu.edu.az /

175. http://www.lib.uchicago.edu/e/net/types.html